Azərbaycan Respublikasının Prezidenti
yanında Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Şurası

AHİM
AZƏRBAYCAN HÜQUQ İSLAHATLARI MƏRKƏZİ
AZERBAIJAN LAW REFORM CENTRE

giz Deutsche Gesellschaft für Internationale Zusammenarbeit (GIZ) GmbH



# HAKİMLƏRİN DAVRANIŞI ÜZRƏ BANQALOR PRİNSİPLƏRİNİN

# KOMMENTARİYASI

http://www.lawreform.az

# “HAKİMLƏRİN DAVRANIŞI ÜZRƏ BANQALOR PRİNSİPLƏRİ”NİN KOMMENTARİYASI

Azərbaycan Hüquq İslahatları Mərkəzi fəaliyyətinin əsas məqsədini ölkəmizdə aparılan mütərəqqi məhkəmə-hüquq islahatlarının ölkədə və xaricdə təbliği, bu sahədə əldə edilmiş təcrübənin mübadiləsi, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı məhkəmələrin fəaliyyətinə, vətəndaşların hüquq və azadlıqlarının həyata keçirilməsi və genişləndirilməsi istiqamətində onların məhkəmələrə və digər orqanlara müraciət imkanlarının asanlaşdırılmasına dəstəyin verilməsi, regionlarda hüquqi maarifləndirmə işinin genişləndirilməsi, aidiyyəti hüquqşünasların, həmçinin gənc hüquqşünasların qüvvəsinin bu işlərin daha da səmərələşdirilməsinə yönəldilməsi, onların fəaliyyətlərinin əlaqələndirilməsi, qanunçuluq və hüquq qaydalarının möhkəmləndirilməsinə yönələn proqramlar və layihələrin hazırlanması və həyata keçirilməsində görür.

2011-ci ilin yanvar ayından fəaliyyət göstərən Mərkəz haqqında əlavə məlumat əldə etmək üçün www.lawreform.az internet səhifəsinə daxil ola bilərsiniz.

---

**Tərcümənin müəllifi:** "Azərbaycan Hüquq İslahatları Mərkəzi" İctimai Birliyi ©

Geniş hüquq ictimaiyyətinə təqdim olunan kitabın – "Hakimlərin davranışı üzrə Banqalor prinsiplərinin Kommentariyası" BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi tərəfindən hazırlanmışdır. Qeyd olunan vəsait hakimlərin etik davranış qaydalarını normativləşdirməklə onların vəkillərlə, digər hüquqşünaslarla münasibətlərini, habelə hakimlərin gündəlik həyatlarında riayət etməli olduqları davranış prinsiplərinin şərhini nəzərdə tutur.

04-05.04.2011-ci il tarixlərdə Gürcüstanın Tiflis şəhərində "*Müstəqillik, Obyektivlik, Səmərəlilik, Şəffaflıq, Səlahiyyətlilik – Cənubi Qafqazda məhkəmə islahatının müasir çağırışları*" mövzusunda keçirilən beynəlxalq konfransın yekunu olaraq tədbir iştirakçıları "*Hakimlərin davranışı üzrə Banqalor prinsipləri*"nin məhkəmə hakimiyyəti sisteminin təkmilləşdirilməsinin ayrılmaz hissəsi olmalı olduğunu "Konfransın Yekun Tövsiyələri"ndə qeyd etmişlər.

Kitab Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə nəşr olunub.

Tərcümədən, başqa nəşrlərdə istifadəyə "Azərbaycan Hüquq İslahatları Mərkəzi" İctimai Birliyinin yazılı icazəsi ilə yol verilir. Kitaba istinad mütləqdir.

**Layihənin adı:** "Hakimlərin davranışı üzrə Banqalor prinsiplərinin Kommentariyası"nın nəşri

**Layihənin icra qrupu:** Vəkillər Kollegiyasının üzvü, Hakimlərin Seçki Komitəsinin üzvü, "Azərbaycan Hüquq İslahatları Mərkəzi" İctimai Birliyinin sədri, *h.e.f.d.* Anar Bağırov
Cavid Alıyev
Fərhad Nəcəfov
Elnur Əliyev
Sergey Torqaşev

**Ünvan:** Bakı şəhəri, Füzuli küçəsi 49,
SKS Plaza, 7-ci mərtəbə
**Tel/Faks:** +994 12 4922883
**e-mail:** info@lawrewform.az
**veb-səhifə:** http://www.lawreform.az/

# MÜNDƏRİCAT

Ön söz............................................................................................................4

BMT-nin İqtisadi və Sosial Şurasının (ECOSOC) 2006/23 saylı Qətnaməsi.…5

BMT-nin İqtisadi və Sosial Şurasının (ECOSOC) 2007/22 saylı Qətnaməsi….8

Hakimlərin davranışı üzrə Banqalor prinsipləri.…………………………..…….11

Hakimlərin davranışı üzrə Banqalor prinsiplərinin Şərhi...……………...……17

Hakimlərin davranışı üzrə Banqalor prinsiplərinin səmərəli tətbiqi üzrə tədbirlər……………………………………………………………………...130

# ÖN SÖZ

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə sistemində aparılan köklü islahatlar ölkəmizin məhkəmə fəaliyyətinin beynəlxalq norma və prinsiplərə uyğun daha da təkmilləşdirilməsinə səbəb olmuşdur.

Bu islahatlar çərçivəsində təkcə son illər ərzində yeni regional apellyasiya, ağır cinayətlər, inzibati-iqtisadi və digər məhkəmələrin yaradılması, hakim ştatlarının sayının 2 dəfə artırılması, hakim korpusunun ən şəffaf və obyektiv prosedurlarla formalaşdırılması üçün yeni qaydaların tətbiq olunması, bu prosedurlarla seçilmiş 235 nəfər yüksək hazırlıqlı hüquqşünasın vakant hakim vəzifələrinə təyin edilməsi ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında mühüm rol oynamışdır.

Sözsüz ki, məhkəmə fəaliyyətinin təkmilləşdirilməsində hakimlərin etik davranış məsələləri mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə Məhkəmə-Hüquq Şurası tərəfindən 22 iyun 2007-ci il tarixdə Hakimlərin Etik Davranış Kodeksi qəbul edilmişdir.

Hakimlik fəaliyyətinin etik prinsiplərinin və standartlarının toplusu olan Kodeks hakimlər üçün spesifik əxlaq və ədəb tələblərini, onların peşə etikası məsələlərini, iş fəaliyyətindən kənar davranışını nizamlayır, peşə fəaliyyətinə münasibətini müəyyən edir. Məhkəmə-Hüquq Şurası tərəfindən etik davranış məsələləri üzrə tədris və treninqlərin təşkil edilməsi məsələsinə mühüm diqqət yetirilərək bu barədə mövzular hakimlərin və hakimliyə namizədlərin tədris kurslarının proqramlarına daxil edilir, nüfuzlu beynəlxalq ekspertlərin bu mövzular üzrə mühazirələri dinlənilir.

Bütün hüquq sistemlərində insanların məhkəmə hakimiyyətinin qərəzsizliyinə, müstəqilliyinə olan inamının əsasında hakimin fərdi və peşə etikasının durduğu danılmazdır. Bu baxımdan Birləşmiş Millətlər Təşkilatının himayəsi altında yaradılmış 80-dən çox dövlətin yüksək məhkəmə hakimlərindən ibarət işçi qrupun 2001-ci ildə Hindistanın Banqalor şəhərində keçirilmiş geniş toplantısında qəbul edilmiş "Hakimlərin davranışı üzrə Banqalor Prinsipləri" mühüm əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, BMT-nin İqtisadi və Sosial Şurasının 2006 və 2007-ci illərdə qəbul edilmiş "Hakimlərin davranışının əsas prinsiplərinin möhkəmləndirilməsi haqqında" iki qətnaməsində bu prinsiplər Məhkəmə hakimiyyətinin müstəqilliyinə dair BMT-nin əsas prinsiplərinə əvəzsiz töhfə kimi tanınmış və onların üzv dövlətlər tərəfindən nəzərə alınması və tətbiq olunması tövsiyə edilmişdir. 2007-ci ildə onun geniş şərhi işlənilib hazırlanmışdır.

"Azərbaycan Hüquq İslahatları Mərkəzi" İctimai Birliyinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirdiyi layihə çərçivəsində "Hakimlərin davranışı üzrə Banqalor Prinsiplərinin Kommentariyası"nın Azərbaycan dilinə tərcümə edilərək nəşr olunması təşəbbüsünü vətəndaş cəmiyyəti institutlarının məhkəmə islahatlarına verdiyi dəstək kimi yüksək qiymətləndiririk. Hesab edirik ki, hazırlanmış nəşr etik davranış məsələlərinə dair beynəlxalq təcrübənin öyrənilməsində mühüm metodiki vəsait kimi hakimlərin peşə fəaliyyəti zamanı böyük praktiki əhəmiyyət kəsb edəcək, eyni zamanda hakimlərin və hakimliyə namizədlərin tədrisi prosesində qiymətli əyani material kimi istifadə ediləcəkdir.

***Azərbaycan Respublikasının***
***Məhkəmə-Hüquq Şurası***

## Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurası (ECOSOC)

### 2006/23 saylı Qətnamə*

### Hakimlərin davranışının əsas prinsiplərinin möhkəmləndirilməsi

*İqtisadi və Sosial Şura,*

üzv-dövlətlərin, xüsusilə hər hansı ayrı-seçkilik olmadan insan hüquqlarına və əsas azadlıqlara hörmətin təşviqi və inkişafında beynəlxalq əməkdaşlığın həyata keçirilməsi üçün ədalətliliyə riayət edilə biləcəyi şəraiti yaratmaq qətiyyətini təsdiq etdikləri Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə *istinad edərək,*

*həmçinin*, xüsusilə qanun qarşısında bərabərlik, təqsirsizlik prezumpsiyası və işin qanun əsasında yaradılmış səlahiyyətli, müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətli və açıq araşdırılması hüququ prinsiplərinin elan edildiyi İnsan hüquqlarının Ümumi Bəyannaməsinə *istinad edərək,*

*daha sonra,* hər biri bu hüquqlara riayət olunmasına təminat verən İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakta, həmçinin Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakta[1] *istinad edərək* və Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın əlavə olaraq əsassız ləngimələrə yol verilmədən mühakimə edilmək hüququna təminat verdiyini *qeyd edərək,*

11-ci maddəsində hər bir iştirakçı-dövlətin öz hüquq sisteminin əsas prinsiplərinə uyğun olaraq və məhkəmə orqanlarının müstəqilliyinə ziyan vurmadan hakimlərin və məhkəmə orqanları işçilərinin vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi və onlar arasında korrupsiya üçün hər hansı imkanlara yol verilməməsi üzrə tədbirlər görmək, o cümlədən hakimlərin və məhkəmə orqanları işçilərinin hərəkətlərinə aid qaydalar da daxil olmaqla, öhdəliyinin əks olunduğu Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya qarşı Konvensiyasına[2] *istinad edərək,*

hakimlər və məhkəmə orqanlarının işçiləri arasında korrupsiyanın qanunçuluğu sarsıtmasına və cəmiyyətdə məhkəmə sisteminə olan inamın dərəcəsini aşağı salmasına *əmin olaraq,*

*həmçinin,* məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının, müstəqilliyi və qərəzsizliyinin insan hüquqlarının səmərəli müdafiəsi və iqtisadi inkişafın təmini üçün zəruri şərt sayılmasına *əmin olaraq,*

Baş Assambleyanın Birləşmiş Millətlər Təşkilatının 26 avqust - 6 sentyabr 1985-ci ildə Milanda keçirilmiş, cinayətkarlığın qarşısının alınması və qanunu pozanlarla rəftar məsələləri üzrə yeddinci Konqresi tərəfindən qəbul edilmiş Məhkəmə orqanlarının müstəqilliyinin Əsas prinsiplərini bəyəndiyi 29 noyabr 1985-ci il tarixli 40/32 saylı və 13 dekabr 1985-ci il tarixli 40/146 saylı qətnamələrinə[3] *istinad edərək,*

*həmçinin,* Birləşmiş Millətlər Təşkilatının 29 aprel - 8 may 1995-ci ildə Qahirədə keçirilmiş, cinayətkarlığın qarşısının alınması və qanunu pozanlarla rəftar məsələləri üzrə doqquzuncu Konqresi tərəfindən qəbul edilmiş məhkəmə orqanlarının müstəqilliyi və qərəzsizliyi və prokurorluq və vəkillik xidmətlərinin cinayət ədalət mühakiməsi sahəsində lazımi fəaliyyətinə dair tövsiyələrə[4] *istinad edərək,*

2000-ci ildə Katibliyin Beynəlxalq cinayətkarlığın qarşısının alınması üzrə Mərkəzi tərəfindən ümumi (anqlo-sakson) hüquq sisteminin baş hakimləri qrupuna məhkəmə orqanlarının müstəqilliyi prinsipinə uyğun olaraq, hakimlərin davranış standartlarına müsbət təsir göstərə və hüquq qaydasının təmini sisteminə ictimaiyyətin etimad səviyyəsini yüksəldə biləcək məhkəmə orqanlarının vicdanlılığı və

---

* Rəsmi tərcümə. Mətn UNODC veb-səhifəsindən götürülmüşdür.

[1] Baş Assambleyanın 2200 A (XXI)) saylı Qətnaməsi, əlavə.

[2] Baş Assambleyanın 58/4 saylı Qətnaməsi, əlavə.

[3] Bax: *Birləşmiş Millətlər Təşkilatının cinayətkarlığın qarşısının alınması və qanunu pozanlarla rəftar məsələləri üzrə yeddinci Konqresi, Milan, 26 avqust-6 sentyabr 1985-ci il: Katiblik tərəfindən hazırlanmış məruzə* (Birləşmiş Millətlər Təşkilatının nəşri, № R.86.IV.1 ilə satışda), fəsil I, bölmə D.2, əlavə.

[4] Bax: A/CONF.169/16/Rev.1, fəsil I, qətnamə 1, bölmə III.

əlaalınmazlığının təmin edilməsi konsepsiyasını işləyib hazırlamağın təklif edilməsini *xatırladaraq,*

*həmçinin,* baş hakimlərin məhkəmə orqanlarının vicdanlılığı və əlaalınmazlığının münasib universal standartlarını müəyyən etməyin zəruri olduğunu etiraf etdikləri və Hakimlərin davranışı üzrə Banqalor prinsiplərini[5] işləyib hazırladıqları Məhkəmə orqanlarının vicdanlılığı və əlaalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupunun 2001-ci ildə Hindistanın Banqalor şəhərində keçirilmiş ikinci müşavirəsini *xatırladaraq,*

*daha sonra,* Məhkəmə orqanlarının vicdanlılığı və əlaalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupu tərəfindən sonradan bütün hüquq sistemlərinə aid olan 80-dən çox ölkənin məhkəmə orqanları ilə ətraflı məsləhətləşmələr aparılması nəticəsində müxtəlif məhkəmə forumları, o cümlədən baş hakimlərin 2002-ci il noyabrın 25-də və 26-da Haaqada keçirilmiş, işində kontinental (roman-german) hüquq sisteminin böyük hakimlərinin, həmçinin Beynəlxalq Məhkəmənin hakimlərinin iştirak etdiyi dəyirmi masa arxasında müşavirə də daxil olmaqla, tərəfindən Hakimlərin davranışı üzrə Banqalor prinsiplərinin bəyənilməsini *xatırladaraq,*

İnsan hüquqları üzrə Komissiya tərəfindən Hakimlərin davranışı üzrə Banqalor prinsiplərinin nəzərə alındığı və bu prinsiplərin müzakirə edilməsi məqsədilə üzv-dövlətlərin, Birləşmiş Millətlər Təşkilatı sisteminin müvafiq orqanlarının, həmçinin hökumətlərarası və qeyri-hökumət təşkilatlarının nəzərinə çatdırıldığı həmin Komissiyanın hakimlərin, andlı iclasçıların və asessorların müstəqilliyi və qərəzsizliyi və vəkillərin müstəqilliyi haqqında 2003/43 saylı qətnaməsinə *istinad edərək,*

*həmçinin,* İnsan hüquqları üzrə Komissiyanın məhkəmə sisteminin bütövlüyünün insan hüquqlarının müdafiəsi və ədalət mühakiməsinin həyata keçirilməsi zamanı hər hansı ayrı-seçkiliyə yol verilməməsinin təmini üçün vacib şərt olmasını vurğuladığı həmin Komissiyanın məhkəmə sisteminin bütövlüyü haqqında 2003/39 saylı qətnaməsinə *istinad edərək,*

1. Üzv-dövlətlərə onların daxili hüquq sistemlərinə uyğun olaraq, hakimlərin və məhkəmə orqanları işçilərinin peşə məcəlləsi və davranış etikası normalarının icmalı və ya işlənib hazırlanması prosesində öz məhkəmə orqanlarına bu qətnaməyə əlavə edilən Hakimlərin davranışı üzrə Banqalor prinsiplərini nəzərə almağı tövsiyə etməyi *təklif edir;*

2. *Vurğulayır* ki, Hakimlərin davranışı üzrə Banqalor prinsipləri Baş Assambleya tərəfindən onun 40/32 və 40/146 saylı qətnamələrində bəyənilmiş Məhkəmə orqanlarının müstəqilliyinin Əsas prinsiplərinin daha da inkişaf etdirilməsi deməkdir və bu prinsipləri tamamlayır;

3. Məhkəmə orqanlarının vicdanlılığı və əlaalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupu tərəfindən Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və cinayətkarlıq üzrə İdarəsinin himayəsi altında, həmçinin digər beynəlxalq və regional məhkəmə forumlarında aparılan və məhkəmə orqanlarının müstəqilliyi, qərəzsizliyi, vicdanlılığı və əlaalınmazlığının möhkəmləndirilməsi üzrə standartların və tədbirlərin inkişafına və yayılmasına töhfə verən mühüm işi *qəbul edir;*

4. Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və cinayətkarlıq üzrə İdarəsindən mövcud büdcədənkənar resurslar çərçivəsində, o cümlədən İdarənin müntəzəm büdcəsinin mövcud resurslarından istifadə olunması da istisna edilmədən[6] və xüsusilə, onun korrupsiyaya qarşı mübarizəyə dair Qlobal proqramı vasitəsilə Məhkəmə orqanlarının vicdanlılığı və əlaalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupunun işinə bundan sonra da kömək göstərməyi *xahiş edir;*

5. Məhkəmə orqanlarının vicdanlılığı və əlaalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupunun işinə dəstək üçün könüllü ödənişlər edən üzv-dövlətlərə *minnətdarlığını bildirir;*

6. Məhkəmə orqanlarının vicdanlılığı və əlaalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupunun dəstəklənməsi üçün üzv-dövlətlərə Birləşmiş Millətlər Təşkilatının cinayətkarlığın qarşısının alınması və cinayət ədalət mühakiməsi üzrə Fonduna lazımi qaydada könüllü ödənişlər etməyi və sonra korrupsiyaya qarşı mübarizəyə dair Qlobal proqram vasitəsilə inkişaf etməkdə olan ölkələrin və keçid iqtisadiyyatı ölkələrinin xahişinə əsasən onların məhkəmə orqanlarının potensialının, vicdanlılığı və əlaalınmazlığının möhkəmləndirilməsi üçün onlara texniki yardım göstərməyi *təklif edir;*

---

[5] E/CN.4/2003/65, əlavə.

[6] Bu ifadə müntəzəm büdcənin həcminin artırılması və ya əlavə vəsait tələb edilməsi üçün əsas yaratmır.

7. *Həmçinin*, üzv-dövlətlərə Hakimlərin davranışı üzrə Banqalor prinsipləri haqqında öz fikirlərini, zəruri hallarda yenidən baxılmış müddəalar barəsində təkliflərlə birlikdə, Baş Katibə göndərməyi *təklif edir;*

8. Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və cinayətkarlıq üzrə İdarəsindən mövcud büdcədənkənar resurslar çərçivəsində, İdarənin müntəzəm büdcəsinin mövcud resurslarından istifadə edilməsi də daxil olmaqla[7], Məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupu və başqa beynəlxalq və regional məhkəmə forumları ilə əməkdaşlıqda, hakimlərin vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsinə və məhkəmə orqanlarının potensialının artırılmasına yönəlmiş texniki kömək göstərilməsi zamanı istifadə edilmək üçün texniki rəhbər müddəaların, həmçinin üzv-dövlətlər tərəfindən ifadə edilmiş fikirlər və onların təklif etdiyi yenidən baxılmış müddəalar nəzərə alınmaqla, Hakimlərin davranışı üzrə Banqalor prinsiplərinə şərhin hazırlanması məqsədilə açıq tərkibli hökumətlərarası ekspertlər qrupunun müşavirəsini çağırmağı *xahiş edir*;

9. Baş Katibdən Cinayətkarlığın qarşısının alınması və cinayət ədalət mühakiməsi üzrə Komissiyanın on altıncı sessiyasında ona bu qətnamənin həyata keçirilməsi haqqında məruzə təqdim etməyi *xahiş edir*.

*41-ci Plenar iclas*

*27 iyul 2006-cı il*

---

[7] Bu ifadə müntəzəm büdcənin həcminin artırılması və ya əlavə vəsait tələb edilməsi üçün əsas yaratmır.

# Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurası (ECOSOC)

**2007/22 saylı Qətnamə***

## Hakimlərin davranışının əsas prinsiplərinin möhkəmləndirilməsi

*İqtisadi və Sosial Şura,*

üzv-dövlətlərin, xüsusilə hər hansı ayrı-seçkilik olmadan insan hüquqlarına və əsas azadlıqlara hörmətin təşviqi və inkişafında beynəlxalq əməkdaşlığın həyata keçirilməsi üçün ədalətliliyə riayət edilə biləcəyi şəraiti yaratmaq qətiyyətini təsdiq etdikləri Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə *istinad edərək,*

*həmçinin*, xüsusilə qanun qarşısında bərabərlik, təqsirsizlik prezumpsiyası və işin qanun əsasında yaradılmış səlahiyyətli, müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətli və açıq araşdırılması hüququ prinsiplərinin elan edildiyi İnsan hüquqlarının Ümumi Bəyannaməsinə[8] *istinad edərək,*

*daha sonra,* hər biri bu hüquqlara riayət olunmasına təminat verən İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakta, həmçinin Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakta[9] *istinad edərək* və Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın əlavə olaraq əsassız ləngimələrə yol verilmədən mühakimə edilmək hüququna təminat verdiyini *qeyd edərək,*

11-ci maddəsində hər bir iştirakçı-dövlətin öz hüquq sisteminin əsas prinsiplərinə uyğun olaraq və məhkəmə orqanlarının müstəqilliyinə ziyan vurmadan hakimlərin və məhkəmə orqanları işçilərinin vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi və onlar arasında korrupsiya üçün hər hansı imkanlara yol verilməməsi üzrə tədbirlər görmək, o cümlədən hakimlərin və məhkəmə orqanları işçilərinin hərəkətlərinə aid qaydalar da daxil olmaqla, öhdəliyinin əks olunduğu Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya qarşı Konvensiyasına[10] *istinad edərək,*

hakimlər və məhkəmə orqanlarının işçiləri arasında korrupsiyanın qanunçuluğu sarsıtmasına və cəmiyyətdə məhkəmə sisteminə olan inamın dərəcəsini aşağı salmasına *əmin olaraq,*

*həmçinin,* məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının, müstəqilliyi və qərəzsizliyinin insan hüquqlarının səmərəli müdafiəsi və iqtisadi inkişafın təmini üçün zəruri şərt sayılmasına *əmin olaraq,*

Baş Assambleyanın Birləşmiş Millətlər Təşkilatının 26 avqust - 6 sentyabr 1985-ci ildə Milanda keçirilmiş, cinayətkarlığın qarşısının alınması və qanunu pozanlarla rəftar məsələləri üzrə yeddinci Konqresi tərəfindən qəbul edilmiş Məhkəmə orqanlarının müstəqilliyinin Əsas prinsiplərini bəyəndiyi 29 noyabr 1985-ci il tarixli 40/32 saylı və 13 dekabr 1985-ci il tarixli 40/146 saylı qətnamələrinə[11] *istinad edərək,*

*həmçinin,* Baş Assambleyanın Məhkəmə orqanlarının müstəqilliyinin Əsas prinsiplərini bəyəndiyi 13 dekabr 1985-ci il tarixli 40/146 saylı qətnaməsinə *istinad edərək,*

*həmçinin,* Birləşmiş Millətlər Təşkilatının 29 aprel - 8 may 1995-ci ildə Qahirədə keçirilmiş, cinayətkarlığın qarşısının alınması və qanunu pozanlarla rəftar məsələləri üzrə doqquzuncu Konqresi tərəfindən qəbul edilmiş məhkəmə orqanlarının müstəqilliyi və qərəzsizliyi və prokurorluq və vəkillik

---

* Qeyri-rəsmi tərcümə.

[8] Baş Assambleyanın 217 A (III) saylı Qətnaməsi, əlavə.

[2] Baş Assambleyanın 2200 A (XXI)) saylı Qətnaməsi, əlavə.

[3] Baş Assambleyanın 58/4 saylı Qətnaməsi, əlavə.

[11] Bax: *Birləşmiş Millətlər Təşkilatının cinayətkarlığın qarşısının alınması və qanunu pozanlarla rəftar məsələləri üzrə yeddinci Konqresi, Milan, 26 avqust-6 sentyabr 1985-ci il: Katiblik tərəfindən hazırlanmış məruzə* (Birləşmiş Millətlər Təşkilatının nəşri, № R.86.IV.1 ilə satışda), fəsil I, bölmə D.2, əlavə.

xidmətlərinin cinayət ədalət mühakiməsi sahəsində lazımi fəaliyyətinə dair tövsiyələrə[12] *istinad edərək,*

İnsan hüquqları üzrə Komissiya tərəfindən Hakimlərin davranışı üzrə Banqalor prinsiplərinin nəzərə alındığı və bu prinsiplərin müzakirə edilməsi məqsədilə üzv-dövlətlərin, Birləşmiş Millətlər Təşkilatı sisteminin müvafiq orqanlarının, həmçinin hökumətlərarası və qeyri-hökumət təşkilatlarının nəzərinə çatdırıldığı həmin Komissiyanın hakimlərin, andlı iclasçıların və asessorların müstəqilliyi və qərəzsizliyi və vəkillərin müstəqilliyi haqqında 23 aprel 2003-cü il tarixli 2003/43 saylı qətnaməsinə *istinad edərək,*

*həmçinin*, İqtisadi və Sosial Şuranın Hakimlərin davranışı üzrə Banqalor prinsiplərinin Məhkəmə orqanlarının müstəqilliyinin Əsas prinsiplərinin daha da inkişaf etdirilməsi demək olmasını və bu prinsipləri tamamlamasını vurğuladığı və üzv-dövlətlərə onların daxili hüquq sistemlərinə uyğun olaraq, hakimlərin və məhkəmə orqanları işçilərinin peşə məcəlləsi və davranış etikası normalarının icmalı və ya işlənib hazırlanması prosesində öz məhkəmə orqanlarına bu qətnaməyə əlavə edilən Hakimlərin davranışı üzrə Banqalor prinsiplərini nəzərə almağın tövsiyə edilməsini təklif etdiyi Hakimlərin davranışının əsas prinsiplərinin möhkəmləndirilməsi haqqında 27 iyul 2006-cı il tarixli 2006/23 saylı qətnaməsinə[13] *istinad edərək,*

1. Baş Katibin Hakimlərin davranışının əsas prinsiplərinin möhkəmləndirilməsi haqqında məruzəsini[14], xüsusilə, bir sıra üzv-dövlətlərin məruzə etdiyi kimi, Hakimlərin davranışı üzrə Banqalor prinsiplərinin[15] həyata keçirilməsində irəliləməni *məmnunluqla nəzərə alır*;

2. Üzv-dövlətlərə onların daxili hüquq sistemlərinə uyğun olaraq, hakimlərin və məhkəmə orqanları işçilərinin peşə məcəlləsi və davranış etikası normalarının icmalı və ya işlənib hazırlanması prosesində öz məhkəmə orqanlarına bu qətnaməyə əlavə edilən Hakimlərin davranışı üzrə Banqalor prinsiplərini nəzərə almaq barədə tövsiyələrini davam etdirməyi *təklif edir*;

3. Hakimlərin davranışı üzrə Banqalor prinsiplərinin şərhləri üzərində işin tezliklə başa çatdırılmasını *gözləyir,* İqtisadi və Sosial Şuranın Hakimlərin davranışının əsas prinsiplərinin möhkəmləndirilməsi haqqında 27 iyul 2006-cı il tarixli 2006/23 saylı qətnaməsinə uyğun olaraq təsis edilmiş açıq tərkibli hökumətlərarası ekspertlər qrupunun və Məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupunun işini *bəyənir*;

4. Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və cinayətkarlıq üzrə İdarəsindən mövcud büdcədənkənar resurslar çərçivəsində Hakimlərin davranışı üzrə Banqalor prinsiplərinin şərhini Birləşmiş Millətlər Təşkilatının bütün rəsmi dillərinə tərcümə etməyi və onu üzv-dövlətlər, beynəlxalq və regional məhkəmə forumları və digər müvafiq təşkilatlar arasında yaymağı *xahiş edir*;

5. *Həmçinin,* Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və cinayətkarlıq üzrə İdarəsindən mövcud büdcədənkənar resurslar çərçivəsində və hökumətlərarası ekspertlər qrupunun tövsiyələrinə uyğun olaraq, məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsinə və onların potensialının artırılmasına dair texniki rəhbər müddəaların hazırlanmasına yönəldilmiş işini davam etdirməyi və öz şərhlərini bildirmələri üçün onu üzv-dövlətlərə verməyi *xahiş edir*;

6. *Həmçinin,* Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və cinayətkarlıq üzrə İdarəsindən mövcud büdcədənkənar resurslar çərçivəsində Məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupu və digər beynəlxalq və regional məhkəmə forumları ilə əməkdaşlıqda, üzv-dövlətlərin şərhləri nəzərə alınmaqla, məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsinə və onların potensialının artırılmasına dair texniki rəhbər müddəalar üzərində işi başa çatdırmaq üçün açıq tərkibli hökumətlərarası ekspertlər qrupunun müşavirəsini çağırmağı *xahiş edir*;

7. Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və cinayətkarlıq üzrə İdarəsindən mövcud büdcədənkənar resurslar çərçivəsində, xüsusilə korrupsiyaya qarşı mübarizə üzrə Qlobal proqram vasitəsilə üzv-dövlətlərə onların xahişinə əsasən hakimlərin və məhkəmə orqanları işçilərinin peşə məcəlləsinin və davranış etikası normalarının hazırlanmasında, həmçinin Hakimlərin davranışı üzrə

---

[12] Bax: A/CONF.169/16/Rev.1, fəsil I, qətnamə 1, bölmə III.
[13] İqtisadi və Sosial Şuranın 2006/23 saylı Qətnaməsi, əlavə.
[14] E/CN.15/2007/12.
[15] İqtisadi və Sosial Şuranın 2006/23 saylı qətnaməsi, əlavə.

Banqalor prinsiplərinin həyata keçirilməsində yardım məqsədilə texniki əməkdaşlıq layihə və tədbirlərini işləyib hazırlamağı və yerinə yetirməyi *xahiş edir*;

8. *həmçinin*, Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və cinayətkarlıq üzrə İdarəsindən mövcud büdcədənkənar resurslar çərçivəsində ölkələrin və müvafiq təşkilatların təşəbbüsü ilə qarşılıqlı əməkdaşlıqda cinayət ədalət mühakiməsi sisteminin digər orqanlarının, xüsusilə prokurorluq və polisin vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsinə və onların potensialının artırılmasına yönəldilmiş texniki əməkdaşlıq layihə və tədbirlərinin işlənib hazırlanması mümkünlüyünə baxmağı *xahiş edir*;

9. Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və cinayətkarlıq üzrə İdarəsinə onun məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsinə və onların potensialının artırılmasına yönəldilmiş texniki əməkdaşlıq tədbirlərinə dəstək olaraq könüllü ödənişlər edən, o cümlədən Hakimlərin davranışı üzrə Banqalor prinsiplərinin həyata keçirilməsini təşviq edən üzv-dövlətlərə *minnətdarlığını bildirir*;

10. Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və cinayətkarlıq üzrə İdarəsini inkişaf etməkdə olan ölkələrə və keçid iqtisadiyyatı ölkələrinə onların xahişinə əsasən həmin ölkələrin məhkəmə orqanlarının potensialının, vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi üçün, Hakimlərin davranışı üzrə Banqalor prinsiplərinin istifadə və tətbiq edilməsi vasitəsi daxil olmaqla, texniki kömək göstərilməsində dəstəkləmək məqsədilə üzv-dövlətlərə Birləşmiş Millətlər Təşkilatının cinayətkarlığın qarşısının alınması və cinayət ədalət mühakiməsi üzrə Fonduna lazımi qaydada könüllü ödənişlər etməyi *təklif edir*;

11. Katiblikdən Hakimlərin davranışı üzrə Banqalor prinsiplərini və həmin prinsiplərin şərhini Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya qarşı Konvensiyasının iştirakçı-dövlətlərinin Konfransına onun ikinci sessiyasında göndərməyi *xahiş edir;*

12. Baş Katibdən Cinayətkarlığın qarşısının alınması və cinayət ədalət mühakiməsi üzrə Komissiyaya onun on yeddinci sessiyasında bu qətnamənin həyata keçirilməsi haqqında məruzə təqdim etməyi xahiş edir.

*45-ci Plenar iclas*

*26 iyul 2007-ci il*

# HAKİMLƏRİN DAVRANIŞI ÜZRƏ BANQALOR PRİNSİPLƏRİ

Hər bir şəxsə onun hüquq və vəzifələrinin müəyyən edilməsi, həmçinin cinayətin törədilməsində təqsirliliyi məsələsi ilə bağlı işinə müstəqil məhkəmə tərəfindən ədalətlilik və qərəzsizlik rəhbər tutulmaqla açıq məhkəmə iclası şəraitində baxılması hüququnun bərabər əsaslarla təqdim edilməsini başlıca prinsip kimi tanıyan İnsan Hüquqları üzrə Ümumi Bəyannaməni NƏZƏRƏ ALARAQ,

Bütün vətəndaşların məhkəmə qarşısında bərabərliyinə, həmçinin hər bir şəxsin onun hüquq və vəzifələrinin müəyyən edilməsi, habelə cinayətin törədilməsində təqsirliliyi məsələsi ilə bağlı işinə qanunla müəyyən edilmiş qaydada səlahiyyətli və müstəqil məhkəmə tərəfindən ədalətlilik və qərəzsizlik rəhbər tutulmaqla açıq məhkəmə iclasında ağlabatan müddətdə baxılması hüququna təminat verən Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt[16] NƏZƏRƏ ALARAQ,

Yuxarıda göstərilən əsas prinsiplərin və hüquqların, həmçinin insan hüquqları üzrə yerli aktlarda, milli konstitusiyalarda, statut və ümumi hüquqda, məhkəmə adət və ənənələrində tanınmasını və öz əksini tapmasını NƏZƏRƏ ALARAQ,

Bütün digər hüquqların həyata keçirilməsi bütövlükdə ədalət mühakiməsinin düzgün həyata keçirilməsindən asılı olduğu üçün insan hüquqlarının qorunması məsələsində məhkəmə orqanlarının səlahiyyətli, müstəqil və qərəzsiz olmasının böyük əhəmiyyət kəsb etdiyini NƏZƏRƏ ALARAQ,

Məhkəmələrin konstitusionalizm və hüquq qaydasının müdafiəsi üzrə öz vəzifələrinin yerinə yetirilməsi üçün məhkəmə orqanlarının səlahiyyətli, müstəqil və qərəzsiz olmasının böyük əhəmiyyət kəsb etdiyini NƏZƏRƏ ALARAQ,

Cəmiyyətin məhkəmə sisteminə, həmçinin məhkəmə orqanlarının əxlaqı, vicdanlılığı və ələalınmazlığı məsələlərində məhkəmə sisteminin nüfuzuna olan inamının demokratik cəmiyyətdə birinci dərəcəli rol oynadığını NƏZƏRƏ ALARAQ,

Hakimlərin cəmiyyət tərəfindən onlara göstərilən inamın dərəcəsini anlamaqla fərdi və kollektiv qaydada öz vəzifələrinə hörmət və şərəflə yanaşmalarının və cəmiyyətin məhkəmə sisteminə olan inamının saxlanması və artırılması üçün lazımi səy göstərmələrinin zəruriliyini NƏZƏRƏ ALARAQ,

Hakimlərin yüksək davranış standartlarının dəstəklənməsi və həvəsləndirilməsinin hər bir dövlətin məhkəmə orqanlarının bilavasitə vəzifəsi hesab olunduğunu NƏZƏRƏ ALARAQ,

Məhkəmə orqanlarının müstəqilliyinə dair Əsas prinsiplərin[17] məhkəmə orqanlarının müstəqilliyini təmin etməyə və dəstəkləməyə yönəldiyini və başlıca olaraq dövlətlərə ünvanlandığını NƏZƏRƏ ALARAQ,

AŞAĞIDAKI PRİNSİPLƏR hakimlərin etik davranış standartlarının müəyyən edilməsi məqsədini daşıyır. Onlar rəhbər müddəalar kimi istifadə edilməsi üçün hakimlərə və hakimlərin davranışının tənzimlənməsinin əsas prinsipləri qismində istifadə olunması üçün məhkəmə orqanlarına ünvanlanmışdır. Bundan başqa, həmin prinsiplər ədalət mühakiməsinin həyata keçirilməsi prosesinin icra və qanunvericilik hakimiyyətləri, vəkillər və ümumilikdə cəmiyyət tərəfindən daha yaxşı başa düşülməsinə və dəstəklənməsinə kömək etməyə yönəlmişdir. Hazırkı prinsiplər hakimlərin öz davranışında məhkəmə standartlarının dəstəklənməsi və onların davranışını tənzimləyən mövcud norma və qaydaların əhəmiyyətinin artırılması məqsədini güdən, müstəqil və qərəzsiz şəkildə fəaliyyət göstərən müvafiq orqanlara hesabat verməli olduqlarını nəzərdə tutur.

---

[16] Baş Assambleyanın 2200 A (XXI)) saylı Qətnaməsi, əlavə.

[17] Bax: *Birləşmiş Millətlər Təşkilatının cinayətkarlığın qarşısının alınması və qanunu pozanlarla rəftar məsələləri üzrə yeddinci Konqresi, Milan, 26 avqust-6 sentyabr 1985-ci il: Katiblik tərəfindən hazırlanmış məruzə* (Birləşmiş Millətlər Təşkilatının nəşri, № R.86.IV.1 ilə satışda), fəsil I, bölmə D.2, əlavə.

*Birinci göstərici*

## MÜSTƏQİLLİK

*Prinsipi:*

**Məhkəmə orqanlarının müstəqilliyi hüquq qaydasının təmin olunmasının ilkin şərti və işin məhkəmədə ədalətli həll edilməsinin əsas təminatı sayılır. Müvafiq olaraq, hakim məhkəmə orqanlarının müstəqilliyi prinsipini həm fərdi, həm də institusional aspektlərdə həyata keçirməli və müdafiə etməlidir.**

*Tətbiqi:*

1.1. Hakim öz məhkəmə funksiyasını faktların müstəsna olaraq hüququn şüurlu surətdə dərk edilməsinə uyğun qiymətləndirilməsindən, istənilən tərəfin istənilən məqsədlərlə etdiyi hər hansı kənar təsir, niyyət, təzyiq, birbaşa və ya dolayı hədə və ya müdaxilələrdən asılı olmayaraq həyata keçirməlidir.

1.2. Hakim qərar çıxarmalı olduğu işdə ümumilikdə cəmiyyətə və məhkəmə işinin konkret tərəflərinə münasibətdə müstəqil mövqedən çıxış etməlidir.

1.3. Hakim nəinki istənilən qeyri-müvafiq qarşılıqlı münasibət vəzifələrini və ya hakimiyyətin icra və qanunverici qolları tərəfindən edilən təsiri istisna edir, həm də bunu elə etməlidir ki, bu, hətta kənar müşahidəçiyə belə aşkar olsun.

1.4. Hakim tərəfindən iş üzrə qərar müstəqil qəbul edilməli olduğu hallarda, o, məhkəmə tərkibinə daxil olan digər həmkarlarının rəyindən asılı olmadan fəaliyyət göstərir.

1.5. Hakimlərin təşkilati və fəaliyyət müstəqilliyinin saxlanılması və artırılması məqsədilə hakim öz vəzifələrinin icrası təminatlarını müdafiə edir və dəstəkləyir.

1.6. Hakim məhkəmə orqanlarının müstəqilliyinin saxlanması üçün başlıca əhəmiyyət kəsb edən cəmiyyətin məhkəmə orqanlarına inamının möhkəmləndirilməsi məqsədilə hakimlərin davranışının yüksək standartlarını nümayiş və təbliğ edir.

*2-ci göstərici*

## OBYEKTİVLİK VƏ QƏRƏZSİZLİK

*Prinsipi:*

**Hakimin obyektivliyi onun öz vəzifələrini lazımi qaydada icra etməsinin zəruri şərti sayılır. O, təkcə çıxarılan qərarın məzmununda deyil, həm də onun çıxarılmasını müşayiət edən bütün prosessual hərəkətlərdə təzahür edir.**

*Tətbiqi:*

2.1. Hakim öz vəzifələrinin icrası zamanı hər hansı üstüntutma hallarından, qabaqcadan formalaşmış yanlış fikirlərdən və qabaqcadan hasil olan qənaətlərdən azaddır.

2.2. Hakimin məhkəmə iclasının gedişində və məhkəmədən kənarda davranışı onun və məhkəmə orqanlarının obyektivliyinə cəmiyyətin, hüquq peşəsi nümayəndələrinin və məhkəmə prosesi tərəflərinin inamının saxlanmasına və artırılmasına kömək etməlidir.

2.3. Hakim onu məhkəmə iclaslarında iştirak etmək və iş üzrə qərar çıxarmaq hüququndan məhrum etmək üçün əsas sayıla biləcək hərəkətlərdən imkan daxilində çəkinməlidir.

2.4. Hakim məhkəmədə baxılmalı olan və ya baxıla biləcək işlə bağlı vəziyyətin ağlabatan qiymətləndirilməsinə əsasən həmin işin nəticəsinə hər hansı formada təsir edə və ya prosesin ədalətli həyata keçirilməsini şübhə altına qoya biləcək istənilən şərhlərdən çəkinməlidir. Hakim açıq və ya digər formada şərhlərdən çəkinməlidir, əks təqdirdə bu, işə hər hansı şəxsə və ya məsələyə münasibətdə qərəzsiz baxılmasına mane ola bilər.

2.5. Əgər iş üzrə obyektiv qərarın çıxarılması onun üçün mümkün görünmürsə və ya kənar müşahidəçidə hakimin qərəzsizliyinə şübhələr yarana bilərsə, hakim özü-özünə etiraz etməlidir.

Aşağıda belə halların yalnız bir neçə nümunələri sadalanmışdır:

2.5.1. hakimdə tərəflərdən hər hansı birinə qarşı real olaraq qabaqcadan formalaşmış yanlış fikir və ya qabaqcadan hasil olan qənaət münasibəti formalaşmışdırsa, yaxud hakimə onun şəxsi mənbələrindən baxılan işə aidiyyəti olan hər hansı sübutedici faktlar məlum olmuşdursa;

2.5.2. eyni mübahisə predmetinə əvvəllər baxılması zamanı hakim vəkil qismində çıxış etmişsə və ya mühüm şahid qismində cəlb edilmişsə;

2.5.3. hakim və ya onun ailə üzvləri baxılan işin nəticəsində maraqlıdırsa.

Həmin işə baxılması üçün heç bir digər məhkəmə təyin edilə bilmədikdə və ya həllinin ləngidilməsi ciddi məhkəmə səhvlərinə gətirib çıxara bilən işin təcili xarakterini nəzərə alaraq, hakim işə baxılmasında iştirak etməkdən kənarlaşdırıla bilməz.

*3-cü göstərici*

## VİCDANLILIQ VƏ ƏLƏALINMAZLIQ

*Prinsipi:*

**Vicdanlılıq və ələalınmazlıq hakimin öz vəzifələrini lazımi qaydada icra etməsinin zəruri şərtləridir.**

*Tətbiqi:*

3.1. Hakim hətta kənar müşahidəçinin nəzərində belə qüsursuz davranış nümayiş etdirməlidir.

3.2. Hakimin hərəkət və davranış forması cəmiyyətin məhkəmə orqanlarının vicdanlılığına və ələalınmazlığına inamını saxlamalıdır. Ədalət mühakiməsini sadəcə həyata keçirmək kifayət deyil, bunu cəmiyyət üçün açıq etmək lazımdır.

*4-cü göstərici*

## ETİK NORMALARA RİAYƏT OLUNMASI

*Prinsipi:*

**Etik normalara riayət olunması və bunun nümayiş etdirilməsi hakimin fəaliyyətinin ayrılmaz hissəsidir.**

*Tətbiqi:*

4.1. Hakim etik normalara onun vəzifəsi ilə bağlı istənilən hərəkətlərin həyata keçirilməsi zamanı nəzakətsiz davranış hallarına yol vermədən riayət edir.

4.2. İctimaiyyət tərəfindən daimi diqqət hakimin üzərinə bir sıra məhdudiyyətləri qəbul etmək vəzifəsini qoyur; və sıravi vətəndaşa bu məhdudiyyətlər ağır görünə bilməsinə baxmayaraq, hakim onları könüllü və həvəslə qəbul edir. Xüsusilə, hakimin davranışı onun vəzifəsinin yüksək statusuna uyğun olmalıdır.

4.3. Hakim işə onun baxdığı məhkəmədə daimi təcrübəyə malik olan vəkillərlə öz şəxsi qarşılıqlı münasibətlərində əsaslı şübhələr doğura və ya hakimdə hər hansı üstün tutma və ya qabaqcadan hasil olan qənaət münasibətinin mövcudluğu görüntüsünü yarada bilən vəziyyətlərdən çəkinməlidir.

4.4. Hakim onun ailə üzvlərindən kiminsə tərəflərdən birinin nümayəndəsi qismində çıxış etdiyi və ya işə başqa formada aidiyyəti olduğu işə baxılmasında iştirak etməməlidir.

4.5. Hakim öz yaşadığı yeri müştərilərini qəbul etmək və ya həmkarları ilə görüşmək üçün digər vəkillərə verməməlidir.

4.6. Digər vətəndaşlar kimi hakimin də ifadə, dini etiqad, toplantı və assosiasiyalarda iştirak azadlıqlarına təminat verilir, lakin bu hüquqların reallaşdırılması zamanı hakim öz vəzifəsinin yüksək statusunun

saxlanmasına çalışmalı və məhkəmə orqanlarının qərəzsizliyi və müstəqilliyi ilə bir araya sığmayan hərəkətlərə yol verməməlidir.

4.7. Hakim özünün məxfi xarakterli şəxsi və maddi maraqları barədə məlumatlı olmalı və öz ailə üzvlərinin maddi maraqları barədə məlumat almaq məqsədilə ağlabatan tədbirlər görməlidir.

4.8. Hakim öz ailə üzvlərinin, sosial və digər qarşılıqlı münasibətlərinin onun öz funksiyalarını həyata keçirməsi ilə bağlı hərəkətlərinə, həmçinin məhkəmə qərarlarının qəbul edilməsinə lazım olmayan şəkildə təsir etməsinə imkan verməməlidir.

4.9. Hakim öz vəzifəsinin nüfuzundan özünün, ailə üzvlərinin və ya istənilən digər şəxslərin şəxsi maraqlarına nail olmaq üçün istifadə edə və ya istifadə edilməsinə imkan verə bilməz. Hakim kiminsə onun öz səlahiyyətlərini həyata keçirməsinə lazım olmayan təsiri etməsi nəticəsinə gəlməyə imkan verən tərzdə fəaliyyət göstərməməli və ya digər şəxslərin də belə fəaliyyətinə yol verməməlidir.

4.10. Hakimə qulluq mövqeyi ilə əlaqədar məlum olan məxfi məlumat hakim tərəfindən onun vəzifələrinin icrası ilə bağlı olmayan hər hansı digər məqsədlər üçün istifadə edilə və ya kiməsə açıqlana bilməz.

4.11. Öz vəzifələrini lazımi qaydada icra etmək şərtilə hakim aşağıdakı hüquqlara malikdir:

4.11.1. Ədəbi və pedaqoji fəaliyyətlə məşğul olmaq, mühazirə demək və hüquq, qanunvericilik, ədalət mühakiməsinin həyata keçirilməsi və digər oxşar məsələlərlə bağlı fəaliyyətdə iştirak etmək;

4.11.2. Hüquq, qanunvericilik, ədalət mühakiməsinin həyata keçirilməsi və digər oxşar məsələlərlə bağlı rəsmi orqanlar qarşısında işlərin ictimai dinləmələrində çıxış etmək;

4.11.3. Əgər belə üzvlük hakimin öz qərəzsizliyini və siyasi bitərəf mövqeyini saxlamasına imkan verirsə, hər hansı rəsmi orqanın, hökumət komissiyasının, komitəsinin, məşvərətçi orqanın üzvü olmaq,;

4.11.4. Hakim vəzifəsinin yüksək statusu ilə uzlaşan və ya onun tərəfindən öz vəzifələrinin icrasına hər hansı dərəcədə mane olmayan digər fəaliyyətlə məşğul olmaq.

4.12. Hakim bu vəzifədə olduğu müddət ərzində digər hüquq fəaliyyəti ilə məşğul olmamalıdır.

4.13. Hakim hakimlərin assosiasiyasını yarada, onların üzvü ola və ya hakimlərin maraqlarını təmsil edən digər təşkilatlarda iştirak edə bilər.

4.14. Hakim və onun ailə üzvləri hakimin etdiyi və ya etmək niyyətində olduğu hərəkətlərə, yaxud öz xidməti vəzifələrinin icrası ilə bağlı hərəkətsizliyə görə hər hansı hədiyyə, ssuda, miras və ya başqa formada yardım tələb və ya qəbul etməməlidir.

4.15. Hakim məhkəmə işçilərinin, həmçinin onun təsiri altında və ya tabeçiliyində olan, yaxud rəhbərliyi altında işləyən digər şəxslərin, əgər bunun hakimin funksiyalarına, yaxud etdiyi və ya etmək niyyətində olduğu hərəkətlərə və ya öz xidməti vəzifələrinin icrası ilə bağlı hərəkətsizliyə görə olduğunu qabaqcadan bilirsə, hər hansı hədiyyə, ssuda, miras və ya başqa formada yardım tələb və ya qəbul etmələrinə imkan verməməlidir.

4.16. Qanunda əks olunan qadağaların olmadığı təqdirdə və zəruri məlumatın dərc edilməsinə dair qanunla nəzərdə tutulan tələblərə uyğun olaraq, hakim müvafiq halda xatirə hədiyyələri, mükafatlar və imtiyazlar qəbul edə bilər, bu şərtlə ki onlar hakimin öz xidməti vəzifələrinin icrasına hər hansı formada təsir göstərmək niyyəti güdməsin və digər tamah məqsədləri daşımasın.

*5-ci göstərici*

## BƏRABƏRLİK

*Prinsipi:*

**Məhkəmə iclasında bütün tərəflərə bərabər münasibətin təmin edilməsi hakim tərəfindən öz vəzifələrinin lazımi qaydada icra edilməsi üçün birinci dərəcəli əhəmiyyət kəsb edir.**

*Tətbiqi:*

5.1. Hakim cəmiyyətdəki müxtəlifliyi və irqi mənsubiyyət, dərinin rəngi, cins, din, milli mənşə, silk, əmək qabiliyyətsizliyi, yaş, ailə vəziyyəti, cinsi orientasiya, sosial-iqtisadi vəziyyət və sair oxşar səbəblərin ("işə aidiyyəti olmayan əsaslar") daxil olduğu, lakin bunlarla məhdudlaşmayan müxtəlif mənbələrdən irəli gələn fərqləri bilməli və anlamalıdır.

5.2. Hakim öz vəzifələrini icra edərkən sözlə və ya hərəkətlə hər hansı şəxsə və ya şəxslər qrupuna qarşı işə aidiyyəti olmayan səbəblərə əsaslanaraq qərəzlilik və ya qabaqcadan formalaşmış yanlış fikir nümayiş etdirməməlidir.

5.3. Hakim məhkəmə funksiyalarını bütün şəxslərin, xüsusilə iş üzrə tərəflərin, şahidlərin, vəkillərin, məhkəmə işçilərinin və məhkəmə tərkibinə daxil olan həmkarlarının maraqlarını lazımi şəkildə nəzərə almaqla, işə aidiyyəti olmayan və bu funksiyaların lazımi qaydada həyata keçirilməsi üçün əhəmiyyət kəsb etməyən hər hansı əsaslara görə fərqləndirmə etmədən yerinə yetirməlidir.

5.4. Hakim məhkəmə işçilərinin və ya onun təsiri, tabeçiliyi və ya nəzarəti altında olan digər şəxslərin hakimin baxdığı işlə bağlı olan şəxsləri hər hansı işə aidiyyəti olmayan əsaslara görə fərqləndirmələrinə bilə-bilə yol verməməlidir.

5.5. Hakim məhkəmə prosesində iştirak edən vəkillərdən məhkəmə araşdırmasının predmeti üçün hüquqi əhəmiyyət kəsb edən və qanuni şəkildə əsaslı ola bilən hallar istisna olmaqla, işə aidiyyəti olmayan əsaslara qərəzli və ya qabaqcadan formalaşmış yanlış fikirlərini sözlə və ya hərəkətlə nümayiş etdirməkdən çəkinmələrini tələb etməlidir.

*6-cı göstərici*

## SƏRİŞTƏLİLİK VƏ ÇALIŞQANLIQ

*Prinsipi:*

**Səriştəlilik və çalışqanlıq hakim tərəfindən öz vəzifələrinin icrasının zəruri şərtləri sayılır.**

*Tətbiqi:*

6.1. Hakimin məhkəmə funksiyaları onun bütün digər fəaliyyət növlərindən üstündür.

6.2. Hakim öz peşəkar fəaliyyətini təkcə məhkəmə araşdırmasında məhkəmə və xidməti vəzifələrinin icra olunması və qərarların çıxarılmasını deyil, həm də hakim vəzifəsinə və ya məhkəmənin fəaliyyətinə aid olan digər məsələləri əhatə edən məhkəmə funksiyalarının yerinə yetirilməsinə həsr etməlidir.

6.3. Hakim öz biliklərinin qorunması və genişləndirilməsi, bu məqsədlərlə müvafiq təlim vasitələrindən və məhkəmə nəzarəti şəraitində hakimlərə əlçatan olan digər imkanlardan istifadə etməklə, vəzifələrinin lazımınca icra edilməsi üçün zəruri olan iş təcrübəsi və şəxsi keyfiyyətlərinin təkmilləşdirilməsi üçün ağlabatan tədbirlər görməlidir.

6.4. Hakim beynəlxalq konvensiyalar və insan hüquqlarına dair normaları müəyyən edən digər sənədlər daxil olmaqla, beynəlxalq qanunvericilikdəki müvafiq dəyişikliklər barədə daim məlumatlı olmalıdır.

6.5. Hakim özünün bütün vəzifələrini, təxirə salınmış qərarların çıxarılması da daxil olmaqla, ağlabatan və ədalətli şəkildə, mümkün qədər qısa müddətdə yerinə yetirməlidir.

6.6. Hakim bütün məhkəmə araşdırmaları gedişində qaydanı gözləməli, etiketə riayət etməli və iş üzrə tərəflərə, andlı iclasçılara, şahidlərə, vəkillərə və vəzifəsi ilə bağlı ünsiyyətdə olduğu digər şəxslərə münasibətdə səbirli, ləyaqətli və nəzakətli davranmalıdır. Hakim eyni cür davranışı tərəflərin qanuni nümayəndələrindən, məhkəmə işçilərindən və hakimin təsiri, tabeçiliyi və ya nəzarəti altında olan digər şəxslərdən də tələb etməlidir.

6.7. Hakim məhkəmə funksiyalarının lazımi qaydada yerinə yetirilməsi ilə bir araya sığmayan fəaliyyətlə məşğul olmamalıdır.

## PRİNSİPLƏRİN TƏTBİQİ

Məhkəmə vəzifəsinin xüsusiyyətlərini nəzərə alaraq, əgər onların yurisdiksiyası çərçivəsində belə mexanizmlər hələ mövcud deyilsə, milli məhkəmə orqanları tərəfindən bu prinsiplərin tətbiq edilməsi mexanizmlərinin yaradılması üçün səmərəli tədbirlərin görülməsi zəruridir.

## ANLAYIŞLAR

Prinsiplər barədə hazırkı bəyanatda istifadə olunan sözlər aşağıdakı mənaları daşıyır (məzmunun fərqli mənaya yol verdiyi və ya bunu tələb etdiyi hallar istisna olmaqla):

"Məhkəmə işçiləri" – hakimin bilavasitə tabeliyində olan şəxslər, o cümlədən məhkəmə kargüzarları;

"Hakim" – istənilən şəkildə təyin olunmuş və hakimlik funksiyalarını həyata keçirən hər hansı şəxs;

"Hakimin ailə üzvləri" – hakimin əri (arvadı), oğlu, qızı, kürəkəni, gəlini və hakimin evində yaşayan hər hansı digər yaxın qohumu və ya hakimin partnyoru olan və ya ona muzdla xidmət edən şəxs;

"Hakimin əri (arvadı)" – hakimin həyat yoldaşı və ya istənilən cinsə mənsub və hakimlə yaxın şəxsi münasibətlərdə olan istənilən şəxs.

Birləşmiş Millətlər Təşkilatının
Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi

# HAKİMLƏRİN DAVRANIŞI ÜZRƏ BANQALOR PRİNSİPLƏRİNİN KOMMENTARİYASI

Sentyabr 2007-ci il

# MÜNDƏRİCAT

Ön söz……………………………………………………………………………..19

Banqalor prinsiplərinə dair Kommentariyanın hazırlanması üzərində iş prosesi.……...…20

Preambula……………………………………………………………………………29

*1-ci göstərici:* Müstəqillik…………………………………………...………41

*2-ci göstərici:* Obyektivlik və qərəzsizlik………………………………………………53

*3-cü göstərici:* Vicdanlılıq və ələalınmazlıq……………………………………………71

*4-cü göstərici:* Etik normalara riayət edilməsi……………………...………………75

*5-ci göstərici:* Bərabərlik……………………………………………………………...102

*6-cı göstərici:* Səriştəlilik və çalışqanlıq……………………………………...……108

Prinsiplərin tətbiqi………..……………………………………………………...……118

Anlayışlar……………………………………………………………………………...119

*Əlavə:* Mədəni və dini ənənələr…………………………………………………………120

Seçilmiş ədəbiyyat………………………………………………………………………128

# ÖN SÖZ

Cəmiyyət arasında inkaredilməz nüfuza malik olan məhkəmə hakimiyyəti sistemi demokratik sistemin və hüququn aliliyinin əsas təməllərindən sayılır. Hətta, digər bütün müdafiə vasitələri nəticə vermədikdə belə, məhkəmə hakimiyyəti vətəndaşları onların qanunla təminat verilən hüquq və azadlıqlarına istənilən müdaxilələrdən qorumağa xidmət edən dayaq kimi çıxış edir. Bu, həm hər bir ayrıca ölkə kontekstində, həm də qlobal kontekstdə ədalətlidir, çünki məhkəmə hakimiyyəti bütün dünyada hüququn aliliyinin təmini üçün əsas dayaq hesab edilir. Nəticə etibarilə, bütün dünya miqyasında məhkəmə hakimiyyətinin yüksək nüfuzunun təmin olunması xeyli enerji, güc və təcrübə tələb edən bir məsələdir.

2000-ci ildən fəaliyyət göstərən Məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupu qarşısına məhz bu vəzifəni qoymuşdur. Həmin Qrup bu nəcib məqsədə sədaqətlə xidmət etmək üçün öz təcrübə və biliklərini birləşdirmək qərarına gəlmiş, dünyanın müxtəlif ölkələrindən olan baş və böyük hakimlərin qeyri-rəsmi qrupu kimi fəaliyyətə başlamışdır. Yarandığı andan keçən müddət ərzində Qrup, nəticələri dünyanın bir çox ölkələrində məhkəmə hakimiyyətinə əhəmiyyətli təsir göstərən böyük işlər görmüşdür.

“Hakimlərin davranışı üzrə Banqalor prinsipləri” dünyanın bir çox yerlərində hakimlər və məhkəmə orqanları, həmçinin ədalət mühakiməsinin yüksək standartlarının təminində maraqlı olan beynəlxalq təşkilatlar tərəfindən layiqincə tanınmışdır. Bunun nəticəsi olaraq, “Banqalor prinsipləri”nə bütün məhkəmə orqanları və hüquq sistemləri tərəfindən qeyd-şərtsiz qəbul edilə bilən sənəd kimi baxılır. Bu prinsiplərdə ədalət mühakiməsinin həyata keçirilməsinə aid olan müxtəlif mədəniyyət və hüquq sistemlərinin ən dəyərli ənənələri öz əksini tapmışdır. Əsas dəyər və prinsiplər üzrə qarşılıqlı razılığa gəlmək heç də həmişə asan olmamış, lakin onların hamı tərəfindən qəbul edilməsi üçün Məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupunun qəti niyyəti bu yolda qarşısına çıxan bütün maneələri aşmağa imkan vermişdir.

Banqalor prinsipləri bir sıra ölkələrdə rəsmi qəbul olunmuş, digər ölkələrdə isə onların əsasında hakimlərin davranışına dair öz prinsipləri işlənib hazırlanmışdır. Həmçinin, beynəlxalq təşkilatlar da Banqalor prinsiplərini bəyənmiş və onların tam dəstəklənməsini bəyan etmişlər. Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurası 27 iyul 2006-cı il tarixli 2006/23 saylı qətnaməsində üzv-dövlətlərə öz daxili hüquq sistemlərinə uyğun olaraq hakimlərin və məhkəmə orqanları işçilərinin peşəkarlıq məcəlləsinin və etik davranış qaydalarının işlənib hazırlanması və ya nəzərdən keçirilməsi prosesində məhkəmə orqanlarına “Hakimlərin davranışı üzrə Banqalor prinsipləri”nin nəzərə alınmasını tövsiyə etməyi təklif etmişdir. “Banqalor prinsipləri”, həmçinin Amerika Hüquqşünaslar Assosiasiyası və Beynəlxalq Hüquqşünaslar Komissiyası tərəfindən də qəbul olunmuş və Avropa Şurası üzv-dövlətlərinin hakimləri tərəfindən yüksək qiymətləndirilmişdir.

“Banqalor prinsipləri”nin hər biri üzrə 1-2 mart 2007-ci ildə Vyanada keçirilmiş Hakimlərin davranışı üzrə əsas prinsiplərin möhkəmləndirilməsinə dair Hökumətlərarası açıq tərkibli ekspertlər Qrupunun müşavirəsində prinsiplərlə birlikdə müfəssəl şəkildə müzakirə olunmuş şərhlər hazırlanmışdır. Müşavirədə 35 ölkədən olan ekspertlər iştirak etmişlər. Şərhin layihəsi və təklif edilən düzəlişlər, həmçinin Məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupunun beşinci müşavirəsində ətraflı müzakirə olunmuş və müşavirə iştirakçıları tərəfindən qəbul edilmişdir. Həmin Şərh sənəddə olan hər bir prinsipi təfərrüatı ilə izah edir və “Banqalor prinsipləri”nin hakimlərin davranışı üzrə etik normaların ümumi bəyannaməsi qismində geniş miqyasda qəbul edilməsi üçün imkan yaradır.

Qeyd edilməlidir ki, hakimlərin vicdanlılığı və əxlaqi keyfiyyətlərinin yüksək standartları başlıca dəyərlər kimi təkcə bütün mövcud ənənəvi hüquq sistemlərində deyil, böyük dinlərin hamısında da bəyan edilir. Bunu nəzərə alaraq, Şərhə hakimlərin vicdanlılığı və ələalınmazlığına aid ayrı-ayrı dinlərlə təbliğ olunan qaydaların qısa icmalını əks etdirən əlavə daxil edilmişdir.

“Hakimlərin davranışı üzrə Banqalor prinsipləri” təkcə bütün ölkələrin məhkəmə orqanları üçün deyil, həm də geniş ictimaiyyət, habelə qüsursuz şəkildə yüksək əxlaqi prinsiplərə əsaslanan məhkəmə hakimiyyəti sisteminin mövcudluğu üçün möhkəm bünövrənin qurulması məsələsi barədə düşünənlər üçün potensial olaraq böyük dəyər təşkil edən vasitə kimi çıxış edir.

**K.Q.Veeramantri,**
*Məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupunun Sədri*

# Banqalor prinsiplərinə dair Kommentariyanın hazırlanması üzərində iş prosesi

## I. Məsələnin tarixinə dair

2000-ci ilin aprel ayında Birləşmiş Millətlər Təşkilatının Cinayətkarlığın beynəlxalq səviyyədə qarşısının alınması üzrə Mərkəzinin təşəbbüsü ilə və Cinayətkarlıqla mübarizə üzrə qlobal Proqram çərçivəsində, Birləşmiş Millətlər Təşkilatının Cinayətkarlığın qarşısının alınması və qanunu pozanlarla rəftar üzrə onuncu Konqresinin əməkdaşlığı ilə, Vyanada baş hakimlər qrupunun hazırlıq müşavirəsi olmuşdur. Görüşün məqsədi əldə olunmuş dəlillərə uyğun olaraq bir çox ölkələrdə, bütün qitələrdə korrupsiyalaşmış və ya başqa səbəblərdən qərəzli kimi görünən təsiri bağışladığı üçün insanların məhkəmə sisteminə olan inamını itirməyə başlaması problemini müzakirə etmək olmuşdur. Bu dəlillər göstərilən xidmətlərin keyfiyyətinin öyrənilməsi və məhkəmə orqanlarının ictimaiyyət tərəfindən qavranılması üzrə aparılmış sorğuların nəticələrinin təhlili, habelə bir sıra ölkələrin hökumətləri tərəfindən təsis edilmiş araşdırma komissiyalarının topladığı məlumatlar əsasında əldə edilmişdir. Problemin müxtəlif həlli yolları təklif olunsa və məhkəmə orqanlarının islahatı istiqamətində tədbirlər görülsə də, problem qalmaqda davam etmişdir. Müşavirə yeni yanaşma tərzinin tapılması imkanlarını müzakirə etmək üçün çağırılmışdır. İlk dəfə olaraq BMT-nin himayəsi altında hakimlərə məhkəmə sistemini özləri tərəfindən qaydaya salmaq; hakimlərin müstəqilliyi prinsipini tamamlaya biləcək hakimlərin məsuliyyəti və hesabat verməsi konsepsiyasını işləyib hazırlamaq və bununla, cəmiyyətin hüquq qaydasının təmin olunması sisteminə olan inamının səviyyəsinin artırılmasına kömək etmək təklif olunmuşdur. Dünyada müxtəlif hüquq ənənələrinin mövcudluğunu nəzərə alaraq, ilkin mərhələdə ümumi (anqlo-sakson) hüquq sistemləri ilə kifayətlənmək qərara alınmışdır. Buna uyğun olaraq, işdə ilk əvvəl qanunvericiliklər arasında böyük fərqliliklərə baxmayaraq, hüquq ənənələrinin eyniliyi ilə seçilən Asiya, Afrika və Sakit okean regionundan doqquz ölkənin nümayəndələri iştirak etmişlər.

## II. Məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupu

Məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupunun birinci müşavirəsi 15-16 aprel 2000-ci ildə BMT-nin Xidmətinin Vyanadakı mənzil-qərargahında baş tutmuşdur. Müşavirədə Banqladeşdən baş hakim Latifur Rahman, Hindistanın Karnataka ştatından baş hakim Bhaskar Rao, Nepaldan baş hakimi təmsil edən hakim Qovind Bahadur Şrestha, Nigeriyadan baş hakim M.L.Uvais, Cənubi Afrikanın Konstitusiya Məhkəməsi sədrinin müavini Pius Lanqa, Tanzaniya Birləşmiş Respublikasından sabiq baş hakim F.L.Nyalali və Uqandanın Məhkəmə Xidməti Komissiyasının sədri hakim B.C.Odoki iştirak etmişlər. BMT-nin Beynəlxalq Ədalət Məhkəməsinin vitse-prezidenti cənab Kristofer Qreqori Veeramantri qeyd olunan müşavirədə sədrlik, Avstraliyanın Yüksək Məhkəməsinin hakimi Maykl Kirbi isə məruzəçi kimi çıxış etmişdir. BMT-nin hakimlər və vəkillərin müstəqilliyi məsələləri üzrə Xüsusi məruzəçisi Dato Param Kumarasvami, Beynəlxalq Hakimlər Assosiasiyasının vitse-prezidenti, hakim (Dr) Ernst Markel və doktor Cuzeppe di Cenaro həmin müşavirədə müşahidəçi qismində iştirak etmişlər.

Məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupunun müşavirəsində iki qərar qəbul edilmişdir. Birincisi, Qrup məsələ ilə bağlı belə razılığa gəlmişdir ki, hakimlərin məsuliyyəti və hesabat verməsi prinsipi tələb edir ki, milli məhkəmə orqanları hakimlərin vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi naminə görülən işlərə fəal qatılmalı və bu istiqamətdə öz səlahiyyətləri və imkanları hüdudlarında sistem islahatların aparılmasına başlamalıdırlar. İkincisi, Qrup hakimlərin müstəqilliyi prinsipinə uyğun olan hakimlərin davranış standartları üzrə universal qəbul edilə biləcək, hakimlər icması tərəfindən hörmətlə istifadə olunacaq və son nəticədə icra və ya qanunvericilik hakimiyyətlərinin hər hansı müdaxiləsi olmadan məhkəmə orqanlarının özləri tərəfindən milli səviyyədə həyata keçiriləcək hesabatların işlənib hazırlanmasının zəruri olduğunu qəbul etmişdir. Müşavirədə iştirak edən hakimlər xüsusilə vurğulamışlar ki, hakimlərin müvafiq davranış standartlarının qəbul edilməsi və onlara riayət olunmasının təmin edilməsi hakimlər korpusuna ictimaiyyətin məhkəmə sisteminə olan hörmətinin möhkəmləndirilməsi və saxlanılması

istiqamətində irəliyə doğru ciddi addımın atılmasına imkan verəcəkdir. Onlar Məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupunun koordinatoru, doktor Nihal Cayavikramaya bir neçə yurisdiksiyalarda qəbul olunmuş hakimlərin davranış məcəllələrinin təhlilinin aparılması və aşağıdakılar barədə hesabatın hazırlanmasını təklif etmişlər: a) bütün bu növ məcəllələrdə rast gəlinən əsas müddəalar; və b) bəzi məcəllələrdə rast gəlinən və konkret ölkələrdə qəbul edilə bilən və ya bilməyən əlavə və ya qeyri-məcburi müddəalar.

### III. İstifadə edilmiş materiallar

Yuxarıda qeyd olunan prinsiplərə müvafiq olaraq hakimlərin davranış məcəlləsinin layihəsinin hazırlanması zamanı Məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupu tərəfindən aşağıdakılar daxil olmaqla, bir çox mövcud məcəllələr və beynəlxalq normativ aktlardan istifadə olunmuşdur:

*Milli məcəllələr*

a. Amerika Vəkillər Assosiasiyasının Nümayəndələr Palatası tərəfindən qəbul olunmuş Hakimlərin Davranış Məcəlləsi, avqust 1972-ci il;

b. Avstraliyanın baş hakimləri tərəfindən dərc olunmuş Hakimlərin müstəqillik prinsipləri barədə Bəyannamə, aprel 1997-ci il;

c. Banqladeş Xalq Respublikası Konstitusiyasının 96(4)(a) maddəsinə uyğun olaraq Hakimlərin Ali Şurası tərəfindən səlahiyyətlərin həyata keçirilməsi ilə əlaqədar qəbul olunmuş Banqladeş Ali Məhkəməsi Hakimlərinin Davranış Məcəlləsi, may 2000-ci il;

d. Kanada Hakimlərinin Konfransı ilə birgə hazırlanmış və Kanada Hakimlər Şurası tərəfindən 1998-ci ildə təsdiq edilmiş Hakimlər üçün Etik Prinsiplər;

e. ABŞ-ın Aydaxo ştatı Hakimlərinin Davranış Məcəlləsi, 1976-cı il;

f. Hindistan Baş Hakimlərinin Konfransı tərəfindən qəbul olunmuş Hakimlərin Davranış Normalarının Toplusu, 1999-cu il;

g. ABŞ-ın Ayova ştatı Hakimlərinin Davranış Məcəlləsi, 1976-cı il;

h. Keniya məhkəmələrinin vəzifəli şəxslərinin Davranış Məcəlləsi, iyul 1999-cu il;

i. Malayziya Federal Konstitusiyasının 125(3A) maddəsi ilə müəyyən edilən səlahiyyətlərin həyata keçirilməsi ilə əlaqədar Baş Hakim, Apellyasiya Məhkəməsinin sədri və Yüksək məhkəmələrin Baş hakimlərinin tövsiyəsi ilə Yanq di-Pertuan Aqonq tərəfindən daxil edilmiş Malayziya Hakimlərinin Davranış Normaları Məcəlləsi, 1994-cü il;

j. Namibiyada Hakimlərin Davranış Məcəlləsi;

k. ABŞ-ın Nyu-York ştatı Hakimlərinin Davranışını tənzimləyən Qaydalar;

l. Nigeriya Federativ Respublikası məhkəmələrinin vəzifəli şəxslərinin Davranış Məcəlləsi;

m. Pakistanın Ali Məhkəməsi və Yüksək Məhkəmələrinin hakimləri tərəfindən riayət edilməli olan Davranış Məcəlləsi;

n. Filippin Hakimlərinin Davranış Məcəlləsi, sentyabr 1989-cu il;

o. Filippin Vəkillər Assosiasiyasının təklif etdiyi, Manila birinci instansiya hakimləri tərəfindən təsdiq olunan və Ali Məhkəmənin inzibati nəzarətində olan hakimlər, o cümlədən bələdiyyə və şəhər hakimləri üçün rəhbər müddəa kimi nəzərdə tutulan və onlar tərəfindən riayət olunması məqsədilə qəbul edilən Filippin Məhkəmə Etikası Qaydaları;

p. Yandina bəyanatı: Solomon adalarında məhkəmə orqanlarının müstəqillik Prinsipləri, noyabr 2000-ci il;

q. Cənubi Afrikanın hakimləri üçün Baş hakim, Konstitusiya Məhkəməsinin sədri, Yüksək məhkəmələrin, əmək mübahisələri üzrə Apellyasiya Məhkəməsi və torpaq iddiaları üzrə Məhkəmənin sədrləri tərəfindən dərc edilmiş Təlimat, mart 2000-ci il;

r. Hakimlər və Magistratlar Konfransı tərəfindən qəbul edilmiş Tanzaniya məhkəmə vəzifəli şəxslərinin Davranış Məcəlləsi, 1984-cü il;

s. ABŞ-ın Texas ştatı Hakimlərinin Davranış Məcəlləsi;

t. Ali Məhkəmə və Yüksək Məhkəmənin hakimləri tərəfindən qəbul edilmiş Uqanda hakimləri, magistratları və məhkəmə vəzifəli şəxslərinin Davranış Məcəlləsi, iyul 1989-cu il;

u. Amerika Birləşmiş Ştatlarının Hakimlər Konfransı tərəfindən hazırlanmış Davranış Məcəlləsi;

v. Virginiya ştatının Ali Məhkəməsi tərəfindən qəbul edilərək yayılmış Virginiya ştatı Hakimlərinin Davranış Qaydaları;

w. ABŞ-ın Vaşinqton ştatının Ali Məhkəməsi tərəfindən qəbul edilmiş Hakimlərin Davranış Məcəlləsi, oktyabr 1995-ci il;

x. Zambiya Parlamenti tərəfindən qəbul edilmiş "Məhkəmə sistemi haqqında" Qanun (Davranış Məcəlləsi), dekabr 1999-cu il.

*Regional və Beynəlxalq hüquqi aktlar*

a. Beynəlxalq cinayət hüququ Assosiasiyası, Beynəlxalq Hüquqşünaslar Komissiyası, Hakimlərin və vəkillərin müstəqilliyi Mərkəzi tərəfindən çağırılmış ekspertlər komitəsinin hazırladığı Məhkəmə orqanlarının müstəqilliyi Prinsiplərinin layihəsi ("Sirakuz prinsipləri"), 1981-ci il;

b. Beynəlxalq Hüquqşünaslar Assosiasiyası tərəfindən qəbul edilmiş Hakimlərin müstəqilliyinin minimal Standartları, 1982-ci il;

c. BMT-nin Baş Assambleyası tərəfindən bəyənilmiş məhkəmə orqanlarının müstəqilliyinə dair Birləşmiş Millətlər Təşkilatının Əsas prinsipləri, 1985-ci il;

d. BMT-nin məhkəmə orqanlarının müstəqilliyinin araşdırılması üzrə Xüsusi məruzəçisi Dr L.V.Sinqxvi tərəfindən hazırlanmış Ədalət mühakiməsinin müstəqilliyi üzrə Ümumi Bəyannamənin layihəsi ("Sinqxvi Bəyannaməsi"), 1989-cu il;

e. Baş hakimlərin 6-cı Konfransı tərəfindən qəbul edilmiş Lavasia regionundakı (Lavasia – Asiya və Sakit okean ölkələri hüquqşünaslarının Assosiasiyası) məhkəmə orqanlarının müstəqilliyi prinsipləri barədə Pekin Bəyanatı, avqust 1997-ci il;

f. Harare Prinsiplərinin əməli tətbiqinin təmin edilməsi məqsədilə hüququn aliliyi prinsipinə və insan hüquqlarına riayət olunması, səmərəli idarəetmənin inkişafı üçün icra, qanunverici və məhkəmə orqanları arasındakı münasibətləri müəyyən edən optimal təcrübəyə dair Birlik ölkələri üçün Latimer Haus Təlimatı, 1998-ci il;

g. Hakimlərin statusu haqqında Avropa Xartiyası, Avropa Şurası, iyul 1998-ci il;

h. Hakimlərin və vəkillərin müstəqilliyi Mərkəzi tərəfindən yaradılmış ekspertlər qrupunun qəbul etdiyi korrupsiyanın qarşısının alınması və aradan qaldırılması və məhkəmə sisteminin qərəzsizliyinin təmin edilməsi üzrə Çərçivə Siyasəti, fevral 2000-ci il.

**IV. Hakimlərin Davranışı Kodeksinin Banqalor layihəsi**

Məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupunun ikinci müşavirəsi 24-26 fevral 2001-ci ildə Hindistanın Banqalor şəhərində baş tutmuşdur. Müşavirə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Beynəlxalq inkişaf Departamentinin köməkliyi və BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının Ofisinin maliyyə dəstəyi ilə keçirilmişdir. Qəbul edən tərəf Hindistanın Karnataka ştatının hökuməti və Yüksək Məhkəməsi

olmuşdur. Həmin müşavirənin gedişində Qrup təqdim edilmiş layihəni təhlil edərək əsas göstəriciləri müəyyən etmiş, mühüm prinsipləri formalaşdırmış və Hakimlərin Davranışı Məcəlləsinin Banqalor Layihəsinə (Banqalor Layihəsi) dair razılığa gəlmişdir. Bununla belə, Qrup Banqalor layihəsinin əsasən ümumi (anqlo-sakson) hüquq sistemi olan dövlətlərin hakimləri tərəfindən işlənib hazırlanmasını nəzərə alaraq, həmin layihəyə müvafiq qaydada təsdiqlənmiş hakimlərin davranışı üzrə beynəlxalq məcəllə statusunun verilməsi üçün onun digər hüquq sistemlərindən olan hakimlər tərəfindən öyrənilməsinin əhəmiyyətini vurğulamışdır.

Müşavirədə Banqladeşdən baş hakim Maynur Reza Çoudxuri, Hindistanın Karnataka ştatından baş hakim P.V.Reddi, Nepaldan baş hakim Keşav Prasad Upadhyay, Nigeriyadan baş hakim M.L.Uvais, Cənubi Afrikadan baş hakimin müavini Pius Lanqa, Şri-Lankadan baş hakim S.N.Silva, Tanzaniya Birləşmiş Respublikasından baş hakim B.A.Samatta və Uqandadan baş hakim B.C.Odoki iştirak etmişlər. Beynəlxalq Hüquqşünaslar Komissiyasının Prezidenti, Kanada Ali Məhkəməsinin hakimi Kler Lero Dyub müşavirənin xüsusi qonağı olmuşdur. Hakim Veeramantri müşavirədə sədrliyi etmiş, hakim Kirbi isə məruzəçi olmuşdur. BMT-nin hakimlər və vəkillərin müstəqilliyi məsələləri üzrə Xüsusi məruzəçisi Dato Param Kumarasvami və BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarını təmsil edən BMT-nin İnsan Hüquqları üzrə Komitəsinin sədri, hakim P.N.Bxaqvati həmin müşavirədə müşahidəçi qismində iştirak etmişlər.

### V. Müşavirə prosesi

Növbəti iyirmi ay müddətində Banqalor layihəsi ümumi (anqlo-sakson) və kontinental (roman-german) hüquq sistemlərindən olan ölkələrin hakimləri arasında geniş yayılmış və hakimlərin bütün hüquq sistemlərini əhatə edən 75-dən çox ölkədən olan baş və ali hakimlərin iştirak etdiyi bir neçə konfrans və müşavirələrində müzakirə edilmişdir. Amerika Vəkillər Assosiasiyasının təşəbbüsü ilə Banqalor layihəsi Mərkəzi və Şərqi Avropa ölkələrinin, xüsusilə Bosniya və Herseqovina, Bolqarıstan, Xorvatiya, Kosovo, Rumıniya, Serbiya və Slovakiyanın dövlət dillərinə tərcümə edilərək, həmin dövlətlərin hakimləri, hakimlər assosiasiyaları, Konstitusiya və Ali məhkəmələri tərəfindən nəzərdən keçirilmişdir. Banqalor layihəsinin mətninə əldə olunmuş şərhlərə uyğun olaraq düzəlişlər daxil edilmişdir.

2002-ci ilin iyun ayında Fransanın Strasburq şəhərindəki müşavirədə Banqalor layihəsi Avropa Hakimlərinin Məşvərət Şurasının İşçi Qrupu (CCJE-GT) tərəfindən kontinental (roman-german) hüquq sistemi hakimlərinin nöqteyi-nəzərindən hərtərəfli öyrənilmişdir. Həmin müşavirədə ətraflı və açıq fikir mübadiləsi aparılmışdır. Müşavirədə Avstriya Hakimlər Assosiasiyasının vitse-prezidenti Gerxard Raysner, Çex Respublikası Ali Məhkəməsinin hakimi Robert Fremr, Fransanın Paris Apellyasiya Məhkəməsinin sədri Alen Lakabarat, Almaniyanın Federal Administrativ Məhkəməsinin hakimi Otto Malmann, İtaliyadan magistrat Rafael Sabato, Litva Apellyasiya Məhkəməsinin hakimi Virqilius, Lüksemburq Apellyasiya Məhkəməsindən baş məsləhətçi Jan-Klod Vivinius, Portuqaliya Apellyasiya Məhkəməsindən məsləhətçi Orlando Afonso, Sloveniya Ali Məhkəməsinin hakimi Duzan Oqrizek, İsveç Apellyasiya Məhkəməsinin sədri Yoxan Hirşfeld və Birləşmiş Krallıqdan lord-hakim Mens (sədr) iştirak etmişlər.

Avropa Hakimlərinin Məşvərət Şurasının İşçi Qrupu tərəfindən dərc edilmiş şərhlərin Şuranın qeyd olunan məsələlərə dair digər rəyləri ilə yanaşı (xüsusən, “Hakimlərin dəyişilməzliyi və məhkəmə orqanlarının müstəqilliyinin standartları barədə” 1 №-li Rəy) Banqalor layihəsi üzərində aparılmış sonrakı iş üçün böyük əhəmiyyəti olmuşdur.

Banqalor layihəsinə düzəlişlər edilərkən, Avropa Hakimlərinin Məşvərət Şurası tərəfindən hakimlərin peşəkar davranışını tənzimləyən prinsiplər və qaydalar, xüsusən, etik normalar, qərəzsizlik və hakim vəzifəsinə uyğun olmayan davranış barədə hazırlanmış rəy, 2002-ci ildə Avstraliya Baş hakimlərinin Şurası tərəfindən dərc edilmiş Hakimlərin Davranış Qaydaları, Baltikyanı ölkələrdə hakimlərin davranışına dair Tipik Normalar, Çin Xalq Respublikasının hakimləri üçün Məhkəmə Etikası üzrə Məcəllə, Makedoniya Hakimlər Assosiasiyası tərəfindən hazırlanmış Məhkəmə Etik Məcəlləsi və hakimlərin davranışına dair digər məcəllələrin müddəaları nəzərə alınmışdır.

### VI. “Hakimlərin davranışı üzrə Banqalor prinsipləri”

Banqalor layihəsinin yenidən işlənmiş versiyası 25-26 noyabr 2002-ci ildə BMT-nin Beynəlxalq Məhkəməsinin mənzil-qərargahının yerləşdiyi Niderlandın Haaqa şəhərindəki Sülh Sarayının Yapon zalında kontinental (roman-german) hüquq sistemli ölkələrin baş hakimlərinin (və ya onların nümayəndələrinin) iştirakı ilə keçirilən "dəyirmi masa"nın müzakirəsinə çıxarılmışdır. Görüş Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Beynəlxalq inkişaf Departamentinin köməkliyi və BMT-nin Beynəlxalq cinayətkarlığın qarşısının alınması Mərkəzi və BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı İdarəsinin maliyyə dəstəyi ilə keçirilmiş və Haaqadakı Karnegi Fondunun baş direktorunun köməyi ilə təşkil edilmişdir.

Görüş BMT-nin Beynəlxalq Ədalət Məhkəməsinin sabiq Ad-Hoc hakimi və vitse-prezidenti hakim Veeramantrinin sədrliyi ilə keçirilmişdir. İştirakçıların arasında Braziliyanın Federal Apellyasiya Məhkəməsinin hakimi Vladimir de Freytas, Çex Respublikası Ali Məhkəməsinin baş hakimi İva Brozova, Misir Ali Konstitusiya Məhkəməsinin ali hakimi Mohammad Fətxi Naqib (hakim Dr Adel Ömər Şərifin köməkliyi ilə), Fransa Kassasiya Məhkəməsinin məsləhətçisi Kristin Şane, Meksika Milli Ali Məhkəməsinin sədri Cenaro David Qonqora Pimentel, Mozambik Ali Məhkəməsinin sədri Mario Manqaze, Niderland Ali Şurasının prezidenti Pim Haak, Norveç Ali Məhkəməsinin hakimi Trond Dolva və Filippin Ali Məhkəməsinin ali hakimi Hilario David (hakim Reynato S. Punonun köməkliyi ilə) olmuşlar. Bundan başqa, iclasların birində Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ədalət Məhkəməsinin hakimləri Raymond Ranceva (Madaqaskar), Geza Herçeq (Macarıstan), Karl-Avqust Fleyşhauer (Almaniya), Abdul G. Koroma (Syerra-Leone), Rozalin Xiqqins (Birləşmiş Krallıq), Fransisko Rezek (Braziliya), Nabil Elarabi (Misir), habelə Ad-Hoc hakim Tomas Frank (ABŞ) iştirak etmişlər. Görüşdə, həmçinin BMT-nin hakimlər və vəkillərin müstəqilliyi məsələləri üzrə Xüsusi məruzəçisi Dato Param Kumarasvami iştirak etmişdir.

Ümumi (anqlo-sakson) və kontinental (roman-german) hüquq sistemlərinin hakimləri Banqalor layihəsinə daxil edilmiş əsas dəyər və prinsiplərə münasibətdə əsasən vahid fikir birliyinə gəlsələr də, həmin sənəddə onların əks etdirilməsi sistemi və ardıcıllığına dair fikir ayrılığı yaranmışdır. Məsələn,

a) belə bir fikir səslənmişdir ki, müstəqillik, qərəzsizlik, həmçinin vicdanlılıq və ələalınmazlıq (bu qaydada) kimi göstəricilərə aid olan prinsiplər etik normalara riayət edilməsi və bərabərlik (hansılar ki Banqalor layihəsində ön planda olmuşdur) prinsiplərindən qabaqda olmalıdır.
b) Kontinental (roman-german) hüquq sistemlərinin hakimləri "məcəllə" termininin (hansı ki kontinental Avropa ölkələrində hüquq peşəsinin nümayəndələri adətən tam və qənaətbəxş bir hüquqi sənəd kimi başa düşürlər) istifadəsi ilə əlaqədar öz narahatlıqlarını bildirmişlər, xüsusən ona görə ki, peşəkar davranış standartları statut hüququ və ya intizam normalarından fərqlənir.
c) Banqalor layihəsinin preambulasında öz əksini tapan "məhkəmə hakimiyyətinin real mənbəyi ictimaiyyət tərəfindən hakimlərin mənəvi nüfuzunun, habelə vicdanlılığı və ələalınmazlığının qəbul edilməsi sayılır" tezisi şübhə altına alınmışdır. Belə bir fikir səslənmişdir ki, "real mənbə" konstitusiyadır və müəyyən hallarda məhkəmə hakimiyyətinin son nəticədə ictimaiyyət tərəfindən qəbul edilməsindən asılı olduğunu həddindən artıq vurğulamaq hətta təhlükəli də ola bilər.

Müəyyən edilmiş göstərici və prinsiplərin tətbiq edilməsi ilə bağlı kontinental (roman-german) hüquq sisteminin hakimləri tərəfindən:

a) Hakimlərin qərəzsizliyinə hər hansı mümkün - real və ya ehtimal olunan - təhlükədən asılı olmayaraq, onların ailə üzvlərinin maddi maraqları haqda məlumatlı olmaq (Banqalor layihəsinin tələb etdiyi kimi) vəzifəsini əks etdirən tezisin əsaslılığı şübhə altına alınmışdır;
b) Başqa şəraitdə işə baxılmasında iştirakdan kənarlaşdırılmalı olduğu halda, tərəflərin razılığı ilə hakimin özü-özünə etiraz etmək əvəzinə araşdırmada iştirak etməyə davam etməsi (ümumi (anqlo-sakson) hüquq sisteminin hakimləri bunu yol verilə bilən hal hesab etmişlər) tezisinin hüquqauyğun olmaması barədə fikir bildirilmişdir;
c) Banqalor layihəsində bəyan edilmiş vəkillərlə nikah və ya digər yaxın şəxsi münasibətlərin olması kimi kifayət qədər geniş yayılmış hallara yanaşma tərzinin hüquqauyğunluğu şübhə altına alınmış və təklif edilmişdir ki, bu hallarda diqqətin belə münasibətlərin qadağan

edilməsinə yox, hakimin həmin münasibətlərin digər tərəfinin iştirak etdiyi istənilən işə baxılması zamanı özü-özünə etiraz etmək vəzifəsinə yönəldilməsi məqsədəmüvafiqdir;

d) Sənədə "icazə verilən" məhkəmədənkənar fəaliyyət növlərinin siyahısının daxil edilməsinin əsaslılığı, habelə xeyriyyə təşkilatları adından maddi vəsaitlərin yığılması tədbirlərində iştirak etməyə, öz üzərinə vəsiyyətnamə icraçısının, etibarnamə əsasında idarə edənin və ya mülkiyyətçinin, qəyyumun və ya digər fidusiarinin vəzifələrini götürməyə, hər hansı bir şəxsin nüfuz və ya davranışına dair araşdırma komissiyasına daxil olmağı və yaxud şahid qismində ifadə verməyi qəbul etməyə dair qadağaların beynəlxalq norma kimi qəbul edilməli olması şübhə altına alınmışdır.

Lakin əsas fikir ayrılıqları siyasi fəaliyyətdə iştirak etmənin mümkünlüyü ilə bağlı yaranmışdır. Avropa ölkələrinin birində hakimlər onların partiya mənsubiyyəti nəzərə alınmaqla seçilirlər. Bəzi Avropa ölkələrində hakimlər siyasətlə məşğul olmaq və yerli şuralara (hətta bu zaman hakim kimi qalmaqla) və ya parlamentə (belə olan halda onların hakim statusu dayandırılmalıdır) seçilmək hüququna malikdirlər. Buna görə, kontinental (roman-german) hüquq sisteminin hakimləri indiki dövrdə hakimlərə siyasi fəaliyyətdə iştirak hüququnun verilib-verilməməsinə dair geniş beynəlxalq konsensusun mövcud olmamasını qeyd etmişlər. Belə bir fikir bildirilmişdir ki, hər bir ölkə hakimlərin bitərəf olması tələbi ilə onların cəmiyyət üçün əhəmiyyətli məsələlərə dair öz fikrini ifadə etmək azadlığına malik olmaq hüququ arasında ağlabatan tarazlığı öz mülahizəsinə əsasən müəyyən etməlidir. Ona görə də, siyasi partiyalara üzvlük və ya ciddi ictimai məsələlərin siyasi müzakirələrində iştirak qanunsuz hesab edilə bilməsə də, hakimlər onların müstəqilliyini sarsıda və ya qərəzsizliyini şübhə altına qoya biləcək belə siyasi fəaliyyətdən mümkün qədər çəkinməlidirlər.

"Hakimlərin davranışı üzrə Banqalor prinsipləri" bu müşavirənin nəticəsi olmuşdur. Sənəddə müstəqillik, qərəzsizlik, vicdanlılıq və ələalınmazlıq, etik normalara riayət edilməsi, bərabərlik, həmçinin səriştəlilik və çalışqanlıq kimi əsas göstəricilər öz əksini tapmışdır. Hər bir göstəricidən sonra müvafiq prinsiplərin xülasəsi və onların tətbiq edilməsinə dair ətraflı göstərişlər verilmişdir.

### VII. İnsan hüquqları üzrə Komissiya

"Hakimlərin davranışı üzrə Banqalor prinsipləri" 2003-cü ilin aprel ayında BMT-nin İnsan hüquqları üzrə Komissiyasının əlli doqquzuncu sessiyasında BMT-nin hakimlər və vəkillərin müstəqilliyi məsələləri üzrə Xüsusi məruzəçisi Dato Param Kumarasvaminin təqdim etdiyi məruzəsinə əlavə edilmişdir. 29 aprel 2003-cü il tarixdə yekdilliklə qəbul etdiyi 2003/43 saylı qətnaməsində Komissiya "Hakimlərin davranışı üzrə Banqalor prinsipləri"ni nəzərə alaraq, bu prinsipləri "baxılması üçün Birləşmiş Millətlər Təşkilatı sisteminin müvafiq orqanlarının, üzv-dövlətlərinin, habelə hökumətlərarası və qeyri-hökumət təşkilatlarının diqqətinə çatdırmışdır".

2004-cü ilin aprel ayında İnsan hüquqları üzrə Komissiyanın altmışıncı sessiyasında BMT-nin hakimlər və vəkillərin müstəqilliyi məsələləri üzrə yeni Xüsusi məruzəçisi doktor Leandro Despui qeyd etmişdir:

*Komissiya məhkəmə hakimiyyəti sistemində olan korrupsiya təzahürünün dünya miqyasında yayılması ilə əlaqədar narahatlığını bildirmişdir. Bu təzahür parlamentlər tərəfindən məhkəmə sisteminə ayrılan pul vəsaitlərinin məqsədli olmayan istifadəsi qismində olan iqtisadi korrupsiyadan və ya "şirinlik" şəklində hakimlərə verilən maddi vəsaitlərdən (buna, o cümlədən hakimlərin məvaciblərinin aşağı olması da uyğun zəmin yaradır) xeyli kənara çıxır. Bu, həmçinin məhkəmə hakimiyyətinin daxili inzibati problemləri (aşkarlığın olmaması, gəlirli yerlərin sistemi) ilə də bağlı ola və məhkəmə hakimiyyətinin siyasiləşdirilməsi, hakimlərin hər hansı qruplardan asılı olması, eləcə də məhkəmə himayədarlığının hər hansı formalarının mövcudluğu nəticəsində məhkəmə prosesinə və qərarların çıxarılmasına da təsir göstərə bilər. Bu, xüsusilə ona görə ciddi məsələdir ki, cəmiyyətin hüquqları pozulduğu halda onların etibarlı və qərəzsiz hüquqi müdafiəsinin təmin edilməsi və mənəvi nüfuzun qorunması hakimlərin və məhkəmə orqanları işçilərinin əsas vəzifələrindən biridir.*

*Belə əməllərin ciddi olması ilə yanaşı, bəzi ölkələrdə ictimaiyyət tərəfindən məhkəmə hakimiyyətinin korrupsiyalaşmış kimi qəbul edilməsi faktı aşağıdakı xüsusilə ağır nəticələrə səbəb olur: ədalət mühakiməsinə qarşı inamsızlıq demokratiyanı və inkişaf prosesini zəhərləyir və korrupsiyanın artmasına gətirib çıxarır. Bununla əlaqədar məhkəmə etikası normaları mühüm əhəmiyyət kəsb edir. İnsan hüquqları üzrə Avropa məhkəməsinin təcrübəsində vurğulandığı kimi, hakimlər qərəzsizliyin*

*obyektiv meyarlarına uyğun qaydada hərəkət etməklə yanaşı, onlara riayət edilməsini də nümayiş etdirməlidirlər; demokratik cəmiyyətdə məhkumların məhkəməyə olan inamının başlıca əhəmiyyəti vardır. Bununla bağlı, müəllifləri tərəfindən iki əsas ənənəvi hüquq sistemlərinə (ümumi (anqlo-sakson) və kontinental (roman-german)) əsas diqqət yetirilərək, Komissiyanın əlli doqquzuncu sessiyasında nəzərə alınmış "Hakimlərin davranışı üzrə Banqalor prinsipləri"nin yayılması və praktiki tətbiq edilməsinin mühümlüyünə qiymət verilir.*

Xüsusi məruzəçi "Banqalor prinsipləri"nin (yaxşı olardı ki dövlət dillərində) bütün ali hüquq təhsil müəssisələrinə və hakimlərin və vəkillərin peşəkar assosiasiyalarına təqdim edilməsini tövsiyə etmişdir.

## VIII. "Hakimlərin davranışı üzrə Banqalor prinsipləri"nin Şərhi

Məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupunun üzvləri 2005-ci ilin oktyabr ayında Vyanada keçirilmiş dördüncü müşavirəsində qeyd etmişlər ki, hakimlər, vəkillər və hüquq islahatçıları "Banqalor prinsipləri"nin praktiki tətbiq edilməsi məsələsi üzrə şərhin və ya rəhbər müddəalar kimi izahlı memorandumun işlənib hazırlanmasının zəruriliyini dəfələrlə bildirmişlər. Qrup razılaşmışdır ki, bu cür şərh və ya memorandum hakimlər və ya hakimlərin peşəkar etikasını tədris edən müəllimlər tərəfindən təkcə "Banqalor prinsipləri"nin məntiqini və orada əks olunan müxtəlif mədəniyyətlərin qəbul etdiyi standartların başa düşülməsinə deyil, həm də rast gəlinə biləcək müxtəlif problem və məsələlərə həmin prinsip və göstəricilərin tətbiq edilməsi mümkünlüyünün daha dərindən dərk edilməsinə kömək edə bilər. Bu səbəbdən, Qrup koordinatora sonradan baxılması və bəyənilməsi üçün Qrupa təqdim ediləcək şərhin işçi variantının hazırlanmasını həvalə etməyi qərara almışdır.

## IX. Cinayətkarlığın qarşısının alınması və Cinayət ədalət mühakiməsi Komissiyası

2006-cı ilin aprel ayında Vyanada keçirilmiş Cinayətkarlığın qarşısının alınması və Cinayət ədalət mühakiməsi Komissiyasının əllinci sessiyasının iştirakçıları İqtisadi və Sosial Şuraya Misir, Fransa, Almaniya, Nigeriya və Filippin hökumətlərinin iştirakı ilə hazırlanmış və "Hakimlərin davranışının əsas prinsiplərinin möhkəmləndirilməsi" adlanan qətnamə layihəsinin qəbul edilməsini yekdilliklə tövsiyə etmişlər. Layihədə göstərilmişdir ki, İqtisadi və Sosial Şura:

a) Üzv-dövlətlərə təklif edir ki, öz daxili hüquq sistemlərinə uyğun olaraq hakimlərin və məhkəmə orqanları işçilərinin peşəkarlıq məcəlləsi və etik davranış normalarının işlənib hazırlanması və ya baxılması prosesində məhkəmə orqanlarına "Hakimlərin davranışı üzrə Banqalor prinsipləri"ni (qətnaməyə əlavə edilən) nəzərə almağı tövsiyə etsinlər;
b) Qeyd edir ki, "Hakimlərin davranışı üzrə Banqalor prinsipləri" özündə BMT-nin Baş Assambleyası tərəfindən onun 40/32 və 40/146 saylı qətnamələrində bəyənilmiş Məhkəmə orqanlarının müstəqilliyinin Əsas prinsiplərinin sonrakı inkişafını əks etdirir və bu prinsipləri tamamlayır;
c) Məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupu tərəfindən Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və cinayətkarlıq üzrə İdarəsinin himayəsi altında, habelə digər beynəlxalq və regional məhkəmə forumlarında məhkəmə orqanlarının müstəqilliyi, qərəzsizliyi, vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi üzrə görülmüş mühüm işləri tanıyır;
d) Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və cinayətkarlıq üzrə İdarəsindən Məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupuna işində bundan sonra da köməklik göstərilməsini xahiş edir;
e) Məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupunun işinin dəstəklənməsi üçün könüllü ödənişlər edən üzv-dövlətlərə təşəkkürünü bildirir;
f) Üzv-dövlətlərə Məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupunun dəstəklənməsi üçün Birləşmiş Millətlər Təşkilatının Cinayətkarlığın qarşısının alınması və Cinayət ədalət mühakiməsi Komissiyasının Fonduna lazımi qaydada könüllü ödənişlərin edilməsini və Korrupsiyaya qarşı mübarizə üzrə Qlobal proqram çərçivəsində inkişaf edən və keçid iqtisadiyyatı olan ölkələrə onların xahişi ilə

məhkəmə orqanlarının potensialı, vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi məqsədilə texniki yardımın göstərilməsini təklif edir;

g) Üzv-dövlətlərdən "Hakimlərin davranışı üzrə Banqalor prinsipləri"nə dair öz rəylərini, zərurət olarsa, yenidən baxılmış müddəaları əlavə etməklə, BMT-nin Baş Katibinə göndərməyi xahiş edir;

h) Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və cinayətkarlıq üzrə İdarəsindən Məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupunun və digər beynəlxalq və regional məhkəmə forumlarının əməkdaşlığı ilə, üzv-dövlətlər tərəfindən verilmiş rəylər və yenidən baxılmış müddəalar nəzərə alınmaqla, "Hakimlərin davranışı üzrə Banqalor prinsipləri"nə dair şərhin işlənib hazırlanması məqsədilə açıq tərkibli hökumətlərarası ekspertlər qrupunun müşavirəsini təşkil etməyi xahiş edir;

i) BMT-nin Baş Katibindən Birləşmiş Millətlər Təşkilatının Cinayətkarlığın qarşısının alınması və Cinayət ədalət mühakiməsi Komissiyasının on altıncı sessiyasında qətnamənin icrası barədə məruzə etməyi xahiş edir.

**X. İqtisadi və Sosial Şura**

27 iyul 2006-cı ildə Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurası səsvermə keçirmədən "Hakimlərin davranışının əsas prinsiplərinin möhkəmləndirilməsi" adlanan 2006/23 saylı qətnaməni qəbul etmişdir.

**XI. Hökumətlərarası ekspert Qrupunun müşavirəsi**

2006-cı ilin mart ayında Məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupunun koordinatoru, doktor Nihal Cayavikrama tərəfindən hazırlanmış "Hakimlərin davranışı üzrə Banqalor Prinsipləri"nə dair Şərhin layihəsi adı çəkilən Qrupun və açıq tərkibli hökumətlərarası ekspertlər qrupunun BMT-nin Narkotiklər və cinayətkarlıq üzrə İdarəsinin təşəbbüsü ilə çağırılmış birgə müşavirəsinin müzakirəsinə verilmişdir. Müşavirə hakim Veeramantrinin və Cənubi Afrikadan olan baş hakim Pius Lanqanın sədrliyi ilə keçirilmişdir. Müşavirədə iştirak edən Məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupunun üzvləri arasında Uqandadan baş hakim B.C.Odoki, Tanzaniya Birləşmiş Respublikasından baş hakim B.A.Samatta, Misirdən baş hakimin müavini doktor Adel Ömər Şərif və Nigeriyadan sabiq baş hakim M.L.Uvais olmuşlar. Avstraliya Yüksək Məhkəməsinin hakimi M.D.Kirbi müşavirədə iştirak etmək imkanına malik olmamış və öz yazılı şərhlərini təqdim etmişdir.

Hökumətlərarası ekspert qrupunun müşavirəsində, o cümlədən aşağıdakı hakimlər, hökumət strukturlarının nümayəndələri və ekspertlər iştirak etmişlər: Əlcəzairdən magistrat Noura Xaçani; Argentina Ali Məhkəməsinin vitse-prezidenti, hakim Yelena Hayton de Nolasko; Azərbaycandan hakimlər Nazim Tağıyev, Rauf Quliyev və Gülmirzə Cavadov; Dominikan Respublikasından doktor Oktavio Lister; Misir Ali Konstitusiya Məhkəməsinin hakimləri Mohammed Ali Seif və Elxam Nquib Navar; Finlandiyadan dairə məhkəməsinin hakimi Riita Kiiski; Fransa Kassasiya Məhkəməsinin məsləhətçisi və BMT-nin İnsan Hüquqları üzrə Komitəsinin sədri, hakim Kristin Şane; Almaniya dairə məhkəməsinin hakimi Xansyorq Şerer; Macarıstan Ali Məhkəməsinin hakimi Ursula Vezekenyi; İndoneziyanın baş hakiminin müavini professor Doktor Paulus Efendi Lotulunq; İran İslam Respublikasından hakim Mohammadali Şaxheydaripur; Latviya Ədliyyə Nazirliyində dövlət katibinin müavini Kaspars Berkis; Liviya Ərəb Cümhuriyyətindən doktor Muftah Mohamed Kazit, Abdel-Hakim Alfituri Al-Hamruni, Naqi Abdel-Salam Burkan və Ahmed El Halam; Moldovadan Briy Prikop; Kasablanka Apellyasiya Məhkəməsi Palatasının sədri, hakim Abdellətif Çerkaui; Mərakeş Ali Məhkəməsi Palatasının sədri, hakim Xədicə Uazzani Touhami və məsləhətçi Butayna Benmussa; Namibiya Ali Məhkəməsinin hakimi Kollins Parker; Nepal Ali Məhkəməsinin hakimi Ram Kumar Prasad Şax; Niderland Xarici İşlər Nazirliyindən İnsan hüquqları və sülhün möhkəmləndirilməsi məsələləri üzrə məsləhətçi Dennis de Yonq; Nigeriyadan Milli Məhkəmə İnstitutunun administratoru, hakim Adepoju Oyeyipo, Federal Ədliyyə Nazirliyindən Baş Dövlət Müşavirinin köməkçisi Filomena Çinve Uvandu və Milli Məhkəmə İnstitutunun doktorantı Hadiza İbrahim Said; Pakistan Xarici İşlər Nazirliyindən direktor Syed Hayder Şax; Panamadan Hiomara Bulgin de Vilson; Rumıniya Ədliyyə Nazirliyindən məsləhətçi

Kristi Danilet; Koreya Respublikasından hakim Hyonq-Von Be; Serbiya Ədliyyə Nazirliyindən Yovan Kosiç; İspaniyadan Barselona Apellyasiya Məhkəməsinin kommersiya mübahisələri üzrə bölməsinin sədri, hakim İqnasio Sanço Qaraqalyo; Şri-Lanka Ədliyyə və Hüquq İslahatları Nazirliyinin daimi katibi Suhada Qamlat; Suriya Ərəb Respublikasının Daimi Missiyasından Başar Safiey; Uqandadan Genri Haduli; və Amerika Birləşmiş Ştatlarının Ədliyyə Nazirliyindən baş məsləhətçi Kevin Driskoll.

Digər iştirakçılar arasında Amerika Hüquqşünaslar Assosiasiyasının Qanunvericilik Təşəbbüsü Qaydası layihəsindən Olqa Ruda və Saymon Konte; Avropa Şurası Avropa Hakimlərinin Məşvərətçi Şurasından lord Conatan Mens; Alman Texniki Əməkdaşlıq Cəmiyyətindən (Deutsche Gesellschaft für Technische Zusammenarbeit) doktor Dedo Geynits, Yohanna Beate Vislyux və Georq Xuber-Brabenvarter; İtaliyanın Bolonya şəhərinin Hüquq sistemlərinin öyrənilməsi İnstitutundan professor Cuzeppe di Federiko və doktor Françesko Kontini; İtaliyanın Sirakuz şəhərinin Beynəlxalq Kriminologiya İnstitutundan Covanni Pasqua və hakim Xaled Axmed; BMT-nin İnkişaf Proqramından Arkan El Seblani; BMT-nin Narkotiklər və cinayətkarlıq üzrə İdarəsindən Kit Volts, doktor Styuart Gilman, doktor Oliver Stolpe, Fil Matşeza, Aleksandra Suza Martins və Uqonnaya Qreys Ezekvem; Tanzaniya Birləşmiş Respublikasından baş hakimin şəxsi katibi Ferdinand L.K.Vambali, Şri-Lankadan vəkil Neşan Qunasekera olmuşlar.

Müşavirə iştirakçıları Şərhin layihəsinə, hər bir paraqrafını ayrıca müzakirə etməklə, təfsilatı ilə baxmışlar. Məsləhətləşmələr əsasında Şərhin layihəsinə müvafiq düzəlişlər edilmişdir. Aşağıdakı Şərhin məqsədi “Hakimlərin davranışı üzrə Banqalor prinsipləri”nin düzgün anlaşılmasının təmin edilməsindən ibarətdir.

## XII. Mənbələr

Şərhin hazırlanmasında bir çox mənbələrdən istifadə olunmuşldur. Onlara beynəlxalq hüquqi aktlar, hakimlərin davranışını tənzimləyən milli məcəllələr və onların şərhləri, beynəlxalq, regional və milli məhkəmələr tərəfindən qəbul edilmiş qərarlar, məhkəmə etikası üzrə komitələrin rəyləri və elmi əsərlər daxildir.

Şərhdə istifadə edilən ifadələrin mənbələri haşiyələrdə göstərilmişdir. Müxtəlif hüquq sistemlərində istifadəsinin mümkün olması üçün adaptasiya olunmuş regional və ya milli mənbələrdən götürülmüş rəy və şərhlərin mənbəyi mətndə göstərilmir. Lakin istifadə edilmiş bütün mənbələr kitabın III bölməsinə, həmçinin “Seçilmiş ədəbiyyat” bölməsinə daxil edilmişdir. Üç mənbəni xüsusi qeyd etmək lazımdır: Kanada Məhkəmə Şurası tərəfindən hazırlanmış *Hakimlər üçün peşə etikası Prinsipləri* (1998); *Avropa Hakimlərinin Məşvərətçi Şurasının Rəyi* (2001-2006-cı illər), Avropa Şurası; və *Hakimlərin Davranışı üzrə Qaydalar* (2004), Çin Xalq Respublikasının Honq Konq xüsusi inzibati regionu.

# HAKİMLƏRİN DAVRANIŞI ÜZRƏ BANQALOR PRİNSİPLƏRİ

## PREAMBULA

**Hər bir şəxsə onun hüquq və vəzifələrinin müəyyən edilməsi, həmçinin cinayətin törədilməsində təqsirliliyi məsələsi ilə bağlı işinə müstəqil məhkəmə tərəfindən ədalətlilik və qərəzsizlik rəhbər tutulmaqla açıq məhkəmə iclası şəraitində baxılması hüququnun bərabər əsaslarla təqdim edilməsini başlıca prinsip kimi tanıyan İnsan Hüquqları üzrə Ümumi Bəyannaməni NƏZƏRƏ ALARAQ,**

*Şərh*

**İnsan Hüquqları üzrə Ümumi Bəyannamə**

1. 10 dekabr 1948-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən qəbul və bəyan edilmiş İnsan Hüquqları üzrə Ümumi Bəyannamənin 10-cu maddəsində göstərilir ki:

*Hər bir şəxs onun hüquq və vəzifələrinin və ona qarşı irəli sürülmüş cinayət ittihamının əsaslılığının müəyyən edilməsi üçün tam bərabərlik əsasında onun işinə müstəqil və qərəzsiz məhkəmə tərəfindən açıq şəkildə və ədalətliliyin bütün tələblərinə riayət olunmaqla baxılması hüququna malikdir.*

2. BMT-nin üzv-dövlətlərinin yekdilliklə qəbul etdikləri İnsan Hüquqları üzrə Ümumi Bəyannamədə onların BMT-nin Nizamnaməsinə əsasən hörmətlə yanaşmağı və riayət etməyi öhdələrinə götürdükləri hüquqların xarakterinin "ümumi anlayışı" öz əksini tapmışdır. İnsan Hüquqları üzrə Ümumi Bəyannamə insan hüquqlarına aid müddəaların hərtərəfli ifadə olunduğu və qlobal miqyasda tətbiq edilə bilən ilk sənəd olmuşdur. Ümumi Bəyannamə özü-özlüyündə hüquqi baxımdan məcburi hüquqi akt kimi düşünülməmişdir: bu, məhz bəyannamədir, müqavilə deyil. Lakin həmin sənəd BMT-nin Nizamnaməsində əks olunan "əsas hüquq və azadlıqlar" ifadəsinin anlaşılması və təfsir edilməsi üçün əsaslandırılmış rəhbər müddəalar kimi qiymətləndirilir. Həqiqətən də, artıq 1971-ci ildə məhkəmə qaydasında tanınmışdır ki, "Bəyannamənin müddəalarının beynəlxalq müqavilədə olan məcburedici qüvvəyə malik olmamasına baxmayaraq, onlar adət əsasında... və ya adət hüququnun məcəlləşdirilməsinin nəticəsi olduğundan... və yaxud qanun qismində qəbul edilməklə təşəkkül tapan təcrübə vasitəsilə adət qüvvəsi aldığından, dövlətlər üçün öhdəliklər yarada bilər".[18]

---

[18] *Legal Consequences for States of the Continued Presence of South Africa in Namibia (South-West Africa) Notwithstanding Security Council Resolution 276 (1970)*, ICJ Reports 1971, separate opinion of Vice-President Ammoun, at p.76.

**Bütün vətəndaşların məhkəmə qarşısında bərabərliyinə, həmçinin hər bir şəxsin onun hüquq və vəzifələrinin müəyyən edilməsi, habelə cinayətin törədilməsində təqsirliliyi məsələsi ilə bağlı işinə qanunla müəyyən edilmiş qaydada səlahiyyətli və müstəqil məhkəmə tərəfindən ədalətlilik və qərəzsizlik rəhbər tutulmaqla açıq məhkəmə iclasında ağlabatan müddətdə baxılması hüququna təminat verən Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakti NƏZƏRƏ ALARAQ,**

*Şərh*

**Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt**

3. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 14-cü maddəsinin 1-ci bəndində, o cümlədən qeyd edilir ki:

*Bütün şəxslər məhkəmələr və tribunallar qarşısında bərabərdirlər. Hər kəs ona qarşı irəli sürülmüş istənilən cinayət ittihamına baxılarkən və ya hər hansı mülki prosesdə onun hüquq və vəzifələri müəyyən edilərkən, qanun əsasında yaradılmış səlahiyyətli, müstəqil və qərəzsiz məhkəmə tərəfindən işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.*

4. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt 16 dekabr 1966-cı ildə BMT-nin Baş Assambleyası tərəfindən yekdilliklə qəbul edilmiş və BMT-nin Baş Katibinin depozitinə otuz beşinci ratifikasiya sənədi qoyulduqdan üç ay sonra, 23 mart 1976-cı ildə qüvvəyə minmişdir. 20 iyul 2007-ci il tarixinə 160 dövlət Paktı ratifikasiya etmiş və ya həmin sənəddə nəzərdə tutulan müddəaları beynəlxalq hüquq çərçivəsində öhdəlik kimi üzərinə götürərək ona qoşulmuşdur.

**Dövlətlərin öhdəlikləri**

5. Hər hansı bir dövlət Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktı ratifikasiya etdikdə və ya ona qoşulduqda, dövlətdaxili hüquq çərçivəsində üç öhdəliyi öz üzərinə götürür. Birincisi, həmin dövlət "irqindən, dərisinin rəngindən, cinsindən, dilindən, dinindən, siyasi və digər əqidələrindən, milli və sosial mənşəyindən, əmlak vəziyyətindən və ya digər hallardan asılı olmayaraq" "onun ərazi hüdudlarında və yurisdiksiyası altında olan bütün şəxslərin" göstərilən Paktda tanınan hüquqlarına "hörmətlə yanaşmaq və onları təmin etmək" öhdəliyini üzərinə götürür. İkincisi, Paktın iştirakçısı olan hər bir dövlət özünün daxili konstitusion prosedurlarına və bu Paktın müddəalarına müvafiq olaraq həmin hüquq və azadlıqların həyata keçirilməsinin təmin edilməsi üçün zəruri ola biləcək qanunverici və digər tədbirlərin görülməsini öhdəsinə götürür. Üçüncüsü, Paktın iştirakçısı olan hər bir dövlət hüquq və ya azadlığı pozulmuş istənilən şəxsə, hətta bu pozuntu rəsmi fəaliyyət göstərən şəxslər tərəfindən törədilmiş olsa belə, səmərəli hüquqi müdafiə vasitəsini təmin etməyi; belə müdafiəni tələb edən istənilən şəxs üçün hüquqi müdafiə hüququnun səlahiyyətli məhkəmə, inzibati və ya qanunvericilik hakimiyyətləri, yaxud dövlətin hüquq sistemi ilə nəzərdə tutulmuş digər səlahiyyətli orqanlar tərəfindən müəyyən edilməsini və məhkəmə müdafiəsi imkanlarının genişləndirilməsini təmin etməyi; və təqdim edildiyi təqdirdə, hüquqi müdafiə vasitələrinin səlahiyyətli orqanlar tərəfindən tətbiqini təmin etməyi öhdəsinə götürür.

**Beynəlxalq hüququn statusu**

6. Beynəlxalq hüququn statusu, bir qayda olaraq, dövlətdaxili hüquq sistemi çərçivəsində milli hüquqla müəyyən olunur. Buna uyğun olaraq, müxtəlif yurisdiksiyalar çərçivəsində müxtəlif qaydalar tətbiq edilir. Monistik nəzəriyyəni dəstəkləyən ölkələrdə beynəlxalq və daxili hüquq eyni məsələyə paralel şəkildə tətbiq edilir və onlar arasında kolliziya olduqda beynəlxalq hüquq üstünlüyə malik olur. Dualistik nəzəriyyəyə önəm verən ölkələrdə isə, beynəlxalq və daxili hüquqa müxtəlif sahələri tənzimləyən iki fərqli hüquq sistemi kimi baxılır. Onlar bir-birini istisna edir və heç biri digərinə beynəlxalq hüquq milli hüquqa inkorporasiya edilənə qədər təsir etmir. Bu cür yanaşmanın səbəblərindən biri odur ki, müqavilənin bağlanması icra hakimiyyətinin aktıdır, lakin həmin müqavilədə nəzərdə tutulan müddəaların icrası özü-özlüyündə qüvvədə olan dövlətdaxili qanunvericiliyin dəyişdirilməsinə təsir edirsə, bu artıq qanunvericilik aktının qəbul edilməsi zərurətini ortaya çıxarır. Lakin hal-hazırda dualizm nəzəriyyəsinə üstünlük verən dövlətlərin bir çoxu tərəfindən insan hüquq və azadlıqlarının tanınması və onlara riayət edilməsinə məcburi tələb kimi və yaxud dövlətdaxili hüquq normalarının müəyyən edilməsinə təsir göstərən və həmin normalarda öz əksini tapan bir məfhum kimi baxılır.

**Yuxarıda göstərilən əsas prinsiplərin və hüquqların, həmçinin insan hüquqları üzrə yerli aktlarda, milli konstitusiyalarda, statut və ümumi hüquqda, məhkəmə adət və ənənələrində tanınmasını və öz əksini tapmasını NƏZƏRƏ ALARAQ,**

*Şərh*

**İnsan Hüquqları üzrə Avropa Konvensiyası**

7. 1950-ci ildə qəbul edilmiş İnsan hüquq və azadlıqlarının müdafiəsi üzrə Avropa Konvensiyasının 6-cı maddəsində, o cümlədən göstərilir ki:

*Hər kəs onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı irəli sürülmüş hər hansı cinayət ittihamına baxılarkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsilə ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.*

**İnsan Hüquqları üzrə Amerika Konvensiyası**

8. İnsan hüquq və azadlıqlarının müdafiəsi üzrə Amerika Konvensiyasının 8-ci maddəsinin 1-ci bəndində, o cümlədən göstərilir ki:

*Hər kəs ona qarşı irəli sürülmüş hər hansı cinayət xarakterli ittihamın əsaslandırılması və ya mülki, əmək, maliyyə və ya istənilən digər xarakterli hüquq və vəzifələrinin müəyyən edilməsi ilə əlaqədar qanun əsasında əvvəlcədən yaradılmış səlahiyyətli, müstəqil və qərəzsiz məhkəmə tərəfindən müvafiq təminatlarla və ağlabatan müddətdə işinə baxılması hüququna malikdir.*

**İnsan və xalqların hüquqlarına dair Afrika Xartiyası**

9. 1981-ci il tarixli İnsan və xalqların hüquqlarına dair Afrika Xartiyasının 7-ci maddəsinin 1-ci bəndində göstərilir ki:

*Hər kəs onun işinə baxılması hüququna malikdir. Buna aiddir:*

*(e) İşə qərəzsiz məhkəmə tərəfindən ağlabatan müddətdə baxılması hüququ.*

Xartiyanın 26-cı maddəsi ilə bəyan edilir ki:

*Hazırkı Xartiyanın iştirakçı-dövlətləri məhkəmələrin müstəqilliyini təmin etməyə borcludurlar...*

**Bütün digər hüquqların həyata keçirilməsi bütövlükdə ədalət mühakiməsinin düzgün həyata keçirilməsindən asılı olduğu üçün insan hüquqlarının qorunması məsələsində məhkəmə orqanlarının səlahiyyətli, müstəqil və qərəzsiz olmasının böyük əhəmiyyət kəsb etdiyini NƏZƏRƏ ALARAQ,**
**Məhkəmələrin konstitusionalizm və hüquq qaydasının müdafiəsi üzrə öz vəzifələrinin yerinə yetirilməsi üçün məhkəmə orqanlarının səlahiyyətli, müstəqil və qərəzsiz olmasının böyük əhəmiyyət kəsb etdiyini NƏZƏRƏ ALARAQ,**

*Şərh*

**Konstitusionalizm**

10. Konstitusionalizm anlayışı aşağıdakı kimi izah edilir:

"*Konstitusionalizm ideyası ictimai hakimiyyətin həyata keçirilməsinin qanunvericilik və icra hakimiyyəti aktlarının həyata keçirilməli olduğu proseduru nəzərdə tutan və onların məzmununun yolverilən hədlərini müəyyən edən qaydalarla məhdudlaşmalı olduğu qaydaları nəzərdə tutur. Konstitusionalizm reallığının dərəcəsi bu qaydaların özbaşınalığı və şəxsi mülahizəni məhdudlaşdırması, siyasi hakimiyyətə malik olanlar tərəfindən həmin qaydalara real əməl edilməsi dərəcəsindən, habelə hakimiyyətin müdaxiləsindən azad olan "qadağa zonalarında" şəxsi azadlığın həyata keçirilməsi üçün kifayət qədər şəraitin olması dərəcəsindən asılıdır".*[19]

**Hüququn aliliyi prinsipi**

11. Məhkəmə orqanlarının müstəqilliyi və qərəzsizliyinin hüquq qaydası və qanunun hakimiyyətinin təmin edilməsində əhəmiyyəti aşağıdakı kimi izah olunur:

*"Məhkəmə orqanlarının müstəqilliyinin cəmiyyət üçün əhəmiyyəti ondan ibarətdir ki, yalnız hüquq və qanunun hökm sürdüyü cəmiyyət azad sayılır... o qanunun ki həm hökmdarların, həm də təbəələrin hərəkətlərini məhdudlaşdırır, qərəzsiz surətdə tətbiq edilir və qarşısında bütün şəxslər - müəyyən edilən müdafiə vasitələrinə ehtiyacı olanlar və əleyhinə bu vasitələr tətbiq olunanlar - bərabərdirlər. Hüququn aliliyinin tərifi nə qədər mücərrəd və qanunun hökmranlığı haqqında fikirlər nə qədər qeyri-müəyyən olsa da, insanların – həm kişilərin, həm də qadınların qəlbində bu prinsipə doğru həmişə müsbət meyl olmuşdur. Onun icrası hakimlər tərəfindən qanunun nə dərəcədə bacarıqlı və qərəzsiz tətbiq edilməsindən asılıdır. Bu məsuliyyətli vəzifənin yerinə yetirilməsi hakimlərin müstəqil olması ilə yanaşı, onların ətrafdakılar tərəfindən də belə qəbul olunmalarını tələb edir. Bizlərdə elə təsəvvür formalaşmışdır ki, məhkəmələrin müstəqilliyi onların icra hakimiyyətinin göstərişindən asılı olmamaları kimi başa düşülür... Lakin bu gün qəbul edilən qərarlar o qədər müxtəlif və əhəmiyyətlidir ki, həmin qərarların qəbul edilməsi zamanı qərəzliliyə səbəb olan və ya səbəb ola biləcək istənilən kənar təsirdən asılı olmamağın təmin edilməsi zərurəti barədə danışmaq lazımdır. İcra hakimiyyətindən asılı olmamaq baxılan məsələnin əsas elementi sayılır, lakin o, artıq müstəqilliyin yeganə əhəmiyyətli göstəricisi hesab olunmur".*[20]

**Məhkəmə orqanlarının müstəqilliyi və qərəzsizliyi**

12. İndiki dövrdə məhkəmə orqanlarının müstəqilliyi və qərəzsizliyi konsepsiyasına daha geniş çərçivədən baxılır.

*"Məhkəmə orqanlarının müstəqilliyi barədə istənilən məsələ qalxdıqda, son nəticədə növbəti suala cavab verilməlidir:"nədən müstəqillik"? Əlbəttə ki bu suala ən aşkar cavab belə səslənəcək: "hakimiyyətdən olan müstəqillik". Zənnimcə, qərar qəbul etmək vəzifəsi daşıyan hakimlərin icra hakimiyyətindən asılı olmamasını mümkün edən hər hansı bir halı təsəvvür etmək çox çətindir. Lakin məhkəmələr qanunvericilik hakimiyyətinin yaratdığı qanunlardan söhbət getdiyi hallar istisna olmaqla, həmçinin həmin hakimiyyətdən də asılı olmamalıdır. Hakimlər parlamentdə səsləndirilmiş fikirlərə tabe olmamalı, habelə baxdıqları işlər üzrə qərarları yalnız parlament tərəfindən bəyənilmək və ya tənqidə məruz qalmamaq məqsədilə qəbul etməməlidirlər. Həmçinin, hakimlər unutmamalıdırlar ki, onların qərəzsizliyinə olan etibar hər hansı peşəkar, kommersiya, şəxsi və ya hər hansı digər assosiativ təsəvvürlərə görə sarsılmamalıdır".*[21]

---

[19] S.A. de Smith, *The New Commonwealth and its Constitutions* (London, Stevens, 1964), p.106.
[20] Sir Gerard Brennan, Chief Justice of Australia, "Judicial Independence", The Australian Judicial Conference, 2 November 1996, Canberra, available from www.hcourt.gov.au.
[21] Lord Bingham of Cornhill, Lord Chief Justice of England, "Judicial Independence", *Judicial Studies Board Annual Lecture 1996*, available from www.jsboard.co.uk.

**Cəmiyyətin məhkəmə sisteminə, həmçinin məhkəmə orqanlarının əxlaqı, vicdanlılığı və ələalınmazlığı məsələlərində məhkəmə sisteminin nüfuzuna olan inamının demokratik cəmiyyətdə birinci dərəcəli rol oynadığını NƏZƏRƏ ALARAQ,**

*Şərh*

**Cəmiyyətin məhkəmə sisteminə olan inamı**

13. Məhz cəmiyyətin məhkəmələrin müstəqilliyinə, hakimlərin vicdanlılığı və ələalınmazlığına, məhkəmə proseslərinin qərəzsizliyinə və kəsərliliyinə olan inamı dövlətin məhkəmə sisteminin mövcudluğuna dəstək verir. Bir hakimin qeyd etdiyi kimi:

*"Məhkəmənin nüfuzu nə pul kisəsinə, nə də qılınca deyil, son nəticədə cəmiyyətin onun qərar qəbul etməyə mənəvi haqqının olmasına dair inamına əsaslanır. Cəmiyyətin məhkəməyə bəslədiyi bu cür münasibət onun istənilən siyasi proseslərdən tam – faktiki və kənardan görünən – kənarlaşması ilə dəstəklənməlidir; məhkəmə özünün hər hansı siyasi qüvvələrin toqquşmasına və ya siyasi sazişlərə cəlb olunmasına imkan verməməlidir".*[22]

[22] *Baker v. Carr*, Supreme Court of the United States of America, (1962) 369 US 186, per Justice Frankfurter.

**Hakimlərin cəmiyyət tərəfindən onlara göstərilən inamın dərəcəsini anlamaqla fərdi və kollektiv qaydada öz vəzifələrinə hörmət və şərəflə yanaşmalarının və cəmiyyətin məhkəmə sisteminə olan inamının saxlanması və artırılması üçün lazımi səy göstərmələrinin zəruriliyini NƏZƏRƏ ALARAQ,**

*Şərh*

**Kollektiv məsuliyyət**

14. Hakim yüksək davranış standartlarına əməl edilməsi ilə yanaşı, həmin standartların müəyyən edilməsi, dəstəklənməsi və onlara riayət olunması üzrə kollektiv işdə iştirakını da özünə borc bilməlidir. Hakimin hətta yalnız bir gərəksiz davranışı məhkəmənin mənəvi nüfuzuna düzələ bilməyən zərər yetirə bilər.

**Məhkəmənin vəzifəsi**

15. Bir baş hakim onun məhkəmə dairəsinə yenidən təyin edilmiş hakimlərə aşağıdakı nitqlə müraciət etmişdir:

*Hakimin vəzifəsi qanuna tam müvafiq olaraq ədalət mühakiməsinin həyata keçirilməsi qismində olan ən mühüm işdə cəmiyyətə xidmət etməkdən ibarətdir. Sizin vəzifəniz sizə belə bir imkan verir və bu, sizə bağışlanmış bir imtiyazdır. Sizin vəzifəniz xidmət tələb edir və bu sizin borcunuzdur. Şübhəsizdir ki, sizin bu vəzifəni qəbul etmək üçün kifayət qədər həm şəxsi, həm də peşəkar xarakterli səbəbləriniz olmuşdur, lakin hakim yalnız xidmət etdiyi borcun cəmiyyət üçün olan əhəmiyyətini dərk etdiyi halda müvəffəqiyyətə nail olmaqla yanaşı, ona həvalə olunmuş vəzifələrin icrasından məmnun qalacaqdır. Sülh, azadlıq, hüquq qaydası və lazımi idarəetmə - yəni, cəmiyyətin qiymətləndirdiyimiz dəyərləri son nəticədə hakimin öz vəzifəsini nə dərəcədə düzgün yerinə yetirməsindən asılıdır. Qanun cəmiyyətdə yalnız o halda hökmranlıq edir ki, həmin cəmiyyət hakimlərin vicdanlılığına, ələalınmazlığına və onlara həvalə olunmuş vəzifələrin onlar tərəfindən lazımi qaydada icra edilməsi qabiliyyətinə əmindir. Bunu bilməklə, siz vəzifənizin nə dərəcədə əhəmiyyətli olduğu qənaətinə gələ bilərsiniz. İşiniz öz yeniliyini itirdikdə, sizi gözləyən saysız-hesabsız işlər Sizif yükünü xatırlatdıqda və təxirə salınmış qurtarmayan qərarların çoxluğu təngə gətirməyə başladıqda, sizi irəliyə doğru həvəsləndirən yeganə motiv xidmətinizin cəmiyyət üçün necə vacib olduğunu dərk etməyiniz olacaqdır.*

*Siz vəzifənizdən irəli gələn səlahiyyətlərin həyata keçirilməsində xüsusi hüquqa malik olmaqla yanaşı, həmin vəzifə səlahiyyətləri üzərinizdən götürülən zaman onu ləkəsiz tərk etməyə borclusunuz. Hərəkətləriniz və ya söylədikləriniz – istər cəmiyyətdə, istərsə də şəxsi həyatınızda – cəmiyyət tərəfindən xidmətinizin qəbul edilməsinə və bu xidmətə cəmiyyətin göstərməli olduğu hörmətə təsir edəcəkdir. Ziyafətdən sonra evinizə maşınla qayıdarkən polis tərəfindən saxlanılma və ya vergi bəyannaməsində gəlirlərin miqdarını azaldılmış şəkildə göstərmə riski geniş ictimai rezonansa səbəb ola bilər. Sizin dedikləriniz və etdikləriniz məlum olduğu kimi "şübhələrdən kənar olmalı olan" Sezarın arvadına tətbiq edilən standartlarla ölçüləcəkdir, siz öz vəzifəniz barədə həqiqətən yüksək fikrin tərəfdarı olduğunuz üçün isə, bu həm də sizin rəhbər tutacağınız standartlardır. Bu standartlar həm böyük, həm də kiçik əhəmiyyətli məsələlərə aiddir. Müəyyən məsələlərdə xırda nağd pul və ya hakimin əvəzinə bəzi xərclərin ödənilməsi əslində böyük məna daşıya bilər.*

*Sizdə hakim vəzifəsi ilə yaranan fəxarət hissi ciddiliklə uyğunlaşmalıdır: siz sələfləriniz tərəfindən müəyyən edilmiş və cəmiyyətin sizdən gözlədiyi standartlara həqiqətən uyğun olmağa qadir ola bilməyinizdən əmin olmalısınız. Elə hakimlər var ki, özlərinə o dərəcədə əmindirlər ki, cəmiyyətin onlardan gözlədiyi iş səviyyəsi və keyfiyyətinə nail olmaq qabiliyyətlərinə şübhə ilə yanaşmaq ağıllarına belə gəlmir. Bildiyimə görə, özünə bu cür arxayın olan hakimlərdən heç biri sonda bunu edə bilməmişdir. Təbii ki, siz təcrübə toplamaqla üzərinizə vəzifənizlə qoyulan öhdəlikləri nə dərəcədə layiqli yerinə yetirməyiniz barədə az narahatlıq hissi keçirəcəksiniz. Lakin bu, nailiyyətlərinizlə razı qalmağınızdan daha çox bacarıqlarınızın real dərk edilməsi ilə bağlıdır. Əgər insan hər işi həqiqətən ən yüksək səviyyədə görməyə cəhd edirsə, özünün hansısa şəxsi çatışmazlıqlarına görə narahatlıq keçirməsi buna yalnız zərər yetirəcəkdir. Əqli təvazökarlıq (kənardan görünməyən olsa da), mənəvi borc və şəxsi ləyaqət hissləri, məhkəmə prosesi zamanı sənin hər bir addımının cəmiyyət və həmkarların tərəfindən*

*izlənilməsinin dərk edilməsi hakimləri özlərinin maksimal bacarıqlarını nümayiş etdirməyə vadar edən amillər hesab olunur.*

*... Siz bu gün var-dövləti ilə yox, cəmiyyətə xidmət etməklə fəxr edən elitanın bir hissəsi oldunuz və ya olmaqdasınız; bu elitaya aid olmağınız böyük şəxsi razılığınızın və fəxrinizin mənbəyi ola bilər. Gördüyünüz işə görə alacağınız haqq sizi varlı etməyəcəkdir; siz özləri üçün başqa yol seçmiş dostlarınızdan daha gərgin və daha çox işləyəcəksiniz; məhkəmədə dediyiniz hər bir sözünüz və ya məhkəmə ilə bağlı olan istənilən hərəkətiniz, digər söz və hərəkətləriniz kimi eyni dərəcədə cəmiyyət tərəfindən tənqid obyekti ola bilər; çox vaxt əsassız olan və cavabsız qalan danlaqlar cəmiyyətin hakimlərə hörmətini sarsıda bilər. Əgər sizdə qanuna uyğun olaraq həyata keçirdiyiniz ədalət mühakiməsi sayəsində cəmiyyətə xidmət etmək niyyəti vardırsa, bu halda sizi işinizdən məmnunluq hissi ilə dolu həyat gözləyir. Vicdanlı və alicənab olun və hər şey yaxşı olacaqdır".*[23]

---

[23] Sir Gerard Brennan, Chief Justice of Australia, addressing the National Judicial Orientation Programme, Wollongong, Australia, 13 October 1996. Nitqin tam mətni üçün bax, www.hcourt.gov.au/speeches/brennanj/brennanj_wollong.htm

**Hakimlərin yüksək davranış standartlarının dəstəklənməsi və həvəsləndirilməsinin hər bir dövlətin məhkəmə orqanlarının bilavasitə vəzifəsi hesab olunduğunu NƏZƏRƏ ALARAQ,**

*Şərh*

**Hakimlərin davranış məcəlləsinin layihəsinin hazırlanması**

16. Arzuolunandır ki, istənilən davranış məcəlləsi və ya hakimlərin peşəkar davranışı prinsiplərinin ona bənzər izahı hakimlər korpusunun öz nümayəndələri tərəfindən işlənib hazırlansın. Bu, məhkəmə orqanlarının müstəqilliyi və hakimiyyətlərin bölgüsü prinsiplərinə uyğun olardı. Bir çox ölkələrdə qanunverici və icra orqanları tərəfindən bu orqanların üzvlərinin davranışını tənzimləyən qaydalar və onların riayət etməli olduqları etik normalar müəyyən edilmişdir. Ona görə də, məhkəmələrdə işləyən şəxslər üçün də analoji qaydaların hazırlanması məqsədəmüvafiq görünür. Əgər məhkəmə orqanları hakimlərin onlardan gözlənilən yüksək standartlara uyğun davranışını təmin etmək məsuliyyətini öz üzərinə götürə bilməzsə və ya bundan imtina edərsə, ictimai rəy və siyasi məqsədyönlülük hakimiyyətin digər iki budağını bu işə müdaxilə etməyə vadar edə bilər. İşlərin bu cür vəziyyəti üzərində məhkəmə hakimiyyəti sisteminin qurulduğu və həmin sistem tərəfindən dəstəklənən hakimlərin müstəqilliyi prinsipini ciddi surətdə sarsıda bilər.

**Məhkəmə orqanlarının müstəqilliyinə dair Birləşmiş Millətlər Təşkilatının Əsas prinsiplərinin məhkəmə orqanlarının müstəqilliyini təmin etməyə və dəstəkləməyə yönəldiyini və başlıca olaraq dövlətlərə ünvanlandığını NƏZƏRƏ ALARAQ,**

*Şərh*

**Məhkəmə orqanlarının müstəqilliyinə dair BMT-nin Əsas prinsipləri**

17. Məhkəmə orqanlarının müstəqilliyinə dair BMT-nin Əsas prinsipləri Birləşmiş Millətlər Təşkilatının Cinayətkarlığın qarşısının alınması və qanunu pozanlarla rəftar üzrə yeddinci Konqresi tərəfindən 1985-ci ilin sentyabr ayında İtaliyanın Milan şəhərində qəbul edilmiş və BMT-nin Baş Assambleyasının 40/32 saylı 29 noyabr 1985-ci il tarixli Qətnaməsi ilə bəyənilmişdir. Tezliklə bundan sonra 40/46 saylı 13 dekabr 1985-ci il tarixli Qətnaməsində Baş Assambleya göstərilən Prinsipləri "salamlayaraq", hökumətləri "onları nəzərə almağa və öz milli qanunvericilik və təcrübələri çərçivəsində hörmətlə yanaşmağa" çağırmışdır. "Üzv-dövlətlərə məhkəmə orqanlarının müstəqilliyinin təmin edilməsi və möhkəmləndirilməsi məsələlərinin həll edilməsində kömək etmək məqsədilə hazırlanmış" Əsas prinsiplər aşağıdakı müddəaları nəzərdə tutur:

*MƏHKƏMƏ ORQANLARININ MÜSTƏQİLLİYİ*

1. Məhkəmə orqanlarının müstəqilliyinə dövlət tərəfindən təminat verilir və ölkənin konstitusiyasında və ya digər qanunlarında təsbit edilir. Bütün dövlət və digər təşkilatlar məhkəmə orqanlarının müstəqilliyinə hörmətlə yanaşmalı və ona əməl etməlidir.

2. Məhkəmə orqanları baxılması üçün onlara verilmiş işləri qərəzsiz, faktlar əsasında və qanuna müvafiq olaraq, hər hansı şəxs tərəfindən hər hansı səbəbdən birbaşa və ya dolayısıyla edilən hər hansı məhdudiyyət, qanunsuz təsir, niyyət, təzyiq, hədə və ya müdaxilə olmadan həll edirlər.

3. Məhkəmə orqanları məhkəməyə aid olan bütün məsələlərə dair səlahiyyətə və baxılması üçün onlara verilmiş işlərin qanunla müəyyən edilmiş yurisdiksiyasına aid olub-olmamasını həll etmək müstəsna hüququna malikdir.

4. Ədalət mühakiməsi prosesinin həyata keçirilməsinə heç bir qanunsuz və ya icazəsiz müdaxiləyə yol verilməməlidir və məhkəmələr tərəfindən çıxarılmış məhkəmə qərarlarına yenidən baxıla bilməz. Bu prinsip məhkəmə qərarlarına yuxarı məhkəmələr tərəfindən qanuna uyğun olaraq yenidən baxılmasına və ya çıxarılmış hökmlər üzrə cəzaların yüngülləşdirilməsinə maneçilik törətmir.

5. Hər kəs qanunla müəyyən edilmiş hüquqi prosedurları tətbiq edən adi məhkəmələrdə və ya tribunallarda məhkəmə araşdırılması hüququna malikdir. Adi məhkəmələrin və ya məhkəmə orqanlarının səlahiyyətlərini əvəzləmək məqsədilə qanunla lazımi qaydada müəyyən edilmiş hüquqi prosedurları tətbiq etməyən tribunallar təşkil edilməməlidir.

6. Məhkəmə orqanlarının müstəqilliyi prinsipi məhkəmə orqanlarına hüquq verməklə yanaşı, onlardan məhkəmə araşdırmasının ədalətli aparılması və tərəflərin hüquqlarına riayət olunmasının təmin edilməsini tələb edir.

7. Hər bir üzv-dövlət məhkəmə orqanlarının öz funksiyalarını lazımınca yerinə yetirməsinə imkan verən müvafiq vasitələri təqdim etməyə borcludur.

*BİRLƏŞMƏK VƏ SÖZ AZADLIĞI*

8. İnsan Hüquqları üzrə Ümumi Bəyannaməyə uyğun olaraq məhkəmə orqanlarının üzvləri digər vətəndaşlar kimi birləşmək, toplaşmaq, söz və vicdan azadlıqlarından istifadə edirlər; lakin belə hüquqlardan istifadə edərək, hakimlər məhkəmə orqanlarının qərəzsizliyi və müstəqilliyinin saxlanılması və öz vəzifəsinə ətrafdakılarda hörmət hissinin təmin olunması üçün müvafiq tərzdə davranmalıdırlar.

9. Hakimlər özlərinin assosiasiyalarını və ya digər təşkilatlarını yaratmaq və öz maraqlarının müdafiə edilməsi, peşə hazırlıqlarının təkmilləşdirilməsi və özünün məhkəmə müstəqilliyinin qorunması üçün onlara daxil olmaq azadlığına malikdirlər.

### *İXTİSASLAŞDIRILMA, SEÇİM VƏ HAZIRLIQ*

10. Hakim vəzifəsinə seçilmiş şəxslər yüksək əxlaqi keyfiyyətlərə və bacarıqlara, habelə hüquq sahəsində müvafiq hazırlığa və ixtisasa malik olmalıdırlar. Hakimlərin seçilməsinin istənilən metodu onların qanunsuz motivlərə görə təyin olunmasını istisna etməlidir. Hakimlərin seçimi zamanı onların irqindən, dərisinin rəngindən, cinsindən, dinindən, siyasi və sair baxışlarından, milli və ya sosial mənşəyindən, əmlak və ya digər vəziyyətindən asılı olmayaraq ayrı-seçkiliyə yol verilməməlidir; lakin hakim vəzifəsinə namizədin müvafiq dövlətin vətəndaşı olması tələbi ayrı-seçkilik kimi qəbul edilməməlidir.

11. Hakimlərin səlahiyyət müddəti, qərəzsizliyi, təhlükəsizliyi, müvafiq məvacib alması, iş şəraiti, pensiyaları və pensiyaya çıxma yaşına qanunla lazımi qaydada təminat verilməlidir.

12. Təyin olunan və ya seçilən hakimlərin səlahiyyət müddətinin bitməsinə və ya pensiyaya məcburi çıxma yaşına qədər təminat verilmiş səlahiyyət müddəti vardır.

13. Hakimlərin vəzifədə yüksəlişinə imkan verən sistemdə yüksəliş obyektiv – xüsusilə, bacarıq, təcrübə, əxlaqi keyfiyyətlər - amillərə görə həyata keçirilməlidir.

14. Aid olduqları məhkəmələrdə hakimlər arasında işlərin bölüşdürülməsi məhkəmə aparatının daxili işi sayılır.

### *PEŞƏ SİRRİ VƏ İMMUNİTET*

15. Hakimlər öz işinə və açıq məhkəmə araşdırılması halları istisna olmaqla, vəzifələrinin yerinə yetirilməsi zamanı aldıqları məxfi məlumatlara dair peşə sirrini qorumağa borcludurlar və belə məsələlərlə əlaqədar ifadə verməyə məcbur edilməməlidirlər.

16. Dövlətdaxili hüquqa əsasən hər hansı intizam proseduru, şikayət etmək hüququ və ya dövlət tərəfindən kompensasiya ödənilməsi məhdudlaşdırılmadan, hakimlər öz məhkəmə funksiyalarının icrası zamanı yol verdikləri qeyri-düzgün hərəkət və ya hərəkətsizliklər nəticəsində dəyən maddi zərərlə bağlı onlara qarşı mülki iddialardan şəxsi immunitetə malik olmalıdırlar.

### *TƏNBEHETMƏ, VƏZİFƏDƏN KƏNARLAŞDIRMA VƏ AZAD ETMƏ*

17. Xidməti və peşə vəzifələrinin icrası zamanı hakimdən şikayət verildikdə, həmin şikayətə müvafiq prosedura əməl edilərək qərəzsiz və təxirəsalınmadan baxılmalıdır. Hakim, barəsində ədalətli araşdırmanın aparılması hüququna malikdir. Hakim başqa xahişlə müraciət etməzsə, ilkin mərhələdə şikayətə baxılması məxfi olmalıdır.

18. Hakimlər yalnız xidməti vəzifələrini yerinə yetirə bilmək qabiliyyətinə malik olmadıqda və ya tutduqları vəzifəyə uyğun olmayan davranışlarına görə həmin vəzifədən kənarlaşdırıla və ya azad edilə bilərlər.

19. Bütün tənbeh tədbirləri, vəzifədən kənarlaşdırma və ya azad etmə prosedurları məhkəmə davranışının mövcud qaydalarına uyğun olaraq müəyyən edilməlidir.

20. İntizam tənbehinin tətbiq edilməsi, vəzifədən kənarlaşdırılma və ya azad edilmə barədə qərarlar müstəqil yoxlamanın predmeti olmalıdır. Həmin prinsip ali məhkəmələrin qərarlarına və ya qanunverici orqanlar tərəfindən işlərə impiçment qaydasında və ya analoji prosedurlara riayət etməklə baxılması zamanı qəbul edilən qərarlara tətbiq edilməyə bilər.

**AŞAĞIDAKI PRİNSİPLƏR hakimlərin etik davranış standartlarının müəyyən edilməsi məqsədini daşıyır. Onlar rəhbər müddəalar kimi istifadə edilməsi üçün hakimlərə və hakimlərin davranışının tənzimlənməsinin əsas prinsipləri qismində istifadə olunması üçün məhkəmə orqanlarına ünvanlanmışdır. Bundan başqa, həmin prinsiplər ədalət mühakiməsinin həyata keçirilməsi prosesinin icra və qanunvericilik hakimiyyətləri, vəkillər və ümumilikdə cəmiyyət tərəfindən daha yaxşı başa düşülməsinə və dəstəklənməsinə kömək etməyə yönəlmişdir. Hazırkı prinsiplər hakimlərin öz davranışında məhkəmə standartlarının dəstəklənməsi və onların davranışını tənzimləyən mövcud norma və qaydaların əhəmiyyətinin artırılması məqsədini güdən, müstəqil və qərəzsiz şəkildə fəaliyyət göstərən müvafiq orqanlara hesabat verməli olduqlarını nəzərdə tutur.**

*Şərh*

**Əsas və ümumtanınmış dəyərlər**

18. Altı əsas və ümumtanınmış dəyərlərə əsaslanan prinsiplər haqda aşağıdakı bəyanat, həmçinin hər bir prinsipin tətbiqinə dair göstərişlər rəhbər müddəalar kimi istifadə edilməsi üçün hakimlərə və hakimlərin davranışının milli davranış məcəlləsi və ya digər mexanizmlə tənzimlənməsinin baza prinsipləri qismində istifadə olunması üçün məhkəmə orqanlarına ünvanlanmışdır. Rəhbər müddəa qismində az əhəmiyyətli edə bildiyi üçün bu prinsiplərdən hər birinin tətbiqi ilə bağlı göstərişlər çox da ümumi xarakter daşımır; bununla belə, onlar həddindən artıq konkret də olmamalıdır, çünki bu, həmin prinsipləri hakimlərin gündəlik həyatlarında rastlaşdıqları müxtəlif məsələlərin əksəriyyətinə münasibətdə qeyri-mütənasib edə bilər. Lakin qeyd olunan göstərişlər müəyyən adaptasiyaya məruz qalmağı tələb edə bilər ki, onların ayrı-ayrı yurisdiksiyalar kontekstində tətbiqi mümkün olsun.

**Heç də hər bir pozuntuya görə intizam tədbiri tətbiq edilməməlidir.**

19. Hakimlərin davranış prinsipləri hakimlər tərəfindən riayət edilməli olan normaları müəyyən etmək məqsədi daşımasına baxmayaraq, onlar bu prinsiplərdən hər hansı birinin ehtimal olunan pozuntusuna görə intizam icraatının başlanılmasını nəzərdə tutmur. Göstərilən prinsiplərə hakim tərəfindən əməl edilməməsinin heç də hər bir halı pozuntu (və ya qeyri-qanuni davranış) kimi çıxış etmir. İntizam tədbirlərinin tətbiqinin zəruruliyi məsələsi pozuntunun ağırlıq dərəcəsi, qanunsuz hərəkətlərin təkrarlığı və onların başqa şəxslərə və ümumilikdə məhkəmə sisteminə olan təsiri kimi amillərdən asılıdır.

**Məhkəmə orqanlarının rolunun anlaşılması**

20. Demokratik dövlətlərdə məhkəmə orqanlarının rolunun anlaşılma dərəcəsi, xüsusən də hakimin mümkün sosial və siyasi təzyiqin təsiri altına düşmədən qanunu qərəzsiz tətbiq etmək vəzifəsinin anlaşılması ölkədən ölkəyə fərqlidir. Müvafiq olaraq, cəmiyyətin məhkəmələrin fəaliyyətinə olan inamının səviyyəsi də ölkələrə görə fərqlənir. Ona görə də, məhkəmə orqanlarının funksiyaları və hakimlərin rolu barədə adekvat məlumat məhkəmələrin demokratik konstitusional sistemin təməli kimi və onların fəaliyyəti ilə bağlı olan məhdudlaşmaların daha yaxşı anlaşılması üçün real kömək edə bilər. Hazırkı prinsiplər qanunvericilik və icra hakimiyyətlərinin nümayəndələri, habelə vəkillər, məhkəmə araşdırmasının tərəfləri və ictimaiyyətin nümayəndələri tərəfindən hakim vəzifəsinin təbiətinin, hakimlərin həm məhkəmə iclasında, həm də məhkəmədən kənarda əməl etməli olduqları yüksək davranış standartlarının, həmçinin onların üzərlərinə düşən vəzifələri həmin çərçivədə icra etməli olduqları məhdudiyyətlərin daha yaxşı anlaşılmasına kömək etməyə yönəlmişdir.

**Davranış standartlarının zəruriliyi**

21. Hakim vəzifəsinin yüksək statusuna uyğun davranış standartlarının müəyyən edilməsi zərurəti hakimlərdən biri tərəfindən aşağıdakı kimi əsaslandırılmışdır:

"*Şübhə doğurmayan haldır ki, hakimlərdən istər məhkəmə iclasında, istərsə də ondan kənarda müəyyən davranış standartlarına riayət etmələri gözlənilir. Bu ümidlər nə ilə bağlıdır? Onlar yalnız*

*ayrıca götürülmüş bir hakimin müvafiq davranışını və ya konkret peşəkar qrup tərəfindən həm özünün, həm də cəmiyyətin maraqları naminə müəyyən davranış standartlarına riayət edilməsini nəzərdə tutur? Göstərilən məsələ prinsipial olduğuna görə bununla bağlı bir sıra mülahizələr bildirilməlidir.*

*Biz cəmiyyətdə müəyyən qrupu təşkil edirik. Biz hörmətli bir peşənin elitasıyıq. Bizə kifayət qədər böyük hakimiyyət verilib və biz etibar edilmiş səlahiyyətləri günbəgün həyata keçiririk. Həmin səlahiyyətlərin həyata keçirilməsinin işlərini həll etməli olduğumuz insanların həyat və talelərinə son dərəcə böyük təsiri vardır. Vətəndaşlar öz talelərinin nə vaxtsa bizdən asılı olmayacağına əmin ola bilməzlər. Onlar düzgünlüyü, peşə səriştəliliyi və ya şəxsi keyfiyyətləri şübhə altında olan bir şəxsə bu cür hakimiyyət və səlahiyyətlərin verilməsinə çətin ki razı olarlar. Ona görə də, hüquq sisteminin bildiyimiz formada olan bütövlük və ayrılmazlığının təmin edilməsi üçün bu gözləntilərə inamın dəstəklənməsinə yönələn müvafiq davranış - həm peşəkar fəaliyyətdə, həm də məhkəmədən kənarda – standartlarının olması zəruridir".*[24]

---

[24] J.B. Thomas, *Judicial Ethics in Australia* (Sydney, Law Book Company, 1988), p.7.

*Birinci göstərici*

# MÜSTƏQİLLİK

*Prinsipi:*

**Məhkəmə orqanlarının müstəqilliyi hüquq qaydasının təmin olunmasının ilkin şərti və işin məhkəmədə ədalətli həll edilməsinin əsas təminatı sayılır. Müvafiq olaraq, hakim məhkəmə orqanlarının müstəqilliyi prinsipini həm fərdi, həm də institusional aspektlərdə həyata keçirməli və müdafiə etməlidir.**

*Şərh*

**Hakim vəzifəsindən irəli gələn imtiyaz yox, məsuliyyət**

22. Hakimlərin müstəqilliyi ayrıca götürülmüş hakimin imtiyazı və ya üstünlüyü hesab olunmur. Bu, hər bir hakimin üzərinə onların məhkəmə mübahisələrini qanun və mövcud sübutlar əsasında hər hansı kənar təzyiq, təsir və ya müdaxilə olmadan düzgün və qərəzsiz həll edə bilmələri üçün qoyulan məsuliyyətdir. Hakimin məhkəməyə təqdim edilmiş işlərə baxması və qərarlar çıxarması ilə bağlı tam sərbəstliyə malik olması hakimlərin müstəqilliyi prinsipinin əsası sayılır; kənardan heç kəs – hökumət, təzyiq qrupları, xüsusi şəxslər və ya digər hakimlər – hakim tərəfindən işə baxılmasına və həmin iş üzrə qərar qəbul edilməsinə müdaxilə etmək və ya müdaxilə edilməsinə cəhd göstərmək hüququna malik deyildir.[25]

**Müstəqilliyin fərdi və institusional aspektləri**

23. Məhkəmə orqanlarının müstəqilliyi hakimlərin müstəqilliyinin həm fərdi, həm də institusional aspektlərini nəzərdə tutur. Müvafiq olaraq, hakimin müstəqilliyi, bir tərəfdən, onun özünün dəyər oriyentasiyasının, peşəkar məqsədlərinin sistemi, digər tərəfdən isə, belə müstəqilliyin təmin edilməsinə yönələn institusional və əməliyyat tədbirlərinin kompleksidir. Birinci hakimin öz müstəqilliyinə aiddir, ikinci isə məhkəmə orqanları ilə real müstəqilliyi təmin etmək və onun cəmiyyət tərəfindən belə qəbul edilməsi məqsədini daşıyan digər hakimiyyət qolları arasında olan münasibətləri müəyyən edir. Müstəqilliyin bu iki aspekti arasındakı qarşılıqlı əlaqəni aşağıdakı kimi izah etmək olar: hakim öz düşüncəsində və mühakiməsində müstəqil ola bilər, lakin əgər onun işə baxdığı məhkəmə özünün lazımi qaydada fəaliyyət göstərməsi üçün əhəmiyyətli olan məsələlərdə hakimiyyətin digər qollarından asılıdırsa, hakim müstəqil sayıla bilməz.[26]

**Müstəqillik və qərəzsizlik**

24. "Müstəqillik" və "qərəzsizlik" bir-biri ilə sıx bağlı olsa da, faktiki olaraq ayrı-ayrı və bir-birindən fərqlənən məfhumlardır. "Qərəzsizlik" məhkəmənin konkret işdə olan məsələlərə, habelə məhkəmə prosesinin tərəflərinə necə yanaşdığını göstərir. "Qərəzsiz" sözü qabaqcadan formalaşmış rəyin – istər real, istərsə də ətrafdakıların gözündə – olmadığını bildirir. "Müstəqillik" sözü ənənəvi konstitusional dəyərlərdən biri olan müstəqilliyi özündə əks etdirir və ya ifadə edir. Müvafiq olaraq, bu anlayış təkcə məhkəmə funksiyalarının həyata keçirilməsi zamanı peşəkar dəyər məqsədlərinin sistemini deyil, həmçinin digər - xüsusən icra hakimiyyəti - hakimiyyət qollarına münasibətdə obyektiv şərait və ya təminatlara əsaslanan müəyyən statusu da nəzərdə tutur.

**Hakimlər hökumətə hesabat verməli deyildir.**

25. Konstitusiyada bəyan edilmiş məhkəmə hakimiyyətinin müstəqilliyi prinsipi məhkəmə orqanlarının müstəqilliyini avtomatik olaraq təmin edə bilmir. Bütün hakimiyyət qolları məhkəmə orqanlarının müstəqilliyi prinsipini tanımalı və ona hörmətlə yanaşmalıdır. Məhkəmə korpusu da xüsusilə anlamalıdır ki, hakimlər hökumət qarşısında hesabat verməli və ondan asılı deyildir.

---

[25] Bax: *R v Beauregard*, Supreme Court of Canada, [1987] LRC (Const) 180 at 188, per Chief Justice Dickson.
[26] Bax: *Valente v The Queen*, Supreme Court of Canada, [1985] 2 SCR 673.

*"Onların qarşısında hökumətlər sanki "dəniz ləpələritək gəlib küləklə sovrulurlar". Onlar nazirlərə hesabat verməli deyildir və dövlət xidmətində olduqları dövrdə olan kimi hökumətə münasibətdə loyal olmamalıdırlar. Hakimlər sanki taxtı qoruyan şirlərdir, lakin həmin taxtda hökmdar yox, qanun və ictimai maraqların hakimlər tərəfindən anlaşılması hökmranlıq edir. Onlar yalnız qanuna və cəmiyyətin obyektiv tələbatlarının dərk edilməsinə sadiqdirlər. Hakimlərin qüdrəti və zəiflliyi məhz bundadır və məhz buna görə onlar cəmiyyət üçün dəyərli olmaqla yanaşı qorxunc qüvvəni də təşkil edirlər".*[27]

İkinci dünya müharibəsi zamanı bir hakimin qeyd etdiyi kimi:[28]

*"Top gurultusuna baxmayaraq Vətənimizin qanunları susmur. Onlar dəyişə bilər, lakin qanunun dili – istər sülh, istərsə də müharibə dövründə – eynidir. Bizim bu gün uğrunda mübarizə apardığımız əsl azadlığın əsaslandığı prinsiplərdən və təməl daşlarından biri hakimlərin müstəqilliyidir ki, bu halda hakimlər heç kimin tərəfini saxlamadan qərəzsiz şəkildə hər bir fərdlə icra hakimiyyəti tərəfindən onun azadlığına qarşı yönəlmiş hərəkətlər arasında dayanmalı və qanunla nəzərdə tutulmadığı halda heç bir məcburetmənin həyata keçirilməsinə yol verməməlidir".*

**Məhkəmə orqanlarının müstəqilliyinin təmin edilməsi üçün zəruri şərtlər**

26. Məhkəmə sisteminin digər hakimiyyət qollarından nə dərəcədə "müstəqil" olmasının müəyyən edilməsi üçün, adətən, hakimlərin təyinatı üsulu, səlahiyyət müddəti, iş şəraiti, kənar təzyiqdən müdafiə təminatlarının mövcudluğu, habelə məhkəmənin ictimaiyyətin gözündə həqiqətən də mustəqil görünməsi nəzərə alınır.[29]

Aşağıdakı üç şərt hakimlərin müstəqilliyinin təmin edilməsinin minimal şərtləridir:

(a) Vəzifədə qalma müddətinin təmin edilməsi: yəni, vəzifəyə ömürlük, pensiya yaşına qədər və ya müəyyən müddətə təyin edilmiş və ya seçilmiş hakim həmin vəzifədə qalmaq və hakimlərin təyin edilməsinə görə cavabdeh olan hər hansı icra və ya digər orqanın müdaxiləsindən müdafiə olunmaq təminatlarından istifadə etməlidir;

(b) Maddi rifah: yəni, icra hakimiyyətinin hakimlərin müstəqilliyinə mənfi təsir göstərə bilən özbaşına müdaxiləsinin obyektinə çevrilməyən, qanunla müəyyən edilmiş miqdarda əmək haqqı və pensiya təminatı hüququ. Lakin bu tələb çərçivəsində hökumət ayrı-ayrı məhkəmələrdə çalışan məhkəmə işçiləri üçün əmək haqqının konkret ödənilməsi qaydasını hazırlamaq hüququnu özündə saxlaya bilər. Beləliklə, hakimlərin əmək haqqının müxtəlif ödənilməsi qaydalarının olması öz növbəsində yuxarıda göstərilən prinsipə riayət edilməklə, onların maddi rifahının təmin edilməsi tələbinə xidmət edə bilər;

(c) İnstitusional müstəqillik: yəni, məhkəmə funksiyasının həyata keçirilməsinə birbaşa aidiyyəti olan inzibati məsələlərlə bağlı müstəqillik. Heç bir kənar qüvvə bilavasitə və birbaşa məhkəmə funksiyalarına aid olan məsələlərə, misal üçün, hakimlər arasında işlərin bölüşdürülməsi, məhkəmə iclaslarına dair cədvəllərin və baxılan işlərin siyahısının tərtib edilməsi, müdaxilə etmək imkanına malik olmamalıdır.[30] Məhkəmə ilə icra orqanları arasında müəyyən institusional münasibətlərin mövcud olmasının zəruriliyinə baxmayaraq, onların məhkəmə mübahisələrinə baxılması və konstitusiyada təsbit edilmiş qanunçuluğun və dəyərlərin təmin edilməsi zamanı məhkəmənin azadlığına müdaxiləsinə yol verilməməlidir.[31]

---

[27] J.A.G. Griffith, *The Politics of the Judiciary*, 3rd ed. (London, Fontana Press, 1985), p.199.

[28] *Liversidge v. Anderson,* House of Lords, United Kingdom [1942] AC 206 at 244, per Lord Atkin.

[29] *Langborge v Sweden* işi, European Court of Human Rights, (1989) 12 EHRR 416.

[30] *The Queen v Liyanage* (1962) 64 NLR 313 işində Seylon (hazırda Şri-Lanka) Ali Məhkəməsi göstərmişdir ki, ədliyyə nazirinə konkret işə baxılması üçün hakimləri təyin etmək hüququnu verən qanun Konstitusiya (ultra vires) ilə nəzərdə tutulmuş səlahiyyətlərin aşılmasını özündə əks etdirmişdir, çünki o, məhkəmə orqanlarının səlahiyyəti sayılan məhkəmə hakimiyyətinin həyata keçirilməsinə müdaxilə etmişdir.

[31] Bax: *Valente v The Queen,* Supreme Court of Canada, [1985] 2 SCR 673.

*Tətbiqi:*

**1.1. Hakim öz məhkəmə funksiyasını faktların müstəsna olaraq hüququn şüurlu surətdə dərk edilməsinə uyğun qiymətləndirilməsindən, istənilən tərəfin istənilən məqsədlərlə etdiyi hər hansı kənar təsir, niyyət, təzyiq, birbaşa və ya dolayı hədə və ya müdaxilələrdən asılı olmayaraq həyata keçirməlidir.**

*Şərh*

**Kənar müdaxilələr qərarlara təsir etməməlidir.**

27. Əgər hakimlərin qərar qəbul etmə prosesi kənardan edilən qanunsuz təsirlərə məruz qalan kimi görünə bilərsə, bu, cəmiyyətin məhkəmə sisteminə olan inamını sarsıdacaqdır. Məhkəmə orqanlarının müstəqilliyinin təmin edilməsi və cəmiyyətin ədalət mühakiməsi sisteminə olan inamının saxlanması üçün icra və qanunverici orqanların nümayəndələrinin, həmçinin hakimlərin çıxarılan qərarlara təsir edən kimi təfsir oluna bilən hərəkətlərin yolverilməzliyini unutmamaları vacibdir. Hakimə təsir müxtəlif üsullarla göstərilə bilər. Hakimin borcudur ki, qanunu öz hüquq düşüncəsinə uyğun olaraq, daxili inamına əsasən, faktlara öz qiymətini verməklə, qərarının nə dərəcədə populyar olacağı haqda düşünmədən, qərəzsiz və obyektiv tətbiq etsin. Məsələn, Cənubi Afrika cəmiyyətində ağırlaşdırıcı hallarla qəsdən adam öldürməyə görə ölüm cəzası təyin edilməsinin qəddar, qeyri-insani və insan ləyaqətini alçaldan cəza növü kimi hesab edilməməsi barədə fikirlə əlaqədar Cənubi Afrika Respublikası Konstitusiya Məhkəməsinin sədri bildirmişdir ki:[32]

*"Qarşımızda duran sual hökmün Cənubi Afrika əhalisinin əksəriyyətinin fikrincə necə olmalı olmasında deyil. Məsələ belə hökmə Konstitusiya tərəfindən yol verilib-verilməməsindədir. İctimai rəy hökmün öyrənilməsi nöqteyi-nəzərindən müəyyən əhəmiyyət kəsb edə bilər, lakin məhkəmələrin üzərinə qoyulmuş Konstitusiyanın təfsir edilməsi və orada nəzərdə tutulmuş prinsip və dəyərləri qərəzsiz mühafizə etmək vəzifəsini heç cür əvəz edə bilməz. Əgər ictimai rəyin belə bir həlledici əhəmiyyəti olsaydı, onda konstitusion nəzarət qaydasında qərarların qəbul edilməsinə ümumiyyətlə zərurət olmazdı... . Məhkəmə nəyin ictimaiyyətin xoşuna gəlməsindən asılı olaraq seçim etməməli və Konstitusiyanın müstəqil arbitri qismində çıxış etmək vəzifəsindən yayınmamalıdır".*

**Hakim ictimai rəydən asılı olmayaraq fəaliyyət göstərməlidir.**

28. Məhkəmə işi cəmiyyətdə polemikaya səbəb ola, kütləvi informasiya vasitələrinin diqqətini cəlb edə və geniş şəkildə işıqlandırıla bilər; belə vəziyyətdə hakim "fırtına mərkəzində" ola bilər. Bəzən, bu cür aşkarlığın təsiri altında ictimai rəy nəzərəçarpacaq dərəcədə bu və ya digər arzuolunan nəticəyə doğru meyllənə bilər. Lakin hakim öz vəzifəsini icra edərkən hər hansı kənar təsirdən azad olmalıdır. Hakim tətbiq edəcəyi qanunun və ya mübahisələrini həll etməli olduğu çəkişən tərəflərin ictimaiyyət, KİV, dövlət məmurları və yaxud onun ailə üzvləri və dostları tərəfindən bəyənilib-bəyənilməməsini nəzərə almamalıdır. Hakim hər hansı qrup maraqlarının təsiri altına düşməməli, ictimaiyyətin narazılığına səbəb olmaq və ya tənqidə məruz qalmaq təhlükəsindən çəkinməməlidir. Hakimlərin müstəqilliyi hər hansı formada kənar təsirdən asılı olmamanı nəzərdə tutur.

**Qərara təsir göstərməyə istənilən cəhd rədd edilməlidir.**

29. Məhkəməyə göstərilən hər hansı təsir cəhdləri aşkar surətdə məhkəmə zalında və yalnız işin tərəfləri və yaxud onların vəkilləri tərəfindən edilməlidir. Bəzi hallarda hakimə iş üzrə çıxarılacaq qərarla əlaqədar kənardan təsir göstərmək cəhdləri olur. Bu cür cəhdlərin haradan və kimlər tərəfindən – nazirlər, siyasətçilər, məmurlar, jurnalistlər, ailə üzvləri və ya digər şəxslər – edilməsindən asılı olmayaraq onların qarşısı qəti surətdə alınmalıdır. Bəzən, müstəqillik üçün təhlükə hakimin konkret işə olan münasibətinə gizlicə təsir göstərməyə və ya onun rəğbətini qazanmağa çalışan insanlardan irəli gələ bilər. Hakimə istənilən bu cür birbaşa və ya dolayı təsir cəhdlərinin qarşısı alınmalıdır. Bəzi hallarda, xüsusən belə

---

[32] *S v. Makwanyane*, Constitutional Court of South Africa, 1995 (3) S.A. 391, per President Chaskalson.

cəhdlər təkidlə təkrar edildikdə, hakim bu barədə müvafiq orqanları məlumatlandırmalıdır. Hakim ailə, siyasi, ictimai və sair qarşılıqlı əlaqələrinin çıxardığı qərarlara hər hansı formada təsir göstərməsinə yol verməməlidir.

**Qanunsuz təsir nədən ibarətdir?**

30. Qanunsuz təsirin nədən ibarət olduğuna dəqiq tərif vermək çətindir. Bir tərəfdən, ədalət mühakiməsini siyasətçilər, mətbuat və ya digər mənbələrdən irəli gələn təhrif və təzyiqlərdən qorumaq zərurəti ilə, digər tərəfdən, cəmiyyət üçün əhəmiyyətli olan məsələlərin ictimai həyatda və azad mətbuatda açıq müzakirə edilməsi arasında ağlabatan tarazlığı müəyyən etməyə çalışaraq, hakim tutduğu vəzifənin ictimai xarakterini dərk etməli və müvafiq olaraq bu məsələlərdə həddindən artıq həssas olmamalıdır. Demokratik dövlətdə ictimai xarakterli vəzifələri tutan şəxslərin tənqidi adi haldır. Hakimlər qanunla müəyyən edilmiş hüdudlarda çıxardıqları qərarlar, istifadə edilmiş dəlillər və ya baxdıqları işin gedişi ilə bağlı tənqidə məruz qala bilərlər.

**1.2. Hakim qərar çıxarmalı olduğu işdə ümumilikdə cəmiyyətə və məhkəmə işinin konkret tərəflərinə münasibətdə müstəqil mövqedən çıxış etməlidir.**

*Şərh*

**Tam təcridetmə qeyri-mümkündür və arzuolunan deyil.**

31. Hakim cəmiyyətdən nə dərəcədə müstəqil olmalıdır? Bir hakimin fikrincə, hakim olmaq qabiliyyəti din xadimi olmaq qabiliyyətinə bənzərdir.[33] Başqa hakim hesab edir ki, "baş hakim monastıra gedib orada özünü tam olaraq öz məhkəmə işinə həsr edir".[34] Bu gün belə məhdudiyyətlər hədsiz dərəcədə sərt görünə bilsə də, hakimin sürdüyü həyat tərzinin həqiqətən "bir çox amillər üzrə monastırda olan mühiti" xatırlatması mümkündür.[35] Hakim digər insanlardan daha sərt və məhdudlaşdırıcı normalara riayət etməli və həyat tərzi sürməli olsa da, onun ictimai həyatdan tamamilə çəkilməsi və evdə yalnız ailəsi və dostları ilə birgə qapalı həyat tərzi keçirməsini gözləmək məntiqli olmazdı. Hakimin yaşadığı cəmiyyətdən tam təcrid olunması qeyri-mümkündür və arzuolunan deyil.

**Cəmiyyətlə əlaqələr zəruridir.**

32. Əgər hakim işdən sonra evdə qapalı şəraitdə oturmursa, o, təbii ki rəyini formalaşdıran müxtəlif amil və qüvvələrin təsirini öz üzərində hiss edəcəkdir; bundan başqa, dostları ilə ünsiyyət, mətbuatla və digər KİV-lə tanışlıq bu və ya digər məsələlərə aid rəyin formalaşmasına gətirib çıxara bilər. Əslində, ədalət mühakiməsinin lazımi şəkildə həyata keçirilməsi üçün cəmiyyətdə cərəyan edən proseslər barədə təsəvvürə malik olmaq lazımdır. Hakim real həyat barədə biliklərlə təkcə dünyagörüşünü genişləndirmir; müasir hüququn təbiəti tələb edir ki, "hakim dünyada olan müxtəlif fikirlərlə yaşasın, nəfəs alsın, fikirləşsin və təmasda olsun".[36] İndiki dövrdə hakimin funksiyaları yalnız mübahisənin həll edilməsi hüdudlarından kənara çıxır. Hakimlər ictimai dəyərlərə və insan hüquqlarına aid məsələlərin geniş dairəsi ilə məşğul olmalı, cəmiyyətdə artan plüralizm şəraitində əxlaq və etikaya aid mürəkkəb və ziddiyyətli məsələləri həll etməli olurlar. Cəmiyyət həyatından tamamilə uzaqlaşmış hakim çətin ki öz vəzifələrini səmərəli yerinə yetirə bilər. Hakimin xidmət etdiyi cəmiyyətdən həddindən artıq təcrid olunması nə onun peşəkar yüksəlişi, nə də ki cəmiyyətin maraqları nöqteyi-nəzərdən faydalı ola bilər. Hüquqi standartlar çox vaxt kənar müşahidəçinin baxışı kimi meyarın tətbiqini tələb edir. Hakim işinin mühüm hissəsini təşkil edən məhkəmə işinə aidiyyəti olan faktiki halların müəyyən edilməsi və qiymətləndirilməsi mövcud sübutlara sağlam düşüncə və təcrübə baxımından qiymət verilməsini tələb edir. Ona görə də, hakim öz xüsusi roluna uyğun həddə ictimai həyatın iştirakçısı kimi qalmalıdır.

**Əxlaqi dilemma**

33. Hakimlərin qarşısında olan əxlaqi dilemma çox dəqiq ifadə edilmişdir:[37]

*"Məhkəmə işçilərinin laqeyd, adamayovuşmaz, ətalətli, yumor hissindən məhrum və ya ifrat dərəcədə ciddi insan təsəvvürü yaratmadan nəzakət, təvazökarlıq, qərarlılıq, həssaslıq, sağlam düşüncə və intellektual güc kimi keyfiyyətlərə yüksək səviyyədə malik olmasını gözləmək mümkündürmü? Əlbəttə ki, özündə eyni vaxtda iki – nümunəvi və adi insan – surətlərini birləşdirməsi ilk baxışdan mümkün olmayan bir məsələ kimi görünə bilər. Bu cür davranışı olan insana bəziləri tərbiyəli və sivil insan kimi, digərləri isə təkəbbürlü və rəsmiyyətçi bir şəxs kimi baxacaqlar. Və əksinə, bəziləri hakimin öz vəzifəsinə hörmətlə yanaşmadığına dəlalət edən halı ləyaqətsiz davranış kimi tənbeh edəcək, digərləri isə bunu hətta*

---

[33] Lord Hailsham, Lord Chancellor of England, cited in A.R.B. Amerasinghe, *Judicial Conduct Ethics and Responsibilities* (Sri Lanka, Vishvalekha Publishers, 2002), p.1.
[34] William H. Taft, Chief Justice of the United States Supreme Court, cited in David Wood, *Judicial Ethics: A Discussion Paper* (Victoria, Australian Institute of Judicial Administration Incorporated, 1996), p.3.
[35] Justice Michael D. Kirby, Judge of the High Court of Australia, cited in David Wood, *Judicial Ethics*, p.3.
[36] Bax: United States of America, Supreme Court of Wisconsin, Judicial Conduct Advisory Committee, *Opinion 1998-10R.*
[37] David Wood, *Judicial Ethics*, p.2.

*hakimin yumor hissinə və hadisələrə ötəri yanaşa bilmə qabiliyyətinə malik olması ilə bağlı sevinc kimi qarşılayacaqlar".*

Oliver Vendell Holms bəlkə də öz dövrünü xeyli qabaqlayaraq hakimlərə "özlərinin risk və qorxularını (öz) dövrünün ehtiras və əməlləri ilə bölüşdürməyi" məsləhət bilmişdir.

**Düzgün təcrübənin nümunəsi**

34. Hakimlərin davranış məsələləri üzrə məşvərətçi komitənin tövsiyə etdiyi aşağıdakı rəhbər göstərişlərdə xüsusi maraqlar qruplarının üzvləri hakimlərə görüş xahişi ilə müraciət etdikdə, hakimin belə xahişlərə necə reaksiya göstərməli olduğu ətraflı izah olunur:[38]

1. Hakim şəxsi görüş barədə müraciətə baxmağa borclu deyil;

2. Hakim müraciəti təmin edib-etməzdən əvvəl bu cür görüşün məqsədini aydınlaşdırmalıdır;

3. Hakim həmin görüşə prokurorluq orqanlarının və müdafiə tərəfinin nümayəndələrinin dəvət edilməsi barədə məsələni həll edə bilər. Çox vaxt belə görüşlər cinayət işlərinin baxılması ilə məşğul olan məhkəmə bölməsinin icraatındakı məsələlərə aid olur (məsələn, "*Mothers Against Drunk Driving*" ("Analar sərxoş sürücülərə qarşı") təşkilatının nümayəndələri).

4. Xüsusi maraqlar qrupu tərəfindən edilən müraciət yazılı şəkildə verilməlidir ki, hər hansı səhv təfsir istisna olunsun. Hakim nəzərdə tutulan görüşün vaxtını, həmçinin görüş zamanı riayət edilməli olan əsas prinsip və normaları yazılı şəkildə təsdiq etməlidir.

5. Hər hansı konkret iş üzrə əlaqə saxlamağın *ex parte* qəti qadağan olması prinsipinə ciddi şəkildə əməl olunmalı və bu barədə məlumat müraciət edənə görüşün başlanmasınadək bildirilməlidir.

6. Hakim görüşdə məhkəmə katibinin iştirakının mümkünlüyü barədə düşünə bilər. Bu, görüş zamanı aşkar olunanların yanlış təfsir olunmasından qaçmağa imkan verəcək. Bu, həmçinin hakimi, əgər onun söylədikləri səhv şərh olunarsa, çətin vəziyyətə düşmək riskindən qoruyacaq.

**Cəmiyyətin inamının böyük əhəmiyyəti vardır.**

35. Məhkəmə hakimiyyətinin müstəqilliyi hakimlərin tam qərəzsizliyini nəzərdə tutur. Məhkəmə araşdırması zamanı tərəflər barəsində məhkəmə qərarları çıxarılarkən, hakimlər qərəzsiz, yəni hakimin müstəqil qərar qəbul etmək qabiliyyətinə təsir edən – və ya təsir edən kimi görünə bilən – hər hansı meyl, əlaqə və ya qabaqcadan yaranmış yanlış fikirlərdən azad olmalıdırlar. Burada məhkəmə hakimiyyətinin müstəqilliyi "heç kəs öz işində hakim ola bilməz" ümumi prinsipinin ifadəsi hesab olunur. Bu prinsipin mənası hər hansı mübahisədə iştirak edən müəyyən tərəflərin konkret maraqlarından kənara çıxır. Məhkəmə hakimiyyəti təkcə konkret işdə olan tərəflərin deyil, bütövlükdə cəmiyyətin inamından istifadə etməlidir.

[38] Bax: United States of America, Supreme Court of Wisconsin, Judicial Conduct Advisory Committee, *Opinion 1998-13.*

**1.3. Hakim nəinki istənilən qeyri-müvafiq qarşılıqlı münasibət vəzifələrini və ya hakimiyyətin icra və qanunverici qolları tərəfindən edilən təsiri istisna edir, həm də bunu elə etməlidir ki, bu, hətta kənar müşahidəçiyə belə aşkar olsun.**

*Şərh*

**Hakimiyyətlərin və ya funksiyaların bölgüsü**

36. Məhkəmə orqanlarının müstəqilliyinin əsasında hakimiyyətlərin bölgüsü prinsipi dayanır: müasir demokratik dövlətin üç əsas və bərabər sütunlarından biri olan məhkəmə hakimiyyəti digər iki, yəni qanunverici və icra hakimiyyəti qollarından asılı olmadan fəaliyyət göstərməlidir. Hakimiyyətin bu üç qolu arasındakı qarşılıqlı münasibətlər qarşılıqlı inam və onlardan hər birinin hakimiyyətin digər iki qolunun müvafiq rolunu tanıması üzərində qurulmalıdır. Bu zəruridir, çünki məhkəmə hakimiyyəti digər iki hakimiyyət qoluna münasibətdə mühüm rol oynayır. Məhkəmə hakimiyyəti hökumətin və inzibati orqanların öz hərəkətlərinə cavabdeh olmasını təmin etməyə xidmət edir, qanunverici hakimiyyətə gəldikdə, məhkəmə hakimiyyəti qəbul edilmiş və qanuni qüvvəyə minmiş qanunların lazımi qaydada tətbiqini, həmçinin onların milli konstitusiyaya və zərurət olduqda, dövlətdaxili hüququn tərkib hissəsi olan regional və beynəlxalq müqavilələrə uyğunluğunu təmin etməyə yönəlir. Onlara həvalə olunmuş funksiyaların yerinə yetirilməsi və müstəqil qərar qəbul etmək səlahiyyətlərinin azad və məhdudiyyətsiz həyata keçirilməsi üçün məhkəmə orqanları hakimiyyətin digər qolları ilə qeyri-qanuni qarşılıqlı münasibətləri, həmçinin onlar tərəfindən edilən təsirləri istisna etməlidir. Beləliklə, müstəqillik qərəzsizliyin və obyektivliyin təminatı kimi çıxış edir.

**Məhkəmə orqanlarının müstəqilliyinin cəmiyyət tərəfindən qəbul edilməsi**

37. Məhkəmə orqanlarının və hakimlərin hamı tərəfindən müstəqil kimi qəbul olunması və müstəqilliyin qiymətləndirilməsi meyarının bu aspekti də özünə daxil etməsi vacibdir. Yəni, mühüm olan konkret məhkəmənin hakimlərin müstəqilliyinin təmin edilməsi üçün obyektiv şərait və təminatlara malik olmasının hamı tərəfindən qəbul olunmasıdır, nəinki müşahidəçinin fikrincə, onun belə şərait və təminatlarının olub-olmamasından asılı olmayaraq əslində necə hərəkət etməsi. Məhkəmənin müstəqilliyini şübhə altına qoymaq istəyən şəxsin bu müstəqilliyin real olaraq olmamasını sübut etməsinə ehtiyac yoxdur, baxmayaraq ki belə sübut məhkəmənin obyektivliyinin qiymətləndirilməsi zamanı həlledici əhəmiyyət kəsb edə bilər. Bu halda istifadə olunan meyar çıxarılmış qərarın qərəzli olub-olmamasının müəyyən olunması üçün istifadə edilən meyarla eyniyyət təşkil edir. Başqa sözlə, məsələ ondadır ki, məhkəmə sağlam düşüncəli kənar müşahidəçinin nəzərində müstəqil görünürmü (və ya bir neçə yurisdiksiyalarda belə görünə bilərmi)? Məhkəmə orqanlarının müstəqilliyi özündə obyektiv mövcud olan şərait və təminatlarla, həmçinin məhkəmə funksiyalarının real həyata keçirilməsi zamanı hakimlərin peşə məqsədləri ilə müəyyən olunan qarşılıqlı münasibətlərin statusu və ya formasını əks etdirməsinə baxmayaraq, müstəqillik testi məhkəmənin kənar müşahidəçinin nəzərində müstəqil kimi görünə bilməsinə verilən qiyməti nəzərdə tutur.

**Qeyri-qanuni qarşılıqlı münasibət və təsirlərin bir sıra nümunələri**

38. Aşağıda "qeyri-qanuni qarşılıqlı münasibətlərin" və hakimiyyətin icra və qanunverici qolları tərəfindən edilən "təsirlərin" məhkəmələr və məhkəmə etikası üzrə məşvərətçi komitələr tərəfindən bu cür qiymətləndirilmiş bir sıra misalları göstərilmişdir. Bu müddəalar rəhbər prinsiplər qismində təqdim edilir. Hər bir konkret halda nəticə bu halların sağlam düşüncəli kənar müşahidəçinin nəzərində necə qiymətləndirilməsi kompleksindən asılıdır:

(a) Əgər qanunverici orqanın üzvü konkret seçicisinə aid boşanma və qəyyumluq işi ilə əlaqədar ən qısa zamanda ədalətli məhkəmə qərarının çıxarılması xahişini əks etdirən məktubla hakimə müraciət edərsə, hakim - şəxsən və ya daha yaxşı olar ki nümayəndəsi vasitəsilə - öz cavabında həmin şəxsi sadəcə hakimlərin davranış prinsiplərinin ona belə müraciətləri qəbul etmək, baxmaq və ya cavab verməyi qadağan etməsi barədə məlumatlandıra bilər. Bu qadağa, həmçinin qanunverici orqanın üzvünün işin hansı mərhələdə olması və ya həmin iş üzrə qərarın çıxarılması müddətləri barədə sorğularına verilən

cavaba da şamil olunur, çünki belə sorğuya cavab verilməsi hakimin qərarın çıxarılmasını tezləşdirməsi və bununla çəkişən tərəflərdən birinə üstünlük verməsi üçün qanunverici orqanın üzvünün hakimə təsir edə bilməsi təsəvvürünü yarada bilər[39].

(b) Məzuniyyəti dövründə hakimin hakimiyyətin icra və ya qanunverici qollarında yüksək məvacibli mühüm siyasi vəzifəyə (məsələn, ədalət mühakiməsinin həyata keçirilməsi sahəsində islahatlar məsələləri üzrə məsləhətçi qismində) təyin olunmağa razılıq verməsi məhkəmə orqanlarının müstəqilliyi prinsipi ilə uzlaşmır. İcra, qanunverici və ya məhkəmə hakimiyyətləri arasında yüksək vəzifələrdə növbəliliklə yerdəyişmələr məhz belə hallardan qaçmaq üçün hakimiyyətlərin bölgüsü konsepsiyasının mövcud olduğu funksiyaların qarışmasına gətirib çıxarır. Belə qarışma həm hakimin özünün, həm də onun birgə işlədiyi digər vəzifəli şəxslərin nəzərində hakimin müstəqilliyi barədəki təsəvvürü əhəmiyyətli dərəcədə dəyişə bilər. Hətta belə hal baş verməsə belə, bu cür xidmət məhkəmələrin hakimiyyətin icra və qanunverici qollarından müstəqilliyi barədə cəmiyyətdə formalaşmış fikirlərə mənfi təsir göstərə bilər. Hakimin bu vəzifəyə təyin olunanadək və ya həmin vəzifədən getdikdən sonra qanunverici və ya icra hakimiyyəti orqanlarında xidmət etməsi isə başqa məsələdir. Belə hallarda hakimin təyin olunması və ya istefaya çıxması prosesi həm hakimə, həm də kənar müşahidəçiyə hakimiyyətin bu və ya digər qollarında xidməti dəqiq fərqləndirməyə imkan verir[40].

(c) Hakimin əri və ya arvadı aktiv siyasi fəaliyyətlə məşğul olduqda, hakim cəmiyyətdə onun bu və ya digər siyasi namizədi dəstəkləməsi təsəvvürünün yaranmaması üçün ailə üzvlərinin hərəkətləri ilə öz arasında məsafə saxlamalıdır. Əgər hakimin əri və ya arvadı siyasi toplantıda iştirak edirsə, o, həyat yoldaşını həmin tədbirə müşayiət etməməlidir. Bundan başqa, belə tədbirlər hakimin evində keçirilməməlidir. Əgər hakimin əri və ya arvadı belə tədbirin onun yaşadığı evdə keçirilməsini israr edərsə, hakim, o cümlədən qonaqların gözünə görünməməklə və hətta zərurət olduğu təqdirdə tədbir ərzində öz evini tərk etməklə, həmin tədbirə qatılmamaq üçün lazımi tədbirləri görməlidir. Hakimin əri və ya arvadı tərəfindən üzvü olduğu siyasi partiyanın xeyrinə ianələr hakimlə birgə mülkiyyətçisi olduqları ümumi hesabdan deyil, özünün şəxsi hesabından köçürülməlidir. Qeyd olunmalıdır ki, bu cür hərəkətlər cəmiyyətin gözündə məhkəmələrin imicinin artması və ya ədalət mühakiməsinin həyata keçirilməsi prosesinə ciddi xələl gətirir[41]. Digər tərəfdən, hakimin öz əri və ya arvadı ilə sırf mərasim xarakterli tədbirlərdə, məsələn, parlamentin açılışında və ya ölkədə səfərdə olan hər hansı dövlət başçısının şərəfinə düzənlənən qəbulda iştirak etməsi konkret hallardan asılı olaraq qanunsuz hesab olunmaya bilər.

(d) Hakimi onun məhkəmə fəaliyyətinə görə təltif edən və ya təltif olunmasını tövsiyə edən ədliyyə naziri bununla məhkəmə orqanlarının müstəqilliyini pozmuş olur. Hakimin öz funksiyalarını yerinə yetirdiyi dövrdə məhkəmə korpusunun əhəmiyyətli şəkildə iştirakı olmadan onun işinin icra hakimiyyəti tərəfindən diskresion tanınması məhkəmə sisteminin müstəqilliyinə xələl gətirir[42]. Digər tərəfdən, konkret hallardan asılı olaraq hakimin hakimiyyətdə olan hökumətin formalaşdırmadığı müstəqil orqan tərəfindən və ya belə orqanın tövsiyəsi ilə mükafatlandırılması qanunsuz hesab olunmaya bilər.

(e) Ədalət mühakiməsinin həyata keçirilməsi fəaliyyəti ilə əlaqədar hakimə icra orqanı tərəfindən həvəsləndirmə tədbiri kimi "mükafat"ın verilməsi məhkəmə orqanlarının müstəqilliyi prinsipinə ziddir[43].

(f) Əgər işə məhkəmədə baxılması zamanı beynəlxalq müqavilənin şərh olunması ilə bağlı məsələ ortaya çıxarsa və hakim həmin sənədin təfsirinin məhkəmə funksiyasının hüdudlarından kənara çıxdığını elan edərsə və müvafiq rəylə Xarici İşlər Nazirinə müraciət edərsə, daha sonra isə baxılan iş üzrə həmin rəyə uyğun olaraq qərar çıxararsa, bu o deməkdir ki, hakim məhkəmənin qarşısında duran hüquqi məsələnin həlli ilə əlaqədar icra hakimiyyətinin nümayəndəsinə müraciət etmişdir. Qeyd olunan nazirin mühakimə prosesinə cəlb olunması məhkəmə işinin nəticəsinə müəyyən dərəcədə təsir etmişsə və tərəflərin həmin şəxsin işə cəlb olunmasına qanuni etiraz etmək imkanı olmamışsa, bu, işə müstəqil olmayan məhkəmə tərəfindən baxılması anlamına gələcəkdir[44].

---

[39] Bax: United States of America, Commonwealth of Virginia Judicial Ethics Advisory Committee, *Opinion 2000-7.*

[40] Bax: United States of America, The Massachusetts Committee on Judicial Ethics, *Opinion No.2000-15.*

[41] See United States of America, The Massachusetts Committee on Judicial Ethics, *Opinion No.1998-4.*

[42] Macarıstan Konstitusiya Məhkəməsinin qərarı, 18.10.1994, İş No.45/1994, (1994) 3 *Bulletin on Constitutional Case-Law,* 240.

[43] Litva Konstitusiya Məhkəməsinin qərarı, 06.12.1995, İş No.3/1995, (1995) 3 *Bulletin on Constitutional Case-Law,* 323.

[44] *Beaumartin v France,* European Court of Human Rights, (1984) 19 EHRR 485.

**1.4. Hakim tərəfindən iş üzrə qərar müstəqil qəbul edilməli olduğu hallarda, o, məhkəmə tərkibinə daxil olan digər həmkarlarının rəyindən asılı olmadan fəaliyyət göstərir.**

*Şərh*

**Hakim digər hakimlərdən asılı olmadan fəaliyyət göstərir.**

39. İşə baxılması və həll edilməsi məsələsi öz vicdanı ilə baş-başa qalan hakimin müəyyən muxtariyyət dərəcəsini nəzərdə tutur[45]. Buna görə də, məhkəmənin müstəqilliyi məhkəmə hakimiyyətinin hakimiyyətin digər qollarından yalnız bir institut kimi müstəqil olmasını deyil, həm də hakimlərin bir-birindən asılı olmamasını tələb edir. Başqa sözlə, hakimlərin müstəqilliyi təkcə qanunsuz xarici təsirlərin deyil, həm də digər hakimlərin hərəkət və ya mövqelərindən irəli gələn qanunsuz təsirlərin olmamasından asılıdır. Bəzən hakimin nəzəri məsələlərlə bağlı həmkarlarından məlumat ala bilməsinə baxmayaraq, hər bir hakim, apellyasiya məhkəmələri kollegiyalarının tərkibindəki hakimlər də daxil olmaqla, çıxardığı məhkəmə qərarlarına görə şəxsən özü məsuliyyət daşıyır.

**Məhkəmə hakimiyyətinin ierarxik təşkili əhəmiyyətsizdir.**

40. Ona həvalə olunmiş funksiyaların icrası zamanı hakim heç kimə xidmət etmir. O, yalnız qanuna tabedir və qanunun və daim müraciət etməli olduğu vicdanının qarşısında cavabdehdir. Təbii ki, məhkəmə qərarlarından mövcud şikayətvermə sistemindən əlavə, iş üzrə qərar çıxaran hakim həm məhkəmə sistemi daxilində, həm də ondan kənarda hər hansı üçüncü şəxsin göstərişi və ya təlimatı əsasında fəaliyyət göstərə bilməz. Məhkəmə hakimiyyəti sisteminin heç bir ierarxik təşkili və rütbə və ya dərəcə üzrə fərqlər hakimin məhkəmə qərarlarını hər hansı kənar mülahizə və ya amillərin təsiri olmadan qəbul etməsi hüququna hansısa formada təsir etməməlidir.

**Hakim işin konkret halları barədə hesabat verməyə borclu deyil.**

41. Kiminsə, xüsusilə məhkəmə qərarından narazı qalan tərəfin qarşısında hesabat vermək öhdəliyi məhkəmə orqanlarının müstəqilliyi prinsipi ilə uzlaşmır. Məhkəmə xarakterli səbəblərlə və ya qanunla nəzərdə tutulan prosedurlarla şərtlənən hallar istisna olmaqla, hakim işin konkret halları ilə bağlı, hətta öz həmkarları qarşısında belə hesabat verməyə borclu deyil. Əgər hakimin çıxardığı qərar onun barəsində intizam icraatının başlanılması üçün əsas ola bilsə belə, hakim buna görə "hesabat" deyil, qanuna uyğun olaraq aparılan intizam icraatı zamanı verilən ittiham və ya suallara cavab verməlidir.

**İşə lazımınca baxılması baxılmış işlərin sayından önəmlidir.**

42. Mövcud olduğu ölkələrdə məhkəmələrin təftişi sistemləri konkret qərarların əsaslılığı və ya qanuniliyinin yoxlanılması ilə məşğul olmamalıdır; hakimləri ona sövq etməməlidir ki, onlar məhkəmənin səmərəli işinin təmin olunması bəhanəsi ilə öz diqqətlərini qərarların qanun əsasında və işin bütün hallarını nəzərə almaqla çıxarılmasında ifadə olunan məhkəmə funksiyalarını lazımınca icra etməyə deyil, çıxarılan qərarların miqdarına yönəltsinlər.

[45] Roger Perrot, "The role of the Supreme Court in guaranteeing the uniform interpretation of the law", Avropa ölkələrinin Ali məhkəmələri sədrlərinin Altıncı iclası, Varşava, oktyabr 2006-cı il.

**1.5. Hakimlərin təşkilati və fəaliyyət müstəqilliyinin saxlanılması və artırılması məqsədilə hakim öz vəzifələrinin icrası təminatlarını müdafiə edir və dəstəkləyir.**

*Şərh*

**Hakimlərin müstəqilliyinə istənilən müdaxilə cəhdlərinə qarşı durmaq zəruridir.**

43. Hakimlər onların təşkilati və ya fəaliyyət müstəqilliyinə xələl gətirə biləcək istənilən cəhdlərə qarşı sayıq olmalıdırlar. Hakimlər öz müstəqillikləri məsələsinə ehtiyatla yanaşmalı və bu mühüm prinsipi bayağılaşdırmağa risk etməklə, məhkəmə sisteminə aidiyyəti olan təşkilati münasibətlərin istənilən təklif edilən dəyişdirilməsinə cavab olaraq məhkəmənin müstəqilliyinə yersiz istinad etməməli olduqlarına baxmayaraq, hər bir hakim təkidlə öz müstəqilliyinin müdafiəsində dayanmalıdır.

**Cəmiyyətin məhkəmə orqanlarının müstəqilliyi barədə məlumatlılığının artırılmasına kömək etmək zəruridir.**

44. Hakim heç də hamının bu prinsiplərlə və onların məhkəmə vəzifələrinin həyata keçirilməsinə təsiri ilə tanış olmadığını anlamalıdır. Ona görə də, cəmiyyətin məhkəmə sisteminin fəaliyyəti və məhkəmə orqanlarının müstəqilliyi məsələləri üzrə maarifləndirilməsi həm icra hakimiyyətinin və onun institutlarının, həm də məhkəmə hakimiyyətinin özünün vacib funksiyasına çevrilir, çünki bu məsələlərin düzgün anlaşılmaması cəmiyyətin məhkəməyə olan inamını sarsıda bilər. İctimaiyyət məhkəmə orqanlarının müstəqilliyi barədə onu düzgün olmayaraq hakimləri qəbul etdikləri qərarlara yenidən baxılmasından və fəaliyyətləri ilə bağlı ictimai müzakirələrdən müdafiə edən kimi təqdim edə bilən kütləvi informasiya vasitələrindən kifayət qədər balanslaşdırılmamış təsəvvür əldə edə bilər. Buna görə də, cəmiyyətin maraqlarını nəzərə alaraq, hakimlər müvafiq imkanlardan ictimaiyyətin məhkəmə sisteminin müstəqilliyinin başlıca əhəmiyyətini anlamasına kömək etmək üçün istifadə etməlidirlər.

**1.6. Hakim məhkəmə orqanlarının müstəqilliyinin saxlanması üçün başlıca əhəmiyyət kəsb edən cəmiyyətin məhkəmə orqanlarına inamının möhkəmləndirilməsi məqsədilə hakimlərin davranışının yüksək standartlarını nümayiş və təbliğ edir.**

*Şərh*

**Hakimlərin davranışının yüksək standartları cəmiyyətin inamının saxlanması üçün zəruridir.**

45. Məhkəmə qərarlarının cəmiyyət tərəfindən qəbul edilməsi və dəstəklənməsi onun hakimlərin vicdanlılığına və müstəqilliyinə inamından asılıdır. Bu isə öz növbəsində hakimlərin məhkəmədə davranışın yüksək standartlarını dəstəkləməsindən asılıdır. Buna görə də, hakim məhkəmə orqanlarının müstəqilliyinin təmin edilməsi amillərindən biri kimi hakimlərin davranışının yüksək standartlarını nümayiş etməli və dəstəkləməlidir.

**Ədalətli məhkəmə araşdırmasına aid minimal tələblər**

46. Hakimlərin davranışının yüksək standartları ədalətli məhkəmə araşdırmasının minimal təminatlarına riayət olunmasını tələb edir. Hakim tərəfin, məsələn, aşağıdakı təminatlara olan hüququnu tanımalıdır:[46]

(a) məhkəmə araşdırmasının xarakteri və məqsədləri barədə dolğun məlumata malik olmaq;
(b) öz müdafiəsinin təşkili üçün kifayət qədər imkanlara malik olmaq;
(c) yazılı və ya şifahi, yaxud hər iki üsulla dəlil və sübutlar təqdim etmək və digər tərəfin dəlil və sübutları ilə tanışlıq imkanına malik olmaq;
(d) məhkəmə icraatının bütün mərhələlərində özünün seçdiyi müdafiəçi ilə və ya digər ixtisaslaşmış şəxslə məsləhətləşmək və təmsil olunmaq imkanına malik olmaq;
(e) əgər məhkəmədə istifadə olunan dili başa düşmürsə və yə bu dildə danışa bilmirsə, məhkəmə icraatının bütün mərhələlərində tərcüməçi ilə məsləhətləşmək imkanına malik olmaq;
(f) yalnız açıq məhkəmə araşdırmasında tərəflərə məlum olan sübutlar əsasında çıxarılmış qərarın onun hüquq və vəzifələrinə toxuna bilməsi təminatına malik olmaq;
(g) məhkəmə tərəfindən çıxarılmış qərarı qanunsuz gecikmə olmadan almaq. Məhkəmə araşdırmasında iştirak edən tərəflər qərar və həmçinin onun hüquqi əsaslandırılması barədə dolğun şəkildə məlumatlandırılmalıdırlar; və
(h) son instansiya kimi apellyasiya məhkəmələri tərəfindən çıxarılmış qərarlar istisna olmaqla, qəbul edilən qərarlardan yuxarı məhkəməyə şikayət etmək və ya buna icazə almaq imkanına malik olmaq.

**Azadlıqdan məhrumetmə qanuna əsaslanmalıdır.**

47. Azadlıqdan məhrumetmə barədə qərarın qanunla müəyyən edilən əsaslarla və prosedurlara uyğun olaraq çıxarıldığı hallar istisna olmaqla, hakim heç bir şəxsi azadlıqdan məhrum edə bilməz. Müvafiq olaraq, şəxsin azadlıqdan məhrum edilməsi barədə məhkəmə qərarı belə tədbirin zəruriliyinin və əsaslılığının obyektiv qiymətləndirilməsi olmadan çıxarıla bilməz. Qanunun müvafiq normasına riayət və onu düzgün tətbiq etmədən həbs barədə çıxarılmış məhkəmə qərarı, məhkəməyə işə aid bütün sübutları obyektiv qiymətləndirməməklə edilən xəyanətə bərabər özbaşınalıq hesab olunur.

**Təqsirləndirilən şəxslərin hüquqları**

48. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 14-cü maddəsinin 1-ci bəndində ədalətli məhkəmə araşdırması hüququnun anlayışı verilir. Göstərilən maddəyə əsasən, "bütün şəxslər" məhkəmə qarşısında "bərabərdirlər" və "istənilən "cinayət ittihamına" baxılması və ya "hər hansı mülki prosesdə

[46] Bax: BMT-nin ədalətli məhkəmə araşdırması və hüquqi müdafiə hüququ barədə Prinsiplər Toplusunun Layihəsi, BMT-nin sənədi E/CN.4/Sub.2/1994/24 3 iyun 1994-cü il.

hüquq və vəzifələrin" müəyyən olunması zamanı" "işin qanun əsasında yaradılmış, səlahiyyətli, müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətli və açıq araşdırılması" hüququna malikdirlər.[47]

49. Paktın 14-cü maddəsinin 2-7-ci bəndlərində və 15-ci maddəsində cinayət mühakimə icraatında 14-cü maddənin 1-ci bəndində nəzərdə tutulan ədalətli məhkəmə araşdırması ümumi prinsipinin tətbiqinə dair konkret müddəalar öz əksini tapmışdır. Bu müddəalar cinayət mühakimə icraatının bütün mərhələlərinə, o cümlədən işin ilkin məhkəmə araşdırması, həbsə alma, həmçinin məhkəmə araşdırmasının özünün bütün mərhələlərinə aiddir. Lakin qeyd etmək lazımdır ki, həmin müddəalar məhkəmə araşdırmasının ədalətliliyini heç də həmişə kifayət qədər təmin edə bilməyən minimal təminatları özündə əks etdirir.

(a) Təqsirlilik qanuna uyğun olaraq sübut edilənədək təqsirsiz sayılmaq hüququ;
(b) Məhkum olunduğu və ya bəraət aldığı cinayətə görə təkrarən məhkum olunmamaq və ya cəzalandırılmamaq hüququ;
(c) Ona elan olunmuş ittihamın xarakteri və əsasları barədə özünün başa düşdüyü dildə dərhal və ətraflı məlumatlandırılmaq hüququ;
(d) Öz müdafiəsinin təşkili üçün kifayət qədər vaxta və imkanlara malik olmaq hüququ;
(e) Özünün seçdiyi müdafiəçi ilə əlaqə saxlamaq hüququ;
(f) Əsassız gecikmə olmadan mühakimə olunmaq hüququ;
(g) Özünün iştirakı ilə mühakimə olunmaq hüququ;
(h) Özünü şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsilə müdafiə etmək hüququ; əgər müdafiəçiyə malik deyilsə, bu hüququnun olması barədə məlumatlandırılmaq hüququ;
(i) Ədalət mühakiməsinin maraqları tələb etdiyi bütün hallarda və müdafiəçinin əməyini ödəmək üçün kifayət qədər vəsaiti olmadığı hər bir halda ona ödənişsiz müdafiəçinin təyin olunması hüququ;
(j) Onun əleyhinə ifadə verən şahidləri dindirmək və ya bu şahidlərin dindirilməsini tələb etmək hüququ;
(k) Onun əleyhinə ifadə verən şahidlər üçün mövcud olan eyni şərtlərlə lehinə ifadə verən şahidlərin çağırılması və dindirilməsi hüququ;
(l) Əgər məhkəmədə istifadə olunan dili başa düşmürsə və ya bu dildə danışa bilmirsə, tərcüməçinin ödənişsiz köməyindən istifadə etmək hüququ;
(m) Özünə qarşı ifadə verməyə və təqsirini etiraf etməyə məcbur edilməmək hüququ;
(n) Yetkinlik yaşına çatmayanlara aid proses zamanı onların yaşının və yenidən tərbiyə olunmalarına kömək göstərilməsi istəyinin nəzərə alınması;
(o) Heç kəsin dövlətdaxili qanunvericiliyə və ya beynəlxalq hüquqa əsasən törədildiyi zaman cinayət sayılmayan hər hansı əməlin törədilməsinə görə təqsirli hesab oluna bilməməsi;
(p) Barəsində çıxarılmış qərarın açıq elan edilməsi hüququ;
(q) Hər hansı cinayətə görə məhkum olunmuş şəxsin, barəsində çıxarılmış hökmə qanuna əsasən yuxarı instansiya tərəfindən yenidən baxılması hüququ.

### Cəza təyin edilməsinə dair hüquqlar

50. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 6 (bənd 5), 7, 14 (bənd 7) və 15-ci maddələrində cinayət törətməyə görə məhkum olunmuş şəxslərin aşağıdakı hüquqları təsbit edilmişdir:

(a) Cinayətin törədildiyi zaman tətbiq ediləndən daha ağır cəzaya məhkum olunmamaq hüququ;
(b) Məhkum olunduğu və ya bəraət aldığı cinayətə görə təkrarən məhkum olunmamaq və ya cəzalandırılmamaq hüququ;
(c) İşgəncələrə və ya qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza növlərinə məruz qalmamaq hüququ;
(d) Ölüm cəzasının ləğv olunmadığı ölkələrdə on səkkiş yaşınadək olan şəxslər tərəfindən törədilən cinayətlərə görə ölüm hökmünün çıxarılmaması; ölüm hökmlərinin cinayətin törədildiyi zaman qüvvədə olan qanuna uyğun olaraq yalnız xüsusilə ağır cinayətlərə görə çıxarıla bilməsi.

[47] Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 14-cü maddəsinin müddəalarının etibarlı şərhi üçün "İnsan hüquqları üzrə Komitənin 13 saylı (1984) Ümumi şərhi"nə bax. Ədalətli məhkəmə araşdırması hüququna aid yurisprudensiyanın müqayisəli təhlili üçün bax, *The Judicial Application of Human Rights Law: National, Regional and International Jurisprudence* (Cambridge University Press, 2002), p. 478-594.

*2-ci göstərici*

## OBYEKTİVLİK VƏ QƏRƏZSİZLİK

*Prinsipi:*

**Hakimin obyektivliyi onun öz vəzifələrini lazımi qaydada icra etməsinin zəruri şərti sayılır. O, təkcə çıxarılan qərarın məzmununda deyil, həm də onun çıxarılmasını müşayiət edən bütün prosessual hərəkətlərdə təzahür edir.**

*Şərh*

### Müstəqillik obyektivliyin və qərəzsizliyin zəruri şərti sayılır.

51. Müstəqillik və qərəzsizlik - iki ayrı-ayrı və bir-birindən fərqlənən anlayışlardır. Lakin onlar məhkəmə hakimiyyətinin qarşılıqlı olaraq bir-birini tamamlamaqla bağlı olan xüsusiyyətləridir. Müstəqillik qərəzsizliyin və ona nail olmağın zəruri və ilkin şərtidir. Hakim müstəqil olsa da, qərəzsiz olmaya bilər (konkret işlərlə əlaqədar), lakin müstəqil olmayan hakim təbiətən qərəzsiz ola bilməz (təşkilati aspektlərlə əlaqədar)[48].

### Müşahidəçinin gözündə qərəzsizlik

52. Obyektivlik və qərəzsizlik - hakimin malik olmalı olduğu başlıca keyfiyyətdir və hakim peşəsinin ayrılmaz atributudur. Qərəzsizlik real mövcud olmalı və ətrafdakıların nəzərində belə qəbul edilməlidir. Qeyri-obyektivlik və qərəzlilik məhkəmə hakimiyyəti sisteminə olan inamı sarsıtmaqla, narazılıq və ədalətsizlik hissi doğurur. Hakimin cəmiyyətin nəzərində nə dərəcədə qərəzsiz görünməsini müəyyən etmək üçün meyar kimi sağlam düşüncəli kənar müşahidəçi standartı tətbiq edilir. Hakimin qərəzsizliyinə şübhə bir sıra səbəblərdən, məsələn, maraqların ehtimal olunan toqquşmasının mövcudluğu, hakimin məhkəmə iclasında davranışı, əlaqə dairəsi, həmçinin məhkəmədənkənar fəaliyyəti, yarana bilər.

### Qərəzsizliyə aid tələblər

53. Avropa İnsan Hüquqları Məhkəməsinə görə, qərəzsizlik tələbi özündə iki aspekti ehtiva edir. Birincisi, məhkəmə subyektiv baxımdan qərəzsiz olmalıdır, yəni məhkəmənin heç bir üzvü şəxsi qeyri-obyektivliyə və ya qabaqcadan gəlinmiş qənaətə malik olmamalıdır. Əgər bunun əksini sübut edən hər hansı dəlillər yoxdursa, şəxsi qərəzsizlik ehtimal olunur. İkincisi, məhkəmə obyektiv nöqteyi-nəzərdən qərəzsiz olmalıdır, yəni qərəzsizliyinə hər hansı qanuni şübhəni istisna etmək üçün kifayət olan zəmanətləri verməlidir.[49] Bu meyara uyğun olaraq, hakimin hər hansı davranışından asılı olmayaraq, onun qərəzsizliyinə şübhə oyada biləcək hər hansı mötəbər faktların olub-olmamasını müəyyən etmək zəruridir. Burada bu məsələlərin necə qəbul olunması da böyük əhəmiyyət kəsb edir. Çünki gündəmdə olan məsələ demokratik cəmiyyətlərdə məhkəmə hakimiyyətinə olan inamdır, hansı ki həm cəmiyyətə, həm də təqsirləndirilən şəxsin aqibətinə təsir edir. Müvafiq olaraq, qərəzsizliyinə əsaslı şübhələr olan hakim məhkəmənin tərkibindən çıxmalıdır[50].

### Təqsirləndirilən şəxsin fikri

54. Cinayət işi üzrə konkret hakimin qərəzsiz olmamasından ehtiyatlanmağa real əsasların mövcudluğunun müəyyən edilməsi zamanı təqsirləndirilən şəxsin nəzər-nöqtəsi əhəmiyyətli sayılır, lakin həlledici deyil. Bu halda həmin təhlükənin ictimaiyyəti təmsil edən sağlam düşüncəli müşahidəçinin nəzərində obyektiv əsaslandırılmış sayılıb-sayılmaması həlledici əhəmiyyət daşıyır.

---

[48] Bax: *Reference re: Territorial Court Act (NWT),* Northwest Territories Supreme Court, Canada, (1997) DLR (4th) 132 at 146, per Justice Vertes.
[49] *Gregory v United Kingdom* işi, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi, (1997) 25 EHRR 577.
[50] *Castillo Algar v Spain* işi, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi, (1998) 30 EHRR 827.

*Tətbiqi:*

**2.1. Hakim öz vəzifələrinin icrası zamanı hər hansı üstüntutma hallarından, qabaqcadan formalaşmış yanlış fikirlərdən və qabaqcadan hasil olan qənaətlərdən azaddır.**

*Şərh*

**Qərəzlilik hissi cəmiyyətin inamını sarsıdır.**

55. Əgər hakim qərəzli kimi qəbul olunarsa, cəmiyyətin məhkəmə hakimiyyətinə inamı sarsılacaqdır. Ona görə də, hakim onun qərarına xarici amillərin (məsələn, tərəflərdən biri ilə şəxsi münasibətlər və ya işin nəticəsində maraqlı olmaq) təsir edə bilməsinə dəlalət edən kimi şərh oluna biləcək istənilən hərəkətlərdən çəkinməlidir.

**Qabaqcadan hasil olan qənaətin mövcudluğu ehtimalı**

56. Qərəzsizlik təkcə qabaqcadan hasil olan qənaətin və qabaqcadan formalaşmış yanlış fikrin real mövcud olmamasını deyil, həm də onun belə qəbul olunmasını nəzərdə tutur. Bu anlayışın ikili təbiəti onda ifadə olunur ki, ədalət mühakiməsini təkcə həyata keçirmək deyil, həm də bunu cəmiyyət üçün açıq şəkildə etmək vacibdir. [51] Bu halda adətən istifadə olunan meyar ondan ibarətdir ki, həmin məsələni real və praktiki qiymətləndirən sağlam düşüncəli müşahidəçi hakimin hərəkətlərində qərəzsizliyin olmamasını ehtimal edərdimi (və ya edə bilərdimi)? Qərəzli münasibətin mövcudluğunun ehtimal edilib-edilməməsi məsələsi kənar müşahidəçinin nöqteyi-nəzərindən qiymətləndirilməlidir.

**"Qabaqcadan hasil olan qənaət və ya qabaqcadan formalaşmış yanlış fikir" anlayışlarının mənası**

57. Qabaqcadan hasil olan qənaət və ya qabaqcadan formalaşmış yanlış fikir bu və ya digər tərəfə və ya konkret nəticəyə münasibətdə rəğbət, üstün tutma və ya meyllilik kimi müəyyən olunur. Ədalət mühakiməsi prosesinə münasibətdə bu anlayış məsələnin və ya məhkəmə işinin həllinə müəyyən formada olan meylliliyi ifadə edir, hansı ki hakimin düşüncəsinin obyektiv qiymətləndirməli olduğu dəlil və sübutlar üçün tam açıq-aydın olmasına imkan vermir. Qabaqcadan hasil olan qənaət – mühakiməyə təsir göstərən və hakimi konkret məhkəmə işi ilə bağlı öz funksiyalarını qərəzsiz icra etmək qabiliyyətindən məhrum edən əhval-ruhiyyə, mövqe və ya nəzər nöqtəsidir.[52] Lakin bu zaman qabaqcadan hasil olan qənaətin xarakteri də nəzərə alınmalıdır. Məsələn, əgər hakim əsas insan hüquqlarına üstünlük verirsə, bu, qanunda dəqiq və birmənalı olaraq başqa hal nəzərdə tutulmadığı təqdirdə, işə qərəzli baxılmasını söyləməyə əsas vermir.

**Qabaqcadan hasil olan qənaət və ya qabaqcadan formalaşmış yanlış fikrin təzahürü**

58. Qabaqcadan hasil olan qənaət münasibəti həm şifahi, həm də fiziki formada təzahür edə bilər. Buna misal kimi bənzətmələr, iftiralar, təhqiredici ləqəblər, neqativ stereotiplərin yaradılması, uğursuz zarafatlar (məsələn, cinsi, irqi və s. mənsubiyyətlə bağlı), hədə-qorxu gəlmələr, yaxud irqi və ya milli mənsubiyyətlə əlaqədar ədavətli hərəkətlər, həmçinin işə aidiyyəti olmayan hansısa şəxsi keyfiyyətlər barədə xatırlatmalar çıxış edə bilər. Qabaqcadan hasil olan qənaət və ya qabaqcadan formalaşmış yanlış fikir, həmçinin məhkəmə iclası zamanı və ya məhkəmədən kənarda edilən jestlərlə, duruş vəziyyətləri ilə və digər işarələrlə ifadə oluna bilər. Davranışın fiziki manerası şahidə inamsızlığı göstərə və bununla məhkəmədə andlı iclasçıların tərkibinə qanunsuz təsir edə bilər. Gərəksiz mimika, üz ifadələrinin nümayişi məhkəmə işinin tərəfləri, işdə iştirak edən vəkillər, andlı iclasçılar, KİV nümyəndələri və digər şəxslər tərəfindən qabaqcadan hasil olan qənaət münasibətinin mövcudluğuna dəlalət edən kimi qəbul

[51] *R v Sussex Justices, ex parte McCarthy,* King's Bench Division of the High Court of Justice of England and Wales [1924] 1 KB 256 at 259, per Lord Chief Justice Hewart.
[52] *R v Bertram* [1989] OJ No.2133 (QL), quoted by Justice Cory in *R v S,* Supreme Court of Canada, [1997] 3 SCR 484, paragraph 106.

oluna bilər. Qabaqcadan hasil olan qənaət və ya qabaqcadan formalaşmış yanlış fikir tərəflərdən birinə, şahidə və ya vəkilə münasibətdə mövcud ola bilər.

**Məhkəməyə hörmətsizlik ifadə edən davranışla bağlı səlahiyyətlərdən sui-istifadə qabaqcadan hasil olan qənaət və ya qabaqcadan formalaşmış yanlış fikir münasibətinin təzahürü sayılır.**

59. Məhkəməyə hörmətsizlik ifadə edən davranışa dair məsələlərə münasibətdə yurisdiksiya hakimə məhkəmə zalında davranışa nəzarət və müvafiq davranış qaydalarına riayət olunmasını təmin etmək imkanı verir. Məhkəməyə hörmətsizlik həm öz xarakterinə, həm də nəticələrinə görə cəza təbiətli sanksiyaların tətbiqinə səbəb olduğu üçün onları yalnız son tədbir vasitəsi kimi və yalnız hüquqi nöqteyi-nəzərdən kifayət edən əsaslarla və prosessual tələblərə ciddi riayət etməklə tətbiq etmək lazımdır. Göstərilən səlahiyyətdən son dərəcə diqqət və ehtiyatla istifadə edilməlidir. Həmin səlahiyyətlərdən sui-istifadə qabaqcadan hasil olan qənaət münasibətinin təzahürü kimi qiymətləndirilməlidir. Belə sui-istifadə o halda mövcud olur ki, hakim özünə nəzarəti itirir və şəxsi haqq-hesab aparmağa cəhd göstərir və malik olduğu səlahiyyətləri, xüsusilə şəxsi konfliktdə olduğu tərəfə, vəkilə və ya şahidə münasibətdə tətbiq edir.

**Nə qabaqcadan hasil olan qənaət və ya qabaqcadan formalaşmış yanlış fikir hesab olunmaya bilər?**

60. Hakimin inandığı dəyərlər, onun prinsipləri və ya qanuna aid fikirləri qabaqcadan hasil olan qənaətin təzahürü sayılmır. Hakimin baxılan işə aidiyyəti olan hüquqi və ya sosial məsələ barədə bu və ya digər fikrə malik olması faktı onu işin baxılmasında iştirak etmək hüququndan məhrum etmir[53]. Yol verilə bilən kimi dəyərləndirilən fikrin mövcudluğunu yolverilməz sayılan qabaqcadan hasil olan qənaətin mövcudluğundan fərqləndirmək lazımdır. Qeyd edilir ki, "hakimin düşüncəsinin *tabula rasa* ("təmiz lövhə") olmasının sübut edilməsi qabaqcadan hasil olan qənaətin deyil, peşəkarlığın yoxluğuna dəlalət edərdi".[54] Bu bənddə əks olunan qayda hakimin qərarlarına və ya məhkəmə iclasının gedişində sübutlara aid izahlarına şamil olunmur, yalnız bir şərtlə ki hakim bütün mövcud sübutlara məhdudiyyət və baxmaq istəməmək niyyəti nümayiş etdirməsin.

---

[53] See Jeffrey M. Shaman, Steven Lubet and James J. Alfini, *Judicial Conduct and Ethics*, 3rd ed. (Charlottesville, Virginia, The Michie Company, 2000).
[54] *Laird v Tatum*, United States Supreme Court (1972) 409 US 824.

**2.2. Hakimin məhkəmə iclasının gedişində və məhkəmədən kənarda davranışı onun və məhkəmə orqanlarının obyektivliyinə cəmiyyətin, hüquq peşəsi nümayəndələrinin və məhkəmə prosesi tərəflərinin inamının saxlanmasına və artırılmasına kömək etməlidir.**

*Şərh*

**Hakim tarazlığı saxlamalıdır.**

61. Hakim məhkəmə icraatı normalarının hər hansı pozuntusu hallarına yol vermədən məhkəmə prosesinin lazımınca və səmərəli aparılmasını təmin etməyə borcludur. Bu məqsədə nail olmaq üçün hakimə müəyyən ciddilik və möhkəm iradə lazımdır. Hakim zəruri tarazlığı saxlamalıdır, çünki o, prosesi səmərəli aparmalı və bu zaman kənar müşahidəçinin nəzərində qərəzsizliyin olmaması təsəvvürünü yaratmamalıdır. Hakim tərəfindən öz məhkəmə funksiyalarının icrası zamanı sağlam düşüncəli müşahidəçinin nəzərində onun qərəzsiz olmamasına dair şübhələr yaradan (və ya yarada bilən) istənilən hərəkətlərdən çəkinmək zəruridir. Əgər bu cür şübhələr yaranırsa, onlar təkcə çəkişən tərəflərin deyil, həm də cəmiyyətin bütövlükdə məhkəmə hakimiyyətinə olan inamını sarsıdır.

**Məhkəmə araşdırması zamanı çəkinilməli olan davranış**

62. Tərəflər məhkəmə prosesinə böyük ümidlər bağlayırlar. Təbii ki xeyrinə qərar çıxarılmamış tərəflər bəzən məhkəməni əsassız olaraq qərəzlilikdə günahlandırmağa çalışırlar. Ona görə də, belə rəyin yaranmasına əsas ola biləcək halları aradan qaldırmaq və ya minimuma endirmək üçün mümkün olan hər şeyi etmək zəruridir. Hakim qabaqcadan hasil olan qənaət və ya qabaqcadan formalaşmış yanlış fikir münasibətini ifadə edən kimi qəbul oluna bilən davranışa yol verməməyə çalışmalıdır. Məhkəmənin qərəzsizliyinə olan inamı sarsıda bildiyi üçün vəkillərin ünvanına əsassız iradlardan, iş üzrə tərəflərə və ya şahidlərə münasibətdə təhqiramiz və yersiz ifadələrdən, əvvəlcədən tərtib olunmuş rəyin olmasına, həmçinin səbrsiz davranışa dəlalət edən bəyanatlardan çəkinmək lazımdır.

**Məhkəmə araşdırmasının aparılması gedişinə mütəmadi müdaxilədən çəkinmək lazımdır.**

63. Hakim işin hallarının dəqiqləşdirilməsi üçün suallar verə bilər, lakin əgər o, məhkəmə iclasının gedişinə mütəmadi müdaxilə edirsə və mülki iş üzrə icraatı praktiki olaraq öz nəzarətinə götürürsə və ya cinayət işi üzrə icraatda prokurorun rolunu yerinə yetirirsə və baxılan iş üzrə çıxarılan qərarda müvafiq nəticələrə gəlmək üçün onun apardığı dindirmənin nəticələrindən istifadə edirsə, bu halda hakim həm də vəkil və şahidə çevrilir ki, bunun nəticəsində tərəflərin ədalətli məhkəmə araşdırması hüququ reallaşdırılmamış qalır.

**Xəbərdarlıq edilmədən və ya digər tərəfin iştirakı olmadan (ex parte) yaradılan əlaqələrdən çəkinmək lazımdır.**

64. Obyektivlik və qərəzsizlik prinsipi, bir qayda olaraq, hakimlə və tərəflərdən hər hansı biri və ya onların qanuni nümayəndələri, şahidlər və ya andlı iclasçılar tərkibinin üzvləri ilə şəxsi əlaqələri qadağan edir. Hakim tərəfindən şəxsi xarakterli belə məktub, məlumat və ya ismarıc alındıqda, digər tərəfləri bu barədə dolğun və təxirəsalınmadan məlumatlandırmaq və məhkəmə iclas protokolunda müvafiq qeyd aparmaq vacibdir.

**Məhkəmədən kənarda çəkinilməli olan davranış**

65. Hətta məhkəmə binasından kənarda belə, qərəzsizliyin olmaması kimi şərh edilə biləcək ifadələrdən və davranışdan çəkinilməlidir. Praktiki olaraq hər şey - hakimin əlaqə dairəsindən və ya işgüzar maraqlarından tutmuş yalnız xəfif zarafat kimi hesab etdiyi iradlaradək - onların qərəzsizliyini cəmiyyətin nəzərində şübhə altına qoya bilər. Üzərinə hakim vəzifəsini qəbul etdikdən sonra bu və ya digər

partiyanın dəstəklənməsinə yönələn istənilən siyasi fəaliyyətə və ya siyasi xarakterli istənilən əlaqələrə xitam verilməlidir. Hakimin siyasi fəaliyyəti, cəmiyyətdə fikir ayrılığı və ziddiyyətlər yaradan siyasi məsələlərlə bağlı məhkəmədən kənarda verdiyi bəyanatlar qədər, onun qərəzsizliyini şübhə altına sala; bundan başqa, bir tərəfdən, məhkəmə hakimiyyəti, digər tərəfdən isə, hakimiyyətin icra və qanunverici qolları arasında olan qarşılıqlı münasibətlərin xarakteri ilə əlaqədar cəmiyyətin yanılmasına gətirib çıxara bilər. Bu və ya digər siyasi partiyanı dəstəkləməyə yönələn hərəkətlər və bəyanatlar mahiyyətcə onu bildirir ki, hakim açıq şəkildə tərəflərdən hər hansı birinin tərəfində olur. Qərəzlilik görüntüsü o halda daha da artır ki, hakimin hərəkətləri qaçılmaz olaraq tənqid və ya təkzib obyektinə çevrilmiş olsun. Başqa sözlə, özünün imtiyazlı vəzifə mövqeyindən siyasi sahədə çıxış etmək üçün istifadə edən hakim bununla cəmiyyətin məhkəmə hakimiyyəti sisteminin qərəzsizliyinə olan inamını da zərbə altına qoymuş olur. Lakin bu qaydadan istisnalar da vardır. Buraya, xüsusən, hakimin müvafiq halda məhkəmə hakimiyyəti institutunun müdafiəsi ilə bağlı verdiyi şərhlər və ya cəmiyyətə, yaxud xüsusi auditoriyaya konkret hüquqi məsələlərin və ya konkret qərarların izah edilməsi, həmçinin əsas insan hüquqlarının müdafiəsi və hüququn aliliyinin dəstəklənməsi ilə əlaqədar fəaliyyət daxildir. Lakin hətta bu hallarda belə, hakim imkan daxilində siyasi baxımdan qərəzli kimi görünə bilən mübahisə və ya müzakirələrə cəlb olunmaqdan qaçmalıdır. Hakim insanlara hansı siyasi və ya sosial baxışları dəstəkləmələrindən asılı olmayaraq xidmət etməlidir. Məhz buna görə də, hakim öz imkanları daxilində cəmiyyətin inamını saxlamağa çalışmalıdır.

**2.3. Hakim onu məhkəmə iclaslarında iştirak etmək və iş üzrə qərar çıxarmaq hüququndan məhrum etmək üçün əsas sayıla biləcək hərəkətlərdən imkan daxilində çəkinməlidir.**

*Şərh*

**Hakimə tez-tez edilən etirazlardan çəkinilməlidir.**

66. Hakim məhkəmənin baxmalı olduğu işlərin həll edilməsi ilə məşğul olmalıdır. Lakin elə vəziyyətlər yarana bilər ki, tərəflərin hüquqlarının müdafiəsini və məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığına ictimai etimadı saxlamaq məqsədilə hakimi kənarlaşdırmaq, başqa sözlə, bu və ya digər işə baxılmasında iştirak və həmin iş üzrə qərar çıxarmaq hüququndan məhrum etmək zəruri olar. Digər tərəfdən, hakimləri tez-tez kənarlaşdırma cəmiyyətdə ümumilikdə hakimlərə və xüsusən konkret hakimə qarşı ədavətli münasibətin yaranmasına səbəb ola və bundan başqa, onun həmkarlarının iş yükünün artmasına gətirib çıxara bilər. Tərəflərdə onların işinə məhz hansı hakimin baxacağını özlərinin seçə bilməsi təsəvvürü formalaşa bilər ki, bu da arzuolunan deyil. Ona görə də, hakim öz şəxsi və işgüzar münasibətlərini elə qurmalıdır ki, onun məhkəmə vəzifələri ilə potensial ziddiyyət imkanları minimuma ensin.

**Maraqların toqquşması**

67. Maraqların potensial toqquşması ehtimalı hakimin (və ya ona yaxın şəxslərin) şəxsi maraqları ilə onun məhkəmə işinə qərəzsiz baxmaq vəzifəsi arasında ziddiyyət olduqda yaranır. Hakimlərin qərəzsizliyi həm real qərəzsizliyi, həm də kənar müşahidəçinin nəzərində onun belə qəbul olunmasını nəzərdə tutur. Söhbət məhkəməyə aidiyyəti olan məsələlərdən getdikdə, maraqların toqquşmasının müəyyənləşdirilməsi üçün meyar həm hakimin şəxsi maraqları ilə məhkəmə mübahisəsinə qərəzsiz baxmaq vəzifəsi arasında real mövcud olan ziddiyyət, həm də sağlam düşüncəli müşahidəçinin belə ziddiyyətin olmasını düşünməsinə əsas verən halların mövcudluğudur. Məsələn, hakimin ailə üzvlərinin siyasi fəaliyyətlə məşğul olmaq hüququnun mövcudluğuna baxmayaraq, hakim bilməlidir ki, ailə üzvlərinin və ya yaxın qohumlarının siyasi fəaliyyəti onun cəmiyyət tərəfindən qərəzsiz qəbul olunmasına, hətta səhvən olsa belə, mənfi təsir göstərə bilər.

**Hakim onun maliyyə fəaliyyətindən irəli gələn maraqların toqquşmasını minimuma endirməyə borcludur.**

68. Hakim onun maliyyə fəaliyyətinin məhkəmədə baxacağı işlə bağlı vəzifələri ilə ziddiyyət təşkil etməsinə və ya ona təsir etməsinə imkan verməməlidir. Müəyyən hallarda hakimin kənarlaşdırılması qaçılmaz olmasına baxmayaraq, hakim məhkəmədə müntəzəm olaraq çıxış edən təşkilatlara və digər subyektlərə münasibətdə maliyyə maraqlarına malik olduğu halda meydana gələn maraqların toqquşmasını minimuma endirməyə çalışmalıdır; bu vəziyyətdə hakimə belə maraqlardan azad olmaq lazımdır. Məsələn, açıq tipli səhmdar cəmiyyətdə səhmlərin bir və ya daha az faizinə sahib olmaq, bir qayda olaraq, *de minimis* (yəni hüquqi baxımdan az əhəmiyyətli olan) və hakimin bu səhmdar cəmiyyətə aid işə münasibətdə kənarlaşdırılmasını tələb etməyən pay sayılır. Lakin çox vaxt hakimə etiraz məsələsi onun məhkəmə işinə baxılmasında iştirak etmək hüququndan məhrum olunması üçün əsas kimi çıxış edə bilən bir sıra mülahizələri özünə daxil edir. Hakimin sahib olduğu səhm payı *de minimis* kimi qiymətləndirilməsinə baxmayaraq, səhmdar cəmiyyətin səhmlərinin miqdarını nəzərə almaqla, onun üçün əhəmiyyətli hissəni təşkil edə bilər və bu, hakimə etiraz üçün əsas kimi çıxış edir. Hakim bilməlidir ki, səhmlərə sahib olmağı cəmiyyət onun kənarlaşdırılması üçün əsas sayılan maliyyə marağı kimi qəbul edə bilər. Buna baxmayaraq, hakim *de minimis* səhmlərə sahib olmaq kimi dəlildən işə baxılmasından

yayınmaq üçün bəhanə qismində istifadə etməməlidir. Əgər hakim sahib olduğu səhm payları səbəbindən tez-tez özü-özünə etiraz edirsə, o, belə paydan imtina etməlidir[55].

**Ailə üzvlərinin fəaliyyətini məhdudlaşdırmaq vəzifəsi**

69. Hakim öz ailə üzvlərini onun qulluq mövqeyindən qanunsuz olaraq şəxsi məqsədlərlə istifadə edilməsi kimi qəbul edilə bilən hərəkət və ya əqdlərdə iştirak etməkdən çəkinməyə inandırmağa çalışmalıdır. Bu, cəmiyyətin həmin hərəkətləri favoritizm və hakim vəzifəsindən tamah məqsədilə istifadə edilməsi təzahürü kimi qəbul etməməsi, həmçinin özü-özünə etiraz verilməsi zərurətinin minimuma endirilməsi üçün vacibdir.

[55] United States of America, Commonwealth of Virginia Judicial Ethics Advisory Committee, *Opinion 2000-5.* See *Ebner v Official Trustee in Bankruptcy*, High Court of Australia, [2001] 2 LRC 369, (2000) 205 CLR 337.

**2.4. Hakim məhkəmədə baxılmalı olan və ya baxıla biləcək işlə bağlı vəziyyətin ağlabatan qiymətləndirilməsinə əsasən həmin işin nəticəsinə hər hansı formada təsir edə və ya prosesin ədalətli həyata keçirilməsini şübhə altına qoya biləcək istənilən şərhlərdən çəkinməlidir. Hakim açıq və ya digər formada şərhlərdən çəkinməlidir, əks təqdirdə bu, işə hər hansı şəxsə və ya məsələyə münasibətdə qərəzsiz baxılmasına mane ola bilər.**

*Şərh*

### İş nə vaxt "hakim tərəfindən baxılmalı" hesab edilir?

70. İş apellyasiya icraatının qurtarmasınadək "məhkəmə tərəfindən baxılmalı" hesab olunur. İş, həmçinin onunla bağlı iddianın veriləcəyini güman etməyə əsaslar olduqda (məsələn, hələ ittiham irəli sürülməmiş cinayətə dair işin istintaqı aparıldıqda və ya hələ ittiham verilməmiş şəxsin həbsi həyata keçirildikdə, yaxud nüfuzuna zərər vurulmuş şəxs diffamasiya iddiası qaldırmaq niyyətini bildirməsinə rəğmən onu hələ qaldırmadıqda), məhkəmə tərəfindən baxılmalı olan hesab edilə bilər.

### Qeyri-qanuni bəyanatlar

71. Hakimlər tərəfindən hər hansı konkret cinayəti törətməkdə təqsirli sayılmış hər bir şəxsə cəza qismində həbsin təyin olunacağı (bu zaman həmin cinayətin ilk dəfə və ya təkrar törədilməsi nəzərə alınmadan) barədə verilən bəyanat təqsirləndirilən şəxsə törədilməsində ittiham olunduğu cinayətə görə müvafiq cəza tədbiri ilə bağlı hakimin qabaqcadan hasil olan rəyi ifadə etməsi əsası ilə onun işdən kənarlaşdırılmasını tələb etmək hüququ verir. Bu, hətta o halda ədalətlidir ki, hakimlər cəzanın konkret müddətinin onlar tərəfindən şəxsi mülahizəyə əsasən və işin faktiki hallarından və bu kateqoriya cinayətə tətbiq olunan qanun normalarından asılı olaraq müəyyən edilməsini bəyan etmiş olsunlar. Belə bəyanat qeyri-qanuni kimi qiymətləndirilə bilərdi, çünki hakimlərin mövqeyinə cəmiyyətin əhval-ruhiyyəsinin və ya onun tənqidinə məruz qalmaq qorxusunun təsir edə bilməsini nəzərdə tutur. Bundan başqa, o, baxılma prosesində olan işlə bağlı yolverilməz açıq şərhləri özündə əks etdirə bilərdi.[56]

### İcazə verilən bəyanatlar

72. Yuxarıda qeyd olunanlar hakimin öz rəsmi vəzifələrinin icrası zamanı etdiyi açıq bəyanatlara, məhkəmə icraatı qaydası ilə bağlı verdiyi izahlara və ya hüquqi tərbiyələndirmə işinə kömək məqsədilə etdiyi çıxışlara şamil olunmur. Hakimə özünün tərəf olduğu və fərdi şəxs qismində iştirak etdiyi məhkəmə prosesi ilə əlaqədar şərhlər vermək qadağan edilmir.

### Tərəflərlə yazışmalar

73. Əgər iş üzrə icraat qurtardıqdan sonra hakim işin nəticəsindən narazı qalan tərəflərdən və ya təkbaşına, yaxud kollegial şəkildə çıxarılmış qərar və ya qərarları tənqid edən digər şəxslərdən məktub və ya başqa məlumatlar alarsa, o, belə məktubların müəllifləri ilə yazışmaya girişməməlidir.

### KİV tərəfindən edilən tənqid

74. Təqsirsizlik prezumpsiyası prinsipini pozmadan ədalət mühakiməsinin həyata keçirilməsi məsələlərinə dair, həmçinin məhkəmədə baxılacaq, baxılan və ya baxılmış işlərlə bağlı məlumat toplamaq və onu cəmiyyətə ötürmək, habelə şərhlərlə çıxış etmək KİV-in funksiyası və hüququdur. İnformasiya azadlığı prinsipi Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda nəzərdə tutulanlardan başqa heç bir məhdudiyyətlərin obyekti ola bilməz. KİV və ya cəmiyyətin maraqlı üzvləri məhkəmənin çıxardığı qərara tənqidlə yanaşdıqda, hakimin belə tənqidə KİV-ə yazılı müraciət etmək və ya məhkəmə iclası

---

[56] Bax: United States of America, Advisory Committee on the Code of Judicial Conduct, New Mexico, *Judicial Advisory Opinion 1991-2.*

zaman rəy bildirmək yolu ilə cavab verməsi məsləhət deyil. Məhkəmənin baxdığı işlərlə əlaqədar hakim yalnız öz qərarını əsaslandırdığı dəlillərin dili ilə danışır. Hakim çıxardığı qərarın hüquqi əsaslandırılmasının açıq müdafiəsi ilə məşğul olmamalıdır.

### KİV tərəfindən qeyri-dəqiq və ya qeyri-düzgün məlumatların verilməsi

75. KİV məhkəmə prosesi və ya çıxarılan qərar barədə qeyri-dəqiq və ya qeyri-düzgün məlumat verdikdə və hakim yanlışlığın düzəldilməsini məqsədəuyğun hesab etdikdə, məhkəmənin katibi işin real vəziyyətinə dair press-reliz yaya, yaxud KİV vasitəsilə yayılmış məlumata müvafiq düzəlişlər etmək üçün lazımi addımlar ata bilər.

### KİV-lə münasibətlər

76. KİV-lə münasibətlər məsələsinə “Banqalor prinsipləri”nin 2.4-cü bəndində birbaşa toxunulmasa da, bu məsələ əhəmiyyətlidir. Burada narahatlıq doğura bilən üç aspekti qeyd etmək zəruridir:

(a) KİV-dən (məhkəmə iclası zamanı və ya məhkəmədən kənarda) hakimin cəmiyyətin nəzərində özü barədə arzuolunan “imic” formalaşdırılması və ya karyera yüksəlişi üçün istifadə edilməsi, yaxud çıxardığı qərara KİV-in göstərəcəyi mümkün reaksiya ilə bağlı narahatlıq keçirməsi. Hakim heç bir halda özünün KİV-in təsiri altına düşməsinə imkan verməməlidir, çünki bu demək olar ki “Banqalor prinsipləri”nin 1.1 bəndində və digər, o cümlədən 2.1, 2.2, 3.2 və 4.1 bəndlərində nəzərdə tutulan müddəaların pozuntusu hesab olunardı.

(b) İkinci aspekt hakimin KİV-lə məhkəmədənkənar münasibətlərinə aiddir. Əksər ölkələrdə KİV məlumatı məhkəmə iclas protokollarından və onlara təqdim edilən sənədlərdən, həmçinin məhkəmə araşdırmasının aşkarlığı sayəsində əldə edir. Bəzi ölkələrdə (xüsusilə, məhkəmə materiallarının gizli saxlandığı) məhkəmədə baxılan istənilən işin cari vəziyyəti barədə KİV-ə məlumat verməyin konkret hakimə həvalə olunduğu sistem mövcuddur. Belə xarakterli məlumatlar istisna olmaqla, hakim tərəfindən baxdığı işlə bağlı məhkəmədən kənarda fikir bildirilməsi yolverilməz sayılmalıdır.

(c) Üçüncü aspekt, əgər bu cür şərh hətta elmi məqalədə əks olunsa belə, hakimin şəxsən və ya digər hakimlər tərəfindən çıxarılmış qərarla bağlı verdiyi şərhlərə aiddir. Belə şərhi yalnız o halda mümkün hesab etmək olar ki, ümumi maraq kəsb edən və baxılan hər hansı konkret işin sırf hüquqi məqamlarına aid olsun. Lakin keçmişdə çıxarılmış qərarların sırf elmi kontekstdə müzakirə edilməsinə aid qayda dəyişikliyə uğrayır. Bu məsələyə münasibətdə hakimlər arasında fikir ayrılığı olduğu üçün bununla bağlı hansısa mütləq qaydalar barədə danışmaq qeyri-mümkün görünür. Mövcud tədbirlilik qaydalarına əsasən, hakim çıxarılmış qərarlarla bağlı mənasız müzakirələrə girişməməlidir, xüsusən o hallarda ki, belə müzakirə çıxarılmış qərarda göstərilənlərlə yanaşı, əlavə dəlillərin irəli sürülməsinə cəhd kimi qiymətləndirilə bilsin.

**2.5. Əgər iş üzrə obyektiv qərarın çıxarılması onun üçün mümkün görünmürsə və ya kənar müşahidəçidə hakimin qərəzsizliyinə şübhələr yarana bilərsə, hakim özü-özünə etiraz etməlidir.**

*Şərh*

**Kənar müşahidəçi**

77. "Banqalor prinsipləri"nin layihəsində söhbət hakimin məsələni qərəzsiz həll etməyə qabil olmadığını "hesab edə bilən" "ağıllı, sağlam düşüncəli və məlumatlı şəxs"dən gedirdi. "Banqalor prinsipləri"ndə əks olunan ifadə forması - "kənar müşahidəçidə şübhələr yarana bildikdə" - 2002-ci ilin noyabrında Haaqada təşkil olunan iclasda "kənar müşahidəçi" dedikdə "sağlam düşüncəli və məlumatlı müşahidəçinin" başa düşülməsini nəzərə almaqla razılaşdırılmışdır.

**"Heç kəs öz şəxsi işi üzrə hakim ola bilməz".**

78. Heç kəsin öz şəxsi işi üzrə hakim ola bilməməsi təməl prinsiplərdəndir. Bu prinsip məhkəmələrin təfsirində iki oxşar, lakin eyni olmayan şərhi nəzərdə tutur. Birincisi, o, sözün hərfi mənasında təfsir oluna bilər: əgər hakim məhkəmə işində tərəfdirsə və ya onun nəticəsində iqtisadi marağı varsa, onda öz şəxsi işində həqiqətən hakim rolunda çıxış etmiş olur. Bu, hakimin özü-özünə etirazı üçün kifayət edən əsas hesab olunur. İkincisi, bu prinsip hakim işdə tərəf sayılmadığı və onun nəticəsində iqtisadi marağının olmadığı halda, özünü onun qərəzsizliyinə şübhə doğuran şəkildə apardıqda (məsələn, iş üzrə tərəflərdən hər hansı biri ilə dostluq etməsi) da tətbiq edilir. Belə vəziyyət heç kəsin öz şəxsi işi üzrə hakim ola bilməməsi prinsipinin tətbiqinə nümunə sayılmır, çünki hakimin real və ya görünən qərəzliliyi, bir qayda olaraq, onun özü deyil, başqa şəxs üçün faydanı əks etdirir.[57]

**Tərəflərin razılığa gəlməsi mühüm əhəmiyyət kəsb etmir.**

79. Əgər hətta tərəflər özü-özünə etiraz etməli olduğunu hesab edən hakimin məhkəmə prosesində iştirakına razılıqlarını ifadə edirlərsə, bu, hakimin işə baxılmasında sonrakı iştirakına haqq qazandırmır. Çünki cəmiyyət maraqlıdır ki, ədalət mühakiməsinin həyata keçirilməsinin qərəzsizliyinə hər hansı şübhələr olmasın. Bununla belə, əksər ölkələrdə məhkəmə prosesinin tərəfləri qərəzsizliklə bağlı tələblərindən rəsmi imtina etmək hüququna malikdirlər. Belə imtina kifayət qədər əsaslandırıldıqda, tərəflərin hakimə etiraz üçün əsas ola bilən halların mövcudluğu ilə bağlı etirazını aradan qaldırır.

**Hakimin faktları tam açıqlamaq vəzifəsi**

80. Hakim iki halda faktları protokola daxil etməklə elan edir və tam açıqlayır və tərəflərə öz mülahizələrini təqdim etmək xahişi ilə müraciət edir. Birincisi, əgər hakim özü-özünə etiraz üçün sübut olunan əsasların mövcud olduğunu ehtimal edirsə, lakin buna tam əmin deyildirsə. İkincisi, əgər işə məhkəmədə baxılanadək və ya məhkəmə araşdırmasının gedişində gözlənilmədən hər hansı mübahisəli məsələ ortaya çıxarsa. Tərəflərə öz mülahizələrini təqdim etmək xahişi ilə müraciət edərkən, hakim bu müraciətin tərəflərdən və ya onların müdafiəçilərindən özü-özünə etiraza razılıq almaq üçün deyil, özü-özünə etiraz üçün sübut olunan əsasların mövcud olması, həmçinin bu halda həmin hakimin məhkəmə araşdırmasında iştirakı doktrinasının tətbiq oluna bilməsi məsələsinin həllində ona kömək etmələri məqsədilə edildiyini vurğulamalıdır. Hakimin şübhələri real əsasa malik olduqda, bu məsələ, bir qayda olaraq, hakimə etirazın lehinə həll olunur.

**Qabaqcadan hasil olan qənaətin mövcudluğuna dair əsaslandırılmış ehtimal**

---

[57] *R v. Bow Street Stipendiary Magistrate, Ex parte Augusto Pinochet Ugarte (No.2),* House of Lords, United Kingdom, [1999] 1 LRC 1.

81. Hakimə etiraz üçün qəbul olunmuş meyar onun qabaqcadan hasil olan qənaətə malik olmasına dair əsaslandırılmış ehtimalın mövcudluğu sayılır. Qabaqcadan hasil olan qənaətin və ya qabaqcadan formalaşmış yanlış fikrin mövcudluğunu ehtimal etmək üçün əsaslar "yüksək dərəcədə ehtimal", "real imkan", "böyük ehtimal", həmçinin "əsaslandırılmış şübhə" kimi müxtəlif hüquqi ifadələri nəzərə almaqla müəyyən edilir. Qabaqcadan hasil olan qənaətin mövcudluğu barədə ehtimal əsaslandırılmış olmalı, məsələni diqqətlə öyrənən və bununla bağlı zəruri məlumatı əldə edən sağlam düşüncəli və məlumatlı şəxslərdən irəli gəlməlidir. Qabaqcadan hasil olan qənaətin mövcudluğu barədə ehtimal aşağıdakı meyar əsasında müəyyən olunur: "bu məsələni real və praktiki nöqteyi-nəzərdən qiymətləndirən sağlam düşüncəli və məlumatlı müşahidəçi hansı qənaətə gələ bilərdi? O, həmin hakimin ədalətli və qərəzsiz qərar qəbul etməyəcəyini düşünürdümü?"[58] Cəmiyyətin məhkəmə orqanlarına inamını saxlamağın zəruriliyini nəzərə alan və müstəsna olaraq məhkəmə tərkibinə daxil olan həmkarları tərəfindən onun işinə verilən qiymətə söykənməyən meyardan istifadə edilməsinin obyektivliyini qeyd etmək üçün hakimin davranışı kənar müşahidəçinin nəzəri mövqeyi ilə qiymətləndirilir.

82. Kanada Ali Məhkəməsinin[59] fikrincə, qarşısındakı məhkəmə işinə münasibətdə hakimdə faktiki olaraq qabaqcadan formalaşmış yanlış fikrin müəyyən edilməsi məsələsi nadir hallarda həlledici əhəmiyyət kəsb edir. Əlbəttə, belə halın mümkün ola bildiyi yerdə müəyyən edilməsi hakimin həmin işə baxılmasında iştirak etmək hüququndan məhrum olunmasını labüd edir. Lakin əksər hallarda hakimə etirazın dəlillərinin müzakirəsi, bir qayda olaraq, ondan başlayır ki, tərəflər hakimdə real mövcud olan qabaqcadan formalaşmış yanlış fikrin olmamasını qəbul edir və qabaqcadan hasil olan qənaətin mövcudluğuna dair əsaslandırılmış ehtimalın olması məsələsinin müzakirəsinə keçirlər. Belə formal yanaşma çox vaxt onunla şərtlənir ki, hakimdə real mövcud olan qabaqcadan formalaşmış yanlış fikrin olmasından şübhələnən tərəf onu sübut edə bilmir və buna görə də qabaqcadan hasil olan qənaətin mövcudluğuna dair əsaslandırılmış ehtimalın olmasının təsdiqi ilə məhdudlaşır, çünki sonuncu asan sübut oluna bilir. Göstərilən iki məsələ - yəni, real mövcud olan qabaqcadan formalaşmış yanlış fikrin olması və qabaqcadan hasil olan qənaətin mövcudluğuna dair əsaslandırılmış ehtimal – bir-biri ilə bağlı olduğundan, hakimin işə baxılmasında iştirak etmək hüququndan məhrum olunması üçün əsas ola bilən hakimdə real mövcud olan qabaqcadan formalaşmış yanlış fikrin olmamasının təsdiqi dedikdə, məhz nəyin nəzərdə tutulmasına baxmaq məqsədəuyğun görünür. Hakimdə real mövcud olan qabaqcadan formalaşmış yanlış fikrin olmamasının təsdiqi faktı aşağıdakıları ifadə edə bilər: ya real mövcud olan qabaqcadan formalaşmış yanlış fikrin olması faktını müəyyən etməyə zərurətin olmamasını, çünki qabaqcadan hasil olan qənaətin mövcudluğuna dair əsaslandırılmış ehtimala onu əvəz edən kimi baxıla bilər; ya hakimdə hətta düzgün və vicdanla fəaliyyət göstərdikdə belə qeyri-şüurlu qabaqcadan formalaşmış yanlış fikrin olması mümkünlüyünü; ya da real mövcud olan qabaqcadan formalaşmış yanlış fikrin olub-olmaması məsələsinə baxılmasının yersiz görünməsini.

83. Birincisi, tərəflər hakimdə real mövcud olan qabaqcadan formalaşmış yanlış fikrin olmadığını təsdiq etdikdə, hakimə etirazla bağlı qüvvədə olan standartın onların bunun mövcudluğunu sübuta yetirmələrini tələb etmədiyini güman edə bilərlər. Bu mənada, "qabaqcadan hasil olan qənaətin mövcudluğuna dair əsaslandırılmış ehtimal"a real mövcud olan qabaqcadan formalaşmış yanlış fikri əvəz edən kimi baxıla bilər, nəzərə alaraq ki sonuncunun sübut olunmasını tələb etmək ağlabatan və real olmazdı. Hakimin nə düşündüyünü, onun simpatiyası və antipatiyasını dəqiq müəyyənləşdirmək çətindir, xüsusən ona görə ki, qanun hakimin psixoloji durumuna hansı xarici amillərin təsir edə bilməsini aydınlaşdırmaq üçün onun sorğu prosedurunu nəzərdə tutmur. Bundan başqa, hüquq siyasəti məhkəmə prosesinin tərəflərinə onların üzərinə düşən sübutetmə yükünün azaldılması imkanının təqdim edilməsində ifadə olunur, çünki qanun tərəflərə bu halın real mövcud olmasının sübut edilməsini tələb etmədən qabaqcadan formalaşmış yanlış fikrin olmasına real təhlükəyə istinad etməyə imkan verir.

[58] Bax: *Locabail (UK) Ltd v Bayfield Properties*, Court of Appeal of England and Wales [2000] QB 451, [2000] 3 LRC 482; *Re edicaments and Related Classes of Goods (No.2)*, House of Lords, United Kingdom [2001] 1 WLR 700; *Porter v Magill*, House of Lords, United Kingdom [2002] 2 AC 357; *Webb v The Queen*, High Court of Australia (1994) 181 CLR 41; *Newfoundland Telephone Co v Newfoundland (Board of Commissioners of Public Utilities)*, Supreme Court of Canada [1992] 1 SCR 623; *R v Gough*, House of Lords, United Kingdom [1993] AC 646; *R v Bow Street Stipendiary Magistrate, Ex parte Augusto Pinochet Ugarte (No.2)*, House of Lords [2001] 1 AC 119.

[59] *Wewaykum Indian Band v. Canada*, Supreme Court of Canada, [2004] 2 LRC 692, per Chief Justice McLachlin.

84. İkincisi, tərəflər hakimdə real mövcud olan qabaqcadan formalaşmış yanlış fikrin olmadığını təsdiq etdikdə, onlar razılığa gələ bilərlər ki, hakim düzgün və vicdanla fəaliyyət göstərir və şüurlu şəkildə qabaqcadan formalaşmış hər hansı yanlış fikrə malik deyil. Lakin qabaqcadan formalaşmış yanlış fikir və qabaqcadan hasil olan qənaət qeyri-iradi də ola və hakim səmimi şəkildə təsdiq edə bilər ki, onun qabaqcadan formalaşmış hər hansı yanlış fikri yoxdur və öz maraqlarının onun şüuruna və fikirlərinə təsir etməsinə imkan vermir, lakin bununla belə qeyri-iradi olaraq bu hal baş verə bilər.

85. Və nəhayət, tərəflər hakimdə real mövcud olan qabaqcadan formalaşmış yanlış fikrin olmadığı ilə razılaşdıqda, düşünə bilərlər ki, qabaqcadan formalaşmış yanlış fikir və qabaqcadan hasil olan qənaətin real mövcudluğu barədə məsələnin qoyuluşunun özü kifayət qədər uyğun görünməyə bilər. Onlar onu rəhbər tuturlar ki, "təkcə ədalət mühakiməsini həyata keçirmək kifayət deyil, bunu açıq və elə etmək lazımdır ki, ədalət mühakiməsinin həyata keçirilməsi cəmiyyətdə hər hansı şübhələr doğurmasın". Başqa sözlə, hakimə etiraz məsələsi meydana çıxdıqda, hakimdə *həqiqətən* şüurlu və ya qeyri-şüurlu olaraq qabaqcadan formalaşmış yanlış fikrin mövcudluğuna deyil, kənar məlumatlı müşahidəçidə belə təsəvvürün yarana bilib-bilməməsinə diqqət yetirmək lazımdır. Bu mənada, qabaqcadan hasil olan qənaətə dair əsaslandırılmış ehtimal özü-özlüyündə qabaqcadan hasil olan qənaəti istisna edən sübutları sadəcə əvəz etmir, həm də hakimdə qeyri-şüurlu qabaqcadan formalaşmış yanlış fikrin mövcudluğu ehtimalının müəyyən edilməsi üçün sübutedici vasitə qismində çıxış edir; hakimin işə baxılmasında iştirak etmək hüququndan məhrum edilməsi barədə məsələnin həlli zamanı həmin əsasa verilən bu əhəmiyyət ədalət mühakiməsinin "imicinə" və xüsusilə, dövlətin cəmiyyətdə ədalət mühakiməsinin düzgün həyata keçirilməsinə inamın möhkəmləndirilməsi marağına necə böyük diqqət yetirilməsinə dəlalət edir.

86. Qabaqcadan hasil olan qənaətin olması barədə əsaslandırılmış ehtimala dair obyektiv meyarın yuxarıda göstərilən üç əsasından sonuncusu məhkəmə sisteminə münasibətdə daha sərt görünür, çünki ədalət mühakiməsi əslində həyata keçirildiyi halda, cəmiyyət tərəfindən onun həyata keçirilməmiş kimi qəbul olunması imkanını istisna etmir. Başqa sözlə, o, tam şəkildə obyektiv və qərəzsiz olan hakimin bəzən onun kənarlaşdırılmasını, yəni işə baxılmasında iştirak etmək hüququndan məhrum olunmasını tələb edən qərəzliliyi barədə ehtimalları doğura bilən hallarla üzləşə bilməsini də nəzərdə tutur. Lakin baxılan prinsipin hətta bu cür anlamında belə, kənarlaşdırmanın zəruriliyini müəyyən edən meyar, sağlam düşüncəli kənar müşahidəçinin obyektiv baxışları ilə qiymətləndirilsə də, hakimin dəyərlər sistemi və şüuru sayılır. Bu mənada, tez-tez istinad olunan "ədalət mühakiməsini açıq və elə həyata keçirmək lazımdır ki, onun həyata keçirilməsi cəmiyyətdə hər hansı şübhələr doğurmasın" fikrinə qabaqcadan hasil olan qənaətin olması barədə əsaslandırılmış ehtimala dair meyardan ayrılıqda baxıla bilməz.

**Hakim özü-özünə etiraz etmə tələbinə həddən artıq həssas reaksiya verməməlidir.**

87. Hakim özü-özünə etiraz etmə tələbinə həddən artıq həssas yanaşmamalı və bunu şəxsi təhqir kimi qəbul etməməlidir. Əgər hakim özü-özünə etiraz etmə tələbini şəxsi təhqir kimi qəbul edərsə, keçirdiyi mənəvi həyəcan hissi onun mühakimələrinə mənfi təsir göstərə bilər. Əgər hakim tərəflərə öz incikliyini açıq şəkildə ifadə edərsə, bu, tələbkarın həmin hakimin qərəzliliyi barədə şübhələrini daha da artırar. Tərəf hakimin qabaqcadan hasil olan qənaəti barədə əsaslandırılmış şübhələrə malik olduqda, hakim ona etiraz edən şəxsin onu və onun hərəkətlərini məhz necə *qəbul etdiyini* anlamalıdır. Hakimin hüququn və ictimai siyasətin təməl prinsipi sayılan ədalət mühakiməsinin açıq və heç bir şübhə doğurmadan həyata keçirilməsini təmin etmək vəzifəsi az əhəmiyyət kəsb etmir. Ona görə də, hakim məhkəmə araşdırmasını elə aparmalıdır ki, onun qərəzsizliyi, obyektivliyi və ədalətliliyi işə aidiyyəti olan bütün, xüsusən hakimə etiraz tələbi verən şəxslər üçün aşkar olsun. Müvafiq olaraq, barəsində etiraz tələbi verilən hakim bilməlidir ki, ondan, həmçinin etiraz barədə vəsatətlə bağlı aydın və heç kəsdə şübhə doğurmayan qərəzsizlik gözlənilir.[60]

**Keçmiş siyasi mənsubiyyəti hakimin işdən kənarlaşdırılması üçün əsas ola bilməz.**

[60] Bax: *Cole v Cullinan et al,* Court of Appeal of Lesotho, [2004] 1 LRC 550.

88. Hakim vəzifəsinə təyin olunanadək onun öz peşəkar karyerası ərzində malik ola bildiyi istənilən öhdəlikləri və maraqları hakimin obyektivliyi və qərəzsizliyinin qiymətləndirilməsi zamanı nəzərə alına bilər. Hakim korpusu vəkillər təbəqəsindən formalaşdırılan ölkələrdə hakim öz hakimlik postuna təyin edilənədək, böyük ehtimalla müəyyən fikirləri açıq ifadə edə, şəxsin adından fəaliyyət göstərə və ya müəyyən partiya və ya maraqları dəstəkləyə bildiyi vəzifələri və ya postları tuta bilər. Əgər hakim siyasi həyata cəlb olunmuşdursa, bu, şübhəsiz belə olacaqdır. Hüquqdan kənar sahədə, siyasi və ya istənilən digər fəaliyyətlə əldə olunmuş təcrübə hakimin dünyagörüşünü genişləndirən və peşəkarlıq dərəcəsini artıran kimi qiymətləndirilə bilər. Lakin hakim bilməlidir ki, hakim andını içdikdən və ya vəzifələrini müstəqil və qərəzsiz icra edəcəyini təntənəli şəkildə bəyan etdikdən sonra öz siyasi rəğbət hisslərini və maraqlarını unutmalıdır. Bu, hakimdə qabaqcadan formalaşmış yanlış fikir və qabaqcadan hasil olan qənaətin olmasını ehtimal edə bilmək məsələsinin həlli üçün sağlam düşüncəli və məlumatlı kənar müşahidəçinin əsas götürməli və qiymətləndirməli olduğu aspektlərdən biridir.[61]

**İşə aid olmayan əsaslar**

89. Dini etiqadı, etnik və ya milli mənşəyi, cinsi, yaşı, əmlak və ya sinfi vəziyyəti və seksual oriyentasiyası, bir qayda olaraq, tərəflərin hakimin namizədliyinə etiraz etməsi üçün əsas ola bilməz. Etiraz, həmçinin hakimin sosial mənşəyi, təhsili, iş stajı, ictimai, idman və ya xeyriyyə təşkilatlarına üzvlüyü, əvvəllər çıxardığı məhkəmə qərarları və ya hakim vəzifələrinin icrasından kənar verdiyi bəyanatları kimi motivlərlə də əsaslandırıla bilməz. Lakin ümumi xarakterli bu müddəalar konkret işin hallarından və hakimin baxmalı olduğu işin özündən asılıdır.

**Hakimin işdən kənarlaşdırılması üçün dostluq, ədavət və digər işə aid əsaslar**

90. Konkret hallardan asılı olaraq, qabaqcadan hasil olan qənaətin olması barədə əsaslandırılmış ehtimal aşağıdakı hallarda mövcud ola bilər:

(a) Hakimlə cəmiyyətin baxılan işə cəlb olunmuş və ya onda marağı olan hər hansı üzvü arasında şəxsi dostluq və ya ədavətli münasibət olduqda;

(b) Hakim cəmiyyətin baxılan işə cəlb olunmuş və ya onda marağı olan hər hansı üzvü ilə yaxın tanış olduqda, xüsusən bu şəxsə inam və onun dediklərinin etibarlılığı işin nəticəsi üçün əhəmiyyət kəsb edə bildikdə;

(c) Hakim hər hansı işə baxılması zamanı hər hansı şəxsin təqdim etdiyi sübutların düzgünlüyünü və etibarlılığını müəyyən etməli olduqda, lakin həmin şəxsin əvvəllər baxılan iş üzə sübutları həmin hakim tərəfindən o dərəcədə kəskin ifadələrlə rədd edilmişdir ki, bu, nəticədə onun şəxs tərəfindən təqdim olunmuş sübutlara qərəsiz yanaşacağından əsaslı olaraq şübhələnməyə vadar edir;

(d) Hakim xüsusən məhkəmə baxışının gedişində tərəflər arasında hər hansı mübahisə ilə əlaqədar o dərəcədə kəskin və hisslərini cilovlaya bilmədən fikir bildirmişdir ki, bu, həmin hakimin qeyd olunan məsələyə obyektiv və qabaqcadan hasil olan qənaətə gəlmədən baxa bilməsindən əsaslı olaraq şübhələnməyə vadar edir; və ya

(e) Hər hansı digər səbəbdən hakimin baxılan işin mahiyyətinə aidiyyəti olmayan ikinci dərəcəli mülahizələri, qabaqcadan formalaşmış yanlış fikir və meylləri nəzərə almayacağından və baxılan məsələ üzrə obyektiv məhkəmə qərarı çıxaracağından şübhələnməyə real əsaslar ola bildikdə.

Nəzərə almaq lazımdır ki, hakimdə qabaqcadan hasil olan qənaətin olmasını ehtimal etmək üçün əsas kimi çıxış edən hadisənin üzərindən nə qədər çox vaxt keçərsə, tərəf konkret hakimin namizədliyinə etirazını bildirmək üçün bir o qədər az tutarlı əsaslara malik olur.[62]

**İş barədə təklif hakimin kənarlaşdırılması üçün əsas ola bilər.**

[61] Bax: *Panton v Minister of Finance*, Privy Council on appeal from the Court of Appeal of Jamaica, [2001] 5 LRC 132; *Kartinyeri v Commonwealth of Australia*, High Court of Australia, (1998) 156 ALR 300.

[62] Locabail (UK) Ltd v Bayfield Properties Ltd, Court of Appeal of England and Wales [2000] 3 LRC 482.

91. Analoji yanaşmaları tələb edən məsələlər o halda meydana çıxa bilər ki, məhkəmə tərkibinə daxil olan hakim öz hakimlik səlahiyyətlərinin bitməsindən sonra müəyyən vəzifə tutmaq təklifi almış olsun. Belə təkliflər hüquq firmaları və ya özəl, yaxud dövlət sektorunun işəgötürənləri tərəfindən edilə bilər. Bu vəziyyəti qiymətləndirən sağlam düşüncəli, məlumatlı müşahidəçinin nəzərində hakimin şəxsi maraqları ilə vəzifə öhdəliklərinin bir-biri ilə ziddiyyətə girməsi riski mövcuddur. Hakim belə təkliflərə məhz bu baxımdan yanaşmalıdır, xüsusən ona görə ki, sabiq hakimlərin davranışı çox vaxt bütövlükdə hakim korpusunun cəmiyyət tərəfindən qəbul edilməsinə təsir göstərir, hansı ki hakim istefaya getdikdən sonra da saxlanılır.

**Aşağıda belə halların yalnız bir neçə nümunələri sadalanmışdır:**

**2.5.1. hakimdə tərəflərdən hər hansı birinə qarşı real olaraq qabaqcadan formalaşmış yanlış fikir və ya qabaqcadan hasil olan qənaət münasibəti formalaşmışdırsa, yaxud hakimə onun şəxsi mənbələrindən baxılan işə aidiyyəti olan hər hansı sübutedici faktlar məlum olmuşdursa;**

*Şərh*

**Real qabaqcadan formalaşmış yanlış fikir və ya qabaqcadan hasil olan qənaət münasibəti**

92. Qabaqcadan formalaşmış yanlış fikir şəxsi xarakter daşıdıqda və tərəflərdən hər hansı birinə - ya fərdi şəxs kimi, ya da hər hansı müəyyən qrupun nümayəndəsi kimi yönəldikdə, real hesab olunur. Hakimə bu əsasla etiraz etmək üçün onun işə qərəzsiz baxmaq qabiliyyətində olmadığına obyektiv sübutun olması zəruridir: yəni, bütün hallar barədə ətraflı məlumatlandırılmış kənar müşahidəçidə həmin hakimin obyektivliyinə və qərəzsizliyinə şübhələr yarana bilərdimi?

**Mübahisələndirilən faktlar hakimə onun şəxsi mənbələrindən məlum olmuşdur.**

93. Bu qayda hakim tərəfindən işin onun icraatına verilməsinədək iş üzrə alınmış məlumatlara, həmçinin məhkəmədənkənar mənbələrdən və ya işə məhkəmədə baxılması mərhələsində öz şəxsi araşdırması ilə əldə etdiyi məlumatlara aiddir. O hətta belə məlumatlar məhkəmə prosesinə aidiyyəti olmayan məqsədlə aparılan müstəqil tədqiqat nəticəsində (məsələn, kitabın yazılması prosesində)[63] əldə edilmiş və müvafiq tərəflərə öz dəlillərini və izahlarını təqdim etmək imkanı verən lazımi anda açılmamış məlumatlara da tətbiq olunandır. Əgər bu məlumatlar hakimə həmin iş üzrə məhkəmə tərəfindən əvvəllər çıxarılmış qərar və ya qətnamələrdən, yaxud məhkəmə baxışının predmeti sayılan əməliyyatlarda və ya əqdlərdə başqa tərəflərin iştirak etdiyi hər hansı işin əvvəllər keçirilmiş məhkəmə baxışında iştirakı nəticəsində məlum olmuşdursa və yaxud iş üzrə tərəflərdən biri həmin hakim tərəfindən əvvəllər baxılmış məhkəmə işində tərəf kimi çıxış etmişdirsə, özü-özünə etiraz tələb olunmur. Lakin qeyd etmək lazımdır ki, bir qayda olaraq belə məlumatlar, əgər aşkar, tanış, əvvəllər müzakirə olunmuş və hamıya məlum olan faktlara aiddirsə, protokola daxil edilməli və izah və şərhlərinin verilməsi üçün tərəflərə təqdim olunmalıdır. Ancaq burada müəyyən həddlər mövcuddur. Məsələn, hakimdən qanunun baxılan işə aid ona məlum olan hər bir müddəası, yaxud hakim tərəfindən qərarın çıxarılması üçün əhəmiyyətsiz ola bilən hamıya məlum faktlar barədə ətraflı məlumat tələb etmək olmaz. Bu halda rəhbət tutulmalı olan meyar ondan ibarətdir ki, hansı məlumat kənar müşahidəçinin nöqteyi-nəzərindən ağlabatan sayılır.

[63] Bax: Prosecutor v Sesay, Special Court for Sierra Leone (Appeals Chamber) [2004] 3 LRC

**2.5.2. eyni mübahisə predmetinə əvvəllər baxılması zamanı hakim vəkil qismində çıxış etmişsə və ya mühüm şahid qismində cəlb edilmişsə;**

*Şərh*

**Vəkil vəkillik kontorunun digər üzvlərinə görə məsuliyyət daşımır.**

94. Hakim əvvəllər fərdi vəkillik təcrübəsi ilə məşğul olmuşsa, azad peşə sahibi - vəkillik kontorunda işləyən vəkil kimi müstəqil statusu onu həmin kontorun digər üzvlərinin işi ilə bağlı istənilən məsuliyyətdən və həmçinin, onların işləri haqqında ətaflı məlumata malik olmaq vəzifəsindən azad edir.

**İşləyən hüquqşünaslar öz partnyorlarının peşə hərəkətlərinə görə məsuliyyət daşıyırlar.**

95. Hər hansı hüquq firmasında və ya şirkətində işləyən vəkil və ya hüquq məsləhətçisi həmin firmanın digər partnyorlarının peşə hərəkətlərinə görə hüquqi məsuliyyət daşıya bilərlər. Ona görə də, gələcək partnyor kimi firmanın və ya şirkətin üzvü, hətta heç vaxt onların maraqlarını müdafiə etməli olmadıqda və onların işləri barədə məlumatlandırılmadıqda belə, firmanın müştəriləri qarşısında məsuliyyət daşıya bilər. Müvafiq olaraq, əvvəllər belə firmanın və ya şirkətin üzvü olmuş hakim bu vəzifəyə təyin olunanadək özünün və ya keçmiş firmasının hər hansı qisimdə bilavasitə aidiyyəti olduğu istənilən işdə hakim kimi iştirak etməməlidir.

**Hökumət təşkilatında və ya hüquq məsləhətxanasında iş**

96. Hakimin əvvəllər hökumət təşkilatında və ya hüquq məsləhətxanasında işləməsi faktından irəli gələn qabaqcadan hasil olan qənaət münasibətinin mövcudluğunun qiymətləndirilməsi zamanı həmin təşkilatda və ya məsləhətxanada hüquqi təcrübənin xüsusiyyətlərini, həmçinin hakimin əvvəllər yerinə yetirdiyi inzibati, məsləhət və ya nəzarət xarakterli funksiyaları nəzərə almaq zəruridir.

**Hakim əvvəllər eyni mübahisə predmetinə baxılması zamanı mühüm şahid qismində cəlb edilmişdir.**

97. Belə qaydanın mövcudolma səbəbi ondadır ki, hakim özü tərəfindən verilmiş şahid ifadələrinə münasibətdə sübutedici qərarlar çıxara bilməz və bu cür hallarla bağlı yarana bilən qeyri-münasib vəziyyətə düşməməlidir.

**2.5.3. hakim və ya onun ailə üzvləri baxılan işin nəticəsində maraqlıdırsa.**

*Şərh*

**Hansı hallarda maddi maraq hakimə etiraz üçün əsas kimi çıxış edir?**

98. Bir qayda olaraq, hakim necə həll olunacağından asılı olaraq, hakimin (və ya onun ailə üzvünün) maliyyə baxımından uda və ya uduzacağı ilə bağlı işə baxılmasında iştirakdan özü-özünə etiraz edir. Belə vəziyyət o halda da mövcud ola bilər ki, hakim məhkəmə mübahisəsinin tərəflərindən biri olan şirkətdə səhmlərin böyük əksəriyyətinə malik olur və baxılan işin nəticəsi hakimin maliyyə maraqlarına real təsir edə, yaxud təsir edən kimi qəbul oluna bilər. Əgər işdə tərəf kimi açıq səhmdar cəmiyyəti iştirak edirsə və hakim oradakı səhm paylarının ümumi miqdarının az hissəsinə malikdirsə, işə baxılmasında iştirak etmək hüququndan məhrum edilmir, çünki işin nəticəsi, bir qayda olaraq, onun maliyyə maraqlarına təsir etmir. Lakin əgər məhkəmə mübahisəsinin nəticəsindən şirkətin gələcəyi və sonrakı varlığı asılıdırsa, iş başqa cür də ola bilər. Belə halda, konkret hallardan asılı olaraq, işin nəticəsinə hakimin maliyyə maraqlarına real təsir edən kimi baxıla bilər.

**"Maddi maraq" nəyə şamil olunmur?**

99. "Maddi maraq" anlayışı hakimin, məsələn, qarşılıqlı və ya ümumi investisiya fondundakı aktivlərinə və ya paylarına; maliyyə təşkilatları, qarşılıqlı ssuda-əmanət assosiasiyaları və ya kredit ittifaqlarındakı depozitlərinə; yaxud sahibi olduğu dövlət qiymətli kağızlarına şamil olunmur, bir şərtlə ki, məhkəmə prosesi belə aktivlərin və ya payların dəyərinə əhəmiyyətli təsir göstərə bilməsin. Hakimin işə baxılmasında iştirakına etiraz, həmçinin o halda tələb edilmir ki, hakim baxılan işdə tərəf kimi iştirak edən bankın, sığorta şirkətinin, kredit kartları xidməti üzrə şirkətin və s. adi  müştərisi sayılır, bir şərtlə ki, həmin hakimin özünün cəlb olunduğu mübahisə və ya xüsusi tranzaksiya olmasın. Hakimin həyat yoldaşı, valideynləri və ya uşaqlarının direktor, müşavir, məsləhətçi və s. qisimdə işləyə bildikləri təhsil, xeyriyyə və ya ictimai təşkilatın qiymətli kağızların sahibi ola bilməsi faktı hakimin belə təşkilatlara münasibətdə maddi marağının olması anlamına gəlmir. Eynilə, maliyyə nəticələri əhəmiyyətli dərəcədə proqnozlaşdırılmayan və çox uzaq perspektivə aid olan işlərə münasibətdə maddi marağın müəyyən edilməsi üçün istifadə olunan meyarın tətbiqi, bir qayda olaraq, hakimin kənarlaşdırılmasına gətirib çıxarmır. Bununla belə, bu cür hallarda hakim, əgər tərəfləri, açıq məhkəmə iclasında elan etdiyi məlumatları onlarla təkcə tərəflərin vəkillərinin deyil, həm də özlərinin tanış ola bilmələri üçün protokola daxil etməklə, hər hansı belə hallar barədə məlumatlandırırsa, ağıllı və tədbirli hərəkət etmiş olur. Çox vaxt nəinki hakimin peşə həmkarları, qeyri-peşəkarlar daha çox hər şeydən şübhələnən və heç kəsə etibar etməyən olurlar.

**Həmin işə baxılması üçün heç bir digər məhkəmə təyin edilə bilmədikdə və ya həllinin ləngidilməsi ciddi məhkəmə səhvlərinə gətirib çıxara bilən işin təcili xarakterini nəzərə alaraq, hakim işə baxılmasında iştirak etməkdən kənarlaşdırıla bilməz.**

*Şərh*

**Zərurət nəzəriyyəsi**

100. Fövqəladə hallar yuxarıda göstərilən prinsipdən kənara çıxmanı tələb edə bilər. Zərurət nəzəriyyəsi, əks təqdirdə məhkəmə icraatında iştirakdan uzaqlaşdırılan hakimə, bunun icra olunmaması ədalət mühakiməsindən imtinaya gətirib çıxara bilən hallarda, işə baxmaq və həmin iş üzrə qərar çıxarmaq imkanı verir. Belə zərurət, məhkəmə icraatında iştirakdan kənarlaşdırılmamış başqa hakim olmadıqda, yaxud məhkəmə prosesinin təxirə salınması və ya qeyri-düzgün məhkəmə araşdırması ciddi çətinliklərə səbəb olarsa və ya həmin hakimin iştirakı olmadan işə baxılması və iş üzrə qərar çıxarılması qeyr-mümkündürsə, yarana bilər.[64] Əlbəttə, bu cür zərurət nadir və xüsusi hallarda meydana çıxır. Lakin belə vəziyyət bəzi hallarda hakimlərin məhdud sayına malik olan və üzərlərinə konstitusion hüquqların müdafiəsi və başqa hakimlərlə əvəz edilə bilməyən apellyasiya icraatı üzrə mühüm funksiyalar həvalə olunmuş son instansiya məhkəmələrində yarana bilər.

[64] Bax: *The Judges v Attorney-General of Saskatchewan*, Privy Council on appeal from the Supreme Court of Canada, (1937) 53 TLR 464; *Ebner v Official Trustee in Bankruptcy*, High Court of Australia, [2001] 2 LRC 369; *Panton v Minister of Finance*, Privy Council on appeal from the Court of Appeal of Jamaica, [2002] 5 LRC 132.

*3-cü göstərici*

# VİCDANLILIQ VƏ ƏLƏALINMAZLIQ

*Prinsipi:*

**Vicdanlılıq və ələalınmazlıq hakimin öz vəzifələrini lazımi qaydada icra etməsinin zəruri şərtləridir.**

*Şərh*

**“Vicdanlılıq və ələalınmazlıq” anlayışı**

101. Vicdanlılıq və ələalınmazlıq əxlaqlılığın və ədalətliliyin tərkib hissələridir. Vicdanlılıq və ələalınmazlığın tərkib elementləri hakimin düzgünlüyü və mənəvi prinsipləri sayılır. Hakin özünü təkcə öz rəsmi vəzifələrinin icrası zamanı deyil, həmişə hakim vəzifəsini tutan insana xas olan ləyaqətlə və vicdanla aparmalıdır: o, yalan danışmamalı, aldatmamalı, dələduzluq etməməli və öz davranışında və xarakterində ləyaqət və xeyirxahlıq nümayiş etdirməlidir. Vicdanlılıq və ələalınmazlığın dərəcələri yoxdur və onlar mütləq kateqoriyalardır. Məhkəmə hakimiyyəti və hakimlər üçün vicdanlılıq və ələalınmazlıq – məziyyətdən daha çox, zərurətdir.

**Cəmiyyətdə qəbul olunmuş normaların əhəmiyyəti**

102. Vicdanlılıq və ələalınmazlıq idealı barədə ümumi şəkildə danışmaq asandır, lakin onu daha konkret ifadə etmək - mürəkkəb və hətta mənasız ola bilən məsələdir. Nəyin davranış kimi qavranılması cəmiyyətdə qəbul olunmuş, məkan və zamandan asılı olaraq fərqlənə bilən normalardan əhəmiyyətli dərəcədə asılıdır. Bu, müəyyən davranışın cəmiyyətin sağlam düşüncəli və məlumatlı üzvləri sırasından olan kənar müşahidəçilər tərəfindən necə qəbul oluna bilməsinin və bu qavrayışın hakimə və bütövlükdə məhkəmə hakimiyyətinə hörmətin zəifləməsinə səbəb ola bilməsinin qiymətləndirilməsini tələb edir. Kənar müşahidəçinin nəzərində məhkəməyə hörməti zəiflədən davranışdan çəkinmək lazımdır.

*Tətbiqi:*

**3.1. Hakim hətta kənar müşahidəçinin nəzərində belə qüsursuz davranış nümayiş etdirməlidir.**

*Şərh*

**Davranışın yüksək standartları həm şəxsi, həm də ictimai həyatda zəruridir.**

103. Hakim davranışın yüksək standartlarını həm şəxsi, həm də ictimai həyatda dəstəkləməlidir. Bunun səbəbi ondadır ki, insan təcrübəsinin, həmçinin hakimin qərar çıxararkən bağlı olduğu hərəkətlərin və davranışların spektri çox genişdir. Əgər hakim özünün də şəxsi həyatda adət etdiyi hərəkətləri açıq mühakimə edərsə, bu, cəmiyyətin nəzərində riyakarlıq kimi görünəcəkdir. Bu, həmin hakimə ictimai etimadı qaçılmaz olaraq sarsıdacaqdır ki, bunu cəmiyyətin bütövlükdə məhkəmə sisteminə olan münasibətinə də şamil etmək olar.

**Cəmiyyətdə qəbul olunmuş normalara şəxsi həyatda riayət edilməlidir.**

104. Hakim ümumqəbul olunmuş normaları pozmamalı və məhkəmələrin və bütövlükdə məhkəmə sisteminin nüfuzuna açıq xələl gətirən fəaliyyətlə məşğul olmamalıdır. Lazımi tarazlığı saxlamağa cəhd edərkən, hakim özü-özünə onun davranışının - cəmiyyətin sağlam düşüncəli və məlumatlı üzvü sayılan kənar müşahidəçinin nəzərində - hakimin vicdanlılığı və ələalınmazlığından şübhələnməyə vadar edib-etməyəcəyi və hakim kimi ona olan hörməti zəiflədib-zəiflətməyəcəyi sualını verməlidir. Əgər bu belədirsə, həmin davranışdan çəkinmək lazımdır.

**Cəmiyyətdə qəbul olunmuş universal normalar mövcud deyil.**

105. Mədəni müxtəliflikləri və əxlaqi dəyərlərin daim təkmilləşməsini nəzərə alaraq, hakimin şəxsi həyatda davranış standartları həddən artıq konkret izah oluna bilməz.[65] Lakin bu prinsipi hakimi tam adi olmayan həyat tərzinə və ya əhalinin müəyyən qrupuna təhqiramiz görünə bilən fəaliyyətlə məşğul olmağa görə günahlandırmağa və ya cəzalandırmağa imkan verən qədər geniş də şərh etmək lazım deyil. Belə məsələlər barədə mühakimələr konkret cəmiyyətlə və konkret zamanla sıx bağlıdır və yalnız onlardan bəziləri hər yerdə tətbiq edilə bilər.

**Alternativ meyar**

106. Belə bir fikir bildirilir ki, məsələ hərəkətin bir sıra dini və ya etik inanclar baxımından əxlaqi və ya qeyri-əxlaqi, yaxud cəmiyyətdə qəbul olunmuş normalar baxımından münasib və ya qeyri-münasib sayılıb-sayılmamasında deyil, bu hərəkətin hakimin ona etibar edilmiş işi icra etmək qabiliyyətləri (ədalətlilik, müstəqillik, cəmiyyətə hörmət), həmçinin cəmiyyətin onun hakim vəzifəsinə uyğunluğu

---

[65] Bu, xüsusilə sevgi münasibəti məsələlərinə aiddir. Məsələn, Filippində öz nikahdankənar münasibətlərini gizlətməyən hakim bununla əxlaq qaydalarını pozduğuna görə vəzifəsindən kənarlaşdırılmışdır (*Complaint against Judge Ferdinand Marcos*, Supreme Court of the Philippines, A.M. 97-2-53-RJC, 6 July 2001). ABŞ-ın Florida ştatında hakim avtomobil dayanacağında arvadı olmayan qadınla sevgi münasibətinə görə töhmət almışdır (*In re Inquiry Concerning a Judge*, 336 So. 2d 1175 (Fla. 1976), cited in Amerasinghe, *Judicial Conduct*, 53). ABŞ-ın Konnektikut ştatında hakim ərdə olan məhkəmə stenoqrafçısıyla sevgi münasibətində olduğuna görə intizam cəzası almışdır (*In re Flanagan*, 240 Conn. 157, 690 A. 2d 865 (1997), cited in Amerasinghe, *Judicial Conduct*, 53). ABŞ-ın Tsinsinnati ştatında arvadından ayrı yaşayan evli hakim sonradan nikaha girdiyi məşuqəsini üç dəfə xarici ölkəyə səfərə apardığı üçün, səfər ərzində bir dəfə də olsun eyni mehmanxana nömrəsndə qalmadıqlarına baxmayaraq, intizam məsuliyyətinə cəlb olunmuşdur (*Cincinnati Bar Association v Heitzler*, 32 Ohio St. 2d 214, 291 N.E. 2d 477 (1972); 411 US 967 (1973), cited in Amerasinghe, *Judicial Conduct*, 53). Lakin ABŞ-ın Pensilvaniya ştatında Ali Məhkəmə nikahdankənar münasibətdə olan hakimin gecə vizitlərinə və bir dəfə xaricə birgə səyahət etməsinə rəğmən intizam məsuliyyətinə cəlb olunması tələbini rədd etmişdir (*In re Dalessandro*, 483 Pa. 431, 397 A. 2d 743 (1979), cited in Amerasinghe, *Judicial Conduct*, 53). Bu misallardan bəziləri bir sıra cəmiyyətlərdə hakimi öz ictimai borcunu pozmaqda ifşa edən kimi deyil, müstəsna olaraq yetkin davranışın cinayət sayılmayan xüsusi sferasına aid məsələ kimi nəzərdən keçirilə bilərdi.

barədə təsəvvürü ilə necə uzlaşmasındadır. Müvafiq olaraq, bu məsələnin qiymətləndirilməsi zamanı altı amili nəzərdən keçirmək təklif olunur:

(a) hərəkət ictimai və ya şəxsi xarakter daşıyırmı və qüvvədə olan qanuna ziddirmi;
(b) bu davranış şəxsi hüquq kimi hansı dərəcədə qorunur;
(c) hakim öz vəzifələrinin icrası zamanı hansı dərəcədə diskresion hüquq və ehtiyatlılıq nümayiş etdirir;
(d) baxılan hərəkət və ya davranış aid olduğu şəxslərə mühüm zərər vurmuşdurmu və başqalarına münasibətdə təhqiredici olmuşdurmu;
(e) baxılan hərəkət və ya davranış cəmiyyətə və ya onun ayrı-ayrı üzvlərinə qarşı hansı dərəcədə hörmət və ya hörmətsizlik nümayiş etdirir;
(f) baxılan hərəkət və ya davranış hansı dərəcədə qabaqcadan hasil olan qənaət münasibətinin, qabaqcadan formalaşmış yanlış fikrin və ya lazım olmayan təsirin mövcudluğunu göstərir.

Hesab edirlər ki, davranışın bu və ya digər oxşar amilləri nəzərə almaqla qiymətləndirilməsi cəmiyyətin gözləntiləri ilə hakimin hüquqları arasında tarazlığı müəyyən etməyə kömək edər.[66]

**Məhkəmə iclasında davranış**

107. Konkret vəziyyətlərdə tətbiq edilən qaydalardan asılı olaraq, məhkəmə iclasında hakim adətən elan etdiyi qərarın hüquqi əsaslandırılmasının mahiyyətini dəyişmir. Digər tərəfdən, xətaların, stilistik, qrammatik və sintaktik səhvlərin düzəldilməsi, həmçinin qərarın əsaslandırıcı hissəsinin şifahi elan olunması zamanı buraxılmış sitatların daxil edilməsi yolverilən sayılır. Eynilə, protokollaşdırılmış mətndə hakimin əslində nə dediyinin düzgün əks etdirilmədiyi hallar istisna olmaqla, həmin mətnə hakim tərəfindən bildirilmiş andlı iclasçıların sözlərini müşayiət edən dəyişikliklər daxil edilə bilməz. Hakim icraatında onun çıxardığı hər hansı qərardan verilmiş apellyasiya şikayəti olan apellyasiya məhkəməsi və ya həmin məhkəmənin hakimi ilə şəxsi qaydada əlaqəyə girməməlidir. Hakim öz qohumunun məhkəmə kargüzarı qismində işə qəbulunun hüquqauyğunluğunu qiymətləndirməli və onunla qohumluq münasibətində olan şəxsin işə qəbuluna üstünlük verməmişdən öncə işə götürmənin lazımi prinsiplərinə riayət olunmasını təmin etməlidir.

**Qanuna şərtsiz və dəqiq riayət olunmalıdır.**

108. Qanunu pozmaqla hakim bu vəzifəyə hörməti sarsıda, öz hərəkəti ilə qanuna hörmətsizliyə yol verə və cəmiyyətin məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığına inamını zəiflədə bilər. Lakin bu qaydanı da mütləq meyarlarla ifadə etmək mümkün deyil. Nasist Almaniyasında hakim irqi ayrı-seçkilik barədə Nürnberq qanununun qüvvəsini yüngülləşdirməklə, hakimlərin davranışı prinsipini pozmaya bilərdi. Eyni şeyi Cənubi Afrikada aparteid dövründə işləmiş hakim barədə də demək olar. Vəzifəsinin xarakterindən asılı olaraq, hakim bəzən insan hüquqlarının təməl prinsiplərinə və insan ləyaqətinə zidd hüquq normasının tətbiqini tələb edən vəziyyətdə ola bilər. Belə halda hakimin həmin qanunun tətbiqini tələb edən vəzifə borcunu nüfuzdan salmamaq üçün istefaya getməsi mümkündür. Başqalarına münasibətdə əhəmiyyətsiz xəta kimi qiymətləndirilə bilən hərəkət hakimə münasibətdə geniş rezonans doğura, onun etibarına xələl gətirə və cəmiyyəti həmin hakimin və bütövlükdə məhkəmə orqanlarının vicdanlılığından şübhələnməyə vadar edə bilər.

---

[66] Bax: Jeffrey M. Shaman, Steven Lubet and James J. Alfini, *Judicial Conduct and Ethics*, 3rd ed. (Charlottesville, Virginia, The Michie Company, 2000).

**3.2. Hakimin hərəkət və davranış forması cəmiyyətin məhkəmə orqanlarının vicdanlılığına və ələalınmazlığına inamını saxlamalıdır. Ədalət mühakiməsini sadəcə həyata keçirmək kifayət deyil, bunu cəmiyyət üçün açıq etmək lazımdır.**

*Şərh*

**Hakimin şəxsi davranışı bütövlükdə məhkəmə sisteminə təsir edir.**

109. Cəmiyyətin məhkəmə orqanlarına inamının əsasında təkcə hakimlərin səriştəliliyi və çalışqanlığı deyil, həm də onların vicdanlılığı, ələalınmazlığı və mənəvi nüfuzu dayanır. Hakim yalnız “yaxşı hakim” deyil, həm də “yaxşı insan” olmalıdır, baxmayaraq ki, sonuncu cəmiyyətin ayrı-ayrı dairələrində müxtəlif cür şərh edilə bilər. Cəmiyyətin nöqteyi-nəzərincə hakim yalnız demokratiyanın və hüququn aliliyinin əsaslandığı ədalət və həqiqət ideallarına xidmət etməməli, həmçinin onları özündə təcəssüm etdirməlidir. Müvafiq olaraq, hakimin şəxsi keyfiyyətləri, onun davranışı və cəmiyyətin gözündəki hakim obrazı bütövlükdə məhkəmə sisteminə və cəmiyyətin məhkəmə hakimiyyətinə olan inamına təsir göstərir. Cəmiyyət adi vətəndaşlardan fərqli olaraq hakimə qarşı daha çox yüksək tələblər irəli sürür; o, bütövlükdə cəmiyyətdə mövcud olandan fərqli olaraq hakimdən daha yüksək davranış standartları gözləyir. Mahiyyət etibarilə, başqalarını mühakimə etməkdə ifadə olunan məhkəmə funksiyası hakimin üzərinə özünü elə aparmaq tələbini qoyur ki, başqaları tərəfindən hakimin roluna və hakim vəzifəsinə hər hansı aidiyyəti olan məsələlərlə bağlı edilən istənilən ağlabatan mühakiməni istisna etsin.

**Ədalət mühakiməsi cəmiyyət üçün açıq həyata keçirilməlidir.**

110. Hakimin fəaliyyətinin cəmiyyət tərəfindən necə qəbul edilməsi fəaliyyətin özündən az əhəmiyyətli deyil; ona görə də, hakim hər cür şübhələrdən kənarda qalmalıdır. Hakim təkcə vicdanlı olmamalı, həm də başqaları tərəfindən məhz belə qəbul edilməlidir. Hakimin borcu yalnız ədalətli və obyektiv qərar çıxarmaq deyil, o həm də bu qərarı elə çıxarmalıdır ki, özünün vicdanlılığı və ələalınmazlığı kimi çıxardığı qərarın da ədalətliliyinə və obyektivliyinə hər hansı şübhələri istisna etsin. Ona görə də, hakim təkcə hüquqi məsələlər üzrə yüksək ixtisasa malik olmamalı, həm də elə hərəkət etməli və özünü elə aparmalıdır ki, tərəflər məhkəmə prosesində onun qərəzsizliyinə və obyektivliyinə əmin olsunlar.

*4-cü göstərici*

## ETİK NORMALARA RİAYƏT OLUNMASI

*Prinsipi:*

**Etik normalara riayət olunması və bunun nümayiş etdirilməsi hakimin fəaliyyətinin ayrılmaz hissəsidir.**

*Şərh*

**Bu, cəmiyyətin nəzərində necə görünə bilər?**

111. Etik normalara riayət olunması və bunun nümayiş etdirilməsi – həm peşəkar, həm də şəxsi planda – hakimin həyatında vacib elementlər sayılır. Burada əsas məsələ hakimin nə etməsi və ya etməməsi deyil, ətrafdakıların zənnincə onun nə etmiş olduğu və ya edə biləcəyidir. Məsələn, baxılan iş üzrə tərəf olan şəxslə ayrıca və ətraflı söhbət edən hakim, hətta bu söhbət həmin məhkəmə işinə ümumiyyətlə aid olmasa belə, tərəflərdən birinə üstünlük verən kimi görünə bilər. Cəmiyyət hakimdən davranışın yüksək standartını umduğundan, hər hansı tədbirdə iştirak etməyə və ya hər hansı hətta ən əhəmiyyətsiz hədiyyəni qəbul etməyə tərəddüd edən hakim özünə bu sualı verməlidir: “Bu, cəmiyyətin nəzərində necə görünəcəkdir?”

*Tətbiqi:*

**4.1. Hakim etik normalara onun vəzifəsi ilə bağlı istənilən hərəkətlərin həyata keçirilməsi zamanı nəzakətsiz davranış hallarına yol vermədən riayət edir.**

*Şərh*

**Nəzakətsiz davranışın üzə çıxarılması meyarı**

112. Nəzakətsiz davranışın üzə çıxarılması üçün istifadə edilən meyar bu davranışın hakimin öz vəzifələrini vicdanlı, qərəzsiz, müstəqil və səriştəli həyata keçirmək qabiliyyətinə xələl gətirib-gətirməməsi və ya kənar müşahidəçinin nəzərində onun bu vəzifələri tələb olunan şəkildə icra etmək qabiliyyətinə tam malik olmaması təsəvvürünü yarada bilməsidir. Məsələn, əgər dövlət məmuruna cəmiyyətin sıravi üzvündən fərqli olaraq məhkəmə zalında ona xüsusi yerin ayrılmasında ifadə olunan başqa cür münasibət göstərilərsə, bu, kənar müşahidəçinin nəzərində həmin məmurun məhkəməyə xüsusi buraxılışının və məhkəmə qərarlarının çıxarılması prosesinə təsir imkanının olması təəssüratını yaradır. Digər tərəfdən, məhkəməyə tez-tez ekskursiyaya gələn məktəblilərə xüsusi yerlərdə, çox vaxt isə hətta hakimin yerində də oturmağa icazə verilir. Çünki uşaqlar hakimiyyətə malik deyillər və ona görə də, məhkəməyə qanunsuz təsir edən kimi qəbul olunmayacaqlar, xüsusilə nəzərə alaraq ki onların məhkəməyə ekskursiyası tədris məqsədi güdür.

**Qeyri-qanuni əlaqələr**

113. Hakim onunla müəyyən şəxs arasında hakimin bu şəxsə müəyyən lütfkarlıq və ya xidmət göstərmək istəməsini şərtləndirən hər hansı xüsusi qarşılıqlı münasibətlərin mövcudluğunu ehtimal etməyə əsas verə biləcək əlaqələrdən uzaq durmağın zəruriliyini anlamalıdır. Məsələn, hakim adətən polisə və ya vəkilə məxsus maşında yol getməkdən çəkinməli, ictimai nəqliyyatda hərəkət edərkən çəkişən tərəfin və ya baxılan iş üzrə şahidin yanında oturmamalıdır.

**4.2. İctimaiyyət tərəfindən daimi diqqət hakimin üzərinə bir sıra məhdudiyyətləri qəbul etmək vəzifəsini qoyur; və sıravi vətəndaşa bu məhdudiyyətlər ağır görünə bilməsinə baxmayaraq, hakim onları könüllü və həvəslə qəbul edir. Xüsusilə, hakimin davranışı onun vəzifəsinin yüksək statusuna uyğun olmalıdır.**

*Şərh*

**Hakim öz hərəkətlərinə münasibətdə bir sıra məhdudiyyətləri qəbul etməlidir.**

114. Hakim anlamalıdır ki, ictimaiyyət tərəfindən daimi diqqət və müzakirə obyektidir və bu, onun üzərinə öz hərəkətlərinə münasibətdə sıravi vətəndaşa ağır kimi görünə bilən bir sıra məhdudiyyətləri qəbul etmək vəzifəsini qoyur. Hakim bu məhdudiyyətləri, hətta onun hərəkətləri qəbahətli kimi görünməsə və cəmiyyətin digər və ya məhkəmə peşəsinin üzvləri tərəfindən həyata keçirilmiş olsa belə, könüllü və həvəslə qəbul edir. Bu, hakimin həm peşə, həm də şəxsi davranışına aiddir. Az əhəmiyyətli olmayan aspekt kimi hakimin davranışının qanuniliyi onun nəzakətliliyinin yeganə ölçüsü hesab edilmir.

**Hakimin həyat tərzi nümunəvi olmalıdır.**

115. Hakim həm işdə, həm də ondan kənarda nümunəvi həyat tərzi keçirməlidir. Hakim cəmiyyətdə özünü bu vəzifəyə layiq ədəb və səbrlə aparmalıdır, çünki tələsiklik və çılğın temperament nümayiş etdirilməsi hakimin nüfuzuna xələl gətirir və hakim vəzifəsinin yüksək statusu ilə bir araya sığmır.

**İctimai yerlərə (məsələn, barlara) getmək**

116. İndiki dövrdə əksər ölkələrdə hakimin barlara, pivəxanalara və digər bu tipli yerlərə getməsi qadağan deyildir, lakin bu zaman onların ehtiyatlı olmaları zəruridir. Hakim belə yerlərə getməsinin, həmin yerin nüfuzu, daimi müştərilərinin dairəsi və qanuna tam uyğun fəaliyyət göstərməməsindən mümkün narahatlıq nəzərə alınmaqla, kənar müşahidəçi tərəfindən necə qəbul edilə bilməsi barədə düşünməlidir.

**Mərc oyunları**

117. Hakimlərə hərdənbir işdən kənar müəyyən vaxtlarda mərc oyunları oynamaq qadağan deyildir, lakin bu zaman onlar ehtiyatlı olmalı və bunun kənar müşahidəçi tərəfindən necə qəbul edilə bilməsini unutmamalıdırlar. Aradabir at yarışlarına və ya məzuniyyət zamanı xarici ölkədə kazinoya getmək, yaxud dostları və ya ailə üzvləri ilə kart oynamaqla, "oyun dükanlarının" (at yarışları zamanı ortaya qoyulan pulu qəbul edən və uduşları ödəyən yerlər) daimi müştərisi və ya həris oyunçu olmaq başqa-başqa hallardır.

**Klubların tez-tez ziyarət edilməsi**

118. Hakim klubları və ya digər istirahət və əyləncə yerlərini ziyarət edərkən ehtiyatlı olmalıdır. Hakim nümayəndələri məhkəmədə tez-tez ola bilən polis, korrupsiyaya qarşı mübarizə, gömrük, vergi və s. orqanların əməkdaşlarının baş çəkdiyi məkanlarda olarkən diqqətli olmalıdır. Hakim hərdənbir polislər üçün klub-yeməkxanada nahar təklifini qəbul edə bilər, lakin o, belə klubların daimi ziyarətçisi və ya üzvü olmamalı və ya oraya müntəzəm olaraq getməməlidir. Əksər ölkələrdə hakimin vəkillər tərəfindən təşkil olunan tədbirlərə getməsi və onlarla ünsiyyətdə olması normal hesab olunur.

**4.3. Hakim işə onun baxdığı məhkəmədə daimi təcrübəyə malik olan vəkillərlə öz şəxsi qarşılıqlı münasibətlərində əsaslı şübhələr doğura və ya hakimdə hər hansı üstün tutma və ya qabaqcadan hasil olan qənaət münasibətinin mövcudluğu görüntüsünü yarada bilən vəziyyətlərdən çəkinməlidir.**

*Şərh*

**Vəkillərlə dostluq əlaqələri**

119. Hakim korpusunun və vəkilliyin nümayəndələri arasında dostluq əlaqələri və ünsiyyət qədim və hörmətə layiq ənənə sayılır. Hakimlər fil dişindən hazırlanan qalalarda deyil, real həyatda yaşadıqları üçün hakim vəzifəsinə girərkən vəkillərlə olan bütün əlaqələrini nə kəsə bilər, nə də ki kəsməlidirlər. Hakimin cəmiyyətdən, o cümlədən öz dostlarından, iş yoldaşlarından, həmçinin vəkillər sırasından olan həmkarlarından təcrid olunması hüquqi prosesdə də arzu olunmayandır. Həqiqətən, hakimin vəkillərlə bu və ya digər tədbirlərə qatılmasının bir sıra üstünlükləri vardır. Belə tədbirlər hakimlərlə vəkillərin münasibətlərindəki gərginliyi aradan qaldırmağa imkan yaradan qeyri-rəsmi ünsiyyətə, habelə hakimin vəzifəyə təyin olunduqdan sonra məruz qaldığı keçmiş həmkarlarından uzaqlaşmanın və təcrid olunmanın müəyyən dərəcədə qarşısını almağa rəvac verir. Bununla belə, hakim öz hərəkətlərində sağlam düşüncəni əsas tutmalı və ehtiyatlı olmalıdır.

**Ayrı-ayrı vəkillərlə qarşılıqlı dostluq münasibətləri**

120. Hakimin işə baxdığı məhkəmədə müntəzəm olaraq iştirak edən vəkillə qarşılıqlı dostluq münasibətləri və ünsiyyət narahatlıq doğuran haldır və belə münasibətlərin daim tarazlaşdırılması zəruridir. Bir tərəfdən, hakimin məhkəmədənkənar dostluq əlaqə və münasibətlərinə maneçilik törədilməməlidir. Digər tərəfdən, əgər işə baxılması zamanı vəkil qismində hakimin dostu, yaxud keçmiş iş yoldaşı və ya partnyoru iştirak edirsə, hakimdə qərəzli münasibətin və tərəfkeşliyin mövcudluğu görüntüsü problemi meydana çıxır. Son nəticədə, həqiqətən vəkillə həddindən artıq yaxın münasibətlərdə olmasını və ya yalnız belə halın görüntüsünün mövcudluğunu hakim özü həll etməlidir. Həmin həddin haradan keçməli olduğunu hakim özü həll edir. Hakim özünə vəkillə dostluq münasibətlərinin onun vəzifələrinin icrasına təsir edə bilib-bilməməsi və onun sosial münasibətlərinin xarakteri barədə ətraflı məlumata malik olan müşahidəçinin onun ədalət mühakiməsini həyata keçirmək qabiliyyətindən əsaslı olaraq şübhələnə bilib-bilmədiyi sualını verməlidir. Hakim, həmçinin öz iradəsindən asılı olmayaraq baxdığı işə aid olan məhkəmədənkənar məlumat əldə edə bilməsi təhlükəsi ilə də bağlı özünə hesabat verməlidir. Ona görə də, hakim, əgər bu əlaqələr əsaslı olaraq hakimlə vəkil arasında yaxın şəxsi münasibətlərə dəlalət edən kimi şərh edilə bilərsə, baxdığı konkret işdə iştirak edən vəkillə şəxsi əlaqələrdən uzaq durmağa çalışmalıdır. .

**Hakimin həm də qonşusu olan vəkillə qarşılıqlı dostluq münasibətləri**

121.Yaxın qonşusu onun işlərə baxdığı məhkəmədə müntəzəm iştirak edən vəkil olan hakim, özünün baxdığı iş üzrə müdafiəçi qismində həmin vəkilin çıxış etdiyi dövr istisna olmaqla, bu vəkillə hər cür əlaqələrdən çəkinməməlidir. Konkret hallardan asılı olaraq, hakimin həmin vəkillə ünsiyyəti müəyyən hədlərdə o şərtlə mümkündür ki, bu ünsiyyət hakimin tez-tez özü-özünə etiraz etməsi barədə bəyanatları üçün əsas və onun obyektivliyi və qərəzsizliyinin etibardan salına bilməsinə dair əsaslandırılmış ehtimallar üçün səbəb kimi çıxış etməsin.

**Vəkillərin iştirakı ilə keçirilən görüşlərə getmək**

122. Hakimin, məsələn, baş vəkil təyinatına layiq görülmüş vəkillərin öz nailiyyətlərini bayram etmək üçün təşkil etdikləri böyük gecələrə və ya digər tədbirlərə getməsinə etiraz etməyə heç bir əsaslar yoxdur. Belə tədbirdə həmin hakimin işə baxdığı məhkəmədə çıxış edən vəkillər də iştirak edə bilsələr də, onlarla blavasitə əlaqələrdən o halda uzaq durmaq lazımdır ki, müdafiəçi qismində həmin vəkillərin iştirak etdikləri iş məhkəmə baxışında olsun. Bu cür görüşün keçirildiyi təqdirdə hakim baxılan iş haqqında hər hansı söhbətlərdən çəkinməli və konkret hallardan asılı olaraq, ilk imkandaca həmin görüş barədə tərəfləri məlumatlandırmalıdır. Belə hallarda rəhbər tutulmalı olan əsas fikir ondan ibarətdir ki, bu cür ünsiyyət vəkillə hakim arasında xüsusi qarşılıqlı münasibətlərin mövcudluğu görüntüsünü yaradırmı və ya

yaranmasına gətirib çıxara bilərmi və belə xüsusi qarşılıqlı münasibətlərin mövcudluğu hakimin həmin vəkilin fikirləri ilə razılaşmağa hazır olduğunu ifadə edirmi?

**Sadə qonaqpərvərliyin nümayiş etdirilməsi**

123. Adətən, hakimlərə vəkillərin və hüquq peşəsinin digər nümayəndələrinin qeyri-rəsmi görüşlərinə və toplantılarına dəvəti qəbul etməyə icazə verilir. Belə tədbirlərdə adətən yer alan qeyri-rəsmi danışıqları və müzakirələri nəzərə alaraq, vəkillərlə bu cür görüşləri dəstəkləmək lazımdır. Lakin hakim özünün baxdığı iş üzrə müdafiəçi qismində çıxış edə bilən vəkildən hədiyyə qəbul etməməli, yaxud habelə hüquq firması tərəfindən keçirilən və qonaqpərvərliyin miqyası qəbul olunan həddi aşan gecədə və ya qəbulda iştirak etməməlidir. Belə hallarda rəhbər tutulmalı olan meyar bu cür tədbirin vəkillərin adətlərinə o qədər də dözümlü münasibət göstərə bilməyən kənar müşahidəçinin nəzərində necə görünməsidir.

**Hüquq firmasının qonağı**

124. Hüquq firması tərəfindən keçirilən gecədə və ya qəbulda hakimin iştirakının mümkünlüyü bu tədbirin təşkilatçısı qismində kimin çıxış etməsindın, tədbirə qonaq qismində kimin dəvət edilməsindən və tədbirin xarakterinin necə olmasından asılıdır. Hakim belə tədbirdə iştirak etmək qərarına gələrkən, yerli adətlər barədə şəxsi biliklərinə, həmçinin bu növdən olan keçmiş tədbirlərdəki təcrübəsinə əsaslanır. Vəziyyətdən asılı olaraq, hakim tədbirin təşkilatçısından tədbirə daha kimlərin dəvət olunması və onun miqyası barədə məlumat əldə edə bilər. Konkret firma potensial müştərilərə özünü və ya öz xidmətlərini təklif edən kimi göründüyü halda, xüsusi ehtiyatlılıq tələb olunur. Bundan başqa, peşəkar assosiasiyalar tərəfindən keçirilən nümayəndəlik tədbirləri (hansılara ki hakimləri geniş marağa səbəb olan məsələlər üzrə çıxış etmək üçün tez-tez dəvət edirlər) ilə ayrı-ayrı hüquq və ya vəkillik firmalarının keçirdiyi tədbirlər arasında dəqiq sərhəd mövcuddur. Hakim hüquq firması tərəfindən keçirilən gecədə iştirakının cəmiyyətin nəzərində onun qərəzsizliyini əksiltməməsini təmin etməlidir.

**Hakimin əvvəllər işlədiyi vəkillik kontoruna, firmasına və ya bürosuna getməsi**

125. Hakimin əvvəllər işlədiyi vəkillik kontoruna və ya hüquq firmasına getməsinin qanunauyğunluğunun qiymətləndirilməsi zamanı ehtiyatlı olmaq lazımdır. Məsələn, hakimin əvvəllər işlədiyi vəkillik kontoruna və ya hüquq firmasına illik toplantıda, firmanın üzvünün baş vəkil və ya keçmiş iş yoldaşının hakim təyin olunması münasibətilə keçirilən təntənəli gecədə və ya qəbulda iştirak etmək üçün getməsi, bir qayda olaraq, qanunauyğun hesab edilir. Lakin vəziyyətdən asılı olaraq, hakimin əvvəllər işlədiyi firmaya keçmiş həmkarları ilə ünsiyyətdə olmaq üçün həddindən artıq tez-tez getməsi heç də qanunauyğun olmaya bilər. Əvvəllər prokuror işləmiş hakim həm prokurorluq, həm də polis xidməti üzrə əvvəllər birgə işləmiş olduğu öz keçmiş həmkarları ilə həddindən artıq yaxın əlaqələrdən çəkinməlidir. Hətta hər hansı qərəzlilik görüntüsü də istisna edilməlidir. Kronizm əsasında qurulan münasibətlər belə düzgün deyildir.

**Məhkəmə işində tərəflərlə qarşılıqlı münasibətlər**

126. Əgər belə qarşılıqlı münasibətlər əsaslı olaraq qərəzli münasibətin mövcudluğu görüntüsünü yarada və ya hakimin işə baxılmasında iştirakdan kənarlaşdırılması zərurətini şərtləndirə bilərsə, hakim özünün işə baxdığı məhkəmədə tez-tez tərəf qismində çıxış edən şəxslərlə həddindən artıq yaxın qarşılıqlı münasibətlərdən çəkinməli və ehtiyatlı olmalıdır: bu, xüsusilə nazirlərə və hökumət məmurlarına, bələdiyyə işçilərinə, prokurorluq orqanlarının nümayəndələrinə və dövlət müdafiəçilərinə aiddir. Hakimin həmin vəzifəli şəxsin və ya vəkilin məhkəmədə tez-tez görünməsini, özünün onunla qarşılıqlı fəaliyyətinin xarakterini və intensivliyini, işlədiyi hüquq ictimaiyyətinin mədəni xüsusiyyətlərini, həmçinin baxılan və ya baxılacaq işin xüsusiyyətlərini nəzərə alması məqsədəuyğundur.

**Gizli cəmiyyətlərə üzvlük**

127. Hakimə onun işlədiyi məhkəmədə müdafiəçi qismində çıxış edən vəkilin də daxil olduğu hər hansı gizli cəmiyyətə üzv olmaq məsləhət deyil, çünki bu, qardaşlıq məcəlləsinə əsasən həmin vəkilə hər hansı üstünlüklərin verilməsi mümkünlüyü barədə fikir formalaşdıra bilər.

**4.4. Hakim onun ailə üzvlərindən kiminsə tərəflərdən birinin nümayəndəsi qismində çıxış etdiyi və ya işə başqa formada aidiyyəti olduğu işə baxılmasında iştirak etməməlidir.**

*Şərh*

**Özü-özünə etiraz nə vaxt məcburi sayılır?**

128. Əgər hakimin ailə üzvlərindən kimsə (nişanlısı da daxil olmaqla) işi aparırsa və ya işə vəkil qismində qoşulmuşdursa, hakim bir qayda olaraq özü-özünə etiraz etməyə borcludur.

**Hakimin ailə üzvlərindən kimsə hüquq firması ilə bağlıdırsa, hakim necə hərəkət etməlidir?**

129. Adətən, hüquq firmasının üzvləri gəlir və xərcləri bölüşdürürlər və müəyyən dərəcədə işin məhkəmədə uğurlu aparılması vasitəsilə müştərilərin cəlb edilməsində maraqlıdırlar. Lakin işə çıxan vəkilin hakimin ailə üzvlərindən kiminsə bağlı olduğu vəkillik firması ilə əlaqəli olması faktı özü-özlüyündə hakimin özü-özünə etiraz etməsi üçün əsas kimi çıxış edə bilməz. Əgər kimsə onun qərəzsizliyini əsaslı şübhə altına qoyarsa, yaxud ona qohumlarından kiminsə vəkillik firmasında baxılan işin nəticəsinə əhəmiyyətli təsir göstərə bilən paya malik olduğu məlum olarsa, hakim özü-özünə etiraz etmək zərurəti qarşısında qala bilər. Bundan başqa, hakim aşağıdakı amilləri də nəzərə ala bilər:

(a) Özü-özünə etiraz etməmə cəmiyyətin nəzərində necə görünəcəkdir;
(b) Özü-özünə etiraz etməmə vəkillərin, hakimlərin və cəmiyyətin ayrı-ayrı üzvlərinin nəzərində necə görünəcəkdir;
(c) Özü-özünə etiraz etmə nəticəsində məhkəmənin üzərinə düşən inzibati yük;
(d) Hakimin qohumunun baxılan işdə maliyyə, peşə və ya digər marağının dərəcəsi.

**Hakimin ailə üzvlərindən kimsə dövlət orqanının hüquq şöbəsində işləyirsə, hakim necə hərəkət etməlidir?**

130. Dövlət vəkillərinin əmək haqqı almalarına və cinayət və ya mülki işlərin nəticəsində maraqlarının olmamasına baxmayaraq, peşə yüksəlişinə nail olmaq cəhdi kimi amili nəzərə almaq lazımdır. Ona görə də, əgər hakimin ailə üzvlərindən kimsə prokurorluqda və ya vəkillik bürosunda hətta rəhbər vəzifədə olmasa belə işləyirsə, hakim ehtiyatlı olmalı və həmin dövlət orqanının cəlb olunduğu bütün işlərə baxılması zamanı iki səbəbdən özü-özünə etiraz etməyin mümkünlüyü barədə fikirləşməlidir. Birincisi, həmin dövlət orqanının əməkdaşları məhkəmədə baxılan işlər barədə məlumat mübadiləsi edə bildikləri üçün hakimin bu idarədə işləyən ailə üzvünün qeyri-ixtiyari olaraq həmin orqanın digər işlərinə cəlb olunması riski vardır. İkincisi, hakimin qərəzsizliyinə əsaslı şübhələr yarana bilər. Hakim özünə aşağıdakı sualı verməlidir: kənar müşahidəçi hakimdə onun ailə üzvlərindən kiminsə işlədiyi orqanın müvəffəqiyyət qazanmasında iradi və ya qeyri-iradi qərəzli münasibətin olmasını ehtimal edə bilərmi?

**Vəkillə görüş zaman hakim necə hərəkət etməlidir?**

131. Əgər hakim vəkillə görüşürsə, onun iştirakı formal xarakter daşıyan hallar istisna olmaqla, həmin vəkilin iştirak etdiyi işlərə baxılmasında bir qayda olaraq iştirak etmir. Lakin hakim həmin vəkillik firmasının və ya bürosunun digər üzvlərinin iştirak etdikləri işlərə baxılması ilə bağlı özü-özünə etiraz etməyə borclu deyil.

**Bir hakimi və bir vəkili olan məhkəmə dairələri**

132. Məhkəmələri yalnız bir hakimdən, prokurorluğu və ya vəkilliyi isə yalnız bir vəkildən ibarət olan məhkəmə dairələri fəaliyyət göstərir. Əgər bu vəkil hakimin oğlu və ya qızıdırsa, yaxud başqa cür yaxın qohumudursa, hakimə onu bütün cinayət işlərinə baxmaq hüququndan məhrum edən məcburi etiraz etmək prinsipi tətbiq olunur. Bu, təkcə həmin regionun hakimə etiraz verilmiş işə də baxmalı olan digər hakimləri üçün deyil, həm də cinayət törətməkdə təqsirləndirilən şəxslər üçün çətinlik törədir. Bundan başqa, belə vəziyyətdə cinayət törətməkdə təqsirləndirilən şəxsin malik olduğu işinə məhkəmə tərəfindən fasiləsiz baxılması hüququnu təmin etmək də çətin olur. Belə hallarda, hakimə etiraz mütləq tələb ola bilməsə də, bu cür vəziyyətlərdən mümkün qədər çəkinilməlidir.

**4.5. Hakim öz yaşadığı yeri müştərilərini qəbul etmək və ya həmkarları ilə görüşmək üçün digər vəkillərə verməməlidir.**

*Şərh*

**Hakimin yaşadığı yerdən və ya telefonundan istifadə edilməsi**

133. Hakim öz yaşadığı yeri müştərilərini qəbul etmək və ya vəkillik fəaliyyəti ilə bağlı məsələlər üzrə həmkarları ilə görüşmək üçün hər hansı vəkilə verməməlidir. Əgər hakimin əri və ya arvadı, yaxud hər hansı başqa ailə üzvü vəkildirsə, hakim öz ev telefonunu həmin şəxslərə işləri ilə əlaqədar danışmaq üçün verməməlidir, çünki bu, hakimin də vəkilliklə məşğul olması təəssüratını yarada və qeyri-ixtiyari *ex parte* əlaqələrə, yaxud belə əlaqələrin mövcudluğu görüntüsünə və ya ondan şübhələnməyə gətirib çıxara bilər.

**4.6. Digər vətəndaşlar kimi hakimin də ifadə, dini etiqad, toplantı və assosiasiyalarda iştirak azadlıqlarına təminat verilir, lakin bu hüquqların reallaşdırılması zamanı hakim öz vəzifəsinin yüksək statusunun saxlanmasına çalışmalı və məhkəmə orqanlarının qərəzsizliyi və müstəqilliyi ilə bir araya sığmayan hərəkətlərə yol verməməlidir.**

*Şərh*

**Hakimlər də digər vətəndaşların malik olduqları hüquqlarla təmin olunurlar.**

134. Hakim vəzifəsinə təyin olunarkən, hakim cəmiyyətin digər üzvlərinin malik olduqları ifadə, toplantı və assosiasiyalarda iştirak azadlığı hüququndan və hər hansı siyasi mülahizələrindən və siyasi məsələlərə marağından imtina etmir. Lakin hakim cəmiyyətin məhkəmə orqanlarının qərəzsizliyinə və müstəqilliyinə inamının saxlanması üçün ehtiyatlı davranmalıdır. Hakimlərin ictimai müzakirələrə cəlb olunmasının yol verilən dərəcəsinin müəyyən edilməsi zamanı iki mühüm amili nəzərə almaq zəruridir. Birincisi, hakim onun qərəzsizliyinə olan inamı obyektiv olaraq sarsıda bilən fəaliyyətə cəlb olunmuşdurmu? İkincisi, onun bu və ya digər fəaliyyətə cəlb olunması hakimi siyasi hücumlara məruz qoya və ya hakim vəzifəsinin yüksək statusu ilə bir araya sığmaya bilərmi? Bu amillərdən hər hansı birinin mövcud olması zamanı hakim belə fəaliyyətə cəlb edilməkdən çəkinməlidir.

**Hərəkətlərin məhkəmə vəzifələri ilə bir araya sığmazlığı**

135. Hakimin üzərinə həvalə olunan vəzifələr siyasi fəaliyyətin milli parlamentə və ya yerli şuraya üzvlük kimi müəyyən növləri ilə bir araya sığmır.

**Hakim ictimai müzakirələrdə iştirak etməməlidir.**

136. Hakim ictimai müzakirələrdə iştirak etmir. Bunun səbəbi aydındır. Hakim vəzifəsinin mahiyyəti hakimin mübahisəli məsələlərə obyektiv və ədalətli yanaşma qabiliyyətindədir. Hakim üçün özündə əsl hakimi təcəssüm etdirən qabaqcadan hasil olmayan qənaətə və qabaqcadan formalaşmış yanlış fikrə malik olmamaqla, müstəqil, obyektiv, qərəzsiz və ədalətli yanaşma qabiliyyəti mühüm əhəmiyyət kəsb edir. Əgər hakim siyasi arenaya daxil olur və ictimai müzakirələrdə iştirak edirsə - mübahisəli məsələlərə dair öz fikrini bildirməklə, ictimai xadimlərlə müzakirələrə girişməklə və ya hökuməti açıq tənqid etməklə - cəmiyyətin nəzərində öz vəzifələrini qərəzsiz icra etmək qabiliyyətini şübhə altına qoymuş olur. Cəmiyyət açıq şəkildə öz fikrini bildirdiyi məsələlərə toxunan mübahisəni həll edən hakimin qərəzsizliyinə, yaxud tərəf və ya hətta şahid qismində hakimin barələrində əvvəllər tənqidi fikirlər söylədiyi siyasətçilərin, ictimai xadimlərin və ya hökumət idarələrinin çıxış etdiyi işə baxmasına və həmin iş üzrə qərar çıxarmasına şübhə ilə yanaşacaqdır.

**Hakimin tənqid edilməsi**

137. İctimaiyyətin, həmçinin qanunverici və icra orqanlarının nümayəndələri hakimin və onun çıxardığı qərarların çatışmazlıqları və ya səhvləri barədə açıq şəkildə öz fikirlərini bildirə bilərlər. Qəbul olunmuş "siyasi susma" qaydasına əsaslanaraq, hakimlər onların ünvanına edilən tənqidlərə adətən cavab vermirlər. Hakimi tənqid etmək hüququnun məhkəməyə hörmətsizlik göstərilməsinə aid qaydalarla tənzimlənməsinə baxmayaraq, hal-hazırda bu normalar məhkəmə orqanlarının və konkret hakimin ünvanına edilən tənqidin qarşısını almaq üçün istifadə edildiyi keçmiş dövrə nisbətən daha az tətbiq olunur. Məhkəməyə hörmətsizlik təzahürü ilə bağlı icraata başlamaqla işi gərginləşdirməkdənsə, istənilən qalmaqallı hücumlara məhəl qoymamaq daha yaxşıdır. Belə bir deyim var: "Femida hər hansı

tamahkarlıqdan uzaq olan tənha qalmış xeyirxah deyil: ona özündə cəmiyyətin yaxın diqqətini hiss etməyə və sadə insanların açıq və doğru fikirlərini eşitməyə imkan verilməlidir".[67]

**Hakim məhkəmə orqanlarına aid məsələlər üzrə öz fikrini açıq bildirə bilər.**

138. Bir sıra hallarda hakim siyasi nöqteyi-nəzərdən ziddiyyətli məsələlər üzrə öz fikrini açıq bildirə bilər: xüsusilə, bu məsələ hakimin fəaliyyətinə, məhkəmə orqanlarının müstəqilliyinə (o cümlədən, hakimlərin maaşlarına və onlara təqdim edilən güzəştlərə), ədalət mühakiməsinin həyata keçirilməsinin mühüm aspektlərinə, yaxud hakimlərin vicdanlılığına və ələalınmazlığına bilavasitə aid olduqda. Lakin hətta bu məsələlərə dair öz fikrini bildirərkən belə, hakim ehtiyatlı olmalıdır. Hakim bu məsələlərə dair açıq bəyanatla hökumətə müraciət edə bilməsinə baxmayaraq, onun söz və hərəkətləri hökumətə "lobbiçilik" cəhdi, yaxud konkret məsələlərin məhkəmə baxışına çıxarıldığı təqdirdə, onun hansı qərarı qəbul edəcəyinə işarə kimi qəbul edilməməlidir. Bundan əlavə, hakim həmişə yadda saxlamalıdır ki, onun tərəfindən açıq ifadə edilmiş nəzər nöqtəsi bütün məhkəmə ictimaiyyətinin rəyini əks etdirən kimi qiymətləndirilə bilər; hakimə öz fikrini heç də həmişə elə tərzdə ifadə etmək nəsib olmur ki, bu fikir bütövlükdə məhkəmə ictimaiyyətinin rəyi kimi deyil, onun öz şəxsi nəzər nöqtəsi kimi qəbul olunsun.

**Hakim qanunvericiliyin müzakirəsində iştirak edə bilər.**

139. Hakim qanunvericiliyin müzakirəsində maarifləndirici məqsədlərlə, yaxud qanun və ya qanunlarda mövcud olan çatışmazlıqları göstərmək üçün iştirak edə bilər. Müəyyən hallarda hakimin qanun layihəsinə dair rəyi faydalı və hakimin qeyri-rəsmi şərhlərdən və qanun layihəsində təklif olunan normaların konstitusionluğuna aid mübahisəli nəticələrdən çəkinməsi şərtilə diqqətəlayiq ola bilər. Bir qayda olaraq, hakimin təklif olunan qanun layihəsinə, yaxud hökumətin siyasətinin digər məsələlərinə dair şərhləri həmin normaların tətbiqinin praktiki məsələlərinə, qanun layihəsinin tərtibindəki redaksion çatışmazlıqlara aid olmalı və siyasi baxımdan mübahisəli və ya ziddiyyətli görünən məsələlərə toxunmamalıdır. Ümumiyyətlə, belə şərh ayrıca hakimin deyil, bütövlükdə hakimlər birlyi nümayəndələrinin birgə və ya institusional səylərinin nəticəsi olmalıdır.

**Hakim nə vaxt şəxsi rəyini bildirməyi öz mənəvi borcu hesab etməlidir?**

140. Elə hallar olur ki, hakim vicdana, əxlaqi prinsiplərə, hisslərə və dəyərlərə malik olan hər bir insan kimi öz fikrini açıq bildirməyi özünün mənəvi borcu hesab edir. Məsələn, öz ifadə azadlığı hüququndan istifadə edərkən, hakim gecə-gündüz davam edən etiraz nümayişinə qoşula, əlində plakat tuta, müharibə əleyhinə petisiyaya imza ata, enerji resurslarından səmərəli istifadə edilməsinə, yoxsulluqla mübarizə tədbirlərinun maliyyələşdirilməsini  təmin etməyə yönələn qüvvələri dəstəkləyə bilər. Bununla, hakim yerli əhalini və ya dünya ictimaiyyətini həyəcanlandıran problemlərlə bağlı öz narahatlığını ifadə edir. Əgər bu məsələlərdən hər hansı biri həmin hakimin işə baxdığı məhkəmədə qalxarsa və hakimin qərəzsizliyi şübhə altında olarsa, hakim özünü həmin işdən kənarlaşdırmalı və keçmiş hərəkətlərinin onun qərəzsizliyini, vicdanlılığını və düzgünlüyünü hər hansı formada şübhə altına qoya bildiyi hər hansı işlərə baxılmasında iştirak etməməlidir.

---

[67] *Ambard v. Attorney General for Trinidad and Tobago,* Privy Council on appeal from the Court of Appeal of Trinidad and Tobago [1936]AC 322 at 335, per Lord Atkin.

**4.7. Hakim özünün məxfi xarakterli şəxsi və maddi maraqları barədə məlumatlı olmalı və öz ailə üzvlərinin maddi maraqları barədə məlumat almaq məqsədilə ağlabatan tədbirlər görməlidir.**

*Şərh*

**Maddi maraqlar barədə məlumatlı olmaq öhdəliyi**

141. Əgər məhkəmədə baxılan iş üzrə hakimin qəbul etdiyi qərar nəticəsində onun özü, ailə üzvlərindən hər hansı biri, yaxud "fidusiar" münasibətlərdə olduğu digər şəxs maddi fayda əldə edə bilərsə, hakimin istefaya getməkdən başqa seçimi qalmır. Ona görə də, hakim öz ailə üzvlərinin maddi maraqları kimi həmişə özünün də şəxsi, həmçinin fidusiar maddi maraqları barədə məlumatlı olmalıdır. "Fidusiar", yəni etibarlı münasibətlərə etibar edən və etibar olunan şəxslər arasındakı münasibətlər daxildir (məsələn, vəsiyyətnamə icraçısı, investisiyaların idarə edilməsi və ya aktivlərin qorunması etibar edilmiş vəkalətnaməli idarə edən, qəyyum və himayəçi).

**Maddi maraq**

142. "Maddi maraq" anlayışı müəssisədə və ya təşkilatda qanuni və ya ədalətlilik prinsipinə əsaslanan paya sahib olmanı, yaxud bu müəssisənin və ya təşkilatın fəaliyyətində direktor, məsləhətçi və ya digər aktiv tərəf kimi iştirak etməni nəzərdə tutur. Aşağıdakılar istisna halları təşkil edir:

(i) Qiymətli kağızların saxlayanı sayılan qarşılıqlı və ya ümumi investisiya fondunda mülkiyyətə sahib olma saxlayanı həmin təşkilat hesab olunan qiymətli kağızlara münasibətdə "maddi marağın" mövcudluğu demək deyil;
(ii) Təhsil, dini, xeyriyyə və ya ictimai təşkilatda, yaxud qardaşlıqda vəzifəyə sahib olma saxlayanı həmin təşkilat hesab olunan qiymətli kağızlara münasibətdə "maddi marağın" mövcudluğu demək deyil;
(iii) Qarşılıqlı sığorta şirkətində sığorta polisini saxlayanın, qarşılıqlı əmanət assosiasiyalarında əmanətçinin mülkiyyət hüququ və ya digər marağı yalnız o halda həmin təşkilata münasibətdə "maddi marağın" mövcudluğu deməkdir ki, hər hansı işin nəticəsi bu mülkiyyətin dəyərinə əhəmiyyətli təsir göstərə bilsin;
(iv) Dövlət qiymətli kağızlarına sahib olma yalnız o halda emitentə münasibətdə "maddi marağın" mövcudluğu deməkdir ki, hər hansı işin nəticəsi bu qiymətli kağızların dəyərinə əhəmiyyətli təsir göstərə bilsin.

**4.8. Hakim öz ailə üzvlərinin, sosial və digər qarşılıqlı münasibətlərinin onun öz funksiyalarını həyata keçirməsi ilə bağlı hərəkətlərinə, həmçinin məhkəmə qərarlarının qəbul edilməsinə lazım olmayan şəkildə təsir etməsinə imkan verməməlidir.**

*Şərh*

**Lazım olmayan təsirlərə imkan verməmək öhdəliyi**

143. Hakimin ailə üzvləri, dostları, həmkarları və müntəzəm görüşdüyü və ünsiyyətdə olduğu, qarşılıqlı maraq və narahatlıq doğuran məsələləri müzakirə etdiyi və etibar etdiyi digər şəxslər hakimin öz vəzifə öhdəliklərinin icrası ilə bağlı hərəkətlərinə lazım olmayan şəkildə təsir göstərə, yaxud belə təsir etmə görüntüsünü yarada bilərlər. Onlar buna öz şəxsi təşəbbüsləri ilə və yaxud tərəflər və ya onların vəkilləri üçün cəhd edə bilərlər. Hakim xüsusi ehtiyatlılıq nümayiş etdirməlidir ki, bu cür qarşılıqlı münasibətlər təhtəlşüurda belə onun hakim funksiyasını icra etməsi ilə bağlı hərəkətlərinə, həmçinin məhkəmə qərarlarının qəbul edilməsinə təsir göstərə bilməsin.

**Tamahkar maraqları əsas tutmamaq öhdəliyi**

144. Öz qulluq mövqeyindən şəxsi fayda əldə etmək üçün və ya kimdənsə qisas almaq məqsədilə özünün maraqları naminə istifadə edən hakim öz səlahiyyətlərindən sui-istifadə etmiş olur. Hakim öz qərarlarında tamahkar maraqları və ya üstünlükləri əsas tutduğu nəticəsinə gəlməyə imkan verən istənilən hərəkətlərdən çəkinməlidir, çünki hakim səlahiyyətlərindən belə sui-istifadə etmə məhkəmə orqanlarına olan ictimai etimadı ciddi şəkildə sarsıdır.

**4.9. Hakim öz vəzifəsinin nüfuzundan özünün, ailə üzvlərinin və ya istənilən digər şəxslərin şəxsi maraqlarına nail olmaq üçün istifadə edə və ya istifadə edilməsinə imkan verə bilməz. Hakim kiminsə onun öz səlahiyyətlərini həyata keçirməsinə lazım olmayan təsiri etməsi nəticəsinə gəlməyə imkan verən tərzdə fəaliyyət göstərməməli və ya digər şəxslərin də belə fəaliyyətinə yol verməməlidir.**

*Şərh*

**Hakim vəzifəsindən lazımi və qeyri-lazımi şəkildə istifadənin fərqləndirilməsi öhdəliyi**

145. Adətən, cəmiyyət hakimləri xüsusi insanlar kimi qəbul edir və məhkəmədə, bəzən isə həm də məhkəmədən kənarda onlara yaltaqlıq və ya məddahlıq münasibəti göstərir. Ona görə də, hakim öz vəzifəsinin nüfuzundan lazımi və qeyri-lazımi istifadə edilməsi arasında sərhədin haradan keçdiyini dəqiq bilməlidir. Hakim öz mövqeyindən şəxsi fayda və ya hər hansı xarakterli güzəşt əldə etmək üçün istifadə edə və ya buna cəhd göstərə bilməz. Məsələn, hakim blanklardan və ya məhkəmənin digər təmsiledici sənədlərindən şəxsi işlərinin aparılması üçün istifadə etməməlidir. Həmçinin, o, vəzifəsindən hüquqi və ya bürokratik planda çətin vəziyyətlərdən yaxa qurtarmaq üçün istifadə etməməli və ya buna cəhd göstərməməlidir. Əgər hakimi yol hərəkəti qaydalarının ehtimal olunan pozuntusuna görə saxlayırlarsa, o, dərhal öz təşəbbüsü ilə hüquq mühafizə orqanlarının əməkdaşlarına hakim statusuna malik olduğunu bildirməməlidir. Yol hərəkəti qaydalarını pozduğuna görə məhkəmə kargüzarının barəsində yazılan cərimə qəbzi ilə bağlı hakimin prokurora "nə isə bir şey etmək mümkün deyilmi" məqsədilə telefon zəngi etməsi, hətta hakim bununla həmin işin nəticəsinə təsir göstərmək üçün öz qulluq mövqeyindən istifadə etməyə cəhd göstərməsə belə, qanunsuz sayılır.

**Hakim olduğunu gizlətməyə ehtiyac olmaması**

146. Hakimin öz vəzifəsini gizlətməyə ehtiyac yoxdur, lakin o öz xidməti statusundan hər hansı üstünlük və güzəştlər əldə etmək məqsədilə istifadə etdiyi təəssüratını yaratmamaq üçün ehtiyatlı olmalıdır. Məsələn, əgər hakimin oğlu və ya qızı həbs təhlükəsi ilə üzləşərsə, bu halda hər bir valideyn kimi hakim də emosional hisslər keçirər və bu səbəbdən, bir valideyn kimi ona oğlunun və ya qızının məruz qaldığı kimi görünən istənilən ədalətsizliyə reaksiya göstərməyə haqlı olar. Lakin əgər hakim birbaşa və ya vasitəçilərin köməyi ilə hüquq mühafizə strukturlarının əməkdaşları ilə əlaqə yaratmağa cəhd göstərərsə və öz vəzifəsinə istinadən həbsi həyata keçirən polisə intizam tənbehinin verilməsini tələb edərsə, bununla o, valideynlik mövqeyi ilə hakimlik mövqeyi arasındakı sərhədi pozmuş olar. İstənilən valideyn kimi hakim də öz oğluna və ya qızına valideynlik köməyi göstərməyə haqlıdır və ona görə də, öz övladının maraqlarının müdafiəsi üçün məhkəməyə müraciət etmək hüququna malikdir, lakin bu zaman o, hakim vəzifəsi tutmayan valideynlər üçün yolverilməz ola bilən hər hansı hərəkətləri etməyə haqlı deyil. Hakimin öz qulluq mövqeyindən xidməti vəzifələrini qanuni şəkildə icra edən digər vəzifəli şəxslərə təsir göstərmək məqsədilə istifadə etməsi ağlabatan valideynlik davranışı ilə havadarlıq arasındakı sərhədin pozulması, həmçinin hakim vəzifəsinin nüfuzundan sui-istifadə etmək deməkdir.

**Məhkəmənin təmsilçi sənədlərindən istifadə edilməsi**

147. Məhkəmənin təmsilçi sənədlərindən hakim vəzifəsinin nüfuzundan sui-istifadə kimi baxıla bilən tərzdə istifadə etmək olmaz. Adətən, blanklar, zərflər, poçt kağızı və məhkəmənin digər təmsiledici sənədləri hakimin kiməsə rəsmi qaydada müraciət etmək istədiyi halda istifadə edilməsi üçün nəzərdə tutulmuşdur. Məhkəmənin təmsilçi sənədlərindən kiməsə şəxsi qaydada məktubla müraciət etməklə istifadə edilməsi zamanı ehtiyatlı olmaq lazımdır. Məsələn, konkret hallardan asılı olaraq, məhkəmənin təmsilçi poçt kağızından və zərfindən hər hansı görüşdən, gecədən və ya qəbuldan sonra minnətdarlıq bildirilməsi üçün istifadə edilməsi qəbahət deyil. Lakin məhkəmənin təmsilçi sənədindən hakimin bu sənədin ünvan sahibinə təsir göstərmək üçün onun diqqətini özünün tutduğu vəzifəyə cəlb etməyə cəhd göstərməsi kimi qəbul oluna bilən halda istifadə edilməsi qanunsuzdur: məsələn, sığorta polisi üzrə ödəniş barədə mübahisələndirilən tələblə bağlı şikayəti əks etdirən məktubda.

**Tövsiyə məktubları**

148. Hakimin kiməsə tövsiyə məktubu verməsi qəbahət deyil, lakin hakim bu zaman konkret şəxs hakimdən həmin məktubu hakim onu yaxşı tanıdığına görə deyil, hakimin vəzifə statusundan fayda götürmək məqsədilə əldə etməyə cəhd göstərə bildiyi üçün ehtiyatlı olmalıdır. Məhkəmənin təmsilçi sənədindən tövsiyə məktubu üçün yalnız o halda istifadə edilə bilər ki, hakim tövsiyə verdiyi şəxslə onun məhkəmədəki iş prosesində yaxından tanış olmaq imkanına malik olsun. Aşağıdakı qaydaları rəhbər tutmaq tövsiyə edilir:

1. Hakim tanımadığı şəxslərə tövsiyə məktubları vermir.

2. Hakim adətən bu və ya digər təşkilatın əməkdaşına (məsələn, məhkəmənin peşə tərcümeyi-halına dair tövsiyə məktubu almaq istəyən əməkdaşına) verilən sənəd xarakteri daşıyan tövsiyə məktubu verə bilər. Məktubda tövsiyənin müəllifi və onun verildiyi şəxslə şəxsi tanışlıq dərəcəsi əks olunmalıdır. Adətən, tövsiyə məktubu nəzərdə tutulduğu şəxsə və ya təşkilata ünvanlanır və bilavasitə onlara göndərilir. Əgər məktub məhkəmənin öz əməkdaşına, məsələn, başqa iş tapmaq istəyən dəftərxana katibinə aiddirsə, ona tələb olunan yerə təqdim etmək üçün ümumi xarakterli tövsiyə məktubu verilə bilər.

3. Hakim peşə deyil, şəxsi tanışlıq əlaqələrinə malik olduğu şəxsə, məsələn, qohumuna və ya yaxın dostuna onların xahişi ilə tövsiyə məktubu verə bilər.

**Şəxsin nüfuzu barədə ifadələrin verilməsi**

149. Hakim tərəfindən şəxsin nüfuzunu xarakterizə edən şahid ifadələrinin verilməsi məhkəmə proseduruna şahidlik edənin vəzifə nüfuzu ilə bağlı sanballılıq verir və düzgün olmayaraq hakimin rəsmi şəkildə verdiyi sübut kimi şərh oluna bilər. Bundan başqa, hakim şahid qismində ifadə verdikdə, məhkəmədə bu hakimin qarşısında müntəzəm çıxış edən vəkil əks tərəf barədə şahidlik edən həmin hakimin çarpaz dindirməsini aparmalı olduğu üçün çətin vəziyyətdə ola bilər. Ona görə də, adətən hakim öz təşəbbüsü ilə hər hansı şəxsin nüfuzu barədə ifadə verməkdən çəkinməlidir. Əgər ona belə xahişlə müraciət olunarsa, hakim şəxsin nüfuzuna dair ifadə verməyə yalnız o halda razılaşır ki, bundan imtina hakimin şahidliyini xahiş edən tərəfə açıq-aydın ədalətsiz və layiq olmayan münasibəti ifadə etsin; məsələn, özünün nüfuzuna dair həmkarlarının şahidlik etməsi hüququna malik olan digər məhkəmə vəzifəli şəxsi barədə ifadə verməkdən imtina. Lakin bu, hakimi şahid qismində məhkəməyə çağırılması barədə bildiriş aldığı təqdirdə şahid ifadələri vermək vəzifəsindən azad etmir.

150. Əgər hakim hər hansı vəkilin barəsində intizam icraatının aparılması zamanı öz təşəbbüsü ilə məktubla və ya telefon zəngi ilə vəkillər kollegiyasının vəzifəli şəxslərinə müraciət edərsə, faktiki olaraq həmin vəkilin nüfuzu və davranışı barədə ifadə verən şahid qismində çıxış edir və bununla, hakim vəzifəsinin nüfuzundan həmin şəxsin fərdi maraqlarının dəstəklənməsi üçün istifadə edir. Eynilə, hakimlərin təyinatı məsələlərinə baxan komitəyə həmin komitənin rəsmi sorğusu olmadan hakim vəzifəsinə namizədin adından edilən müraciət də bu namizədin nüfuzu və davranışı barədə ifadə verməyə bərabər tutulur və hakim vəzifəsinin nüfuzundan digər şəxsin fərdi maraqlarının dəstəklənməsi üçün istifadə edildiyini bildirir.

**Nəşrlərdə iştirak etmək**

151. Hüquqi məsələlərə aid olan və ya olmayan nəşrlərdə hakimin iştirakı məsələsi xüsusi diqqət tələb edir. Hakim bu nəşrlə bağlı heç kəsə öz vəzifəsinin nüfuzundan şəxsi maraqları naminə istifadə etməyə imkan verməməlidir. Öz əsərlərinin dərci barədə müqavilələrin bağlanması zamanı hakim öz vəzifəsinin nüfuzundan lazım olmayan şəkildə istifadə edilməsindən çəkinmək üçün reklam üzərində kifayət qədər nəzarət hüququnu özündə saxlamalıdır.

**Hakimin kommersiya televiziyası və ya radiosunda çıxış etməsi**

152. Hakimin kommersiya televiziyası və ya radiosunda çıxış etməsi bu təşkilatın və ya onun sponsorlarının maliyyə maraqlarının təşviqinə yönələn kimi şərh edilə bilər, ona görə də, hakim ehtiyatlı olmalıdır. Digər tərəfdən, əksər vətəndaşlar baş verən hadisələr, ictimai həyatın məsələləri və ya qanun barədə məlumatları bu cür KİV-lərdən alırlar. Ona görə də, konkret hallardan asılı olaraq, hüquqi məsələyə aid proqramda hakimin iştirakı əsaslı və məqsədəuyğun ola bilər. Hakimin belə proqramda iştirakı qəbul edib-etməməsi məsələsinin həlli zamanı bir sıra amilləri, xüsusilə, proqramın efirə çıxma tezliyini, auditoriyasını, müzakirə predmetini, həmçinin kommersiya xarakterli olub-olmamasını nəzərə almaq lazımdır. Məsələn, vəziyyətdən asılı olaraq, dövlət hakimiyyəti strukturunda məhkəmə orqanlarının rolu və ya məhkəmənin orada saxlanılan şəxslərə cəzalandırıcı təsir məqsədi güdməyən dövlət islah məktəbləri və ya müəssisələri ilə qarşılıqlı əlaqələri barədə mövzuların müzakirəsində iştirak qanuni və məqsədəuyğun ola bilər.

**Sabiq hakimlər**

153. Yerli ənənədən asılı olaraq, sabiq hakim vasitəçilik və ya arbitraj xidmətlərini təklif etdiyi elanda “hakim” sözündən istifadə etməklə öz keçmiş hakimlik vəzifəsinə istinad edə bilər, çünki belə məlumat onda faktların müəyyən edilməsi və qiymətləndirilməsi ilə məşğul olan şəxsə xas təcrübənin olduğunu göstərir. Lakin onun artıq hakim işləmədiyini bildirmək üçün “hakim” sözü “sabiq” və ya “istefada olan” sözləri ilə müşayiət olunmalıdır. Sabiq hakimlər təklif etdikləri xidmətlər barədə elanlarda “hörmətli” (“Honourable” və ya ixtisarla “Hon.”) sözündən istifadə etməməlidirlər.

**4.10. Hakimə qulluq mövqeyi ilə əlaqədar məlum olan məxfi məlumat hakim tərəfindən onun vəzifələrinin icrası ilə bağlı olmayan hər hansı digər məqsədlər üçün istifadə edilə və ya kiməsə açıqlana bilməz.**

*Şərh*

**Məxfi məlumat şəxsi mənfəət üçün istifadə oluna və ya başqalarına açıqlana bilməz.**

154. Öz xidməti vəzifələrini icra edərkən, hakimə ictimaiyyətə əlçatmaz olan kommersiya və ya başqa dəyərə malik məlumat məlum ola bilər. Hakim belə məlumatdan şəxsi mənfəət və ya vəzifələrinin icrası ilə bağlı olmayan hər hansı digər məqsədlər üçün istifadə etməməli və ya onu açıqlamamalıdır.

**Qadağanın mahiyyəti**

155. Bu qadağa əsas etibarilə şahid ifadələri, məsələn, irimiqyaslı kommersiya mübahisəsi üzrə şahid ifadələri ilə əldə edilən və açıqlanmasına qadağa qoyulan məlumatdan lazım olmayan şəkildə istifadə edilməsinə aiddir.

**4.11. Öz vəzifələrini lazımi qaydada icra etmək şərtilə hakim aşağıdakı hüquqlara malikdir:**

**4.11.1. Ədəbi və pedaqoji fəaliyyətlə məşğul olmaq, mühazirə demək və hüquq, qanunvericilik, ədalət mühakiməsinin həyata keçirilməsi və digər oxşar məsələlərlə bağlı fəaliyyətdə iştirak etmək;**

*Şərh*

**Maariflәndirici fәaliyyәtdә iştirak etmәk**

156. Hakim xüsusi mövqeyi ilə əlaqədar həm öz yurisdiksiyasında, həm də ondan kənarda hüquq və qanunvericiliyin təkmilləşdirilməsinə, ədalət mühakiməsinin səmərəli həyata keçirilməsinin təmin edilməsinə xeyli töhfə verə bilər. Bunun üçün o, auditoriya qarşısında çıxış edə, ədəbi və pedaqoji fəaliyyətlə məşğul ola və ya müxtəlif məhkəmədənkənar tədbirlərdə iştirak edə bilər. Hakimlərin belə fəaliyyətini o şərtlə dəstəkləmək və həvəsləndirmək lazımdır ki, bu, onların öz xidməti vəzifələrini lazımınca icra etmələrinə mane olmasın.

**Hüquqi tərbiyələndirmədə və hüquq təhsilində iştirak etmək**

157. Hakim mühazirələr demək, konfrans və seminarlarda iştirak etmək, tələbələrin iştirakı ilə təlim-tədris xarakterli məhkəmə dinləmələri aparmaq və imtahan götürən qismində çıxış etməklə, hüquqi tərbiyələndirmə və hüquqi təhsilə öz töhfəsini verə bilər. Hakim, həmçinin hüquq ədəbiyyatının müəllifi və ya redaktoru kimi də çıxış edə bilər. Hakimlərin bu cür peşəkar fəaliyyətlə məşğul olması cəmiyyətin marağındadır və bu səbəbdən, həmin fəaliyyət həvəsləndirilməli və dəstəklənməlidir. Lakin hakim zərurət olduqda açıqlama verməlidir ki, təhsillə bağlı tədbirlərdə dediyi fikirlər məsləhətçi rəy xarakteri daşımır və ya onun məhkəmə prosesindəki hər hansı konkret hüquqi mövqeyini ifadə etmir, xüsusən ona görə ki, hakimlər məhkəmə tərəfindən lazımi qaydada baxılmamış hüquqi məsələlərlə bağlı fikir bildirmir və məsləhət vermirlər. Hələ sübutlar təqdim edilmədən, dəlillər dinlənilmədən və zərurət olarsa araşdırma qurtarmadan, hakim rəqabətdə olan sübutları və dəlilləri qərəzsiz şəkildə qiymətləndirə və həmin məsələ barədə qəti məhkəmə rəyi və ya qərarı qəbul edə bilməz. Pedaqoji işə görə muzd almamışdan öncə hakim əmin olmalıdır ki, həmin muzdun məbləği hakim olmayan digər müəllimin oxşar pedaqoji yük müqabilində alacağı məbləğdən artıq deyil və o, əməyin əlavə ödənilməsi ilə bağlı konstitusion və hüquqi normalara uyğundur.

**4.11.2. Hüquq, qanunvericilik, ədalət mühakiməsinin həyata keçirilməsi və digər oxşar məsələlərlə bağlı rəsmi orqanlar qarşısında işlərin ictimai dinləmələrində çıxış etmək;**

*Şərh*

**Rəsmi orqan qarşısında hakim kimi çıxış etmək**

158. Hakim rəsmi orqan qarşısında malik olduğu hakimlik təcrübəsinin baxılan məsələ ilə bağlı onun xüsusi səriştəliliyini təmin etdiyi həddə çıxış və şahidlik edə bilər.

**Rəsmi orqan qarşısında fərdi şəxs kimi çıxış etmək**

159. Hakim bilavasitə ona aid olan məsələlərlə bağlı, məsələn, hakimin daşınmaz əmlakına təsir edəcək ərazi bölgüsünə və ya yerli səhiyyə sisteminin mümkünlüyünə dair təkliflər barədə dövlət orqanlarının qarşısında çıxış və şahidlik edə, yaxud öz dəlil və sübutlarını təqdim edə bilər. Lakin bu zaman hakimə onun peşəkar səriştəyə malik olmadığı məsələlər üzrə rəsmi araşdırmalarda öz qulluq mövqeyinin nüfuzundan istifadə etməməsi üçün ehtiyatlılıq nümayiş etdirmək zəruridir.

**4.11.3. Əgər belə üzvlük hakimin öz qərəzsizliyini və siyasi bitərəf mövqeyini saxlamasına imkan verirsə, hər hansı rəsmi orqanın, hökumət komissiyasının, komitəsinin, məşvərətçi orqanın üzvü olmaq;**

*Şərh*

**Araşdırma komissiyasında üzvlük**

160. Məhkəmə orqanlarına əhali arasında olan inamı, həmçinin halların araşdırılması və faktların müəyyən edilməsi fəaliyyətində hakimlərin nüfuzunu nəzərə alaraq, onlara tez-tez ictimai əhəmiyyətli olan və ya belə hesab edilən, lakin məhkəmə orqanlarının funksiyaları çərçivəsindən kənara çıxan məsələlərlə bağlı araşdırma aparmaq və hesabat təqdim etmək xahişi ilə müraciət olunur. Belə xahişə baxarkən, hakim həmin fəaliyyətin onun müstəqilliyinə təsir edib-etmədiyi barədə hərtərəfli fikirləşməlidir. Hakimlərin tərkibində işlədikləri komissiyaların hazırladıqları hesabatların nəşrindən sonra ictimai mübahisə və müzakirələrə cəlb olunması, tənqid obyektinə çevrilməsi və əlverişsiz vəziyyətə düşməsi halları olmuşdur. Komissiyanın tərkibindəki işin məhkəmə funksiyaları ilə nə dərəcədə uzlaşıb-uzlaşmadığını qiymətləndirmək üçün onun apardığı işlərin dairəsini, həmçinin komissiyaya işlə bağlı verilən vaxt və resurslar kimi digər şərtləri də diqqətlə araşdırmaq zəruridir. Adətən, hakimlər araşdırma komissiyasının işində iştirak etməyi qəbul etmək öhdəliyi daşımırlar, lakin söhbətin ölkədə fövqəladə vəziyyət şəraitində meydana çıxan dövlət əhəmiyyətli məsələdən getdiyi və hakimin belə komissiyaların işinə qoşulmağa razı olduğu hallar istisna təşkil edə bilər. Bəzi ölkələrdə konstitusion müddəalardan irəli gələrək, hakimlərə icra hakimiyyətinin fəaliyyəti ilə bağlı araşdırma aparmaq qadağandır[68] və hətta icazə verilsə belə, bu cür araşdırmalarda hakimlərin iştirakı araşdırmanın predmetindən və komissiya üzvlərinin seçilməsi prosedurundan asılı olaraq, xüsusi şəkildə həvəsləndirilmir.

161. Doğrudur, dövlət və ya milli maraqların cəmiyyət üçün həyati əhəmiyyətli məsələlərin tam, hərtərəfli və diqqətlə araşdırılmasını tələb etməsi və belə bir tapşırığı uzun illər hakim və ya praktik hüquqşünas kimi işləməklə sübutların hərtərəfli təhlili və şahidlərin etibarlılığının qiymətləndirilməsi üçün zəruri olan təcrübə və bacarığa malik hakimin hamıdan yaxşı yerinə yetirə biləcəyi barədə əsaslı dəlillər gətirilə bilər. Lakin nəzərə almaq lazımdır ki:

(a) Hakimin qanuni funksiyası mühakimə etməkdən ibarətdir. Bu funksiyanı cəmiyyətdə yalnız az sayda şəxslər həyata keçirmək iqtidarındadır və artıq hakim vəzifəsinə təyin olunanları nəzərə almasaq, müəyyən vaxt kəsiyi ərzində müvafiq ixtisasa malik və bu funksiyanı həyata keçirmək imkanı olan şəxslərin sayı məhduddur. Digər tərəfdən, hakimləri bu işə cəlb etməmək üçün komissiyada əla səviyyədə işləyə bilmək üçün lazımi qabiliyyətə və təcrübəyə malik insanlar - həm kişilər, həm də qadınlar - kifayət qədərdir;[69] və

(b) Araşdırma komissiyasının funksiyaları, bir qayda olaraq, məhkəmə hakimiyyətinin yox, icra hakimiyyətinin sferasına aiddir. Bu funksiya icra hakimiyyətinin fəaliyyəti sferasına aid olan faktlara dair məlumatın araşdırılmasından və mötəbərliyinin müəyyən edilməsindən ibarətdir ki, bununla bağlı müəyyən tədbirlər görülə bilər. Belə tədbirlər hərəkətləri komissiya tərəfindən araşdırılan şəxslərə qarşı həm mülki, həm də cinayət xarakterli məhkəmə prosedurunun həyata keçirilməsini nəzərdə tuta bilər. Araşdırma, həmçinin müxtəlif müzakirələrə səbəb olan təkliflərlə, məsələn, aeroport və ya avtomagistral tikintisi; və ya aviaqəza halları, konkret qanunvericilik islahatları və yaxud əhalinin müəyyən qrupunun hüquqları və xüsusi tələbatları sferasına aid siyasətin istiqaməti ilə bağlı ola bilər. İcra hakimiyyətinin istənilən digər aktları kimi araşdırma komissiyasının işi və əldə etdiyi məlumatlar da əsaslı olaraq cəmiyyətdə mübahisə və müzakirə predmeti ola bilər və çox vaxt elə belə də olur.

[68] *Wilson v Minister for Aboriginal Affairs*, High Court of Australia, (1997) 189 CLR 1.

*69 Sir Murray McInerney, "The Appointment of Judges to Commissions of Inquiry and Other Extra-Judicial Activities", (1978) The Australian Law Journal, vol. 52, pp. 540-553.*

162. 1998-ci ildə Kanada Hakimlər Şurası federal hakimlərin araşdırma komissiyalarının tərkibinə təyin olunması proseduru barədə məsələ ilə bağlı onun mövqeyini açıqlayan bəyanatla çıxış etmişdir.[70] Şuranın təsdiqlədiyi prosedura aşağıdakı mərhələlər daxildir:

(a) Hakimin araşdırma komissiyasına təyin olunması barədə istənilən müraciət ilk növbədə baş hakimə ünvanlanmalıdır;
(b) Müraciətə araşdırma zamanı görüləcək işlərin təklif olunan dairəsini, həmçinin komissiyanın işinin davametmə müddətini göstərən sənəd əlavə edilməlidir;
(c) Baş hakim müraciətdə sözügedən hakimlə məsləhətləşdikdən sonra həmin hakimin yoxluğunun məhkəmənin işinə nə dərəcədə ciddi mane ola biləcəyi məsələsinə baxır;
(d) Baş hakim və komissiya üzvlüyünə təklif olunan hakim onun araşdırma komissiyasına təyin olunmasının məhkəmədəki gələcək fəaliyyətinə mane ola bilib-bilməyəcəyi məsələsini də müzakirə etmək istəyə bilərlər.

Bununla bağlı, onlar aşağıdakıları müzakirə edə bilərlər:

i. Komissiya tərəfindən aparılan araşdırmanın predmeti dövlət siyasəti məsələləri üzrə peşəkar rəy verilməsini tələb edirmi, yoxsa o, dar çərçivədə olan məsələlərə aiddir?
ii. Araşdırma hökumət orqan və stukturlarının hərəkətlərinə müfəssəl baxılmasını nəzərdə tuturmu?
iii. Araşdırma konkret şəxslərin cinayət və ya mülki hüquq pozuntusu törətməsinin aydınlaşdırılmasını nəzərdə tuturmu?
iv. Komissiyanın hüquq məsləhətçisinin və ştatda olan əməkdaşlarının seçiminə görə kim cavabdehdir?
v. Həmin araşdırma onun predmeti ilə bağlı xüsusi ixtisasına və təcrübəsinə görə məhz bu hakimin iştirakını tələb edirmi? Yoxsa komissiyada iştirak üçün istefada olan və ya ştatdankənar hakim də uyğun ola bilər?
vi. Əgər komissiyanın işində iştirak üçün hüquq təhsilinə malik mütəxəssis tələb olunursa, məhkəmə hakimi göndərməyə borcludurmu, yoxsa təcrübəli vəkil də nəzərdə tutulan tapşırığın öhdəsindən heç də ondan pis gəlməyə bilər?

Fövqəladə halların mövcudluğu istisna olmaqla, Kanada Hakimlər Şurasının qəti mövqeyi belədir ki, baş hakim və komissiyanın tərkibinə təyin olunması nəzərdə tutulan hakim nə qədər ki bütün yuxarıda göstərilən məsələləri ətraflı müzakirə etmək imkanına malik olmayıblar və belə təyinatın məhkəmənin işinə və həmin hakimin öz xidməti vəzifələrinin icrası zamanı gələcək fəaliyyətinə əhəmiyyətli zərər yetirməyəcəyindən əmin deyillər, heç bir federal hakim araşdırma komissiyasının tərkibinə təyin olunmaq təklifini qəbul etməməlidir.

163. Əgər hakimin belə vəzifəyə təyin edilməsi qanunla nəzərdə tutulmamışdırsa, hakim hökumət komitəsində, komissiyasında vəzifəyə, yaxud hüquq, qanunvericilik, ədalət mühakiməsinin həyata keçirilməsi məsələlərinə baxılması ilə bağlı olmayan digər vəzifəyə təyin olunmaq barədə təkliflərin qəbul edilməsi məsələsinə münasibətdə ehtiyatlı olmalıdır. Hər bir halda, əgər onun hökumət vəzifəsi üzrə öhdəlikləri öz hakimlik vəzifələrinin icrasına mane ola və ya cəmiyyətin məhkəmə hakimiyyətinin düzgünlüyü, qərəzsizliyi və ya müstəqilliyinə olan inamını zədələyə bilərsə, hakim belə təyinatı qəbul etməməlidir. Bundan başqa, əgər hakim öz adi vəzifələrinin icrasından uzun müddətə imtina etməyə məcbur olarsa, normal həyata geri qayıtmaq və yenidən öz həyat tərzini, dünyagörüşünü və adətlərini məhkəmə işinə uyğunlaşdırmaq onun üçün heç də asan olmaya bilər.

**Hökumətin fəaliyyətində iştirak etmək**

164. Hakim bu vəzifədə olduğu müddətdə paralel olaraq icra və ya qanunvericilik strukturlarında işləyə bilməz. Lakin əgər sistem buna imkan verirsə, hakim öz səlahiyyət müddətinin bitməsindən sonra hər hansı nazirliyin inzibati bölməsində (məsələn, Ədliyyə Nazirliyinin mülki və ya cinayət qanunvericiliyi şöbəsində) çalışa bilər. Hakim nazirliyin mərkəzi aparatında işlədikdə, məsələ daha mürəkkəb görünür. Ümumi (anqlo-sakson) hüquq sistemi ölkələrində belə təyinat birmənalı olaraq qanunsuz sayılardı, bir sıra kontinental (roman-german) hüquq sistemi ölkələrində isə bu məsələyə fərqli münasibət mövcuddur.

---

*70 Kanada Hakimlər Şurasının federal hakimlərin araşdırma komissiyasına təyin edilməsi məsələsinə dair mövqeyi (Position of the Canadian Judicial Council on the Appointment of Federally-Appointed Judges to Commissions of Inquiry) 1998-ci ilin mart ayında təşkil olunmuş müşavirədə qəbul edilmişdir, www.cjc-ccm.gc.ca*

Bu halı nəzərə alaraq, kontinental (roman-german) hüquq sistemi ölkəsində hakim nazirliyin mərkəzi aparatında işə başlamazdan öncə hakimlərin təyinatına məsul və həmçinin, hər bir konkret halda tətbiq edilməli davranış qaydasını işləyib hazırlamalı olan müstəqil orqan öz rəyini verməlidir. Hakim məhkəmə orqanlarına işə qayıdanadək icra və ya qanunvericilik strukturlarındakı postundan getməlidir.

**Ölkəni təmsil etmək**

165. Hakim öz ölkəsini və ya regionunu rəsmi mərasimlərdə və ya milli, regional, tarixi, maarifləndirici və ya mədəni tədbirlərlə bağlı təmsil edə bilər.

**4.11.4. Hakim vəzifəsinin yüksək statusu ilə uzlaşan və ya onun tərəfindən öz vəzifələrinin icrasına hər hansı dərəcədə mane olmayan digər fəaliyyətlə məşğul olmaq.**

*Şərh*

**Məhkəmədənkənar fəaliyyətdə iştirak etmək**

166. Hakimlər cəmiyyətdən təcrid olunmamaq üçün məhkəmədənkənar münasib fəaliyyətlə məşğul ola bilərlər. Belə ki, hakim, əgər bu cür fəaliyyət onun hakimlik vəzifəsi ilə bağlı nüfuzunu hörmətdən salmırsa və ona öz xidməti vəzifələrini icra etməyə mane olmursa, ədəbi, pedaqoji fəaliyyətlə məşğul ola, mühazirələr deyə, hüquqi sferaya aid olmayan müxtəlif məsələlər üzrə çıxış edə, incəsənət, idman və digər istirahət və əyləncə növləri ilə məşğul ola bilər. Müxtəlif sferalarda fəaliyyət hakimə öz dünyagörüşünü genişləndirmək və cəmiyyətin problemləri barədə məlumatlı olmaq imkanı verir ki, bu da hakimin öz peşə vəzifələrinin icrası zamanı əldə etdiyi bilikləri tamamlayır. Lakin hakimin ictimai həyata cəlb olunmasının yol verilən dərəcəsi ilə öz xidməti vəzifələrinin icrası zamanı müstəqil və qərəzsiz olması və digər insanlar tərəfindən belə qəbul edilməsi zəruriliyi arasında ağlabatan tarazlığı müəyyən etmək lazımdır. Həmçinin, həmişə hakimin onun müstəqilliyini və qərəzsizliyini obyektiv olaraq etibardan sala bilən fəaliyyətə cəlb olunub-olunmaması sualının verilməsi zəruridir.

**Qeyri-kommersiya təşkilatlarında üzvlük**

167. Hakim müxtəlif növ ictimai**,** qeyri-kommersiya təşkilatlarında həmin təşkilatın üzvü və ya rəhbərliyi qismində iştirak edə bilər. Bu cür təşkilatlara xeyriyyə təşkilatları, universitet və məktəb şuraları, qeyri-kilsə dini qurumlar, xəstəxanaların himayədarlar şurası, ictimai klublar, idman təşkilatları və mədəniyyət və ya incəsənətin təbliği ilə məşğul olan təşkilatlar aiddir. Lakin belə təşkilatlarda iştirakla bağlı aşağıdakı məqamları nəzərə almaq lazımdır:

(a) Əgər belə təşkilat siyasi məqsədlər güdürsə, onun fəaliyyəti hakimi ictimai müzakirələrə cəlb edə bilərsə və ya həmin təşkilat müntəzəm olaraq və ya tez-tez məhkəmə çəkişmələrində iştirak etməli olarsa, hakim bu təşkilatın fəaliyyətində iştirakı qəbul etməməlidir;
(b) Hakim əmin olmalıdır ki, təşkilatdakı işi onun vaxtının çox hissəsini almayacaqdır;
(c) Hakim təşkilatda hüquq məsləhətçisi və ya hüquqi məsələlər üzrə müşavir kimi işləməməlidir. Bu, onu həmin təşkilatın üzvü kimi hüquqi nəticələr doğura biləcək məsələlərlə bağlı öz fikrini bildirmək hüququndan məhrum etmir; lakin həmin fikirlərə hüquqi məsləhət kimi baxılmamalı olduğu dəqiq izah edilməlidir. Təşkilatın ehtiyac duyduğu hər hansı hüquqi məsləhət peşəkar hüquq məsləhətçisindən alınmalıdır;
(d) Hakim fandrayzinqə, yəni maddi vəsaitlərin toplanılmasına dair tədbirlərdə iştirak edərkən və ya belə tədbirlərin onun adından həyata keçirilməsi zamanı ehtiyatlı olmalıdır; və
(e) Əgər belə vəsatət məntiqlə məcburedici xarakter daşıyan kimi qəbul oluna bilərsə və ya mahiyyət etibarilə maddi vəsaitin toplanılması mexanizmini əks etdirirsə, hakim kiminsə təşkilata üzvlüyə cəlb olunması barədə şəxsən vəsatət verməməlidir.

168. Hakim kimisə irqi, cinsi, dini, milli mənsubiyyəti və ya əsas insan hüquqlarına zidd olan hər hansı digər əlamətə görə diskriminasiya edən hər hansı təşkilatın üzvü olmamalıdır, çünki belə təşkilata üzvlük hakimin qərəzsiz olmadığına dəlalət edən kimi şərh oluna bilər. Təşkilatın fəaliyyətinin təhqiramiz diskriminasiya xarakteri daşıyıb-daşımadığı barədə məsələ çox vaxt mürəkkəb görünür. Ümumiyyətlə, əgər təşkilat digər halda üzvlüyə qəbul edə biləcəyi şəxsləri sırf irqi, dini, cinsi, milli və ya etnik mənsubiyyəti və ya cinsi orientasiyası əsasında üzvlüyə qəbul etməkdən imtina edirsə, bu halda həmin təşkilat təhqiramiz diskriminasiya münasibəti nümayiş etdurən hesab olunur. Lakin hakim öz üzvlərinin ümumi marağını təmsil edən, dini, etnik və ya mədəni dəyərlərin qorunması və mühafizəsi ilə məşğul olan təşkilatın üzvü ola bilər. Analoji qaydada hakim onda olan məlumata görə təhqiramiz diskriminasiya siyasəti yeridən klublarda kiminləsə görüş təyin etməməli; həmçinin belə klublara tez-tez və müntəzəm şəkildə getməməlidir.

**Maliyyə fəaliyyətləri**

169. Hakim şəxsi maliyyə məsələləri ilə bağlı öz vəzifələrinin lazımınca icrasını təmin etmək üçün zəruri olan məhdudiyyətlər istisna olmaqla, adi vətəndaşlarla eyni hüquqlara malikdir. Hakim investisiyalara, o cümlədən daşınmaz əmlaka malik ola və idarə edə və digər gəlirli fəaliyyət növləri ilə məşğul ola bilər, lakin qapalı tipli kompaniyadan başqa, onun ailə üzvlərindən kiməsə məxsus olan və nəzarət edilən hər hansı kompaniyada direktor, partnyor, menecer, məsləhətçi və ya işçi kimi çalışa bilməz. Hakimin ailə üzvlərindən kiməsə məxsus olan qapalı tipli kompaniyanın fəaliyyətində iştirakı yolveriləndir, lakin bu fəaliyyət onun həddən artıq çox vaxtını alırsa, hakim vəzifəsinin yüksək nüfuzundan sui-istifadəyə gətirib çıxarırsa, yaxud əgər həmin kompaniya məhkəmə araşdırmasında tərəf kimi çıxış edirsə, belə iştirakdan çəkinmək lazımdır. Hakim kommersiya müəssisəsinin, başqa sözlə, məqsədi gəlir əldə etmək olan müəssisənin direktorlar şurasının tərkibinə daxil ola bilməz. Bu qayda direktorun icraedici səlahiyyətlərə malik olub-olmamasından, həmçinin bu işin əvəzi ödənilən və ya ödənilməyən olmasından asılı olmayaraq, həm dövlət, həm də özəl kompaniyalara aiddir.

**Sakinlərin assosiasiyalarında üzvlük**

170. Əgər hakim mülkiyyətçilərin və ya sakinlərin assosiasiyasının olduğu binada yerləşən mənzilin mülkiyyətçisidirsə və ya ondan istifadə edirsə, həmin assosiasiyanın idarə komitəsinin tərkibinə daxil ola bilər, lakin hüquq məsləhətçisi qismində çıxış edə bilməz. Bu, onu həmin assosiasiyanın üzvü kimi hüquqi nəticələr doğura biləcək məsələlərlə bağlı öz fikrini bildirmək hüququndan məhrum etmir; lakin həmin fikirlərə hüquqi məsləhət kimi baxıla bilməməsinin dəqiq izah edilməsi zəruridir. Təşkilatın ehtiyac duyduğu hər hansı hüquqi məsləhət peşəkar hüquq məsləhətçisindən alınmalıdır. Əgər konkret məsələ mübahisəlidirsə və ya belə hesab oluna bilərsə, hakim ehtiyatlı olmalı və mübahisə predmeti olan məsələ ilə bağlı fikir bildirməməlidir. Bu cür fikir daha geniş əhatə dairəsinə məlum ola bilməklə, həm hakimi, həm də məhkəmənin özünü əlverişsiz vəziyyətə sala bilər.

**Fidusiari qismində fəaliyyət göstərmək**

171. Konkret hallardan asılı olaraq, hakim, əgər bu məşğuliyyət onun həmin xidmətlərə görə heç bir maddi ödəniş almaması şərtilə öz vəzifələrini lazımınca icra etməsinə mane olmursa, vəsiyyətnamə icraçısı, etibarnamə ilə idarə edən, himayəçi və ya onun ailə üzvlərindən və ya yaxın dostlarından kiməsə məxsus olan əmlaka və ya pul məbləğinə münasibətdə digər fidusiari kimi çıxış edə bilər. Fidusiari qismində fəaliyyət göstərən hakimə fərdi şəxs kimi çıxış edən hakimin maliyyə fəaliyyətinə şamil olunan bütün eyni məhdudiyyətlər tətbiq edilir.

**4.12. Hakim bu vəzifədə olduğu müddət ərzində digər hüquq fəaliyyəti ilə məşğul olmamalıdır.**

*Şərh*

**“Digər hüquq fəaliyyəti” ifadəsinin mənası**

172. Digər hüquq fəaliyyəti dedikdə, məhkəmədənkənar görülən və məhkəmə icraatı ilə birbaşa bağlı olmayan iş nəzərdə tutulur. Buraya daşınmaz əmlaka mülkiyyət hüququnun verilməsi aktlarının tərtibi, müxtəlif məsələlər üzrə hüquqi məsləhətlərin verilməsi, işgüzar və ya etibaredici münasibətlər və s. ilə bağlı sahələri əhatə edən hüquqi sənədlərin tərtibi və rəsmiləşdirilməsi daxildir. Hakimin illik məzuniyyəti dövründə hökumətin hər hansı strukturunda məhkəmələrə və ədalət mühakiməsinin həyata keçirilməsinə aid məsələlər üzrə xüsusi müşavir qismində işləməsinə “digər hüquq fəaliyyəti” kimi baxıla bilər. Digər hüquq fəaliyyəti ilə məşğul olmağa qadağanın tətbiqi sferasına aid fikirlər müxtəlif ölkələrdə mövcud olan ənənələrdən asılı olaraq fərqlənir. Bəzi kontinental (roman-german) hüquq sistemli ölkələrdə hətta axırıncı instansiya məhkəmələrinin hakimlərinə arbitr və ya vasitəçi vəzifələrini yerinə yetirməyə icazə verilir. Bundan başqa, ümumi (anqlo-sakson) hüquq sistemli ölkələrdən birində təqaüdə çıxmağa az qalmış hakimə xarici dövlətin hökuməti tərəfindən yaradılmış qurumda ödənişli əsasla beynəlxalq arbitr kimi çalışmasına icazə verilmişdir.

**Arbitr və ya vasitəçi qismində fəaliyyət göstərmək**

173. Adətən, ən azından ümumi (anqlo-sakson) hüquq sistemi olan ölkələrdə hakim qanunla belə hüquq bilavasitə nəzərdə tutulmadığı halda arbitr və ya vasitəçi qismində fəaliyyət göstərə və ya başqa bir şəkildə fiziki şəxs kimi hakimlik funksiyalarını icra edə bilməz. Ümumi düşüncəyə əsasən, hakimin öz vəzifəsindən mübahisələrin həlli üzrə ödənişli özəl xidmətlər göstərmək yolu ilə maddi gəlir əldə etmək üçün istifadə etməsi məhkəmə orqanlarının vicdanlılığını və ələalınmazlığını şübhə altına qoya bilər. Hətta həmin xidmətlər ödənişsiz əsaslarla göstərildikdə belə, hakimlik funksiyalarının lazımi şəkildə icrasına mane ola bilər.

**Ailə üzvlərinə hüquqi məsləhətlər vermək**

174. Hakim hüquqi məsləhətlər verməməlidir. Lakin hakim ailə üzvləri və yaxın dostlarına qeyri-rəsmi şəkildə, dostcasına və ödənişsiz şəxsi məsləhət verə bilər, bu şərtlə ki onun fikirlərinin hüquqi məsləhət kimi qəbul edilməməli və əgər zərurət olarsa, hüquqi məsələlər üzrə istənilən məsləhətin peşəkar hüquq məsləhətçisindən alınmalı olduğunu onlara dəqiq izah etsin.

**Hakimin şəxsi maraqlarının qorunması**

175. Hakim öz hüquq və maraqlarını, məhkəmə prosesində tərəf kimi çıxış etmək də daxil olmaqla, müdafiə etməyə haqlıdır. Lakin hakim məhkəmə çəkişməsində iştirak edərkən ehtiyatlı olmalıdır. Məhkəmə prosesində tərəf kimi çıxış etməklə, hakim şəxsi fayda əldə etmək üçün öz qulluq mövqeyindən sui-istifadə edən təəssüratını yarada bilər. Bundan başqa, o öz hakim həmkarlarının gələ bildikləri nəticələrə əsasən özünə olan inamı sarsıda bilər.

**4.13. Hakim hakimlərin assosiasiyasını yarada, onların üzvü ola və ya hakimlərin maraqlarını təmsil edən digər təşkilatlarda iştirak edə bilər.**

*Şərh*

**Həmkarlar ittifaqında üzvlük**

176. Sərbəst toplaşmaq və birləşmək azadlığı prinsipinə uyğun olaraq, hakim həmkarlar ittifaqına və ya hakimlərin müvafiq iş şəraitinin və maaşlarının təmin olunması məqsədilə yaradılmış peşə assosiasiyalarına üzv ola, yaxud digər hakimlərlə birlikdə həmkarlar ittifaqı və ya bu cür assosiasiya yarada bilər. Hakimlərin vəzifə səlahiyyətlərinin ictimai və konstitusional xarakterini nəzərə alaraq, onlar tərəfindən tətillərin keçirilməsi hüququna məhdudiyyətlər müəyyən edilə bilər.

**4.14. Hakim və onun ailə üzvləri hakimin etdiyi və ya etmək niyyətində olduğu hərəkətlərə, yaxud öz xidməti vəzifələrinin icrası ilə bağlı hərəkətsizliyə görə hər hansı hədiyyə, ssuda, miras və ya başqa formada yardım tələb və ya qəbul etməməlidir.**

**4.15. Hakim məhkəmə işçilərinin, həmçinin onun təsiri altında və ya tabeçiliyində olan, yaxud rəhbərliyi altında işləyən digər şəxslərin, əgər bunun hakimin funksiyalarına, yaxud etdiyi və ya etmək niyyətində olduğu hərəkətlərə və ya öz xidməti vəzifələrinin icrası ilə bağlı hərəkətsizliyə görə olduğunu qabaqcadan bilirsə, hər hansı hədiyyə, ssuda, miras və ya başqa formada yardım tələb və ya qəbul etmələrinə imkan verməməlidir.**

*Şərh*

**Ailə üzvlərini və məhkəmə işçilərini etik xarakterli məhdudiyyətlər barədə məlumatlandırmaq vəzifəsi**

177. Hakimin ailə üzvlərindən birinə və ya onun evində yaşayan digər şəxslərə verilən hədiyyə, ssuda, miras və ya başqa formada yardım hakimə təsir etmək məqsədi daşıya və ya belə təəssürat yarada bilər. Buna görə də, hakim özünə aid müvafiq etik xarakterli məhdudiyyətlər barədə öz ailə üzvlərini məlumatlandırmalı və onları bu qadağaları pozmamağa çağırmalıdır. Lakin hakim öz ailə üzvlərinin bütün maliyyə və ya işgüzar əməliyyatları barədə məlumatlı ola və bundan əlavə onlara nəzarət edə bilməz.

178. Eyni baxışlar məhkəmənin işçilərinə, həmçinin hakimin təsiri altında və ya tabeçiliyində olan, yaxud rəhbərliyi altında işləyən digər şəxslərə də aiddir.

**Nələr qəbul edilə bilər?**

179. Bu qadağa aşağıdakılara şamil edilmir:

(a) Hakimin üzvü olduğu cəmiyyətdə qəbul edilmiş, məhkəmə işlərinə aidiyyəti olan hər hansı məqsədlərlə şərtlənməyən, qeyri-işgüzar xarakterli və sadə yemək və sərinləşdirici içki süfrəsi ilə məhdudlaşan adi qonaqpərvərlik təzahürləri;
(b) Dəyərə malik olmayan və sırf diqqət əlaməti kimi təqdim edilmək üçün nəzərdə tutulan əşyalar, məsələn, nişanlar, xatirə hədiyyələri, dekorativ boşqablar, hədiyyə sertifikatları, mükafatlar və təbrik açıqcaları;
(c) Hakimin vəzifə statusuna aidiyyəti olmadan, banklar və digər maliyyə qurumları tərəfindən adi şərtlərlə, adi amilləri nəzərə almaqla verilən ssuda və kreditlər;
(d) Hakimin vəzifə statusuna heç bir aidiyyəti olmayan amillər əsasında təqdim olunan güzəşt və imtiyazlar, o cümlədən güzəşt tarifləri və kommersiya endirimləri;
(e) Hakimin vəzifə statusuna heç bir aidiyyəti olmayan amillər əsasında müxtəlif növ lotoreyalar, müsabiqələr və ictimaiyyət üçün açıq olan sair tədbirlərin iştirakçılarına verilən mükafatlar və uduşlar;
(f) Hakimin vəzifə statusuna aidiyyəti olmadan, bərabər şərtlərlə və bütün namizədlərə eyni meyarlar tətbiq olunmaqla verilən stipendiyalar və ya akademik üzvlüklər;
(g) Hakimin işgüzar səfəri ilə bağlı xərclərin, o cümlədən onun hüququn, qanunvericiliyin təkmilləşdirilməsi və ya ədalət mühakiməsinin həyata keçirilməsi səmərəliliyinin artırılması məsələlərinə dair tədbirdə və ya görüşdə iştirak etməsi ilə əlaqədar özünün və ailə üzvünün nəqliyyat, mehmanxana və yemək xərclərinin ödənilməsi və ya həmin xərclərdən azad edilməsi;
(h) İcazə verilən məhkəmədənkənar fəaliyyət müqabilində alınan ağlabatan haqq.

**Qonaqpərvərlik təzahürləri**

180. Bəzən "adi qonaqpərvərlik təzahürü" ilə hakimi ələ almaq cəhdini bir-birindən fərqləndirmək çox çətin olur. Burada konkret konteksti nəzərə almaq çox mühümdür və adətən, hakimin bu və ya digər tədbirdə iştirakının qanuniliyi hər hansı bir amillə deyil, onların məcmusu ilə müəyyən olunur. Hakimin

cavab verməli olduğu əsas sual budur ki, onun belə tədbirdə iştirakı hakimin müstəqilliyinə, düzgünlüyünə, qanuna hörmət vəzifəsinə, qərəzsizliyinə, vəzifəsinin yüksək statusuna və ya vəzifələrinin vaxtında icra edilməsinə mənfi təsir göstərəcəkmi və ya bu prinsiplərin hər hansı birinin pozulması kimi qəbul ediləcəkmi? Nəzərdən keçirilməli olan digər suallar da vardır: sosial ünsiyyət qurmaq istəyən şəxs hakimin köhnə dostudur, yoxsa yeni tanışı? Həmin şəxs cəmiyyətdə hansı nüfuza malikdir? Tədbirdə çox insan iştirak edəcək, yoxsa ancaq yaxın şəxslər? Tədbir qabaqcadan planlaşdırılıb və təşkil edilib, yoxsa gözlənilmədən baş tutub? Tədbir iştirakçılarından hər hansı biri məhkəmədə baxılan iş üzrə tərəf deyil ki? Hakim digərlərinə təklif olunmayan və əsaslı şübhə və ya tənqid doğura biləcək hər hansı imtiyaz əldə edirmi?

**4.16. Qanunda əks olunan qadağaların olmadığı təqdirdə və zəruri məlumatın dərc edilməsinə dair qanunla nəzərdə tutulan tələblərə uyğun olaraq, hakim müvafiq halda xatirə hədiyyələri, mükafatlar və imtiyazlar qəbul edə bilər, bu şərtlə ki onlar hakimin öz xidməti vəzifələrinin icrasına hər hansı formada təsir göstərmək niyyəti güdməsin və digər tamah məqsədləri daşımasın.**

*Şərh*

**Qiymətli hədiyyələri qəbul etmək olmaz.**

181. Hakimə və ya onunla birgə yaşayan ailə üzvünə qiymətli hədiyyənin verilməsi həmin hakimin öz xidməti vəzifələrini qərəzsiz və düzgün icra etməsindən şübhələnməyə əsas verir və başqa şəraitdə özü-özünə etiraz tələb olunmadığı halda, bu vəziyyətdə hakimin özü-özünə etiraz etməsini tələb edə bilər. Ona görə də, bu cür hədiyyələr qəbul edilməməlidir. Hakim hədiyyədən və ya hədiyyə təklifini qəbul etməkdən nəzakətli şəkildə imtina edə bilər. Bəzən belə hədiyyə hakimin riayət etməli olduğu qaydaları dərk edə bilmədən gözlənilməz şəkildə verilə bilər. Hakim nikaha və ya qanunla belə prosedurun nəzərdə tutulduğu yerdə vətəndaşlığa daxilolma mərasimini apardıqdan sonra şəxsin ona fitnes-kluba üzvlük təklifi xoş niyyətlə edilmiş ola bilər, lakin hakim bu təklifin qəbul edilməsinin ictimai mərasimin icrası müqabilində alınan qonorar və ya mükafat kimi başa düşülə biləcəyini izah edərək, həmin təklifdən imtina etməlidir. Digər tərəfdən, hakimə bir şüşə viski və ya onun sevdiyi musiqinin yazıldığı bir-iki kompakt diskin verilməsi hər hansı qınaq doğurmur.

**Ağlabatan qonorarların alınması**

182. Hakim etdiyi çıxışlara görə qonorar almağa haqlıdır, bu şərtlə ki həmin mükafatın miqdarı ağlabatan və yerinə yetirilən işə müvafiq olsun. Hakim əmin olmalıdır ki, onun məhkəmədənkənar fəaliyyəti hər hansı kolliziyalar yaratmır. Hakim cəmiyyət tərəfindən öz qulluq mövqeyindən şəxsi mənfəəti üçün istifadə edən kimi qəbul edilməməlidir. O öz xidməti vəzifələrinin icrası üçün nəzərdə tutulan vaxtını müqabilində qonorar aldığı nitq və ya nəşrlə çıxışlar etməyə sərf etməməlidir. Bundan əlavə, ödənişin mənbəyi qeyri-lazımi təsirlərə dair ehtimallar və ya hakimin baxılması onun xidməti vəzifələrinə daxil olan məsələlərə münasibətdə qərəzsiz olmaq qabiliyyətinə və ya istəyinə şübhələr üçün səbəb kimi çıxış etməməlidir.

*5-ci göstərici*

# BƏRABƏRLİK

*Prinsipi:*

**Məhkəmə iclasında bütün tərəflərə bərabər münasibətin təmin edilməsi hakim tərəfindən öz vəzifələrinin lazımi qaydada icra edilməsi üçün birinci dərəcəli əhəmiyyət kəsb edir.**

*Şərh*

**Beynəlxalq standartlar**

183. Hakim cəmiyyətin qorunmağa ehtiyacı olan qruplarına qarşı diskriminasiyanı qadağan edən beynəlxalq və regional sənədlər barədə, xüsusilə, İrqi diskriminasiyanın bütün növlərinin aradan qaldırılması üzrə Beynəlxalq Konvensiya (1965-ci il), Qadınlara qarşı diskriminasiyanın bütün növlərinin aradan qaldırılması üzrə Beynəlxalq Konvensiya (1979-cu il), Dinə və ya inanca əsaslanan diskriminasiyanın və dözümsüzlüyün bütün növlərinin aradan qaldırılması üzrə Bəyannamə (1981-ci il) və Milli, etnik, dil və ya dini azlıqlara aid insanların hüquq və azadlıqlarına dair Bəyannamə (1992-ci il) barədə məlumatlı olmalıdır. Hakim Mülki və siyası hüquqlar haqqında Beynəlxalq Paktın "bütün insanlar məhkəmələr və tribunallar qarşısında bərabərdirlər" müddəasını bəyan edən 14-cü maddəsinin 1-ci bəndini, həmçinin 14-cü maddənin 1-ci bəndi ilə birgə oxunmaqla, irqindən, dərisinin rəngindən, cinsindən, dilindən, dinindən, siyasi və ya digər əqidəsindən, milli və ya sosial mənşəyindən, əmlak vəziyyətindən, ictimai vəziyyətindən və ya digər hallardan asılı olmayaraq, hər bir şəxsin ədalətli məhkəmə hüququnu bəyan edən 2-ci maddəsinin 1-ci bəndini rəhbər tutmalıdır. "Digər hallar" (və ya "digər status") ifadəsi mövcud təfsirə əsasən nikahdankənar doğulma, cinsi orientasiya, iqtisadi vəziyyət, əmək qabiliyyətsizliyi və HIV-ə yoluxma kimi halları əhatə edir. Buna görə də, hakimin borcu öz vəzifələrini qabaqcadan hasil olan qənaət münasibətinə və ya diskriminasiyaya yol vermədən, tərəflər arasında çəkişmə prinsipini və hər bir tərəf üçün ədalətli məhkəmə baxışını təmin etməklə, məhkəmə iclasında bütün tərəflərə bərabər rəftar prinsipinə lazımi qaydada hörmət bəsləməklə icra etməkdən ibarətdir.

**Hakim stereotip münasibətlərdən çəkinməlidir.**

184. Ədalətli və bərabər münasibət uzun müddətdən bəri ədalət mühakiməsinin əsas göstəriciləri hesab edilir. Qanuna uyğun olaraq bərabərliyin təmin edilməsi yalnız ədalət mühakiməsinin həyata keçirilməsi üçün birinci dərəcəli əhəmiyyət kəsb etmir, həm də hakimin davranışının onun qərəzsizliyi və obyektivliyinə birbaşa aidiyyəti olan xüsusiyyəti sayılır. Məsələn, düzgün qərar çıxaran, lakin bu zaman nəyəsə stereotip münasibət sərgiləyən hakim qərəzsiz hesab edilmir və ya belə qəbul olunmur. Hakim stereotiplərə, miflərə və ya xurafata əsaslanan hər hansı baxışların təsirinə məruz qalmamalıdır. Buna görə də, hakim bu cür stereotip təsəvvürlərin lazımi şəkildə öyrənilməsi və qarşısının alınması üçün bütün səylərini səfərbər etməlidir.

**Cinsi diskriminasiya**

185. Hakim həm kişilərin, həm də qadınların məhkəməyə bərabər çıxışının təmin edilməsinə çalışmalıdır. Bu qayda hakimin məhkəmə prosesinin tərəfləri, vəkillər və məhkəmənin işçiləri ilə olan qarşılıqlı münasibətləri ilə yanaşı, məhkəmə işçiləri və vəkillərin digər şəxslərlə olan qarşılıqlı münasibətlərinə də şamil olunur. Müasir dövrdə məhkəmələrdə hakimlərin qadın vəkillərə qarşı qabaqcadan hasil olan qənaətin açıq təzahürü hallarına tez-tez rast gəlinməsə də, hakimin ifadə, jest və digər hərəkətləri – məsələn, qadın vəkillərə müraciət edərkən əzizləyici sözlərdən (məsələn, "*şirinim", "əzizim", "qızcığaz", "kiçik bacı"* kimi) istifadə etmək və ya onların zahiri görünüşü və ya geyimləri ilə bağlı kişi vəkillərə qarşı deyilə bilməyən fikirlər bildirmək – təhqiramiz və cinsi qısnama kimi qəbul oluna bilər. Hakimin özünü üstün aparması ("*bu ərizəni yəqin ki qadın hazırlayıb*") qadın vəkillərin heysiyyatına toxunmaqla özü-özünə qiymət verməl期ərinə mənfi təsir göstərə və ya peşəkar bacarıqlarına inamlarını sarsıda bildiyi üçün onların vəkil kimi səmərəli fəaliyyətinə mane olur. Baxılan iş üzrə tərəf kimi çıxış edən qadınlara qarşı təhqiramiz münasibət göstərilməsi ("*bu axmaq qadındır*") onların qanuni hüquqlarını poza və ya belə görünə bilər. Məhkəmə işçilərinə, vəkillərə, çəkişən tərəflərə və ya öz həmkarlarına qarşı cinsi qısnama nəinki qeyri-qanuni sayılır, həm də etik normalara ziddir.

*Tətbiqi:*

**5.1. Hakim cəmiyyətdəki müxtəlifliyi və irqi mənsubiyyət, dərinin rəngi, cins, din, milli mənşə, silk, əmək qabiliyyətsizliyi, yaş, ailə vəziyyəti, cinsi orientasiya, sosial-iqtisadi vəziyyət və sair oxşar səbəblərin ("işə aidiyyəti olmayan əsaslar") daxil olduğu, lakin bunlarla məhdudlaşmayan müxtəlif mənbələrdən irəli gələn fərqləri bilməli və anlamalıdır.**

*Şərh*

**Mədəni müxtəlifliyi bilmək və ona hörmətlə yanaşmaq vəzifəsi**

186. Hakim təkcə cəmiyyətdəki mədəni, irqi və dini müxtəliflikləri və fərqləri bilməli və anlamalı deyil, həm də hər hansı işə aidiyyəti olmayan əsaslarla bağlı qabaqcadan hasil olan qənaət münasibətindən və ya qabaqcadan formalaşmış yanlış fikirdən uzaq olmalıdır. Hakim cəmiyyətdə dəyişən baxışlar və dəyərlər barədə məlumatlı olmaq üçün bütün mümkün vasitələrdən, həmçinin onun qərəzsiz olmasına və belə qəbul olunmasına kömək edə biləcək münasib təhsil imkanlarından (hansı ki müvafiq şəkildə təmin olunmalıdır) istifadə etməyə çalışmalıdır. Lakin yadda saxlamaq lazımdır ki, bu cəhdlər cəmiyyətin nəzərində hakimin qərəzsizliyini azaltmalı deyil, artırmalıdır.

**5.2. Hakim öz vəzifələrini icra edərkən sözlə və ya hərəkətlə hər hansı şəxsə və ya şəxslər qrupuna qarşı işə aidiyyəti olmayan səbəblərə əsaslanaraq qərəzlilik və ya qabaqcadan formalaşmış yanlış fikir nümayiş etdirməməlidir.**

*Şərh*

**Üzürsüz şərhlərdən çəkinmək vəzifəsi**

187. Hakim özünü elə aparmağa çalışmalıdır ki, istənilən sağlam düşüncəli müşahidəçidə onun qərəzsizliyinə inam yaransın. Hakim etinasızlıq və ya hörmətsizlik göstərilməsi kimi təfsir edilə bilən qeyd, ifadə, jest və ya davranışlardan çəkinməlidir. Bu, irqi, mədəni, cinsi və ya digər stereotiplərə əsaslanan, işə aidiyyəti olmayan və ya üzürsüz şərhlərə, həmçinin məhkəmə araşdırmasında iştirak edən şəxslərin onların maraqlarına bərabər hörmət və diqqətdən istifadə etmədiklərini ifadə edən hərəkət və ya davranışlara aiddir. Hakimin kiminsə, o cümlədən özünün etnik mənsubiyyəti barədə saymazyana fikirləri də nalayiq və ədəbsiz rəftarın təzahürü sayılır. Hakim öz şərhlərinin hər hansı irqi ayrı-seçkilik mənası daşımaması və qəsdən olmasa belə, cəmiyyətdəki azlıqlar qrupunu təhqir etməməsi üçün xüsusi ehtiyatlılıq nümayiş etdirməlidir.

**Hakim qeydlərini ehtiyatla və nəzakətlə bildirməlidir.**

188. Hakim iş üzrə tərəflərin, vəkillərin, məhkəmə prosesi iştirakçılarının və şahidlərin ünvanına əsaslı olmayan və təhqiramiz fikirlər bildirməyə haqlı deyil. Elə hallar olub ki, cinayət törətməkdə təqsirli hesab olunan şəxsin barəsində hökmün çıxarılması zamanı hakim onu təhqiramiz ifadələrlə "bəzəmişdir". Hakim yerli ənənələrdən asılı olaraq törədilmiş ağır cinayətlə bağlı cəmiyyətin qəzəbini ifadə edə bilsə də, onun qeydləri həmişə ehtiyatla seçilməli, müəyyən çərçivə daxilində və nəzakətli şəkildə ifadə olunmalıdır. Cinayət törətməkdə təqsirli hesab olunan məhkumun barəsində hökmün çıxarılması hakim üçün öz emosiyalarını ifadə etmək vasitəsi deyil, cəmiyyətin adından ədalətli və qanuni hərəkətin icrasını nəzərdə tutan böyük məsuliyyətdir. Belə hərəkətlər hakimlik vəzifəsinin mühüm əsaslarını və nüfuzunu sarsıdır.

**5.3. Hakim məhkəmə funksiyalarını bütün şəxslərin, xüsusilə iş üzrə tərəflərin, şahidlərin, vəkillərin, məhkəmə işçilərinin və məhkəmə tərkibinə daxil olan həmkarlarının maraqlarını lazımi şəkildə nəzərə almaqla, işə aidiyyəti olmayan və bu funksiyaların lazımi qaydada həyata keçirilməsi üçün əhəmiyyət kəsb etməyən hər hansı əsaslara görə fərqləndirmə etmədən yerinə yetirməlidir.**

*Şərh*

**Məhkəmədə iştirak edən şəxslərlə onların ləyaqətinə hörmətlə yanaşmaqla rəftar edilməlidir.**

189. Məhkəmədə ədalətli məhkəmə araşdırması üçün zəruri olan şəraiti və atmosferi yaradan məhz hakimdir. Məhkəmədə iştirak edən insanlara qarşı qeyri-bərabər və ya fərqləndirici şəkildə davranmaq və ya belə davranıldığı təəssüratını yaratmaq yolverilməzdir. Məhkəmədə iştirak edən bütün şəxslərin – vəkillər, iş üzrə tərəflər və ya şahidlər – hüququ var ki, insan ləyaqətinə və fundamental insan hüquqlarına hörmət prinsipinə uyğun münasibət görsünlər. Hakim məhkəmədə iştirak edən bütün şəxslərin irqi, cinsi, dini və ya digər işə aidiyyəti olmayan əsaslardan irəli gələn qabaqcadan hasil olan qənaət münasibətinin və ya qabaqcadan formalaşmış yanlış fikrin istənilən təzahürlərindən müdafiə və mühafizə edilməsini təmin etməlidir.

**5.4. Hakim məhkəmə işçilərinin və ya onun təsiri, tabeçiliyi və ya nəzarəti altında olan digər şəxslərin hakimin baxdığı işlə bağlı olan şəxsləri hər hansı işə aidiyyəti olmayan əsaslara görə fərqləndirmələrinə bilə-bilə yol verməməlidir.**

*Şərh*

**Hakin məhkəmə işçilərinin özlərini müəyyən olunmuş standartlara uyğun aparmalarını təmin etməlidir.**

190. Cəmiyyət üzvlərinin məhkəmə sistemi ilə təması zamanı ünsiyyətdə olduqları ilk şəxslər çox vaxt məhkəmə işçiləri olurlar. Buna görə də, hakimin malik olduğu bütün imkanlar daxilində tabeçiliyində və ya nəzarəti altında olan məhkəmə işçilərinin davranışının yuxarıda sadalanan davranış standartlarına tam şəkildə uyğunluğunu təmin etməsi çox vacibdir. Məhkəmə işçilərinin davranışı qüsursuz olmalıdır: onlar, xüsusilə cinsi əlamətə görə diskriminasion münasibəti bildirən ifadələr işlətməkdən, həmçinin təhqiramiz, xoşagəlməz, hədələyici, həddindən artıq səmimi və ya digər hər hansı səbəblərə görə qanunsuz hesab edilə biləcək davranışdan çəkinməlidirlər.

**5.5. Hakim məhkəmə prosesində iştirak edən vəkillərdən məhkəmə araşdırmasının predmeti üçün hüquqi əhəmiyyət kəsb edən və qanuni şəkildə əsaslı ola bilən hallar istisna olmaqla, işə aidiyyəti olmayan əsaslara qərəzli və ya qabaqcadan formalaşmış yanlış fikirlərini sözlə və ya hərəkətlə nümayiş etdirməkdən çəkinmələrini tələb eməlidir.**

*Şərh*

**Hakim vəkillərin irqi, cinsi ayrı-seçkiliyə əsaslanan qabaqcadan formalaşmış yanlış fikirlərini və digər nalayiq davranış formalarını nümayiş etdirmələrinə imkan verməməlidir.**

191. Hakim vəkillərin məhkəmədə və ya hakimin yanında ifadə olunan irqi xarakterli, qadınlara qarşı qabaqcadan formalaşmış yanlış fikirləri əks etdirən və ya təhqiramiz və digər səbəblərdən nalayiq xarakter daşıyan və işə aidiyyəti olmayan şərhlərinə qarşı müvafiq şəkildə reaksiya göstərməlidir. Məntiqlə bu cür şərhlərin üstüörtülü şəkildə bəyənilməsi kimi başa düşülə biləcək sözlər, jestlər və ya hərəkətsizlik də yolverilməzdir. Lakin bu o demək deyil ki, məhkəmə mübahisəsinin predmetini cinsi, irqi və ya digər oxşar amillərə görə diskriminasiya ilə bağlı məsələlər təşkil edən işə məhkəmə tərəfindən baxıldıqda, hakim vəkilin çıxışını və ya mümkün şahid ifadələrini kəsməlidir. Hakimin borcu tərəfləri qərəzsiz şəkildə dinləməkdir, lakin zərurət olduqda o, məhkəmə iclas zalında bərabərlik şəraitini saxlamaq, qayda-qanunu və müvafiq etiketə riayət olunmasını təmin etmək üçün ciddi və qətiyyətli olmalıdır. “Lazımi qətiyyətin” nəyi ifadə etdiyi konkret hallardan asılıdır. Bəzi hallarda mədəni şəkildə edilmiş düzəliş belə kifayətdir. Lakin bilərəkdən və ya xüsusilə ağır təhqiramiz davranış daha ciddi tədbirlərin görülməsini, məsələn, hakim tərəfindən konkret göstəriş verilməsi, şəxsi qaydada xəbərdarlıq edilməsi və ya protokola daxil edilməklə töhmət verilməsini, xəbərdarlığa baxmayaraq vəkil özünü ləyaqətsiz şəkildə aparmağa davam etdikdə isə, onun barəsində məhkəməyə hörmətsizlik faktına görə icraatın başlanılmasını tələb edir.

*6-cı göstərici*

## SƏRİŞTƏLİLİK VƏ ÇALIŞQANLIQ

*Prinsipi:*

**Səriştəlilik və çalışqanlıq hakim tərəfindən öz vəzifələrinin icrasının zəruri şərtləri sayılır.**

*Şərh*

**Səriştəlilik**

192. Hakim tərəfindən öz vəzifələrinin icrası zamanı səriştəlilik hüquq sahəsində biliklərin, müvafiq bacarıq, diqqət və hazırlığın olmasını tələb edir. Hakimin peşəkar səriştəsi onun tərəfindən öz vəzifələrinin icrası zamanı açıq-aşkar görünməlidir. Narkotiklərin və ya alkoqolun qəbulu, yaxud fiziki və ya psixi vəziyyətinə təsir edən digər səbəblər nəticəsində hakimin orqanizmi zəiflədikdə, onun iş qabiliyyəti və səriştəliliyi aşağı düşür. Bəzi hallarda səriştəsizlik yetərincə təcrübənin olmaması, hakimin şəxsiyyəti və ya temperamentinin xüsusiyyətləri ilə bağlı problemlər və ya hakim vəzifəsinə bu vəzifəyə açiq-aydın uyğun gəlməyən və xidməti vəzifələrinin icrası zamanı öz yararsızlığını nümayiş etdirən şəxsin təyin edilməsi ilə bağlı ola bilər. Bəzi hallarda isə səriştəsizlik hakimin uğursuzluğa düçar olmasının və ya əmək qabiliyyətsizliyinin nəticəsi ola bilər ki, bu zaman həddindən artıq olmasına baxmayaraq, yeganə çıxış yolu onun öz vəzifəsindən konstitusiya ilə nəzərdə tutulmuş qaydada kənarlaşdırılması sayılır.

**Çalışqanlıq**

193. Sübutların qiymətləndirilməsində sağlam düşüncəlilik və ağıllı mühakimə yürütmək qabiliyyəti, qərarların qəbulu zamanı qərəzsizlik və hərəkətlərində operativlik hakimin çalışqanlığının xarakterik xüsusiyyətləridir. Çalışqanlıq, həmçinin qanunun tətbiqində obyektivliyə və ədalətliliyə cəhd etməni, habelə məhkəmə prosedurundan lazım olmayan şəkildə istifadə edilməsinə yol verməməyi də nəzərdə tutur. Hakim vəzifələrinin icrası zamanı çalışqanlıq nümayiş etdirmək qabiliyyəti iş yükünün həcmindən, zəruri resursların olmasından (o cümlədən, köməkçi heyətin və texniki avadanlığın), araşdırma, tərəflərin dəlillərinin qiymətləndirilməsi, qərarların mətninin tərtibi üçün kifayət qədər vaxtın olmasından, həmçinin məhkəmə iclasında işə baxılması ilə yanaşı digər hakimlik vəzifələrinin yerinə yetirilməsindən asılı ola bilər.

**İstirahət, dincəlmə və ailə həyatının əhəmiyyəti**

194. Hakimin öz ailəsi qarşısındakı məsuliyyət yükünün əhəmiyyətini də başa düşmək zəruridir. Hakim normal fiziki və psixi vəziyyətini saxlamaq üçün kifayət qədər vaxta və həmçinin, öz funksiyalarının səmərəli icrası üçün zəruri olan peşəkar bilik və bacarıqlarının təkmilləşdirilməsindən ötrü ağlabatan imkanlara malik olmalıdır. İndiki dövrdə hakim vəzifələrinin icrasının necə stresli olduğu, ruhi və fiziki qüvvələrin böyük gərginliyini tələb etdiyi daha çox başa düşülür. Zərurət olduqda, stres vəziyyətində olan hakim məsləhət almaq və müvafiq terapiya kursuna getmək imkanına malik olmalıdır. Əvvəllər hakimlər və vəkillər bu məsələlərə etinasızlıqla yanaşır və lazımi əhəmiyyət vermirdilər. Lakin son dövrlərdə empirik araşdırmalar və hakimlərin sinir sistemlərinin bəzi məlum pozulması halları bu məsələləri ümumi diqqət mərkəzinə gətirdi.[71]

[71] Bax: M.D. Kirby, “Judicial Stress: An Update”, (1997) 71 *Australian Law Journal* 774, at 791.

*Tətbiqi:*

**6.1. Hakimin məhkəmə funksiyaları onun bütün digər fəaliyyət növlərindən üstündür.**

*Şərh*

**Hakimin başlıca vəzifəsi - məhkəməyə xidmətdir.**

195. Hakimin başlıca vəzifəsi əsas elementləri işlərə baxılması və həmin işlər üzrə qərarlar çıxarılması sayılan məhkəmə səlahiyyətlərinin lazımi qaydada icra edilməsindən ibarətdir ki, bu da qanunun təfsirini və qanunla nəzərdə tutulan normaların tətbiqini tələb edir. Əgər hökumət hakimə onu məhkəmədəki gündəlik işlərindən uzun müddətə ayıran hər hansı tapşırıq verərsə, hakim bu tapşırığı yerinə yetirməyə razılıq verməsinin məhkəmənin səmərəli fəaliyyətinə mənfi təsir göstərməyəcəyinə və digər hakimlərin iş yükünü həddindən artıq artırmayacağına əmin olmaq üçün məhkəmənin sədri və məhkəmə tərkibi üzrə digər həmkarları ilə məsləhətləşmədən həmin tapşırığı qəbul etməməlidir. Məhkəmədənkənar fəaliyyətlər hakimin öz vəzifələrinin icrası qabiliyyətini aşağı salırsa, hakim həmin fəaliyyətlərə həddindən artıq vaxt ayırmaqdan çəkinməlidir. Bu fəaliyyətlərə görə müvafiq haqqın verilməsi onlara həddindən artıq önəm verilməsi ehtimalı və riskini daha da artırır. Belə hallarda kənar müşahidəçi hakimin əlavə - məhkəmədənkənar işləri öz rəsmi gəlirinin miqdarını artırmaq məqsədilə qəbul etdiyi barədə şübhələnə bilər. Məhkəmə sistemi - bazar iqtisadiyyatının əlavə seqmenti deyil, cəmiyyətin xidmətində duran bir institutdur.

**6.2. Hakim öz peşəkar fəaliyyətini təkcə məhkəmə araşdırmasında məhkəmə və xidməti vəzifələrinin icra olunması və qərarların çıxarılmasını deyil, həm də hakim vəzifəsinə və ya məhkəmənin fəaliyyətinə aid olan digər məsələləri əhatə edən məhkəmə funksiyalarının yerinə yetirilməsinə həsr etməlidir.**

*Şərh*

**Məhkəmə idarəetməsində peşəkar səriştə vacibdir.**

196. Hər bir hakim təkcə işlərin həll olunması ilə deyil, müəyyən dərəcədə onların idarə edilməsi üzrə inzibatı funksiyalarla da məşğul olmalıdır. Hakim öz məhkəməsi həddində ədalət mühakiməsinin səmərəli həyata keçirilməsinə məsuldur. Bura işlərin idarə olunması (o cümlədən, onların operativ həll edilməsi), kargüzarlıq, maliyyə resurslarının idarə olunması, həmçinin məhkəmə işçilərinə nəzarət edilməsi aiddir. Hakim işlərə baxılmasında və onlara dair qərar çıxarılmasında lazımi qədər səy göstərməsə, bu, məhkəmədə işin səmərəliliyinin aşağı düşməsinə və öz növbəsində əlavə xərclərə gətirib çıxarır və ədalət mühakiməsinin həyata keçirilməsinin kəsərini heçə endirir. Buna görə də, hakim məhkəmə idarəetməsi sahəsində peşəkar səriştəyə malik olmalı və məhkəmə işçilərinin inzibati funksiyalarının icrasına köməklik etməlidir.[72]

**Məhkəmə protokollarının itməsi**

197. Hakim məhkəmə protokollarının itməsi və ya onların verilməsindən imtina edilməsinin qarşısını almaq üçün bütün ağlabatan və zəruri tədbirləri görməlidir. Bu cür tədbirlərə məhkəmə protokollarının kompüterləşdirilməsi aid ola bilər. Hakim, həmçinin məhkəmə dosyesinin itməsi və yoxa çıxmasının araşdırılması sistemini tətbiq etməlidir. Qanunsuz hərəkətin törədilməsinə şübhə olduğu təqdirdə, hakim müvafiq məhkəmənin ciddi səhv kimi qiymətləndirilən məhkəmə dosyesinin itməsi faktının müstəqil araşdırmasının aparılmasını təmin etməlidir. Məhkəmə dosyesinin itməsi halında, hakim itmiş sənədlərin bərpası və gələcəkdə belə itmə hallarının qarşısının alınmasına yönəlmiş müfaviq prosedurun yaradılması üçün ağlabatan mümkün tədbirləri görməlidir.

**Qeyri-rəsmi ödənişlər**

198. Bir çox yurisdiksiyalarda məhkəmə iclas protokollarının təqdim edilməsi, məhkəməyə gəlmə barədə əmrin dərc olunması, işlərin arxivdən çıxarılması, məhkəmə bildirişinin cavabdehə verilməsi, şahid ifadələrinin surətinin çıxarılması, zaminə buraxma zamanı girov alınması, məhkəmə qərarının təsdiqlənmiş surətinin hazırlanması, məhkəmə araşdırmasının tezləşdirilməsi, işlərin təxirə salınması, məhkəmə iclaslarının münasib vaxta təyin olunması və itmiş dosyelərin axtarılmasına görə xüsusilə məhkəmə işçilərinin tələbi ilə alındığı iddia edilən qeyri-rəsmi ödənişlərlə bağlı məlumatları nəzərə alaraq, hakim aşağıdakı tədbirləri görməlidir:

(a) məhkəmə binasında və müvafiq aidiyyəti şəxslərin görə biləcəyi digər yerlərdə belə ödənişlərin yolverilməz olması və bu cür hallara yol verən şəxslər barəsində şikayətlərin verilməsi və baxılmasının məxfi prosedurunun mövcudluğu haqda elanların yerləşdirilməsi;
(b) bu cür qeyri-rəsmi ödənişlərin qarşısını almaq məqsədilə müvafiq təftiş sistemləri ilə birlikdə məhkəmə nəzarətçilərinin və istifadəçi komitələrin təyin edilməsi;
(c) məhkəmə protokollarının, o cümlədən məhkəmə iclasları cədvəllərinin kompüterləşdirilməsi;
(d) işin məhkəmədə baxılmağa hazırlanması ilə bağlı hüquqi tədbirlərin həyata keçirilməsi müddətlərinin müəyyən edilməsi; və
(e) məhkəmə tərəfindən vətəndaşların şikayətlərinə operativ və səmərəli reaksiya göstərilməsinin təmin edilməsi.

---

[72] Bax: "Məhkəmə işçilərinin davranış prinsipləri", *Hakimlərin vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupunun dördüncü müşavirəsinin Hesabatı, 27-28 oktyabr 2005-ci il, Vyana ş., Avstriya, A Əlavəsi,* www.unodc.org/pdf/corruption/publication_jig4.pdf

**6.3. Hakim öz biliklərinin qorunması və genişləndirilməsi, bu məqsədlərlə müvafiq təlim vasitələrindən və məhkəmə nəzarəti şəraitində hakimlərə əlçatan olan digər imkanlardan istifadə etməklə, vəzifələrinin lazımınca icra edilməsi üçün zəruri olan iş təcrübəsi və şəxsi keyfiyyətlərinin təkmilləşdirilməsi üçün ağlabatan tədbirlər görməlidir.**

*Şərh*

**Hər bir hakim sonrakı peşə hazırlığı üçün imkanlardan istifadə etməlidir.**

199. Məhkəmə orqanlarının müstəqilliyi hakimlərə müəyyən hüquqlar verir, lakin eyni zamanda onların üzərinə etik xarakterli vəzifələr qoyur ki, bunlardan biri də öz hakimlik səlahiyyətlərini peşəkarcasına və lazımi qaydada icra etməkdir. Bu o deməkdir ki, hakim sonrakı təlim və hazırlıq üçün istifadə etməyə borclu və haqlı olduğu imkanların mövcudluğu hesabına əldə edilən, saxlanılan və müntəzəm olaraq artırılan peşə ixtisasına malik olmalıdır. Hakimin ona həvalə olunan vəzifələri tam şəkildə icra edə bilməsi üçün bu vəzifəyə elə ilk təyinatdaca mövcud peşə təcrübəsinə uyğun hərtərəfli və müxtəlifyönlü təlim hazırlığı keçməsi arzuolunan və zəruridir. Hakim maddi və prosessual hüququn aspektləri ilə yanaşı, hüququn və məhkəmələrin cəmiyyət həyatına təsiri məsələlərindən də xəbərdar olmalıdır.

200. Hakim təkcə hüquq sahəsində deyil, cəmiyyət üçün mühüm və aktual olan digər sahələrdə də geniş və dərin biliyə malik olarsa; məhkəmə prosesinin bütün iştirakçılarına lazımi münasibət göstərməklə, onu işləri həll etməyə qabil edən şəxsi keyfiyyətlər və intellekt (məhkəmə iclası zamanı və məhkəmədən kənarda) nümayiş etdirərsə, vətəndaşların məhkəməyə olan inamı daha da artar. Peşə hazırlığı hakim tərəfindən öz məhkəmə funksiyalarının obyektiv, qərəzsiz və səriştəli icra edilməsi üçün və hakimlərin lazım olmayan təsirlərdən qorunması baxımından birinci dərəcəli əhəmiyyətə malikdir. Buna görə də, indiki dövrdə hakim bu vəzifəyə təyin edilməsi zamanı gender probleminə, irq, yerli mədəniyyətlər, din və inancların müxtəlifliyi, seksual orientasiya, HİV/QİÇS-ə yoluxma, əlillik və sair məsələlərə həssas yanaşma kimi aspektləri əhatə edən təlim kursları çərçivəsində hazırlıq keçməlidir. Əvvəllər belə hesab olunurdu ki, hakim bu cür bilikləri vəkil kimi işlədiyi dövrdə qazanır. Lakin təcrübə belə təlimlərin necə faydalı olduğunu - xüsusilə, hakimlərə gələcək fəaliyyətlərində üzləşə biləcəkləri həmin məsələlərə düzgün yanaşmağa kömək etməsi baxımından, bu cür qruplara və azlıqlara mənsub şəxslərə hakimlərlə birbaşa əlaqəyə girmək, onlarla birlikdə dinləmələrin aparılması imkanlarının təmin edilməsinin mühüm əhəmiyyət daşıdığını göstərdi.

201. Təlimlər yalnız peşəkar karyerasının başlanğıcında vəzifəyə təyin olunan və əsasən universitetlərdə keçilən təlimlərdə iştirak edən hakimlər üçün deyil, həm də ən yaxşı və ən təcrübəli hüquqşünaslar arasından seçilən hakimlər üçün zəruridir. “Yaxşı vəkil pis hakim, babat vəkil isə yaxşı hakim ola bilər. Qiymətləndirmənin keyfiyyəti və məhkəmədə özünü aparmaq manerası hüquq məsələlərində məlumatlı olmaqdan daha çox əhəmiyyətli ola bilər”.[73]

**Hakimlərin peşə hazırlığı proqramının məzmunu**

202. Hakim vəzifələrinin icrası - həm işə təzə başlayan gənc hakim, həm də təcrübəli sabiq vəkil üçün yeni fəaliyyət sferası olmaqla, bir çox məsələlərə, xüsusilə hakimlərin peşə etikası, məhkəmə prosesinin və məhkəmə araşdırmasında iştirak edən bütün şəxslərlə qarşılıqlı münasibətlərin xüsusiyyətləri məsələlərinə xüsusi yanaşmanı nəzərdə tutur. Yeni hakimlərin peşə təcrübəsinin səviyyəsindən asılı olaraq, təlim hazırlığı yalnız məhkəmə işlərinə baxılmasının üsul və metodlarının öyrədilməsindən ibarət olmalı deyil, həm də cəmiyyətin sosial problemləri barədə məlumatlı və ictimai həyatın mürəkkəbliyini və çoxşaxəliyini əks etdirən müxtəlif məsələlər haqda hərtərəfli anlayışa malik olmağın zəruriliyini nəzərə almalıdır. Digər tərəfdən, müvafiq təlim proqramlarını hazırlayarkən hakimlərin seçilməsi metodlarının konkret xüsusiyyətlərini də nəzərə almaq vacibdir. Təcrübəli vəkilə yalnız yeni peşəsi üçün zəruri olan məsələlərlə bağlı təlim keçilməlidir. O, məhkəmə prosesi, sübutların sistemi, məhkəməyə aid

[73] Sir Robert Megarry VC, ‘The Anatomy of Judicial Appointment: Change But Not Decay’, The Leon Ladner Lecture for 1984, 19:1 *University of British Columbia Law Review*, 113 at 114.

adət və tələblər barədə qənaətbəxş biliklərə malik ola bilər. Lakin həmin şəxs heç vaxt HİV/QİÇS-ə yoluxmuş şəxslə rastlaşmamış ola və ya bu cür şəxslərin xüsusi hüquqi və ya digər tələbatları barədə fikirləşməmiş ola bilər. Bu mənada, peşə təlimi onun üçün yenilik ola bilər. Bir çox ümumi (anqlo-sakson) hüquq sistemli ölkələrdə nisbətən yeni olsa da, təcrübə göstərir ki, hakimlərin belə peşə hazırlığı məhkəmə sisteminin özü tərəfindən nəzarət edildiyi təqdirdə yeni hakimlər üçün çox faydalı ola və onların hakim kimi uğurlu karyerasının möhkəm təməlini qoya bilər.

**Məhkəmə orqanlarının bütün səviyyələrində ixtisasartırma kursları**

203. Öz məhkəmə karyerasının başlanğıcında əldə etməli olduğu əsas biliklərdən əlavə hakim bu biliklərini daim genişləndirməyə və dərinləşdirməyə çalışmalıdır. Qanunvericilik və texnologiyalardakı mütəmadi dəyişikliklər, həmçinin bir çox ölkələrdə hakimin üzərinə yeni vəzifəyə keçməsi zamanı yeni vəzifələrin həvalə oluna bilməsi hakimlərin peşə hazırlığını həyati zəruri edir. Ona görə də, ixtisasartırma proqramları xidməti karyerada dəyişikliklər olduğu halda, məsələn, cinayət məhkəməsindən mülki məhkəməyə və ya əksinə keçdikdə, xüsusi yurisdiksiyada (məsələn, ailə və ya yetkinlik yaşına çatmayanlarla bağlı işlər üzrə məhkəmələrdə) vəzifəyə təyin olunduqda və ya məhkəmənin, yaxud məhkəmə kollegiyasının sədri vəzifəsini qəbul etdikdə, təlim imkanlarını təmin etməlidir. Daimi ixtisasartırma imkanları məhkəmə orqanlarının bütün səviyyələrində təmin olunmalıdır. İmkan daxilində məhkəmə sisteminin bütün instansiyalarının nümayəndələri birgə məşğələlərdə iştirak etməlidirlər ki, bu da onların fikir mübadiləsini təmin etməklə yanaşı, bütün instansiyalardan olan hakimlərin bir-birinin problemləri və narahatlıqları barədə məlumatlanmasına imkan verməklə və məhkəmə sisteminin bütün səviyyələrində ardıcıllığın və birliyin təmininə yardım etməklə, həddindən artıq ciddi ierarxik baryerlərin aradan qaldırılmasına kömək edir.

**Hakimlərin peşə hazırlığına məhkəmə orqanları cavabdehlik daşımalıdır.**

204. Zəruri resursların təmin edilməsi və müvafiq xərclərin ödənilməsi - zərurət olduqda, beynəlxalq birliyin dəstəyi ilə - dövlətin vəzifəsi olsa da, hakimlərin peşə hazırlığının təşkil edilməsi və ona nəzarət olunmasında məhkəmə orqanları əsas rol oynayır və ya buna görə cavabdehlik daşıyır. Hər bir ölkədə bu funksiyanın həyata keçirilməsi ədliyyə nazirliyinə və ya icra və ya qanunvericilik hakimiyyətinə tabe olan digər orqana deyil, məhkəmə sisteminin özünə, yaxud, məsələn, məhkəmə komitəsi kimi digər müstəqil orqana həvalə olunmalıdır. Hakimlərin assosiasiyaları da fəaliyyətdə olan hakimlərin ixtisaslarının artırılması üçün müvafiq imkanların təmin edilməsində mühüm rol oynaya bilər. Müasir cəmiyyətin mürəkkəbliklərini nəzərə alaraq, hakimin məhkəmədə demək olar ki hər gün iclas keçirməklə, üzləşə biləcəyi bütün problemləri optimal şəkildə həll etməyə hazır olacağını düşünmək olmaz. İnformasiya sistemlərindəki texnoloji dəyişikliklər hətta yüksək ixtisaslı hakimləri belə müvafiq peşə hazırlığı zərurəti ilə qarşı-qarşıya qoymuşdur ki, onlara bu imkanın yaradılması təmin edilməlidir.

**Peşə hazırlığına məsul orqan hakimlərin intizam icraatına və ya təyinatına məsul orqanlardan ayrıca fəaliyyət göstərməlidir.**

205. Səlahiyyətlərin düzgün bölüşdürülməsini təmin etmək üçün hakimlərin peşə hazırlığına məsul orqan onların intizam icraatına və ya təyinatına və xidmətdə yüksəlişinə məsul orqanlardan ayrıca fəaliyyət göstərməlidir. Hakimlərin peşə hazırlığı məhkəmə orqanlarının və ya digər müstəqil orqanın nəzarəti altında hakimlərlə məsləhətləşmələr əsasında peşə hazırlığı proqramlarını hazırlamağa və onların tətbiqini təmin etməyə imkan verən şəxsi büdcəyə malik xüsusi avtonom qurum tərəfindən həyata keçirilməlidir. Təlimlərin hər bir sahə üzrə hakimlər və ekspertlər tərəfindən keçilməsi çox mühümdür. Müəllimlər hakimlərin peşə hazırlığına məsul orqanın öz peşəsində ən yaxşı olan nümayəndələri arasından onların keçilən mövzular üzrə bilikləri və pedaqoji iş qabiliyyətləri nəzərə alınmaqla diqqətlə seçilməlidir.

**6.4. Hakim beynəlxalq konvensiyalar və insan hüquqlarına dair normaları müəyyən edən digər sənədlər daxil olmaqla, beynəlxalq qanunvericilikdəki müvafiq dəyişikliklər barədə daim məlumatlı olmalıdır.**

*Şərh*

**İnsan hüquqları sahəsində beynəlxalq hüququn aktuallığı**

206. Cəmiyyətlərin getdikcə beynəlmiləlləşməsi və fərdlə dövlət arasındakı qarşılıqlı münasibətlərdə beynəlxalq hüququn rolunun artması şəraitində hakim ona həvalə olunmuş səlahiyyətləri yalnız dövlətdaxili hüquq əsasında yox, həm də dövlətdaxili hüququn yol verdiyi çərçivədə beynəlxalq hüququn müasir demokratik cəmiyyətlər tərəfindən tanınan prinsip və normalarına uyğun şəkildə icra etməlidir. Dövlətdaxili hüququn istənilən tələblərinə riayət olunması şərtilə və icra edilən funksiyaların xarakterindən asılı olmayaraq, hakim beynəlxalq hüququn, o cümlədən insan hüquqları sahəsində beynəlxalq hüququn müddəalarını, onların beynəlxalq müqavilələrdə tətbiq olunan beynəlxalq adət hüququnda və ya insan hüquqlarının müdafisinə dair regional konvensiyalarda təsbit edilməsindən asılı olmadan, nəzərə almaya və ya bu müddəaları bilmədiyinə istinad edə bilməz. Hakimin bu mühüm vəzifəsinin təmin edilməsi üçün insan hüquq və azadlıqları sahəsində hüququn öyrənilməsi, həmin hüquq normalarının hakimin işində dövlətdaxili hüququn yol verdiyi çərçivədə praktiki tətbiqini xüsusi vurğulamaqla, yeni hakimlərin ilkin və sonrakı peşə hazırlığı proqramlarına daxil edilməlidir.

**6.5. Hakim özünün bütün vəzifələrini, təxirə salınmış qərarların çıxarılması da daxil olmaqla, ağlabatan və ədalətli şəkildə, mümkün qədər qısa müddətdə yerinə yetirməlidir.**

*Şərh*

**İşlərə mümkün qədər qısa müddətdə baxmaq vəzifəsi**

207. İşlərə səmərəli, ədalətli və mümkün qədər qısa müddətdə baxarkən, hakim onun qarşısında çıxış edən tərəflərin hüquqlarına lazımi diqqət nümayiş etdirməli və mübahisəli məsələlərin əlavə xərc və ya lazımsız təxirəsalmalar və gecikmə olmadan həllini təmin etməlidir. Hakim lazımsız təxirəsalmaları, qarşısı alına biləcək gecikmələri və əlavə xərcləri azaltmaq və ya aradan qaldırmaq üçün məhkəmə baxışına verilən işləri izləməli və nəzarətdə saxlamalıdır. Hakim tərəflər arasında mübahisənin barışıq yolu ilə tənzimlənməsini dəstəkləməli və buna kömək etməyə çalışmalıdır, lakin bu zaman tərəflər özlərini onların mübahisəsinə məhkəmə tərəfindən baxılması hüquqlarından imtinaya məcbur edilmiş kimi hiss etməməlidirlər. Bütün işlərə ədalətli və səbrli şəkildə baxmaq vəzifəsi məhkəmə işlərinin mümkün qədər qısa müddətdə baxılıb həll edilməsi ilə ziddiyyət təşkil etmir. Hakim öz vəzifələrini zəruri səbr nümayiş etdirmək və götür-qoy etməklə bahəm səmərəli və işgüzar icra edə bilər.

**Dəqiq olmaq vəzifəsi**

208. Məhkəməyə verilmiş işlərə mümkün qədər qısa müddətdə baxılıb həll edilməsi hakimdən məhkəmə iclaslarına dəqiq vaxtında gəlməyi və məhkəmə baxışında olan işlərin həll edilməsi zamanı operativ olmağı tələb edir; bu məqsədə nail olmaq üçün o, məhkəmə aparatı işçilərinin, çəkişən tərəflərin və onların vəkillərinin qarşılıqlı əməkdaşlıq etmələrini tələb etməlidir. Məhkəmə iclası qaydalarının pozulması, onların qeyri-müntəzəmliyi məhkəmə prosesinin əsassız gecikmə və ləngimələrinə səbəb olur və məhkəmələrin fəaliyyəti barədə xoşagəlməz təəssürat yaradır. Ona görə də, müntəzəm məhkəmə iclas saatlarının nəzərdə tutulduğu yurisdiksiyalarda hakimlər bu qaydalara, funksiyalarının məhkəmədənkənar qaydada tez bir zamanda yerinə yetirilməsini də təmin etməklə, ciddi şəkildə riayət etməlidirlər.

**Təxirə salınmış qərarların dərhal çıxarılması vəzifəsi**

209. Hakim işin təciliiliyini və digər xüsusi halları, işin davamiyyətini və ya mürəkkəbliyini, həmçinin digər iş öhdəliklərini lazımınca nəzərə alaraq, təxirə saldığı qərarları mümkün qədər tez bir zamanda çıxarmalıdır. Xüsusilə, qərarın əsaslandırıcı hissəsi hakim tərəfindən əsassız gecikdirməyə yol verilmədən elan edilməlidir.

**Şəffaflığın əhəmiyyəti**

210. Hakim çəkişən tərəflərin və onların vəkillərinin müvafiq iş üzrə icraatın hansı mərhələdə olması barədə məlumat əldə edə bilmələrinə imkan verən şəffaf mexanizmlər yaratmalıdır. Vəkillərin və ya öz maraqlarını özlərinin təmsil etdiyi tərəflərin əsassız şəkildə ləngidildiyini fikirləşdikləri qərarların çıxarılma müddətləri barədə sorğu verə bilmələri üçün məhkəmələr ictimaiyyətə açıq olan protokolları təqdim etməlidirlər. Həmin protokollarda təxirəsalma açıq-aşkar əsassız olduğu və ya hər hansı tərəfə ciddi ziyan vurduğu hallarda məhkəmə daxilində müvafiq orqana şikayət edə bilmək imkanı nəzərdə tutulmalıdır.

**6.6. Hakim bütün məhkəmə araşdırmaları gedişində qaydanı gözləməli, etiketə riayət etməli və iş üzrə tərəflərə, andlı iclasçılara, şahidlərə, vəkillərə və vəzifəsi ilə bağlı ünsiyyətdə olduğu digər şəxslərə münasibətdə səbrli, ləyaqətli və nəzakətli davranmalıdır. Hakim eyni cür davranışı tərəflərin qanuni nümayəndələrindən, məhkəmə işçilərindən və hakimin təsiri, tabeçiliyi və ya nəzarəti altında olan digər şəxslərdən də tələb etməlidir.**

*Şərh*

**Hakimin rolu**

211. Hakimin rolu, baş hakimlərdən birinin fikrincə, aşağıdakılarda ifadə olunur:[74]

*"Hakimin rolu şahidlərə yalnız nəzərdən yayınan və ya qaranlıq qalan hər hansı məqama aydınlıq gətirmək lazım olduqda suallar verməklə, məhkəməyə verilən ifadələri diqqətlə dinləməkdən; işə aidiyyəti olmayan məsələlərin müzakirəsini istisna etmək və təkrarlara yol verməmək üçün vəkillərin özlərini münasib şəkildə aparmalarına və qanunla nəzərdə tutulmuş qaydalara riayət etmələrinə nəzarət etmək; mantiqli müdaxilə ilə vəkillərin dediklərini anladığından və qiymətləndirə bildiyindən əmin olmaq; və nəhayət, həqiqətin kimin tərəfində olduğunu həll etməkdir. Əgər hakim bu rol çərçivəsindən kənara çıxırsa, hakimlik mantiyasını ataraq vəkil mantiyasını geymiş olur: bunu etmək hakimə yaraşmır. . . Bizim standartlarımız belədir".*

**Məhkəmə iclasının gedişində qaydanı gözləmək və etiketə riayət etmək**

212. "Qayda" dedikdə, hüququn tələblərinə uyğunluq və işə məhkəmədə baxılması prosesində müəyyən olunmuş prosedur qaydalara riayət edilməsini təmin etmək üçün zəruri olan səlislik nəzərdə tutulur. "Etiket" dedikdə isə, həm proses iştirakçılarının, həm də ictimaiyyətin nəzərində məhkəmə tərəfindən işə ədalətli və ciddi şəkildə baxıldığını göstərən diqqətlilik və nəzakətlilik şəraiti başa düşülür. Ayrı-ayrı hakimlər onların qarşısında çıxış edən vəkilin və ya proses iştirakçısının konkret davranışı, danışığı və ya geyim tərzinin nə dərəcədə yaraşan hal sayılması ilə bağlı müxtəlif nəzər nöqtəsi və standartlara malik ola bilərlər. Bir hakim tərəfindən etik normalara açıq-aydın uyğun olmayan kimi qəbul edilən hal digər hakimin nəzərində zərərsiz orijinallıq kimi görünə, işə aidiyyəti olmaya və ya davranış normalarına tam uyğun gələ bilər. Bundan başqa, bəzi işlər digərlərindən fərqli olaraq formallığa daha çox riayət olunmasını tələb edir. Ona görə də, hər hansı konkret ölkənin ayrı-ayrı ərazilərindəki məhkəmə zallarında hər bir konkret zaman kəsiyində "qayda" və "etiket"in müxtəlif təzahürlərinin geniş spektrini görmək olar. "Qayda" və "etiket" anlayışlarının vahid standartını təklif etmək arzuolunan deyil və bu, hər bir halda imkansızdır. Bunun əvəzində hakim məhkəmədə qayda və etiketin məhkəmə tərəfindən öz səlahiyyətlərinin ədalətli və qanunun tələblərinə uyğun icra edilməsi üçün zəruri olan səviyyəsini təmin etmək və saxlamaqdan ötrü ağlabatan tədbirlər görməli, eyni zamanda vəkillərə və məhkəmə araşdırmasının tərəflərinə ədalətlilik və hüququn tələblərinə uyğunluq təminatları təqdim etməlidir.

**Məhkəmə araşdırmasının tərəflərinə münasibətdə davranış**

213. Hakimin davranışı, onun özünü aparmaq manerası hakimin qərəzsizliyinə olan inamın saxlanması üçün birinci dərəcəli əhəmiyyət kəsb edir, çünki məhz onun davranışı ilk növbədə ətrafdakıların diqqətini özünə cəlb edir. Qeyri-lazımınca davranış qabaqcadan hasil olan qənaət və ya laqeyd münasibət təəssüratı yaratdığı üçün məhkəmə prosesinə olan inamı sarsıda bilər. Məhkəmə araşdırmasının tərəfinə qarşı kobud, hörmətsiz münasibət həmin tərəfin öz işinin dinlənilməsi hüququnu pozur və məhkəmə zalında hökmranlıq etməli olan nüfuzu və ədəb-ərkanı sarsıdır. Hakimin nəzakətsiz davranışı, həmçinin tərəfin işə baxılması prosesindən məmnun qalmasına mənfi təsir göstərir və ümumilikdə məhkəmələr haqqında neqativ təsəvvür yaradır.

---

[74] *Jones v. National Coal Board,* Court of Appeal of England and Wales [1957] 2 QB p.55 at p.64, per Lord Denning.

**Vəkillərə münasibətdə davranış**

214. Hakim öz hirs və darğınlığının onu özündən çıxarmasına yol verməməlidir. Konkret müzakirə predmetindən asılı olmayaraq, hakimin reaksiyası sakit və ağlabatan olmalıdır. Hətta vəkilin kobud davranışı onu özündən çıxmağa təhrik etsə belə, hakim bu zaman vəkilə qarşı hər hansı cavab verməkdən məhkəmə zalına nəzarət edə bilmək üçün müvafiq tədbirlər görməlidir. Əgər irad tutmaq zəruridirsə, bəzən bunu iş üzrə dinləmələrdən kənar etmək daha məqsədəuyğundur. Hakim vəkilin sözünü heç bir əsas olmadan dəfələrlə kəsməməli, onun davranışını və ya irəli sürdüyü dəlilləri rişxəndlə və ya təhqiramiz şəkildə şərh etməməlidir. Digər tərəfdən, heç bir hakim prosesdən sui-istifadə edən və açıq-aydın əsassız və qeyri-mötəbər dəlillər irəli sürən və ya hakimi, digər vəkilləri, iş üzrə tərəfləri və ya şahidəri təhqir edən vəkilə qulaq asmamalı və eyni zamanda onun çıxışını da kəsməməlidir.

**Səbrlilik, ləyaqət və nəzakət - başlıca xüsusiyyətlərdir.**

215. Hakim məhkəmə iclasında və ondan kənarda həmişə nəzakətli davranmalı və orada olan bütün şəxslərin ləyaqətinə hörmətlə yanaşmalıdır. Hakim məhkəmə araşdırmasının bütün iştirakçılarından, məhkəmə işçilərindən və onun rəhbərliyi və ya nəzarəti altında olan digər şəxslərdən də eyni şəkildə davranmağı tələb etməlidir. Hakim şəxsi ədavət aparmamalı və məhkəmədə iştirak edən vəkillərdən hər hansı birinə üstünlük verməməlidir. Hakimin vəkilin ünvanına əsassız iradlar bildirməsi, məhkəmə iclasının tərəflərinə və şahidlərə münasibətdə təhqiramiz ifadələr işlətməsi, acı istehza və kinayəsi, kobud və təmkinsiz davranışı məhkəmə zalında qaydanı və məhkəməyə xas etiketi pozur. Hakim prosesə müdaxilə etmək istəyirsə, həmin müdaxilənin ifadə tərzi və tonu onun qərəzsizliyinə kölgə salmamalıdır.

**6.7. Hakim məhkəmə funksiyalarının lazımi qaydada yerinə yetirilməsi ilə bir araya sığmayan fəaliyyətlə məşğul olmamalıdır.**

*Şərh*

**Məhkəmədə işlərin ədalətli və bərabər bölgüsü**

216. Məhkəmədə işlərin bölüşdürülməsinə məsul olan hakim iş üzrə tərəflərin və ya işin nəticəsində maraqlı olan hər hansı şəxsin təsirinə məruz qalmamalıdır. Bu cür bölgü, məsələn, püşk yolu ilə və ya əlifba sırası qaydasında, yaxud ona oxşar başqa bir şəkildə avtomatik bölgü sistemi vasitəsilə aparıla bilər. İşlərin bölüşdürülməsində alternativ qismində öz həmkarları ilə məsləhətləşmə əsasında ona həvalə olunmuş funksiyanı vicdanlı və ədalətli şəkildə yerinə yetirməli olan məhkəmə sədri çıxış edə bilər. Zərurət olduqda, ayrı-ayrı hakimlərin xüsusi vəziyyətləri və xüsusi tələbatları nəzərə alına bilər, lakin imkan daxilində işlər məhkəmənin üzvləri arasında həm kəmiyyət, həm də keyfiyyət baxımından bərabər şəkildə bölünməli və bütün hakimlər işlərin bölüşdürülməsi prinsipləri barədə məlumatlandırılmalıdırlar.

**İşin hakimdən geri götürülməsi**

217. Ciddi xəstəlik və ya maraqların toqquşması kimi qanuni əsaslar olmadan iş bu və ya digər hakimdən geri götürülə bilməz. Geri götürmənin əsasları və prosedurları qanunla və ya məhkəmənin qaydaları ilə nəzərdə tutulmalı, hökumətin maraqlarından və ya hər hansı digər xarici amillərdən asılı olmamalı və məhkəmə funksiyalarının qanuna və insan hüquqları sahəsində beynəlxalq normalara uyğun icra edilməsini təmin etmək məqsədi daşımalıdır.

**Digər hakimin və ya vəkilin qeyri-peşəkar davranışı**

218. Hakim digər hakimin və ya vəkilin qeyri-peşəkar davranışını göstərən etibarlı sübutlar barədə məlumat əldə etdiyi zaman müvafiq tədbirlər görməlidir. Müvafiq tədbirlər dedikdə, davranış normalarını pozması iddia olunan hakim və ya vəkillə birbaşa əlaqə saxlamaq, digər mümkün hərəkətlər, həmçinin peşə davranışı normalarının pozuntusu barədə səlahiyyətli orqanlara məlumat vermək başa düşülür.

**Məhkəmə işçilərindən sui-istifadə edilməsi**

219. Məhkəmə işçilərinin əməyindən və ya məhkəmənin bina və avadanlıqlarından qanunsuz istifadə edilməsi hakimin nüfuzundan sui-istifadə sayılır və məhkəmə işçisini həddindən artıq çətin vəziyyətə salır. Məhkəmə işçilərinə hakimə yerinə yetirilməsinə müəyyən olunmuş adətlərlə yol verilən xırda tapşırıqlar çərçivəsindən kənara çıxan hər hansı şəxsi xidmətlərin göstərilməsi barədə göstərişlər verilə bilməz.

# PRİNSİPLƏRİN TƏTBİQİ

**Məhkəmə vəzifəsinin xüsusiyyətlərini nəzərə alaraq, əgər onların yurisdiksiyası çərçivəsində belə mexanizmlər hələ mövcud deyilsə, milli məhkəmə orqanları tərəfindən bu prinsiplərin tətbiq edilməsi mexanizmlərinin yaradılması üçün səmərəli tədbirlərin görülməsi zəruridir.**

*Şərh*

**"Banqalor prinsipləri"nin səmərəli tətbiqi üzrə prosedurlar**

220. Məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupu hal-hazırda hakimlərin davranışının "Banqalor prinsipləri"nin səmərəli tətbiq edilməsinə yönəlmiş prosedurlar barədə hesabatların hazırlanması ilə məşğuldur. Prinsiplərin özü kimi həmin prosedurlar da hər hansı milli məhkəmə sistemi üçün məcburi xarakter daşımayacaqdır. Onlar rəhbər prinsip və istiqamətlər kimi təklif olunacaqdır.

# ANLAYIŞLAR

Prinsiplər barədə hazırkı bəyanatda istifadə olunan sözlər aşağıdakı mənaları daşıyır (məzmunun fərqli mənaya yol verdiyi və ya bunu tələb etdiyi hallar istisna olmaqla):

**“Məhkəmə işçiləri”** – hakimin bilavasitə tabeliyində olan şəxslər, o cümlədən məhkəmə kargüzarları;

**“Hakim”** – istənilən şəkildə təyin olunmuş və hakimlik funksiyalarını həyata keçirən hər hansı şəxs;

**“Hakimin ailə üzvləri”** – hakimin əri (arvadı), oğlu, qızı, kürəkəni, gəlini və hakimin evində yaşayan hər hansı digər yaxın qohumu və ya hakimin partnyoru olan və ya ona muzdla xidmət edən şəxs;

**“Hakimin əri (arvadı)”** – hakimin həyat yoldaşı və ya istənilən cinsə mənsub və hakimlə yaxın şəxsi münasibətlərdə olan istənilən şəxs.

*Şərh*

**Hakimin ailə üzvləri**

221. “Hakimin ailə üzvləri” anlayışında “hakimin evində yaşayan şəxs” ifadəsi yalnız “hakimin hər hansı digər yaxın qohumuna və ya hakimin partnyoru olan və ya ona muzdla xidmət edən şəxsə” aiddir, hakimin əri (arvadı), oğlu, qızı, kürəkəni və ya gəlininə aid deyil.

## Mədəni və Dini Ənənələr

Hələ qədim zamanlardan bütün mədəniyyət və dinlərdə hakim yüksək əxlaqi keyfiyyətlərə və onu adi insanlardan fərqləndirən xüsusiyyətlərə malik olan, cəmiyyətin digər üzvlərindən fərqli olaraq daha sərt tələblərə tabe olmağa, ehtiyatlı davranmağa və daha ciddi və məhdudlaşdırılmış həyat tərzi sürməyə məcbur olan insan hesab olunurdu.

### Qədim Yaxın Şərq

Qorunub saxlanılan yazılı mənbələrə əsasən, təxminən e.ə. 1500-cü ildə firon III Tutmos Misirin baş vəziri Rexmirə bu təlimatları vermişdir:[75]

> *"Baş hakimin palatası barədə qayğıkeş ol. Orada baş verənlərin hamısını diqqətlə izlə. Yadda saxla ki, orada krallığın bütün işləri həll olunur; ... Nəzarət et ki, hakim vəzirlərin və ali mənsəb sahiblərinin qarşısında təzim etməsin və bütün insanlarla qardaş kimi davranmasın.*
>
> *... Diqqətli ol ki, hər şey qanuna uyğun və ədalətlə həyata keçirilsin və heç bir insan ondan məhrum olunmasın... ali mənsəb sahibi hər şeyi qanuna uyğun şəkildə görməli, şikayətçinin onun yanına nə üçün gəldiyinə diqqət etməlidir...*
>
> *Allah qərəzliliyə nifrət edir. O belə öyrədir: hamı ilə eyni cür davran, tanımadıqlarınla da tanıdıqların kimi və uzaqda olanlarla da yaxında olanlar kimi... Buna əməl edən ali mənsəb sahibi vəzifəsində uğur qazanacaqdır.*
>
> *Heç kimə nahaq yerə qəzəblənmə, lakin qəzəblənmək lazım olan şey barəsində qəzəbli ol."*

### Qədim hind hüququ

Qədim hind hüququnda ən mühüm və ətraflı qanunvericilik toplusu "*Manu Qanunları"* (təxminən e.ə. 1500-cü il) sayılır. Görkəmli qədim hind hüquqşünas alimi Narada (təxminən b.e. 400-cü ili) öz şərhlərində "*Manu Qanunları"na* əsaslanaraq, məhkəmələr haqqında belə yazırdı:[76]

1. *Kral məhkəməsinin üzvləri müqəddəs qanunları bilməli və sağlam mühakimə qaydalarını rəhbər tutmalı; alicənab olmalı, həqiqətə qulluq etməli və həm dostuna, həm də qeyri-dostuna qarşı qərəzsiz olmalıdır.*
2. *Ədalət mühakiməsi onlardan asılıdır və ədalət mühakiməsinin hakimi kral tərəfindən təyin edilmişdir.*
3. *Lakin harada ki adxarmanın (qanunsuzluğun) təsirinə məruz qalan dxarma (qanun) məhkəməyə nüfuz edir və hakimlər cinayətin qarşısını almırlar, orada hakimlər eyni qanunsuzluğun təsirinə məruz qalırlar. Harada ki hakimlərin nəzərində qanun qanunsuzluqla, həqiqət isə yalanla məhv edilir, orada hakimlərin özləri məhv olurlar.*
4. *Ya məhkəməyə gəlmək lazım deyil, ya da düzgün danışmaq lazımdır: danışmayan və ya həqiqətin əleyhinə danışan insan günahkar sayılır.*
5. *Məhkəməyə gəldikdən sonra lal kimi oturan, danışmalı olduqları məqamlarda sakit və seyrçi mövqe tutan hakimlər həqiqətən yalançıdırlar.*
6. *Ədalətsiz davranışa görə günahın dörddə biri təqsirkar şəxsə, dörddə biri - şahidə, dörddə biri - bütün hakimlərə, dörddə biri isə - şaha aiddir.*

---

[75] J.H. Breasted, *Ancient Records of Egypt*, Vol II (The Eighteenth Dynasty) (University of Chicago Press, 1906), pp. 268-270, cited in C.G. Weeramantry, *An Invitation to the Law* (Melbourne, Australia, Butterworths, 1982), pp. 239-240.

[76] *Sacred Books of the East,* Max Muller (ed), (Motilal Banarsidass, 1965), Vol XXXIII, (The Minor Law Books) pp. 2-3, 5, 16, 37-40, cited in Weeramantry, *An Invitation to the Law*, pp. 244-245.

Ədalətli davranışın zəruriliyini vurğulayan Manu hakimin “şəhvət düşkünü” olmamasını tələb edirdi, çünki “şəhvani hisslərinin əsirinə çevrilmiş” insan ədalətli cəza təyin edə bilməz.[77]

Qanun yaradıcılığı və idarəetmənin prinsiplərinə dair ən məşhur qədim hind traktatı olan “*Artxaşastra”*nın tərtibçisi Kautilya (təxminən e.ə. 326-291-ci illər) hakimlər haqqında belə yazır:[78]

*“Məhkəmə çəkişməsinin iştirakçılarından hər hansı birini hədələyən, qorxudan, zaldan qovan və ya ədalətsiz şəkildə susmağa məcbur edən hakim pul cəriməsi ilə cəzalandırılmalıdır. Əgər o, onlardan hər hansı birini təhqir edərsə və ləyaqətini tapdalayarsa, cəzanı ikiqat etmək lazımdır. Əgər o, soruşmalı olduqlarını soruşmursa və ya soruşulmamalı şeyləri soruşursa, öz soruşduqlarını nəzərə almırsa, yaxud əvvəlki ifadələri kiməsə öyrədirsə, xatırladırsa və ya göstərirsə, onu orta məbləğli cərimə ilə cəzalandırmaq lazımdır.*

*Əgər hakim zəruri olan halları aydınlaşdırmırsa, lazımsız hallar barədə məlumat toplayırsa, vəzifələrinin icrasını zərurət olmadan gecikdirirsə, işi qərəzli olaraq təxirə salır və yubadırsa, şikayətçini və cavabdehi formal əngəllərlə bezdirərək məhkəməni tərk etməyə vadar edirsə, mübahisənin həllinə kömək edə bilən məsələlərin üzərindən keçirsə və ya buna şərait yaradırsa, şahidlərə öz fikirlərində ipucu verərək kömək edirsə, yaxud artıq həll edilmiş işləri təzələyirsə, maksimal cərimə ilə cəzalandırılmalıdır.”*

## Buddizm fəlsəfəsi

Budda (təxminən e. ə. 500-cü il) təliminə görə, insanın davranışı bütün aspektləri baxımından düzgün olmalı və buna nail olmaq üçün buddizmin “səkkizölçülü nəcib yol”u ilə getmək lazımdır. Buraya düzgün baxış, düzgün fikir, düzgün nitq, düzgün fəaliyyət, düzgün həyat tərzi, düzgün səylər, düzgün zehin və düzgün konsentrasiya aiddir ki, bunların hamısı birlikdə insanın istənilən fəaliyyət növünü əhatə edən davranış məcəlləsini təşkil edir. Buddizmə görə, ədalət hər biri buddist fikrin mövcud olduğu bir çox əsrlər ərzində hərtərəfli fəlsəfi təhlilin predmeti olmuş bütün bu əxlaqi qaydalara riayət olunmasıdır. Düzgün davranışın bu konsepsiyası buddist hüquq sistemləri kimi idarəetmənin də buddist anlayışından ayrılmazdır.[79]

Qanunun həyata keçirilməsində əsas rol oynayan kral və ya hökmdar bərabərlər arasında birinci *(primus inter pares)* sayılır və buna görə də qanundan yüksəkdə dayanmır. Xoşbəxt idarəetməni təmin etmək üçün hökmdarın riayət etməli olduğu əxlaqi qaydalar məcəlləsi aşağıdakı prinsipləri əks etdirir:[80]

*1. Hökmdar var-dövlət və mal-mülk hərisi olmamalı, əksinə onları insanların rifahı naminə sərf etməlidir;*
*2. O öz vəzifələrinin icrası zamanı qorxu və ya lütfkarlıqdan azad, yəni qərəzsiz olmalı, öz niyyətlərində səmimi olmalı və ictimaiyyəti aldatmamalıdır;*
*3. O, xoş xasiyyətə malik olmalıdır;*
*4. O, sadə həyat tərzi keçirməli, cah-cəlal içində yaşamamalı və özünü məhdudlaşdıra bilməlidir;*
*5. O, heç kimə nifrət etməməli və hirs və ədavətdən uzaq olmalıdır;*
*6. O özündən çıxmadan çətinliklərə, məhrumiyyətlərə və təhqirlərə dözməlidir.*

Mübahisə yarandıqda, kral (və ya digər hakim) *“hər iki tərəfə bərabər şəkildə diqqət yetirməli”*, *“hər bir tərəfin dəlillərini dinləməli və məsələni həqiqətə uyğun həll etməlidir”*. Hakim araşdırma zamanı *“ədalətsizliyə aparan dörd ünsürdən”* qaçmağa çalışmalıdır. Bunlar qabaqcadan formalaşmış yanlış fikir, nifrət, qorxu və cəhalətdir.[81]

---

[77] ‘The Laws of Manu’, Sacred Books of the East, 50 vols., ed. F. Max Muller, (Motilal Banarsidass, Delhi), 3rd reprint (1970), vol. xxv, vii. 26.30, cited in Amerasinghe, Judicial Conduct, p. 50.
[78] *The Arthasastra*, R.Shamasastry (trans.), (Mysore Printing and Publishing House, 1967), pp. 254-255, cited in Weeramantry, *An Invitation to the Law*, p. 245.
[79] Weeramantry, *An Invitation to the Law*, p. 23.
[80] Walpola Rahula, *What the Buddha Taught* (Bedford, The Gordon Fraser Gallery Ltd., 1959), 1967 edition, p. 85.
[81] Sri Lanka Foundation, *Human Rights and Religions in Sri Lanka* (Colombo, 1988), p. 67.

Təbii ədalətliliyə əsaslanan ədalət mühakiməsinin əhəmiyyəti Buddanın öz şagirdi - möhtərəm Upali ilə söhbətindən aşkar görünür:[82]

*S: Müəllim, təqsirləndirilən rahibin iştirakı ilə həyata keçirilməli olan hərəkətin onun iştirakı olmadan həyata keçirilməsi əmri ədalətlidirmi? Belə əmr qanunidirmi?*

*C: Upali, istənilən ədalətli əmr hərəkətin təqsirləndirilən rahibin iştirakı ilə həyata keçirilməsini nəzərdə tutandır. Əgər o yoxdursa, belə əmr nə hüquqi, nə də intizam baxımından qanuni deyil və ağlabatan və yolverilən hədlərdən kənara çıxır.*

*S: Müəllim, təqsirləndirilən rahibi sorğu-sual etməklə həyata keçirilməli olan hərəkətin onu sorğu-sual etmədən həyata keçirilməsi əmri ədalətlidirmi? Belə əmr qanunidirmi?*

*C: Upali, istənilən ədalətli əmr hərəkətin təqsirləndirilən rahibi sorğu-sual etməklə həyata keçirilməsini nəzərdə tutandır. Əgər onu sorğu-sual etmirlərsə, belə əmr nə hüquqi, nə də intizam baxımından qanuni deyil və ağlabatan və yolverilən hədlərdən kənara çıxır.*

Eyni prinsiplər yerdəki insanlara da tətbiq olunur:

*"Tələsik qərar verən şəxs ədalətli deyil. Müdrik insan nəyin düzgün, nəyin səhv olduğunu araşdırır. Digər insanları güc tətbiq etmədən ədalətli və düzgün qərarlara əsaslanaraq idarə edən müdrik insanı "qanunun əsl keşikçisi" adlandırırlar."*[83]

Yaponiyanın regent-şahzadəsi Şotoku Taişi (b.e. 604-cü ili) buddizm prinsipləri əsasında özünə aşağıdakıları da daxil edən "On yeddi çıxış" hazırlamışdır:

*"... işlərə baxarkən qərəzsiz ol. Sənin yanına şikayətlə gündə minlərlə insan gəlir. Əgər onların sayı bir gün üçün bu qədər çoxdursa, onda bir neçə il ərzində nə qədər olacaq? Əgər qanuna əsasən işlərə baxmalı olan insan yalnız şəxsi mənfəəti barədə düşünürsə və işlərə yalnız rüşvət almaq üçün baxırsa, onda varlının şikayəti sanki suya atılan bir daşı, kasıbın şikayəti isə sanki daşa rast gəlmiş suyu xatırladacaq. Belə şəraitdə kasıb bilməyəcək ki hara getsin. Bu isə Nazirin vəzifəsindəki çatışmazlıqları göstərir."*[84]

## Roma hüququ

"On iki cədvəl" qanunlarında (e.ə. 450-ci il) belə bir norma var:[85]

*"Hakim öz qərarını günəş batana qədər qəbul etməlidir."*

## Çin hüququ

Çinin tanınmış mütəfəkkirlərindən və hörmətli hakimlərindən olan Hsun Tzu (təxminən e.ə. 312-ci il) yazırdı:[86]

*"Qərəzsizlik - təklifləri qiymətləndirərkən nəyin rəhbər tutulmalı olmasıdır. Ədalətlilik - onların nə ilə ölçülməli olmasıdır. Qanunun olduğu yerdə onu tətbiq et; qanunun olmadığı yerdə isə presedent və ya analogiyaya uyğun hərəkət et – bu, təkliflərə qulaq asmağın ən yaxşı yoludur. Tərəfkeşlik etmək və kiməsə üstünlük vermək sənin edə biləcəyin ən pis şeydir. Yaxşı qanunların mövcud olduğu halda belə, dövlətdə qarışıqlığın olması mümkündür."*

---

[82] I.B. Horner (trans.), *The Book of the Discipline (Vinaya-Pitaka),* Vol. IV: *Mahavagga or the Great Division IX,* (London, Luzac & Co Ltd, 1962), pp. 466-468, cited in Jayawickrama, *The Judicial Application of Human Rights Law,* p. 7-8.

[83] *Dhammapada*, verses 256, 257.

[84] W.G. Aston (trans.), *Nihongi, Chronicles of Japan from the Earliest Times to A.D. 697* (Kegan Paul, Trench, Trubner & Co., 1896), cited in Weeramantry, *An Invitation to the Law,* pp. 249-250.

[85] *The Civil Law,* S.P. Scott (trans.) (Cincinnati, Central Trust Co., 1932), Vol. 1, pp. 57-59, cited in Weeramantry, *An Invitation to the Law,* pp. 265-266.

[86] *Basic Writings of Mo Tzu, Hsun Tzu and Han Fei Tzu,* Burton Watson (trans.) (Columbia University Press, 1967), p. 35, cited in Weeramantry, *An Invitation to the Law,* p. 253.

Ondan fərqli olaraq, kral ailəsindən olan şahzadə Han Fay Tzu (təxminən e.ə. 280-ci il) daha leqalist yanaşma irəli sürmüşdür:[87]

*"Təcrübəli dülgər xəttin düz olub-olmadığını gözlə müəyyən edə bilsə belə, ölçərkən həmişə xətkeşdən istifadə edir; müdrik insan da işləri yalnız öz zəkası ilə həll edə bilsə belə, həmişə özündən əvvəlki kralların qanunlarına müraciət edir. Xətkeşlə düz xətt çəkmək olar; nivelirlə bütün əyri yerləri hamarlamaq olar; tərəzi ilə ağır və yüngül tarazlaşdırıla bilər; ölçü stəkanı ilə lazımi miqdarı əldə etmək olar. Eyni şəkildə də qanuna yanaşmaq lazımdır - bütün məsələlər yalnız qanunun tələb etdiyi kimi həll edilməlidir.*

*Nivelir əyriliyə yol vermədiyi kimi, qanun da yüksək mövqeyə malik şəxslər üçün heç bir istisnaya yol vermir. Qanunun nə diktə etdiyini nə müdrik, nə də cəsur insanlar mübahisələndirər. Təqsirkar hətta nazir olsa belə cəzalandırılacaqdır; yaxşılıq edən hətta kasıb kəndli olsa belə mükafatlandırılacaqdır. Ona görə də, yüksək vəzifəli şəxslərin səhvlərinin düzəldilməsi, tabeçilikdə olanların xətalarının cəzalandırılması, qaydanın bərpa edilməsi, pozuntuların aşkarlanması, pisliyin aradan qaldırılması və bütün insanlara aid ümumi standartların müəyyən edilməsi üçün heç nə qanunla müqayisə oluna bilməz."*

## Afrika Hüququ

Mənbələrdə qeyd olunur ki,[88] Afrikada bəziləri Qədim Yunanıstan və Qədim Roma ilə eyni vaxtda, digərləri isə Avropa orta əsrlər dövründə yaranan çoxsaylı müxtəlif sivilizasiya və hüquq sistemləri mövcud olmuşdur. Müxtəlif hüquqi konsepsiyaların arasında məntiqli davranışla bağlı konsepsiya xüsusilə diqqəti cəlb edir.

*"Barotse xalqının məntiqli, sağlam düşüncəli insan barədə fikirləri ikitərəflidir – ümumiyyətlə, məntiqli insan və "konkret vəzifəni tutan məntiqli insan". Məsələn, əgər icma şurasının üzvü vəzifəsini tutan bir şəxsin vəzifəsinin nüfuzuna uyğun olmayan şəkildə davrandığı iddia olunursa, hakimlər həmin şəxsin müvafiq vəziyyətdə icma şurasının məntiqli üzvünün davranmalı olduğu şəkildə davranıb-davranmadığı barədə özlərinə sual verməlidirlər. İcmanın bu cür şəxsdən gözlənilən davranış barədə öz fikirləri var – yanına gələn şikayətçiyə qarşı ləyaqətli, səbrli və nəzakətli davranmalıdır. Şikayətçiyə oturmağı təklif etməyən və onun şikayətinə qulaq asmayan şura üzvü barotselərin gözündə "sağlam düşüncəli şura üzvü" deyil. Beləliklə, hakimlər qərar çıxararkən icmada mövcud olan standartları nəzərə alırlar. Bu, yanaşma tərzinin çevikliyini təmin edir, çünki müasir həyatın şərtlərini nəzərə almaqla qədim standartlara yenidən baxıla bilər. Ümumi hüquq sisteminə nisbətən gec daxil olan məntiqli, sağlam düşüncəli insan konsepti ona ənənəvi Afrika hüququna xas çeviklik versə də, bu konsepsiya ümümi hüquqda hələ tam şəkildə öz təsdiqini tapmamışdır."*

## Yəhudi hüququ

Aşağıdakı mətn məşhur yəhudi alimi Moşe ben Maymonun (1135-1205-ci illər) "*Mişna Tövrat*"[89] əsərindəndir.

1. *Allah hər hansı səlahiyyətli yəhudi məhkəməsi ilə bir yerdədir. Ona görə də, hakimlər məhkəmə iclaslarını saçaqlarla haşiyələnən mantiyaları geyinmiş şəkildə, qorxu və ehtiramla və ən ciddi qaydada keçirməlidirlər. Onlara özlərini yüngül aparmaq, zarafat etmək və ya boş-boş danışmaq qadağan edilir. Onlar bütün diqqətlərini Tövrat və müdriklik məsələlərinə yönəltməlidirlər.*
2. *Hakimliyə bu vəzifəyə layiq olmayan (əxlaqi səbəblərə görə) və ya hakim olmaq üçün Tövratı lazımi səviyyədə bilməyən şəxsi, hətta o, bütün digər münasibətlərdə xoşagələn insan olsa və heyranedici xüsusiyyətlərə malik olsa belə, təyin edən sanhedrin və ya kral qadağanı pozur,*

---

[87] Yenə orada, səh. 253-254.
[88] Weeramantry, *An Invitation to the Law*, pp. 35-36.
[89] I. Twersky (ed.), *A Maimonides Reader* (Behram House Inc., 1972), pp. 193-194, cited in Weeramantry, *An Invitation to the Law*, pp. 257-258.

*çünki deyilmişdir ki: "Qərar verərkən insanlara olan hörməti əsas götürmək lazım deyil". Ənənəyə əsasən, bu nəsihət hakimləri təyin etmək səlahiyyəti olanlara ünvanlanmışdır.*

*Ravvinlər demişlər: "Demə ki, filankəs yaraşıqlıdır, mən onu hakim edəcəm; filankəs cəsarətlidir, mən onu hakim edəcəm; filankəs mənim qohumumdur, mən onu hakim edəcəm; filankəs xarici dilləri bilir, mən onu hakim edəcəm". Əgər sən belə etsən, həmin adam günahkarlara bəraət verəcək və günahsızları məhkum edəcək - ona görə yox ki, o pis və ədəbsiz adamdır, ona görə ki, onun biliyi yoxdur."*

3. *Öz vəzifəsini müəyyən haqq müqabilində əldə etmiş hakimin qarşısında ayağa qalxmaq qadağandır. Ravvinlər bizə deyirlər ki, ona nifrət edin, axı onun hakim mantiyası yük daşıyan eşşəyin palanı kimidir.*

## Xristianlıq

Bibliyada, "Nəticə" kitabında (1.14) nifrətlə barmağı ilə yolundan azmış hakimi göstərən insanlardan bəhs edilir:

*"Səni bizə kim hakim qoyub?"*

"Romalılara Nəsihətnamə"də (2.1) deyilir:

*"Beləliklə, sən ey başqasını mühakimə edən adam, kim olursansa ol, sən də üzürsüzsən, çünki başqasını mühakimə etdiyin məhkəmə ilə özünü də məhkum edirsən, ona görə ki, başqasını mühakimə edərkən özün də həmin işləri görürsən."*

Özünün "Dağdakı Xütbə"sində Hz. İsa buyurur (Matfeyin İncili 7:12):

*"Beləliklə, insanların sizinlə necə rəftar etməsini istəyirsinizsə, siz də onlarla o cür rəftar edin, çünki Peyğəmbərlərin qanunu da elə bundadır."*

Bu kəlamda ədalətli məhkəmə haqqında Əhdi-Ətiq təlimi yığcam şəkildə ifadə edilmişdir. Məsələn, "Levit" kitabında (19:15) deyilir:

*"Məhkəmədə haqsızlıq etməyin; nə məzluma tərəfkeşlik et, nə də güclünün xoşuna gəlməyə çalış; sənə yaxın və əziz olanı ədalətlə mühakimə et."*

"İkinci qanunauyğunluq" kitabında (1:16) bəyan edilir:

*"Aralarında münaqişəsi olan soydaşlarınızı dinləyin; münaqişə istər öz soydaşlarınız arasında, istərsə də onlarla yadelli arasında olsun, ədalətlə mühakimə edin; məhkəmədə heç kimə fərq qoymayın, kiçiyi də böyük kimi dinləyin: heç kimdən qorxmayın.*

*Hakimə qeyri-qanuni təsir göstərmək imkanına malik olmayan şəxslər bu əsasla mühakimə olunmağı dəstəklədiklərinə görə onlar da digərlərini mühakimə edərkən yalnız bu standartı tətbiq etməlidirlər."*

## İslam hüququ

İslam hüquqşünasları hakimlərin öz peşə vəzifələrini düzgün icra etmələri üçün zəruri olan bir sıra xarakterik meyarları müəyyənləşdirmişlər. Bunlara aşağıdakılar aiddir:[90]

*Yetkin yaş*: Yetkinlik yaşına çatmayan şəxs hakim təyin oluna bilməz. Özünə və öz hərəkətlərinə cavab verə bilməyən şəxsə başqa şəxslərin taleyini həll etmək səlahiyyəti verilə bilməz. Hakim psixi və fiziki baxımdan sağlam olmaqla yanaşı, həm də dərin bəsirət sahibi olmalıdır. Hakimin yaşlı olması məcburi şərt deyil, lakin ahıl yaş onun hakim kimi ad-sanını və nüfuzunu artırır.

*Sağlam düşüncə*: Yaşlı və ya xəstə olduğuna görə sağlam mühakimə yürüdə bilməyən şəxs hakim kimi fəaliyyət göstərə bilməz. Hakim vəzifələrinin yerinə yetirilməsi üçün şəxs öz hərəkətlərinə görə hüquqi məsuliyyət daşıya biləcək səviyyədə tam anlaqlı olmalıdır. O, yüksək intellektə və bir

---

[90] *İslamda məhkəmə sistemi*, "İslamı özün üçün kəşf et" layihəsi, www.islamtoday.com

şeyi digərindən fərqləndirmək üçün lazım olan biliyə malik olmalı; huşsuz və unutqan, başısoyuq və laqeyd olmamalıdır.

*Azadlıq*: Hakim tamamilə azad olmalıdır.

*Təmiz əxlaq*: Hakim düz və namuslu olmalı, günahlardan və əxlaqsız davranışdan uzaq durmalı, şübhəli hərəkətlərdən çəkinməli, ictimai normalara riayət etməli və həm dini, həm də dünyəvi məsələlərdə nümunəvi davranış sərgiləməlidir.

*Müstəqil hüquqi düşüncə və mühakimə yürütmək qabiliyyəti*: Hakim bu və ya digər hadisəyə öz qiymətini verərkən hüququn bilavasitə ilkin mənbələrinə müraciət və ondan istifadə etmək və hüquqi analogiyalar aparmaq bacarığına malik olmalıdır.

*Hissiyyat orqanlarına tam sahib olma*: Hakim normal görə, eşidə və danışa bilməlidir, çünki kar hakim digər insanların danışdıqlarını eşidə bilməz; kor hakim zahiri görünüşə əsasən iddiaçını cavabdehdən, çəkişən tərəflərdən birinin lehinə müdafəçini, ittiham və müdafiə tərəflərinin şahidlərini və ya başqasının adından danışan şəxsləri fərqləndirə bilməz; danışa bilmək imkanından məhrum hakim isə onun jestlərlə olan dili ətrafdakıların əksəriyyəti üçün anlaşılan olmadığı üçün qərarını ifadə edə bilməz.

Hakimin davranışının və fəaliyyətinin ictimaiyyət tərəfindən qəbul edilməsini təmin etmək və insanların onun düzlüyü və qərəzsizliyindən şübhələnmələrinə şərait yaratmamaq üçün İslam hüquqşünasları aşağıdakıları müəyyən etmişlər:[91]

*1. Hakimə ticarətlə məşğul olmaq qadağandır. Əgər ona bu imkan verilərsə, onda istisna deyil ki, bəzi şəxslər hakimə müəyyən xidmətlər göstərə və güzəştlər təqdim edə və bunun müqabilində hakimdən artıq məhkəmə zalında onlara xüsusi iltifatla yanaşmasını tələb edə bilərlər.*

*2. Hakimə hədiyyələr qəbul etmək qadağandır. Hakimin öz yurisdiksiyası altında olan hər hansı digər şəxsin ona təklif edə biləcəyi yaxşılığın bütün növləri və formaları hədiyyə hesab edilir.*

*3. Hakimə ictimaiyyətin qınağına səbəb ola biləcək istənilən işlərdə iştirak etmək qadağandır. O, digər insanlarla həddindən artıq fəal əlaqələrdən çəkinməlidir. Bu, hakimi onların təsirindən qoruyur və onun qərəzsizliyinə və obyektivliyinə kölgə salmalarına imkan vermir. Və əksinə, hakim onun iştirakının münasib olduğu ictimai tədbirlərdə iştirak etməkdən uzaq durmamalıdır. O, insanlarla zarafat etməməli, öz hərəkət və sözləri ilə onları güldürməməli, danışdığı zaman isə səhvlərə və qüsurlara yol vermədən dəqiq, inandırıcı şəkildə və düzgün danışmalı, həmçinin bu zaman kiməsə rişxənd etməməli və təkəbbürlü olmamalıdır.*

*4. Məhkəmə iclas zalı ciddilik, sağlam mühakimə, təmkinlilik və hörmətin hökmranlıq etdiyi bir yeridir. O, qeyri-ciddi və ədəbsiz davranışların, qəsdən uzun-uzadı çıxışların və axmaq ədaların yeri deyil. Bu, eyni dərəcədə həm iş üzrə tərəflərə, həm şahidlərə, həm də məhkəmə zalında iştirak edən digər şəxslərə aiddir. Hakim zala daxil olub öz yerini tutduğu zaman abırlı görkəmdə olmalı, ona təqdim olunan bütün işləri dunləməyə və bu işlər üzrə bütün məlumatlara, dəlillərə və şahid ifadələrinə baxmağa tam hazır olmalıdır. Hakim hirsli vəziyyətdə olmamalı, hərarətdən əziyyət çəkməməli, güclü sevinc, kədər və ya həyəcan hissinin təsiri altında olmamalıdır. Onu həddindən artıq yorğunluq hissi, həmçinin tualetə getmək zərurəti əldən salmamalıdır, çünki bütün bunlar onun fikirlərini qarışdıra və çəkişən tərəflərin ifadələrini düzgün qiymətləndirmək qabiliyyətinə mənfi təsir göstərə bilər.*

*5. Hakim diqqətinin yayınmasına və zəifləməsinə yol verməməlidir. O, yalnız işə aidiyyəti olan sual və cavablarla kifayətlənərək mümkün qədər az danışmalı və səsinin tonunu yalnız proses iştirakçılarının nalayiq davranışlarının qarşısını almaq üçün qaldırmalıdır. O, qəzəbsiz ciddi üz ifadəsini həmişə saxlamalıdır. O, sakit və əzəmətli şəkildə oturmalı, baxılan işə dəxli olmayan məsələlərlə bağlı zarafat etməməli və danışmamalıdır.*

*6. Hakim geyim tərzi və səliqəli xarici görünüşü də daxil olmaqla, proses iştirakçılarının qarşısına onlarda özünə hörmət hissi doğuracaq şəkildə çıxmalıdır.*

[91] Yenə orada.

*7. Hakim çəkişən tərəflərə eyni qərəzsizliklə yanaşmalıdır, sanki ata oğula qarşı və ya Xəlifə özü təbəələrindən birinə qarşı və ya mömin müsəlman kafirə qarşı olan kimi. Və bu münasibət onlara qarşı eyni davranış tərzində təzahür etməlidir: hakim onlardan birinə gülümsəyib digərini qaşqabaqla süzməməli, birinə digərindən daha artıq diqqət göstərməməlidir. Əgər hakim çəkişən hər iki tərəfin başa düşdüyü dildə danışa bilirsə, tərəflərdən biri ilə digər tərəfin başa düşmədiyi dildə danışmamalıdır.*

*8. Hakim yalnız məhkəmə tərəfindən qanuni şəkildə tanınan ifadələrdən və sübutlardan istifadə edə bilər və öz şəxsi biliklərinə əsaslanaraq qərar çıxara bilməz.*

*9. Hakim qərarını mümkün qədər tez və ləngitməyə yol vermədən çıxarmalıdır, belə ki, onun missiyası hər şeydən əvvəl insanlar arasındakı mübahisələri həll etmək və münaqişəyə son qoymaqdır. Düzgün qərar nə qədər tez çıxarılarsa, insanlar öz qanuni haqlarını daha tez əldə edərlər.*

Hakimlərin müstəqilliyinin imicini təmin etmək üçün İslam hüququ ictimai mənafenin tələb etdiyi hallar istisna olmaqla, siyasi hakimiyyətlərə ədalətli hakimlərin vəzifədən kənarlaşdırılmasını qadağan edir. Hakimin işdən kənarlaşdırılmasına səbəb ondan narazı olan əhalinin böyük hissəsinin tələbi və ya həmin vəzifəyə daha yüksək ixtisaslı başqa hakimin təyin edilməsi zərurəti ola bilər. Belə səbəblər olmadan hakimlərin vəzifədən kənarlaşdırılması qadağandır.[92]

Hakim yalnız öz vəzifələrinin icrası ilə məşğul olmalıdır. Ona ticarətlə qazanc əldə etmək qadağandır və o, digər insanlarla münasibətlərində etiket və ədəb-ərkan qaydalarına yüksək səviyyədə riayət etməlidir. Ona görə də, hakim dövlət xəzinəsindən elə məbləğdə maaş almalıdır ki, onun vəziyyətində olan insanın həyat səviyyəsinə uyğun gəlsin və onu öz gəlirlərini tutduğu yüksək vəzifəsinə layiq olmayan digər vasitələrlə tamamlamaq imkanlarını axtarmağa məcbur etməsin.[93]

Məhkəmə dinləmələri açıq olmalıdır. Lakin əgər hakim hesab etsə ki, tərəflərin maraqlarını qorumaq üçün ictimaiyyətin zaldan çıxarılması zəruridir, onda zalda yalnız rəsmi şəxsləri və çəkişən tərəfləri saxlamaqla, bu barədə müvafiq göstəriş verə bilər. Buna etik səbəblərə görə gizlində qalması daha məqsədəuyğun olan işlərə baxılarkən, məsələn, kişi ilə qadının qarşılıqlı münasibətlərində ləyaqətsiz davranışın araşdırılması zamanı yol verilir. İctimaiyyətin kənarlaşdırılmasına, həmçinin araşdırma gedişində zalda gülüş doğura biləcək mənasız vəziyyətlərin yaranması zamanı da icazə verilir.[94]

Qurana görə, ədalət mühakiməsi insanın irqi, tutduğu mövqe, dərisinin rəngi, milli mənsubiyyəti və dini inancı əlamətləri əsasında fərqləndirməyə yol vermir. Bütün insanlar - Allahın qullarıdırlar və ona görə də, onlara məhkəmədə bərabər münasibət göstərilməlidir, çünki hamı öz hərəkətlərinə görə məsuliyyət daşımalıdır.[95] Görkəmli hüquqşünas alim Əbu Bəkr Əhməd ibn əl-Şeybani əl-Xəssafın yazdığı "*Ədəb ül-Qazı"* (Hakimin peşə etikası) kitabı hakimlərə ədalət mühakiməsinin Məhəmməd Peyğəmbərə nazil olunmuş qanunlar əsasında həyata keçirilməsi üçün bir örnəkdir. Həmin kitaba digərləri ilə yanaşı aşağıdakı müddəalar da daxildir:[96]

*Qaydalar*

1. Hakim idarəedici şəxsiyyətə və biliyə malik olmalı və məhkəmə zalında səbrli davranmalıdır.
2. O, hər bir şəxsin məhkəməyə maneəsiz müraciət edə bilməsini təmin etməlidir.
3. O, məhkəmənin düzgün olmadığı açıq-aşkar olan əvvəlki qərarını ləğv etməlidir.
4. O, hakim *(qazı)* təyin olunduğu əhalinin adət və ənənələrini bilməlidir.
5. O, məhkəmə işçilərinin gündəlik fəaliyyətini və güzəranını diqqətlə izləməlidir.

---

[92] Yenə orada.
[93] Yenə orada.
[94] Yenə orada.
[95] Muhammad Ibrahim H.I. Surty, "The Ethical Code and Organised Procedure of Early Islamic Law Courts, with Reference to al-Khassaf's Adab al-Qadi", in Muhammad Abdel Haleem, Adel Omar Sherif and Kate Daniels (eds), *Criminal Justice in Islam* (London and New York, I.B. Tauris & Co Ltd., 2003), pp. 149-166 at pp.151-153.
[96] Yenə orada, səh.163.

6. O, həmin şəhərdə yaşayan digər hüquqşünasları və mömin və insanların etibarını qazanmış (*udul* - ədalətli) insanları tanımalı və onlarla ünsiyyət saxlamalıdır.
7. O, həmin yerlərdə çəkişən tərəflər və işlər barədə danışmamaq şərtilə dəfn mərasimlərinə gedə və xəstələri ziyarət edə bilər.
8. O, təntənəli ziyafətlərdə və ya adi qəbullarda iştirak edə bilər. Əl-Şaraxsinin fikrincə, "əgər təntənəli ziyafət və ya rəsmi qəbul hakimin *(qazının)* dəvət edilməsini nəzərdə tutmursa, adi sayılır. Lakin əgər orada hakimin *(qazının)* iştirakı zəruri və qaçılmazdırsa, onda belə qəbul məxsusi olaraq hakim *(qazı)* üçün təşkil edilmiş "xüsusi təntənəli ziyafət" hesab olunur."

*Qadağalar*

1. Hakim qərarlarını hirsli halda və ya emosional gərginliyin təsiri altında verməməlidir, çünki belə vəziyyət onun düzgün mühakimə yürütmək və qərar vermək qabiliyyətinə mənfi təsir göstərə bilər.
2. O, yuxusu gəldikdə, yaxud müsbət və ya mənfi hisslərin təsirindən həddindən artıq yorulduqda, qərar qəbul etməməlidir.
3. O, ac və ya həddindən artıq doymuş vəziyyətdə qərar qəbul etməməlidir.
4. O, hər hansı şəkildə rüşvət almamalıdır.
5. O, çəkişən tərəflərə gülməməli və ya hər hansı digər şəkildə onları gülünc vəziyyətə salmamalıdır.
6. O, qərar çıxararkən fərz olmayan oruc tutmaqla özünü zəiflətməməlidir.
7. O, zərərçəkmişin sözlərini ağzında qoymamalı, hansı cavabları verəcəyini təklif etməməli və tərəflərdən heç birini işarə edib göstərməməlidir.
8. O, iş üzrə tərəflərdən heç birinin onun evinə gəlməsinə icazə verməməlidir, lakin baxılan işlə əlaqəsi olmayan şəxslər öz ehtiramlarını bildirmək üçün və ya digər məqsədlərlə onu ziyarət edə bilərlər.
9. O, evində tərəflərdən yalnız birini qəbul edə bilməz, lakin hər iki tərəfi eyni anda qəbul edə bilər.
10. O, bilmədiyi hər hansı məsələ barəsində inad etməməli və kömək üçün həmin sahədə zəruri biliyə malik olanlara müraciət etməlidir.
11. O, var-dövlət qazanmağa can atmamalı və öz nəfsinin və tamahının quluna çevrilməməlidir.
12. O, heç kimdən qorxmamalıdır.
13. O, vəzifədən kənarlaşdırılmaqdan qorxmamalı və buna görə onu tənqid edənləri nə tərifləməli, nə də onlara nifrət etməlidir.
14. O, məhkəmə qarşısında dayanmalı olan qohumları istisna olmaqla, öz qohumlarından başqa heç kimdən hədiyyələr qəbul etməməlidir. O, həmçinin hakim təyin olunmazdan qabaq ona hədiyyə verənlərdən hədiyyə almağa davam edə bilər, lakin əgər hədiyyələrin dəyəri onun hakim təyin olunmasından sonra artarsa, onları qəbul etməyi dayandırmalıdır.
15. O, kiminsə qəzəbindən qorxduğuna görə həqiqətdən yayınmamalı və küçələrdə təkbaşına, müşayiət edilmədən gəzməməlidir. Bununla o, öz ləyaqətini qoruyub saxlayır və maraqlı tərəflərin ona yaxınlaşmasına imkan vermir.
16. O, iş üzrə çəkişən tərəflərin emosiyalarını nəzərə almamalıdır.

# Seçilmiş Ədəbiyyat


**Kitablar və monoqrafiyalar**

Amerasinghe, A.R.B., *Judicial Conduct Ethics and Responsibilities*, Colombo, Sri Lanka, 2002.

Shaman, Jeffrey, Lubet, Steven and Alfini, James, *Judicial Conduct and Ethics*, 3rd ed., Virginia, U.S.A., 2000.

Thomas, J.B., *Judicial Ethics in Australia*, Sydney, Australia, 1988.

Wood, David, *Judicial Ethics: A Discussion Paper*, Victoria, Australia, 1996.

**Standartlar və hesabatlar**

American Bar Association, *Model Code of Judicial Conduct*, preliminary draft, 2005.

Arab Centre for the Independence of the judiciary and the Legal Profession, *Beirut Declaration for Justice*, 1999.

Australian Bar Association, *Charter of Judicial Independence*, 2004.

Australian Institute of Judicial Administration Incorporated, *Guide to Judicial Conduct*, 2002.

Canadian Judicial Council, *Commentaries on Judicial Conduct*, Quebec, 1991.

Canadian Judicial Council, *Ethical Principles for Judges*, 1998.

Canadian Judicial Council, *Model Policy on Equality within the Court*, 1998.

Avropa hakimlərinin Məsləhət Şurası:

> Rəy № 9 PROV (2006): Beynəlxalq və Avropa hüququnun səmərəli tətbiqinin təmin edilməsində milli hakimlərin rolu;
>
> Rəy № 7 (2005): Ədalət mühakiməsi və cəmiyyət;
>
> Rəy № 6 (2004): Ağlabatan müddətlər ərzində ədalətli məhkəmə icraatı;
>
> Rəy № 4 (2003): Hakimlər üçün təyin edilməzdən əvvəl və xidmət müddəti ərzində milli və Avropa səviyyəsində müvafiq peşə hazırlığı təlimləri;
>
> Rəy № 3 (2002): Hakimlərin peşə davranışını, xüsusilə etik normaları, vəzifəsi ilə bir araya sığmayan davranışı və qərəzsizliyi tənzimləyən prinsiplər və qaydalar;
>
> Rəy № 2 (2001): Məhkəmə orqanlarının səmərəliliyinin təmin edilməsi və insan hüquqlarının müdafiəsinə dair Avropa Konvensiyasının 6-cı maddəsinin yerinə yetirilməsi üçün məhkəmələrin maliyyələşdirilməsi və idarə olunması haqqında;
>
> Rəy № 1 (2001): Məhkəmə orqanlarının müstəqilliyi və hakimlərin dəyişilməzliyi ilə bağlı standartlar haqqında.

Hong Kong Special Administrative Region of China, *Guide to Judicial Conduct*, 2004.

IFES, *Global Best Practices: Judicial Integrity Standards and Consensus Principles*, 2004.

International Association of Judges, *The Universal Charter of the Judge*, 1999.

International Centre for Ethics, Justice and Public Life, *Toward the Development of Ethics Guidelines for International Courts*, Report of a workshop held at the Brandeis Institute for International Judges, Salzburg, Austria, 2003.

International Commission of Jurists, *International Principles on the Independence and Accountability of Judges, Lawyers and Prosecutors*, Geneva, 2004.

*Judicial Ethics in South Africa*, issued by the Chief Justice, President of the Constitutional Court, Judges Presidents of the High Courts and the Labour Appeal Court, and the President of the Land Claims Court, 2000.

Madrid Principles on the Relationship between the Media and Judicial Independence, 1994.

Suva Statement of Principles on Judicial Independence and Access to Justice, 2004.

**Hakim etikası üzrə məşvərətçi komitələrin rəyləri**

The United States Judicial Conference

Alabama Judicial Inquiry Commission

Alaska Commission on Judicial Conduct

Arizona Judicial Ethics Advisory Committee

Arkansas Judicial Ethics Advisory Committee

Colorado Judicial Ethics Board

Delaware Judicial Ethics Advisory Committee

Florida Judicial Ethics Advisory Committee

Georgia Judicial Qualifications Commission

Illinois Judicial Ethics Committee

Indiana Commission on Judicial Qualifications

Kansas Judicial Ethics Advisory Committee

Ethics committee of the Kentucky Judiciary

Maryland Judicial Ethics Committee

Massachusetts Supreme Judicial Court Committee on Judicial Ethics

Nebraska Ethics Advisory Committee

Nevada Standing Committee on Judicial Ethics

New Hampshire Advisory Committee on judicial Ethics

New Mexico Advisory Committee on the Code of Judicial Conduct

New York Advisory Committee on Judicial Ethics

Oklahoma Judicial Ethics Advisory Panels

Pennsylvania Conference of State Trial Judges Judicial Ethics Committee

South Carolina Advisory Committee on Standards of judicial Conduct

Tennessee Judicial Ethics Committee

Texas Committee on Judicial Ethics

Utah Judicial Ethics Advisory Committee

Vermont Judicial Ethics Committee

Virginia Judicial Ethics Advisory Committee

Washington Ethics Advisory Committee

West Virginia Judicial Investigation Commission

Wisconsin Supreme Court Judicial Conduct Advisory Committee

# “HAKİMLƏRİN DAVRANIŞI ÜZRƏ BANQALOR PRİNSİPLƏRİ”NİN SƏMƏRƏLİ TƏTBİQİ ÜZRƏ

# TƏDBİRLƏR

Məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının
möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupunun müşavirəsində qəbul edilmişdir.

Lusaka şəhəri, Zambiya
21-22 yanvar 2010-cu il

# MÜNDƏRİCAT

Giriş..........132

**1-ci hissə**
**Məhkəmə orqanlarının öhdəlikləri**

1. Hakimlərin davranış prinsipləri haqqında bəyanatın hazırlanması..........134

2. Hakimlərin davranış prinsiplərinin tətbiqi və onlara riayət olunmasının təmini..........134

3. İşlərin bölgüsü..........135

4. Məhkəmələrin idarə edilməsi..........135

5. Ədalət mühakiməsinə əlçatanlıq..........135

6. Məhkəmə funksiyalarının icrasında şəffaflıq..........136

7. Hakimlərin peşə hazırlığı..........137

8. Məsləhət rəyləri..........138

9. Hakimlərin toxunulmazlığı..........138

**2-ci hissə**

**Dövlətin öhdəlikləri**

10. Məhkəmə orqanlarının müstəqilliyinin konstitusion təminatları..........139

11. Hakim vəzifəsi üçün zəruri ixtisas səviyyəsi..........139

12. Hakimlərin təyin edilməsi..........140

13. Hakimin vəzifədə olma müddəti..........140

14. Hakimlərin pul mükafatı..........141

15. Hakimlərin intizam məsuliyyəti..........141

16. Hakimlərin vəzifədən çıxarılması..........142

17. Məhkəmə orqanlarının büdcəsi..........142

Anlayışlar..........142

# GİRİŞ

"Hakimlərin davranışı üzrə Banqalor prinsipləri"ndə məhkəmə orqanlarının rəhbər tutmalı olduğu altı əsas dəyər və ya göstərici müəyyən edilmişdir: müstəqillik, obyektivlik və qərəzsizlik, vicdanlılıq və ələalınmazlıq, etik normalara riayət edilməsi, bərabərlik, həmçinin səriştəlilik və çalışqanlıq. Onlar hakimlərin peşə etikası standartlarının yaradılmasına imkan verməlidir. "Banqalor prinsipləri" hakimlər tərəfindən öz vəzifə borclarının icrası zamanı onlar üçün rəhbər müddəalar qismində hazırlanmışdır və məhkəmə orqanlarına hakimlərin davranışını tənzimləmək üçün müəyyən çərçivələr təqdim edir. Bundan başqa, onlar icra və qanunverici orqanların nümayəndələrinin, habelə vəkillərin və geniş ictimaiyyətin məhkəmə sisteminin rolunu daha yaxşı anlamasına kömək etməli və cəmiyyətə məhkəmə orqanlarının fəaliyyətinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi üçün müvafiq standartı təklif etməlidir. "Banqalor prinsipləri"nin şərhi bu prinsipləri daha dəqiq və dərindən anlamağa kömək etməyə yönəlmişdir.

"Hakimlərin davranışı üzrə Banqalor prinsipləri"nin "Prinsiplərin tətbiq edilməsi" bölməsində deyilir:

*"Məhkəmə vəzifəsinin xüsusiyyətlərini nəzərə alaraq, əgər onların yurisdiksiyası çərçivəsində belə mexanizmlər hələ mövcud deyilsə, milli məhkəmə orqanları tərəfindən bu prinsiplərin tətbiq edilməsi mexanizmlərinin yaradılması üçün səmərəli tədbirlərin görülməsi zəruridir".*

Bəzi yurisdiksiyalar çərçivəsində müvafiq mexanizmlər və prosedurlar artıq mövcuddur; onlar qanunvericiliyin müvafiq müddəalarına və ya hakimlərin davranış etikası standartlarının müəyyən edilməsi üçün məhkəmənin reqlamentinə əsasən təsis edilmişdir. Başqa ölkələrdə belə mexanizmlər hələ yaradılmamışdır. Müvafiq olaraq, Məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupu bu tədbirlər kompleksini "Hakimlərin davranışı üzrə Banqalor prinsipləri"nin praktikada səmərəli həyata keçirilməsi üçün rəhbər göstərişlər və oriyentirlər kimi təklif edir.

Bu sənəd iki hissədən ibarətdir. Birinci hissədə məhkəmə orqanları tərəfindən həyata keçirilməli olan tədbirlər təsvir edilir. İkinci hissədə məhkəmə orqanlarının müstəqilliyinin təminatına yönəldilmiş və dövlətin müstəsna səlahiyyətlərinə daxil olan institusional tədbirlər nəzərdən keçirilir. Doğrudur, hakimlərin müstəqilliyi xeyli dərəcədə məhkəmə cəmiyyəti üzvlərinin peşə amalları və dəyər oriyentasiyaları sistemi ilə müəyyən edilir, bununla belə, dövlət hakimlərin və məhkəmə orqanlarının başqa işçilərinin öz dəyər oriyentasiyalarına uyğun hərəkət etmələrinə imkan verən institusional qaydanı təmin etməlidir. Ədalət mühakiməsinin aparılması sistemini siyasi təsirdən və ya müdaxilədən təkcə hakimlərin gücü hesabına qorumaq mümkün deyildir. Hakim icra və ya qanunverici hakimiyyətlə lazımsız əlaqə və münasibətlərdən azad olmalıdır, lakin məhkəmə hakimiyyəti sisteminin hakimiyyətin digər iki qolundan müstəqilliyi məhz dövlət tərəfindən institusional qaydada təmin edilməlidir.[97]

"Hakimlərin davranışı üzrə Banqalor prinsipləri"nin tətbiq edilməsi üzrə tədbirlərə dair bu bəyanat hazırlanarkən, baxılan məsələlər dairəsi ilə əlaqədar geniş milli və beynəlxalq konsensusu əks etdirmək məqsədilə bir sıra milli konstitusiyaların müddəaları, həmçinin müvafiq regional və beynəlxalq təşəbbüslər nəzərə alınmışdır. İstifadə edilmiş materiallar arasında aşağıdakıları qeyd etmək lazımdır:

(a) Məhkəmə orqanlarının müstəqilliyi Prinsiplərinin ("Sirakuz prinsipləri") Layihəsi, ekspertlər komitəsi tərəfindən 1981-ci ildə hazırlanmışdır;

---

[97] İnsan hüquqları üzrə Komitə özünün 32 (2007) №-li Ümumi şərhində göstərir ki, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 14 (1) maddəsində təsbit edilmiş müstəqillik tələbi, xüsusilə, hakimlərin təyin edilməsi proseduruna və bunun üçün zəruri olan ixtisas səviyyəsinə, həmçinin onların müəyyən edilmiş pensiya yaşınadək və ya vəzifədə olmanın təsbit edilmiş müddəti qurtaranadək vəzifədə olmasına dair təminatlara, onların vəzifəsinin artırılması, başqa vəzifəyə keçirilməsi, səlahiyyətlərinin dayandırılması və ya ona xitam verilməsini tənzimləyən şərtlərə, habelə hakimiyyətin icra və ya qanunverici qolları tərəfindən siyasi müdaxilədən real müstəqilliyə aiddir. Müvafiq olaraq, dövlətlər məhkəmə orqanlarının müstəqilliyinə təminat verən, qərarların qəbul edilməsi prosesində hakimləri siyasi təsirin istənilən formalarından ya konstitusion normalar əsasında, yaxud hakimlərin vəzifəyə təyin edilməsi, pul mükafatı, vəzifədə olma müddəti, xidmət üzrə irəliləyişi, səlahiyyətlərinin dayandırılması və ya vəzifədən kənar edilməsi, həmçinin hakimlər barəsində tətbiq edilən intizam sanksiyaları üçün dəqiq prosedurlar və obyektiv meyarlar müəyyən edən qanunların qəbul edilməsi vasitəsilə müdafiə edən konkret tədbirlər görməlidirlər.

(b) Hakimlərin müstəqilliyinin Minimal Standartları, Beynəlxalq Hüquqşünaslar Assosiasiyası tərəfindən 1982-ci ildə qəbul edilmişdir;

(c) Birləşmiş Millətlər Təşkilatının Məhkəmə orqanlarının müstəqilliyinə aid Əsas Prinsipləri, 1985-ci ildə qəbul edilmişdir;

(d) Ədalət mühakiməsinin müstəqilliyinə dair Ümumi Bəyannamənin Layihəsi ("Sinqxvi Bəyannaməsi");

(e) Avropa Şurası Nazirlər Komitəsinin Hakimlərin müstəqilliyi, səmərəliliyi və rolu haqqında R (94) 12 №-li Tövsiyəsi, 1994-cü ildə qəbul edilmişdir;

(f) Məhkəmə orqanlarının müstəqilliyi prinsipləri haqqında Pekin Bəyanatı, 1995-ci ildə Asiya-Sakit okean regionu ölkələrinin baş hakimlərinin Konfransı tərəfindən qəbul edilmişdir;

(g) Hakimlərin statusu haqqında Avropa Xartiyası, 1998-ci ildə qəbul edilmişdir;

(h) Hakimlər haqqında Ümumi Xartiya, 1999-cu ildə Beynəlxalq Hakimlər Assosiasiyası tərəfindən qəbul edilmişdir;

(i) Millətlər Birliyi üçün parlamentin aliliyinə və məhkəmə orqanlarının müstəqilliyinə aid Rəhbər Prinsiplər, 2001-ci ildə Leytimer-Hausda təsdiq edilmişdir;

(j) Avropa hakimlərinin Məsləhət Şurasının rəyləri:

- Rəy № 1 (2001): Məhkəmə orqanlarının müstəqilliyi və hakimlərin dəyişilməzliyi ilə bağlı standartlar haqqında;

- Rəy № 2 (2001): Məhkəmə orqanlarının səmərəliliyinin təmin edilməsi və insan hüquqlarının müdafiəsinə dair Avropa Konvensiyasının 6-cı maddəsinin yerinə yetirilməsi üçün məhkəmələrin maliyyələşdirilməsi və idarə olunması haqqında;

- Rəy № 3 (2002): Hakimlərin peşə davranışını, xüsusilə etik normaları, vəzifəsi ilə bir araya sığmayan davranışı və qərəzsizliyi tənzimləyən prinsiplər və qaydalar;

- Rəy № 10 (2010): Məhkəmə orqanlarının şurası haqqında;

(k) hüququn aliliyi/hakimiyyətin bölünməsi haqqında Blantir rəsmi məlumatı, inkişaf üzrə Cənubi-Afrika Birliyi regionunda (SADC) hakimiyyətin üç qolunun nümayəndələri tərəfindən 2003-cü ildə dərc edilmişdir;

(l) Məhkəmə orqanlarının müstəqilliyi haqqında Qahirə Bəyannaməsi, 2003-cü ildə Ədalət mühakiməsi məsələləri üzrə ikinci ərəb Konfransının iştirakçıları tərəfindən qəbul edilmişdir;

(m) Hakimlərin müstəqilliyi və ədalət mühakiməsinin əlçatanlığı prinsipləri haqqında Suva Bəyanatı, 2004-cü ildə hakimlər kollokviumunun iştirakçıları tərəfindən qəbul edilmişdir;

(n) "Ədalət mühakiməsi mühüm əhəmiyyətə malikdir" - İrlandiyada hakimlərin müstəqilliyi və məsuliyyəti haqqında İrlandiya Vətəndaş Azadlıqları Şurasının məruzəsi, 2007-ci il;

(o) İnsan hüquqları üzrə Komitənin Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 14-cü maddəsinin mənası haqqında 32 (2007) №-li Ümumi şərhi;

(p) Venesiya Komissiyasının hakimlərin təyin edilməsi məsələsinə dair Məruzəsi, 2007-ci il;

(q) Hakimlərin vicdanlılığının möhkəmləndirilməsi məsələsi üzrə rəhbər müddəaların Layihəsi, Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və cinayətkarlıq üzrə İdarəsi, oktyabr 2009-cu il.

## 1-ci hissə

## MƏHKƏMƏ ORQANLARININ ÖHDƏLİKLƏRİ

**1. Hakimlərin davranışı prinsipləri haqqında bəyanatın hazırlanması**

1.1. Məhkəmə orqanları hakimlərin davranışı prinsipləri və normaları haqqında bəyanatı "Hakimlərin davranışı üzrə Banqalor prinsipləri"ni nəzərə alaraq hazırlamalıdır.

1.2. Məhkəmə orqanları hakimlərin davranışı prinsipləri haqqında bu cür bəyanatın məhkəmə hakimiyyətinin və ictimaiyyətin nümayəndələri arasında yayılmasını təmin etməlidir.

1.3. Məhkəmə orqanları hakimlərin davranışının belə bəyanatda ifadə edilmiş prinsiplərini nəzərə alan hakimlərin davranış etikasının zəruri element kimi onların ilkin hazırlanması və yenidən hazırlanması proqramlarına daxil olunmasını təmin etməlidir.

**2. Hakimlərin davranışı prinsiplərinin tətbiqi və onlara riayət olunmasının təmini**

2.1. Məhkəmə orqanları hakimlərin davranış etikası üzrə tərkibinə fəaliyyətdə olan və/və ya istefaya çıxmış hakimlərin daxil olduğu məsləhətçi komitənin yaradılmasının mümkünlüyü məsələsinə baxmalıdır, bu komitə məhkəmə cəmiyyətinin üzvlərinə onların gələcəkdə ehtimal olunan və ya təklif edilən hərəkət və ya davranış tərzinin qanunauyğunluğu haqqında məsləhətlər verəcəkdir.[98]

2.2. Məhkəmə orqanları hakimlərin davranış etikası üzrə mötəbər, müstəqil komissiya yaradılmasının mümkünlüyü məsələsinə baxmalıdır, bu komissiya məhkəmə icması üzvlərinin peşə etikasına uyğun olmayan davranışı barədə şikayətlərlə məhkəməyə müraciət edilməsi qanunvericilik qaydasında nəzərdə tutulmayan yerlərdə belə şikayətləri qəbul edəcək, araşdıracaq, onlara baxacaq və həll edəcəkdir. Komissiyanın tərkibinin əksəriyyəti hakimlərdən ibarət ola bilər, lakin cəmiyyətin komissiyaya inamını təmin etmək üçün onun tərkibinə yetərli sayda hakim peşəsinə aidiyyəti olmayan ictimaiyyətin nümayəndələrinin də cəlb edilməsi arzu olunan haldır. Komissiyanın vəzifəsi şikayətləri təqdim edənlərin və şahidlərin hüquqlarının qanuna uyğun olaraq müdafiəsini, həmçinin davranışı şikayətin verilməsi üçün səbəb olmuş hakim barəsində lazımi hüquqi prosedurun həyata keçirilməsini təmin etməkdən ibarətdir, bu halda, əgər hakim bunu xahiş edərsə, şikayət üzrə təhqiqatın ilkin mərhələsində prosedurun məxfiliyi təmin olunur. Buna oxşar imtiyazların şahidlərə və başqa şəxslərə də verilə bilməsi üçün komissiya tərəfindən həyata keçirilən icraat barəsində qanunvericilik qaydasında mütləq və ya ixtisaslaşdırılmış imtiyaz hüququ verilməsinin nəzərdə tutulması lazım ola bilər. Komissiya xüsusilə ciddi pozuntulara aid olan şikayətləri hakimlərin fəaliyyəti üzərində intizam nəzarətinin həyata keçirilməsinə məsul olan orqana verə bilər.[99]

---

[98] Belə komitələrin yaradıldığı yurisdiksiyaların çoxunda hakim öz davranışının qanuniliyi barədə məsləhət rəyi tələb edə bilər. Komitə, həmçinin öz təşəbbüsü ilə məhkəmə orqanları üçün maraq doğuran məsələlərə aid qərarlar qəbul edə bilər. Əgər hakimin əvvəlki və ya indiki davranışı onun gələcək hərəkət tərzi ilə əlaqələndirilmirsə və ya uzunmüddətli xarakterə malikdirsə, həmin qərarlarda hakimin əvvəlki və ya indiki davranışı deyil, gələcəkdə güman edilən və ya təklif olunan hərəkət tərzi nəzərdən keçirilir. Rəsmi rəylərdə həmin rəylərin əsasını təşkil edən faktlar göstərilir, eləcə də yalnız bu faktlara aid tövsiyələr verilir. Məsləhət rəylərində həmin tövsiyəyə aidiyyəti olan qaydalar, konkret işlər, həmçinin başqa hakimiyyət orqanları, habelə hakimlərin davranışının konkret halda tətbiq edilən qaydaları göstərilir. Məsləhət rəyinin orijinalı həmin rəyi tələb etmiş şəxsə göndərilir, rəyin qısaldılmış, yəni adlar, məhkəmələrin adları, ünvanlar və məsləhət rəyini tələb etmiş şəxsi müəyyən etməyə imkan verən başqa məlumatın göstərilmədiyi variantı isə məhkəmə orqanlarına, hüquqşünaslar assosiasiyalarına və hüquq məktəbləri və ya hüquq fakültələrinin kitabxanalarına göndərilir. Bütün rəylər məsləhət xarakteri daşıyır və hüquqi baxımdan məcburi deyildir, lakin məsləhət rəyində göstərilən tövsiyələrə əməl edilməsi hakimin öz vəzifə borcuna vicdanlı münasibətini təsdiqləyən amil hesab edilə bilər.

[99] Belə komitələrin yaradıldığı yurisdiksiyaların çoxunda məhkəmə tərəfindən baxılan işlərlə əlaqədar şikayətlər yalnız o halda qəbul edilir ki, şikayət işə baxılmasında əsassız ləngiməyə aid olsun. Şikayət yazılı şəkildə və imzalanmış halda təqdim edilməli, orada hakimin adı və soyadı göstərilməli, baş vermiş davranışın şikayətçinin fikrincə, peşə etikası normalarına uyğun olmaması barədə məlumat ətraflı təsvir edilməli, şahidlərin adları, həmçinin şikayəti təqdim edənin ünvanı və telefon nömrəsi göstərilməlidir. Komitənin hakim tərəfindən etik normaların pozulmasının həqiqətən baş verə bilməsini qərara aldığı hallar istisna olmaqla, hakimə ondan şikayət edilməsi barədə məlumat verilmir. Şikayəti verənin şəxsiyyəti hakimə yalnız onun razılığı ilə bildirilir. Lakin bu cür şikayətə məhkəmə tərəfindən baxılan halda şikayəti verənin özünün şahid kimi ifadələr verməsi zərurəti yarana bilər. Komitə tərəfindən baxılan məsələlər barədə məlumat məxfi hesab olunur. Əgər komitə hakim tərəfindən etik normaların bəlkə də pozulması fikrinə gələrsə, o, bir qayda olaraq, bu məsələyə hakimlə bərabər, qeyri-formal şəkildə baxır. Əgər komitə hakim barəsində rəsmi ittiham çıxararsa, dinləmə keçirə və əgər dinləmənin gedişində ittihamın əsaslı olması fikrinə gələrsə, hakimə fərdi qaydada töhmət elan edə və ya hakimin müəyyən müddətdə müəyyən şərtlərə riayət

**3. İşlərin bölgüsü**

3.1. İşə baxılması üçün hakimin təyin edilməsi məhkəmə hakimiyyətinin həyata keçirilməsi prosedurunun ayrılmaz tərkib hissəsidir.

3.2. Məhkəmənin hakimləri arasında iş bölgüsü, o cümlədən məhkəmə işlərinin bölgüsü qabaqcadan müəyyən edilmiş, qanunla nəzərdə tutulmuş və ya müvafiq məhkəmənin bütün hakimləri tərəfindən öz aralarında razılaşdırılmış qaydada həyata keçirilməlidir. Bu qayda dəqiq müəyyən edilmiş hallarda, məsələn, konkret hakimin bu və ya digər məsələyə aid xüsusi təcrübəsini və ya biliklərini nəzərə almaq zəruri olduqda dəyişdirilə bilər. Belə bölgü, məsələn, əlifba sırası ilə və ya xronoloji ardıcıllıqla, yaxud hər hansı başqa sərbəst seçim proseduruna uyğun olaraq avtomatik bölgü sistemi üzrə həyata keçirilə bilər.

3.3. Tutarlı səbəblər olmadığı halda, iş hakimdən geri götürülə bilməz. İşin geri götürülməsi üçün belə əsaslar və müvafiq prosedurlar qanunda və ya məhkəmənin reqlamentində nəzərdə tutulmalıdır.

**4. Məhkəmələrin idarə edilməsi**

4.1. Məhkəmələrin idarə edilməsi üçün, o cümlədən məhkəmə orqanları işçilərinin təyin edilməsi, onların fəaliyyətinə və intizamına nəzarət üçün məhkəmə icmasının özü və ya onun tabeliyində və nəzarəti altında olan orqan məsuliyyət daşımalıdır.

4.2. Məhkəmə orqanları Məhkəmə orqanlarının vicdanlılığı və ələalınmazlığının möhkəmləndirilməsi məsələsi üzrə Hakimlər Qrupu tərəfindən hazırlanmış “Məhkəmə işçilərinin davranış Prinsipləri”ni nəzərə alaraq, onları qəbul etməli və məhkəmələrin işçiləri tərəfindən bu prinsiplərə riayət olunmasını təmin etməlidir.

4.3. Məhkəmə orqanları ədalət mühakiməsinin həyata keçirilməsində şəffaflığın, düzgünlüyün, vicdanlılığın və səmərəliliyin artırılması üçün informasiya və rabitə texnologiyalarından istifadə etməyə çalışmalıdır.

4.4. Məhkəmə orqanları ədalət mühakiməsinin keyfiyyətinin artırılmasına kömək üzrə funksiyasını yerinə yetirərkən, məhkəmə işlərinin yoxlanması, məhkəmə istifadəçiləri və başqa əlaqədar tərəflər arasında sorğular aparılması, məhkəmə istifadəçilərinin komitələri ilə birgə müzakirələr keçirilməsi və başqa üsul və vasitələrdən istifadə etməklə, cəmiyyətdə ədalət mühakiməsinin həyata keçirilməsindən məmnunluq dərəcəsini təhlil etməyə və məhkəmə icraatı prosesində sistem nöqsanlarını aradan qaldırmaq məqsədilə onları aşkar etməyə çalışmalıdır.

4.5. Məhkəmə orqanları məhkəmə istifadəçilərinin şikayətlərinə daim reaksiya verməli və öz fəaliyyəti haqqında illik hesabatlar dərc etməli, bu hesabatlarda, o cümlədən yaranmış problemlər və ədliyyə sisteminin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə görülmüş tədbirlər haqqında məlumat əks etdirilməlidir.

**5. Ədalət mühakiməsinə əlçatanlıq**

5.1. Ədalət mühakiməsinə əlçatanlıq hüququn aliliyinin təmin edilməsi üçün böyük əhəmiyyətə malikdir. Məhkəmə orqanları öz səlahiyyətləri daxilində ədalət mühakiməsinə əlçatanlığın təmin edilməsinə kömək etməlidir.

5.2. Pulsuz hüquqi yardımın təqdim edilməsi üçün kifayət qədər imkan olmadıqda, şəxsi vəkillər tərəfindən təqdim edilən xidmətlərin qiymətinin yüksək olmasını nəzərə alaraq, məhkəmə orqanları bunun məqsədəuyğun və arzuedilən olduğu yerlərdə tərəflərin mənafelərinin pulsuz (pro bono) təmsil edilməsinə kömək, “məhkəmənin dostu” (amicus curiae) deyilən şəxsin təyin edilməsi, məhkəmə

---

etməsi üçün onun hərəkətləri üzərində nəzarəti təyin edə bilər. Komitənin fikrincə, kifayət qədər ciddi hesab edilən və hakimin pensiyaya getməsini, onun barəsində ictimai məzəmmət tədbirinin görülməsini və ya hakim vəzifəsindən kənarlaşdırılmasını tələb edən ittihamlar hakim barəsində intizam nəzarətinin həyata keçirilməsinə məsul olan orqana verilir.

mübahisələrinin alternativ həlli və əks təqdirdə məhkəmə prosedurunun gedişatında nümayəndələri olmayacaq şəxslərin maraqlarının müdafiəsi üçün ictimaiyyətin nümayəndələrinin iştirakı ilə məhkəmə proseduru, eləcə də hüquqşünas ixtisası olmayan şəxslərin (o cümlədən, hüquqşünas diplomu olmayan hüquq işçilərinin) tərəfləri məhkəmə qarşısında təmsil etməsinə icazə verilməsi kimi təşəbbüslərin həyata keçirilməsinin mümkünlüyü məsələsinə baxmalıdır.

5.3. Məhkəmə orqanları məhkəmədə işə baxılması prosedurunun ədalətli, dəqiq və sürətlə keçirilməsini və yekunlaşdırılmasını təmin etmək üçün məhkəmə işlərinin idarə edilməsinin müasir metodlarını tətbiq etməlidirlər.[100]

## 6. Məhkəmə funksiyalarının icrasında şəffaflıq

6.1. Məhkəmə prosesi prinsipcə açıq keçirilməlidir. Dinləmələrin ictimai xarakteri məhkəmə icraatı prosesinin şəffaflığını təmin edir. Məhkəmə orqanları ictimaiyyətə məhkəmə dinləmələrinin vaxtı və yeri haqqında məlumat verməli, eləcə də, başqa amillərlə yanaşı, işə potensial marağı və məhkəmə araşdırmasının müddətini də nəzərə alaraq, cəmiyyətin əlaqədar üzvlərinin məhkəmə prosesində iştirak etmələri üçün kifayət qədər imkan yaradılmasını ağlabatan həddə təmin etməlidir.[101]

6.2. Məhkəmə orqanları ədalət mühakiməsinin həyata keçirilməsində şəffaflığın artırılmasına fəal kömək etməli və ictimaiyyət, KİV və məhkəmə istifadəçiləri üçün məhkəmə nəzarətinə riayət edilməklə, həm məhkəmə baxışında olan, həm də məhkəmə baxışı başa çatdırılmış işlər üzrə icraata aid olan bütün məlumata məhkəmənin veb saytı və ya məhkəmə işlərinin istifadə üçün açıq olan müvafiq materialları vasitəsilə müraciət imkanının etibarlı olmasını təmin etməlidir. Belə məlumata əsaslandırılmış məhkəmə qərarları, tərəflərin ərizələri, vəsatətlər i və şahid ifadələri daxil olmalıdır, lakin affidevitlər (yəni, and içməklə verilmiş yazılı ifadələr), yaxud məhkəmə tərəfindən hələ sübut kimi qəbul edilməmiş başqa sübutedici sənədlər ümumi əlçatan məlumat kateqoriyasından istisna edilir.

6.3. Məhkəmə orqanları məhkəmə sistemindən istifadə olunmasını sadələşdirmək məqsədilə məhkəmələrin potensial istifadəçiləri üçün standart, istifadəsi rahat olan forma və təlimatların, həmçinin məhkəmə rüsumu, məhkəmə işlərinin icraatı qaydası, məhkəmə iclaslarının qrafiki və sair məsələlər haqqında dəqiq və düzgün məlumatın əlçatan olmasını təmin etməlidir.

6.4. Məhkəmə orqanları şahidlərin, məhkəmənin başqa istifadəçiləri və cəmiyyətin əlaqədar üzvlərinin məhkəmə binasında istiqamətlənməsi üçün asan oxunan nişanlar və göstəricilər olmasını təmin

---

[100] Ənənəyə görə, məhkəmə mübahisəsinin tərəfləri işin irəliləyişinə nəzarət edir, hakimlər və məhkəmə işçiləri isə bu məsələdə onlara kömək edirlər. Hazırda bir sıra yurisdiksiyalar daxilində etiraf edilir ki, məhkəmə orqanları, xüsusən birinci instansiya məhkəmələrində - iş üzrə qərar çıxarılmasına qədər iddia qaldırılan andan başlayaraq məhkəmə tərəfindən qərar çıxarılmasından sonrakı bütün mərhələlər də daxil olmaqla, araşdırmanın gedişini fəal idarə etməlidirlər. Məhkəmə işinin məhkəmə tərəfindən fəal idarə edilməsi məhkəmə mübahisələrinin ədalətli, mütəşəkkil qaydada və tezliklə həll edilməsinə imkan yaratmalıdır. Bu isə, xüsusən onu nəzərdə tuta bilər ki, iş üzrə icraatın bütün mərhələlərində konkret işi eyni hakim aparır - yəni, məhkəmə araşdırmasının praktiki olaraq dəyişilməli olmayan müddətləri müəyyən edilir; hakim özü dinləmələrin qrafikini qurur və məhkəmə araşdırmasınadək olan dövrdə müvafiq göstərişlər verir; əgər işə məhkəmə tərəfindən baxılmalıdırsa, bu halda işə yenə həmin hakim baxır. Hakimin fəal iştirakı onun iş üzrə icraatın gedişində qarşıya çıxan, məsələn, məhkəmə çəkişməsinə aid sənədlərin lazımi qaydada tərtib edilməməsi ilə, gərəksiz sənədlərin çox olması və məhkəmə təhqiqatının uzadılması üçün tez-tez istifadə edilən başqa üsullarla bağlı çətin vəziyyətləri səmərəli tənzimləməsinə imkan verir. Bu həm də həftələrlə və ya aylarla uzana biləcək qısa, qırıq-qırıq dinləmələr əvəzinə, işə ardıcıl və fasiləsiz baxılmasının təmin edilməsinə imkan yarada bilər.

[101] Məhkəmə araşdırmasının açıq aparılması tələbi yazılı təqdimatlar əsasında həyata keçirilə biləcək istənilən apellyasiya icraatına və ya məhkəmədən əvvəl mərhələdə çıxarılan qərarlara mütləq mənada aid deyildir. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 14 (1) maddəsinə əsasən, demokratik cəmiyyətdə əxlaq, ictimai asayiş (ordre public) və ya dövlət təhlükəsizliyi mülahizələrinə görə, yaxud tərəflərin şəxsi həyatının maraqları bunu tələb edərsə və ya məhkəmənin fikrincə, məhkəmə araşdırmasının açıq aparılması ədalət mühakiməsinin maraqlarını poza biləcəyi xüsusi hallarda, məhkəmə ictimaiyyətin məhkəmə araşdırmasında və ya onun bir hissəsində iştirak etməsinə icazə verməmək səlahiyyətinə malikdir. Belə xüsusi hallar istisna olmaqla, araşdırma ictimaiyyət, həmçinin KİV üçün açıq olmalı və məsələn, hansısa konkret bir kateqoriyaya aid şəxslərin iştirak etməsi ilə məhdudlaşdırılmış olmamalıdır. Hətta ictimaiyyətin məhkəmə araşdırmasına buraxılmadığı hallarda da, yetkinlik yaşına çatmamış şəxslərin maraqları başqa qərar tələb etdiyi və ya ər-arvad mübahisələri və ya uşaqlar üzərində qəyyumluq məsələsi ilə bağlı hallar istisna olmaqla, məhkəmənin qərarı, o cümlədən çıxardığı ümumi nəticələr, sübutlar və hüquqi əsaslandırması açıq elan edilməlidir.

etməlidir. Bundan əlavə, ictimai informasiya xidmətində işləmək üçün yetərli sayda məhkəmə işçiləri olmasını təmin etmək lazımdır. Belə xidmətlər məhkəmə binasına girişin bilavasitə yaxınlığında olmalıdır. Müştərilərlə iş xidmətləri və resurs mərkəzləri də vətəndaşlar üçün münasib yerdə olmalıdır. Məhkəmə istifadəçilərinə yerlər ümumi istifadə yerlərinə təqdim edilən tələblərə cavab verən xüsusi gözləmə otaqları, həmçinin xüsusi ehtiyacları olan şəxslər üçün, məsələn, zərərçəkmiş uşaqlar və ya imkanları məhdud olan şəxslər üçün əlverişli şəraiti olan təhlükəsiz, rahat və təmiz yerlər verilməlidir.

6.5. Məhkəmə orqanları ədalət mühakiməsi sisteminin cəmiyyətin həyatında rolu haqqında əhalinin məlumatlandırılma dərəcəsinin artırılması və məhkəmə sisteminin fəaliyyəti ilə əlaqədar bəzi qeyri-müəyyənliklərin öhdəsindən gəlmələrinə kifayət qədər geniş yayılmış səhv təsəvvürlərin aradan qaldırılması üçün nəzərdə tutulmuş sosial yönümlü proqramların həyata keçirilməsinin mümkünlüyü məsələsinə baxmalıdır.[102]

6.6 Məhkəmə orqanları KİV-lərin məhkəmə prosesləri, o cümlədən konkret işlər üzrə çıxarılmış qərarlar haqqında cəmiyyətin məlumatlandırılması üzrə öz qanuni funksiyasını yerinə yetirməsi üçün onlara lazımi kömək etməlidir.

## 7. Hakimlərin peşə hazırlığı

7.1. Məhkəmə orqanları malik olduqları bütün imkanları həddində hakimlərin peşə hazırlığının təşkil edilməsini, həyata keçirilməsini və ona nəzarəti özləri təmin etməlidir.

7.2. Peşəkar hakimlərin hazırlanması üçün müvafiq imkanlar olmadığı yurisdiksiyalarda məhkəmə orqanları müvafiq kanallar vasitəsilə belə imkanların qazanılmasını təmin etməkdə və ya yerli ekspert potensialının formalaşmasında milli və beynəlxalq strukturlardan və təhsil müəssisələrindən lazımlı kömək almağa çalışmalıdır.

7.3. Hakim vəzifəsinə təyin edilən bütün şəxslər dövlətdaxili və beynəlxalq maddi hüququn müvafiq tərəfləri, həmçinin prosessual normalar haqqında lazımi səviyyədə biliklərə malik olmalı və ya hakim kimi öz vəzifə borclarını yerinə yetirməyə başlayana qədər bu bilikləri əldə etməlidirlər. Lazımi qaydada təyin edilmiş hakimlər həm də məhkəmə fəaliyyətinə aidiyyəti olan başqa məsələlər, o cümlədən məhkəmə işlərinin idarə edilməsi və məhkəmənin idarə edilməsi, informasiya texnologiyaları, ictimai elmlər, hüquq tarixi və hüquq fəlsəfəsi, habelə mübahisələrin həllinin alternativ metodları üzrə giriş kursu keçməlidirlər.

7.4. Hakimlərin dünya baxışlarının yetərincə geniş olmasını və onların qabaqcadan yanlış fikirdə olmamasını, eləcə də məhkəmə orqanlarının qərəzsizliyini təmin etmək üçün məhkəmə işçilərinin peşə hazırlığı dünyagörüşlərinin plüralizmi prinsipinə əsaslanmalıdır.

7.5. Peşə hazırlığı proqramı müntəzəm əsasda təmin olunmalıdır; bu halda hakimlər üçün ixtisasartırma və yenidənhazırlanma proqramları məhkəmə icması üzvlərinin könüllü iştirakı prinsipinə əsaslanmalıdır.

7.6. Əgər hüquqi materiallarda (məsələn, məhkəmə qərarları toplularında, apellyasiya məhkəməsinin qərarlarında və s.) istifadə edilən dil hüquq təhsilinin təmin olunduğu dildən fərqlənirsə, həm hakimlərin, həm də vəkillərin həmin dili öyrənməsini təmin etmək lazımdır.

7.7. Peşə hazırlığı proqramları məhkəmə sisteminin müxtəlif bölmə və səviyyələrinin nümayəndələrinin görüşməsinə, təcrübə mübadiləsi etməsinə və dialoq əsasında ümumi fikrə gəlməsinə imkan verən

---

[102] Hakimlərin müstəqilliyini və qərəzsizliyini təmin etmək üçün onların cəmiyyətdən təcrid edilməli olması barədə ənənəvi fikrə rəğmən, məhkəmələrin ictimaiyyətlə iş proqramları hakimlərin fəallığını və işlədiyi icmalarla birbaşa qarşılıqlı fəaliyyətdə olmasını nəzərdə tutur. Təcrübə göstərir ki, cəmiyyətin hüquq və məhkəmə icraatı məsələləri barədə məlumatlı olması həm məhkəmə sisteminin şəffaflığının artırılmasına imkan yaradır, həm də cəmiyyətin məhkəmə orqanlarına olan inamını artırır. Son zamanlar ortaya çıxan yanaşmalarda bələdiyyə binasında görüşlər, televiziya və radio verilişlərinin hazırlanması, ictimaiyyətin məlumatlandırılma dərəcəsini artırmaq məqsədilə məhkəmə istifadəçisinin məlumat kitabçası kimi materialların (şəxsin həbs edilməsi, həbsdə saxlanması, girov müqabilində həbsdən azad edilməsi, cinayət icraatı və mülki icraat haqqında əsas məlumatların, həmçinin cinayətdən zərərçəkmişlər və şahidlər üçün faydalı məlumatın toplandığı kitabça şəklində) yayılması və sair tədbirlər nəzərdə tutulur.

şəraitdə həyata keçirilməlidir.

**8. Məsləhət rəyləri**

8.1. Hakim və ya məhkəmə konstitusiya normasında və ya qanunda birbaşa nəzərdə tutulduğu hallar istisna olmaqla, icra və ya qanunverici orqanlara məsləhət rəyləri verməməlidir.

**9. Hakimlərin toxunulmazlığı**

9.1. Hakim istənilən halda cinayət əməli hesab edilən əməlin törədilməsinə görə ümumi hüquq normalarına uyğun olaraq cinayət məsuliyyəti daşımalıdır və adi cinayət təhqiqatı halında öz toxunulmazlığına istinad edə bilməz.

9.2. Hakim öz xidməti vəzifələrini icra edərkən onun hərəkətləri ilə əlaqədar mülki iddiaların təqdim edildiyi halda, şəxsi toxunulmazlığından istifadə etməlidir.

9.3. Yurisdiksiya, maddi hüquq və ya məhkəmə proseduru sahəsində məhkəmə səhvləri məhkəmə qərarlarından və ya məhkəmə nəzarətindən şikayət verilməsi sistemi çərçivəsində şikayət verilməsi yolu ilə düzəldilməlidir.

9.4. Hakimin etinasızlığı üzündən və ya məhkəmə səlahiyyətlərindən sui-istifadə etməsi səbəbindən məhkəmə işinin tərəfinə zərər vurulmuş olduqda, dövlət tərəfindən hakim barəsində reqres hüququ olmadan dövlətə qarşı iddianın verilməsi nəzərdə tutulmalıdır.

9.5. Məhkəmə orqanlarının müstəqilliyi hakimi cəmiyyət qarşısında məsuliyyətdən azad etmədiyinə və hakimin hərəkətləri barəsində cəmiyyət tərəfindən edilən qanuni tənqid qanuna uyğun olaraq məsuliyyətin təmin edilməsi vasitəsi olduğuna görə, hakim məhkəmənin ünvanına olan tənqidləri məhdudlaşdırmaq üçün məhkəməyə hörmətsizlik ifadə edən davranışla əlaqədar nəzərdə tutulmuş cinayət hüququ normalarının və ya prosedurların tətbiqindən mümkün qədər çəkinməlidir.

## 2-ci hissə

## DÖVLƏTİN ÖHDƏLİKLƏRİ

**10. Məhkəmə orqanlarının müstəqilliyinin konstitusion təminatları**

10.1. Məhkəmə hakimiyyətinin müstəqilliyi prinsipi tələb edir ki, dövlət konstitusiya əsasında və ya başqa vasitələrlə aşağıda göstərilən təminatları təmin etsin:

(a) məhkəmə orqanları icra və qanunverici hakimiyyətlərdən asılı deyildir və heç bir səlahiyyətdən məhkəmə icraatına müdaxilə üçün istifadə edilə bilməz;

(b) hər bir insan onun işinə məhkəmə tərəfindən çıxarılmış qərardan şikayət vermək və ya məhkəmə tərəfindən yenidən baxılması hüququ təmin edilməklə, qanuna əsasən yaradılmış adi məhkəmə və ya tribunal tərəfindən kifayət qədər tezliklə və əsassız ləngimələrə yol verilmədən baxılması hüququna malikdir;

(c) adi yurisdiksiya məhkəmələrinin əvəzinə xüsusi və ya əlahiddə tribunallar yaradılmayacaqdır;

(d) qərar qəbul edilməsi prosesində hakimlər müstəqildirlər və hər hansı tərəfdən və ya istənilən səbəbdən hər hansı məhdudiyyətlərə, kənar təsirlərə, təzyiqlərə, təhdidlərə, birbaşa və ya dolayı müdaxilələrə məruz qalmadan hərəkət edirlər və öz vicdanını, faktlara özünün verdiyi qiyməti və qüvvədə olan hüquq normalarını rəhbər tutaraq, qərəzsiz qərarlar qəbul etməkdə qeyri-məhdud azadlığa malikdirlər;

(e) məhkəmə orqanları məhkəmə xarakterli bütün məsələlər üzərində bilavasitə və ya məhkəmə nəzarəti vasitəsilə yurisdiksiyaya malik olmalıdır və məhkəmələrin qanunla müəyyən edilmiş yurisdiksiyasını və ya səlahiyyətlərini məhkəmələrin özlərindən başqa heç bir orqan müəyyən edə bilməz;

(f) icra orqanları mübahisənin məhkəmə yolu ilə həllini qabaqlayan və ya məhkəmə tərəfindən çıxarılmış qərarın lazımi icrasına mane olan istənilən hərəkət və ya hərəkətsizliklərdən çəkinir;

(g) icra və ya qanunverici hakimiyyət səlahiyyətləri verilmiş heç bir şəxs hakimlərə açıq və ya gizli formada hər hansı təzyiq göstərmir və ya göstərməyə çalışmır;

(h) hakimin vəzifəsinə, pul mükafatına, xidmət şəraitinə və ya resurslarına təsir edə biləcək icra və ya qanunverici hakimiyyət səlahiyyətlərindən konkret hakimi və ya hakimləri hədələmək və ya onlara təzyiq göstərmək üçün istifadə edilməyəcəkdir;

(i) dövlət məhkəmə icması üzvlərinin və onların ailələrinin, xüsusən, əgər onlar təhdidlərə məruz qalırlarsa, təhlükəsizliyini və fiziki müdafiəsini təmin edir;

(j) bu və ya digər hakimin lazım olmayan davranışı haqqında ərizələrdə söhbətin mahiyyət etibarilə hakimin vəzifədən kənarlaşdırılmasına və ya barəsində sanksiyaların tətbiq edilməsinə aid təklifdən getdiyi və bu haqda onun qabaqcadan xəbərdar edildiyi hallar istisna olunmaqla, həmin ərizələrə qanunverici orqanda baxılmır.

**11. Hakim vəzifəsi üçün zəruri ixtisas səviyyəsi**

11.1. Hakim vəzifəsinə seçilmiş  şəxslər müvafiq qabiliyyətlərə, əxlaqi keyfiyyətlərə və iş qabiliyyətinə, həmçinin zəruri peşə hazırlığına və ixtisasa malik olmalıdırlar.

11.2. Hakim vəzifəsinə namizədi qiymətləndirərkən, təkcə onun hüquq sahəsində bilikləri və ümumi peşəkar qabiliyyətləri deyil, həmçinin ictimai əhəmiyyətli məsələlər barədə məlumatlı olması və həssaslığı, şəxsi keyfiyyətləri (o cümlədən, etika, təmkin, nəzakət, vicdanlılq, sağlam düşüncə, təvazökarlıq və dəqiqlik) və ünsiyyət vərdişləri də nəzərə alınmalıdır. Hakim vəzifəsinə namizədin siyasi, dini və digər əqidə və meylləri hakimin öz vəzifə borclarını yerinə yetirməsinə mane olduğu hallar istisna olmaqla, nəzərə alınmamalıdır.

11.3. Hakimlərin seçilməsi zamanı işə aidiyyəti olmayan əsaslara görə hər hansı ayrı-seckiliyə yol verilməməlidir. Hakim vəzifəsinə namizəd barəsində irəli sürülən həmin ölkənin vətəndaşlığına

malik olmaq tələbi işə aidiyyəti olmayan əsaslara görə ayrı-seckilik hesab edilməməlidir. Bir məqama diqqət yetirmək lazımdır ki, məhkəmə orqanlarının tərkibi cəmiyyətin bütün təbəqələrini ədalətlə əks etdirsin.

**12. Hakimlərin təyin edilməsi**

12.1. Hakimlərin təyin edilməsinə aid qaydalar qanunla müəyyən edilməlidir.

12.2. Məhkəmə sisteminin nümayəndələri və cəmiyyətin nümayəndələri hakim vəzifəsinə namizədlərin seçilməsi prosesində müvafiq rol oynamalıdırlar.

12.3. Hakimlərin təyin edilməsi prosesində şəffaflığın və məsuliyyətin təmin olunması üçün hakim vəzifəsinə namizədlərin təyin edilməsi və seçilməsi meyarları, o cümlədən yüksək məhkəmə vəzifələrinə namizədlərin malik olmalı olduğu zəruri keyfiyyətlərə aid meyarlar ictimaiyyətə əlçatan olmalıdır. Hakim vəzifəsinə bütün mövcud vakansiyalar elə qaydada elan edilməlidir ki, münasib namizədlərin ərizələr verməsi və ya onlar haqqında təkliflər verilməsi təmin edilsin.

12.4. Yeni konstitusiya müddəaları hazırlayan ölkələrlə əlaqədar xüsusi dəstəklənən mexanizm hakimlərdən, həmçinin məhkəmə sistemi ilə əlaqəsi olmayan şəxslərdən ibarət Ali Məhkəmə Şurasının yaradılmasını nəzərdə tutur. Bu Şurada üzvlük siyasi mülahizələrlə bağlı olmamalıdır.

12.5. Hakimlərin təyin edilməsi üçün məsuliyyətin müstəqil şuraya və ya komissiyaya həvalə edildiyi ölkələrdə belə müstəqil orqanın üzvləri onların bacarıqları, təcrübəsi, məhkəmə fəaliyyətinin spesifikasını anlamaları, müvafiq məsələləri müzakirə etmək və müstəqillik mədəniyyətinin əhəmiyyətini dərk etmək qabiliyyətləri nəzərə alınmaqla seçilməlidirlər. Bu müstəqil orqanın hakim olmayan üzvləri məşhur hüquqşünaslar və ya təcrübəli və cəmiyyətdəki nüfuzundan istifadə edən vətəndaşlar içərisindən seçilə bilərlər.

12.6. Hakimlərin vəzifəsinin artırılmasına aid bütün qərarlar, əgər onlar iş stajı meyarına əsaslanmırlarsa, hakimlərin təyin edilməsi üçün cavabdeh olan müstəqil orqan tərəfindən qəbul edilməli və məhkəmə vəzifəsinə təyin edilməsi üçün lazım olan ixtisas səviyyəsi, qabiliyyətlər, şəxsi keyfiyyətlər və peşəkarlıq nəzərə alınmaqla, konkret hakimin işinin obyektiv qiymətinə əsaslanmalıdır.

12.7. Bir sıra ölkələrdə mövcud olan Ali məhkəmənin baş hakimi və ya sədrinin hakimlərin özləri tərəfindən bu məhkəmənin tərkibindən növbə ilə seçilməsi təcrübəsi hakimlərin müstəqilliyi prinsipinə zidd deyildir və ona başqa ölkələrdə tətbiq edilmək üçün mümkün model kimi baxmaq olar.

**13. Hakimin vəzifədə olma müddəti**

13.1. Dövlət məhkəmə orqanlarının normal fəaliyyəti üçün hakimlərin zəruri sayını təmin etməyə borcludur.

13.2. Hakim müəyyən edilmiş pensiya yaşınadək və ya vəzifədə olmanın təsbit edilmiş müddəti başa çatanadək konstitusiya ilə təminat verilən səlahiyyət müddətinə malik olmalıdır.[103] Əgər obyektiv meyarlara uyğun olaraq və xidmətləri nəzərə alınaraq, təkrar təyinat haqqında qərar qəbul edilməsini təmin edən prosedurlar mövcud deyildirsə, vəzifədə olmanın müəyyən edilmiş müddəti yenilənən olmamalıdır.

13.3. Müvəqqəti hakimlərin və ya natamam iş günü şərtilə işləyən hakim müavinlərinin cəlb edilməsi daimi hakimlərin tam kontingentini əvəz edən hal hesab edilməməlidir. Belə müvəqqəti hakimlərin

---

[103] Milli təcrübə göstərir ki, ali məhkəmələrin hakimləri üçün müəyyən edilmiş pensiyaya çıxma yaşına üstünlük verilir. Ali məhkəmələrin hakimləri üçün konstitusion norma əsasında müəyyən edilmiş pensiyaya çıxma yaşı Beliz, Botsvana və Qayanada 62 yaşdan Yunanıstan, Malayziya, Namibiya (bu ölkədə 70 yaşa qədər uzadıla bilər), Sinqapur, Şri-Lanka və Türkiyədə 65 yaşa qədər, Kiprdə 68, Avstraliya, Braziliya, Qana, Peru və Cənubi Afrikada 70, Kanada və Çilidə 75 yaşa qədər dəyişir. Lakin bu yurisdiksiyaların bəzilərində (məsələn, Belizdə və Botsvanada) qüvvədə olan qaydaya görə, pensiya yaşına çatmış hakim "bu yaşa çatmazdan əvvəl hakim kimi onun iştirakı ilə başlanmış məhkəmə araşdırması ilə bağlı qərar çıxarılması və ya istənilən başqa hərəkət üçün lazım ola biləcəyi qədər" vəzifədə qalmaqda davam edə bilər.

və ya hakim müavinlərinin olması daxili qanunvericiliklə nəzərdə tutulmuş hallarda onlar elə şərtlərlə təyin edilməli və vəzifədə olmanın və ya sonradan hakim kimi işləməsi haqqında məsələnin obyektiv müzakirəsinin elə təminatlarına malik olmalıdırlar ki, belə hakimlərin müstəqilliyi ilə əlaqədar istənilən risklər mümkün qədər istisna olunsun.

13.4. Hakimlərin sınaq müddətinə təyin edilməsi sui-istifadə halında məhkəmə orqanlarının müstəqilliyinə xələl gətirə biləcəyindən, onların nəzərdə tutulmuş səlahiyyət müddətinə təyin edilməsi haqda qərar yalnız hakimlərin təyin edilməsi üçün məsul olan müstəqil orqan tərəfindən qəbul edilməlidir.

13.5. Hakimlərin müntəzəm rotasiyası sistemi qanunla nəzərdə tutulduğu və ya bu məsələnin lazımi müzakirəsindən sonra məhkəmə hakimiyyəti sistemi tərəfindən müvafiq göstəriş verildiyi və yalnız məhkəmə orqanının özü və ya müstəqil orqan tərəfindən tətbiq edildiyi hallar istisna olmaqla, hakimin bir yurisdiksiyadan, bir vəzifədən və ya məhkəmədən digərinə köçürülməsi yalnız onun razılığı ilə həyata keçirilə bilər.[104]

**14. Hakimlərin pul mükafatı**

14.1. Hakimlərin məvacibi, iş şəraiti və pensiyaları onların statusuna, peşə ləyaqətinə və məsuliyyət yükünə adekvat və uyğun olmalı və bu meyarlara uyğunluğun təmin edilməsi üçün həmin məsələyə müntəzəm olaraq yenidən baxılmalıdır.

14.2. Hakimlərin məvacibinə, iş şəraitinə və pensiyalarına qanunla təminat verilməli və hakimlər vəzifəyə təyin olunandan sonra onların zərərinə dəyişməməlidir.

**15. Hakimlərin intizam məsuliyyəti**

15.1. Hakim barəsində intizam icraatına yalnız ciddi vəzifə xətasına yol verildiyi halda başlamaq olar.[105] Hakimlər barəsində tətbiq edilən hüquq normalarında hakimlərin onlara qarşı intizam sanksiyalarına səbəb ola biləcək davranışı, həmçinin bu halda tətbiq edilən prosedurlar maksimum konkret şəkildə müəyyən edilməlidir.

15.2. Hakimin ciddi xətası nəticəsində zərər çəkdiklərini iddia edən şəxslər intizam icraatının başlanması üçün məsul olan şəxsin və ya orqanın adına şikayət vermək hüququna malik olmalıdırlar.

15.3. Qanuna əsasən, şikayətləri və hakimlərdən bu şikayətlərə dair izahatları almaq və bununla əlaqədar hakim barəsində intizam icraatının başlanması üçün kifayət qədər əsasların olub-olmaması barədə qərar qəbul etmək və əgər belə əsaslar vardırsa, icraatı intizam orqanına vermək üçün müvəkkil edilmiş xüsusi orqan təsis və ya xüsusi şəxs təyin etmək lazımdır.[106]

15.4. Hakim barəsində intizam icraatının başlanması ilə bağlı səlahiyyətlər qanunverici və ya icra hakimiyyətlərindən asılı olmayan, tərkibinə fəaliyyətdə olan və ya istefaya çıxmış hakimlərin daxil olduğu orqana və ya məhkəməyə verilməlidir, onların tərkibinə hakim olmayan şəxslər də daxil ola bilər, bu şərtlə ki, həmin şəxslər qanunverici və ya icra orqanlarının tərkibinə daxil olmasınlar.

15.5. İstənilən intizam icraatı hakimlərin davranış standartları nəzərə alınmaqla, həmçinin müdafiə olunmaq hüququna tam həcmdə təminat verən prosedurlar əsasında müəyyən edilməlidir.

15.6. İntizam orqanının qərarından məhkəməyə şikayət etmək imkanı mövcud olmalıdır.

15.7. İstənilən intizam icraatının gedişatında çıxarılmış və hakim barəsində intizam sanksiyalarının həyata

---

[104] Hakimlərin başqa işə keçirilməsi məsələsi bir sıra beynəlxalq hüquq aktlarında nəzərdən keçirilir, çünki müstəqil və cəsarətli hakimləri cəzalandırmaq və başqalarının onlardan nümunə götürməsinə mane olmaq üçün hakimin başqa işə keçirilməsindən istifadə oluna bilər.

[105] İntizam sanksiyalarının tətbiq edilməsi ilə nəticələnə biləcək davranış və xətaları peşə standartlarına riayət edilməməsindən fərqləndirmək lazımdır. Peşə standartları hakimlərin inkişaf etdirməyə çalışmalı olduğu ən qabaqcıl təcrübədir və bütün hakimlər ona nail olmağa cəhd etməlidirlər. Peşə standartlarına riayət edilməməsini intizam icraatı ilə nəticələnən xətalarla eyniləşdirmək lazım deyildir. Lakin peşə standartlarının pozulması o qədər ciddi ola bilər ki, intizam sanksiyalarına haqq qazandıran və bunu tələb edən davranışı təşkil edə bilər.

[106] Belə prosedur olmadıqda, hakimlər məhkəmə tərəfindən çıxarılmış qərardan narazı qalan tərəflərin tələbi ilə başlanılmış intizam icraatının obyekti ola bilərlər.

keçirilməsini nəzərdə tutan qəti qərar, bu icraatın qapalı, yoxsa açıq aparılmasından asılı olmayaraq, elan edilməlidir.

15.8. Hər yurisdiksiya həddində intizam icraatı çərçivəsində tətbiq edilə biləcək sanksiyalar mümkün qədər konkret ifadələrlə müəyyən edilmiş olmalı və belə sanksiyaların törədilmiş hüquq pozuntularının ağırlıq dərəcəsinə mütənasib tətbiq edilməsi təmin olunmalıdır.

**16. Hakimlərin vəzifədən çıxarılması**

16.1. Hakim tutduğu vəzifədən yalnız ciddi xəstəlik halında, ağır cinayətin törədilməsində təqsirkar, açıq-aşkar səriştəsiz hesab edildikdə və ya onun davranışı məhkəmə orqanlarının müstəqillik, qərəzsizlik, vicdanlılıq və ələalınmazlıq prinsiplərinə açıq-aydın uyğun olmadıqda çıxarıla bilər.

16.2. Qanunverici hakimiyyətə hakimin tutduğu vəzifədən çıxarılması səlahiyyətlərinin verildiyi ölkələrdə belə səlahiyyət yalnız hakimlər barəsində intizam icraatına başlamaq səlahiyyətləri verilmiş müstəqil orqanın müvafiq tövsiyəsindən sonra həyata keçirilə bilər.

16.3. Tərkibinə hakimin daxil olduğu məhkəmənin ləğv edilməsi həmin hakimin məhkəmə vəzifəsindən kənar edilməsi üçün səbəb və ya əsas ola bilməz. Məhkəmənin ləğv edilməsi və ya yenidən təşkil edilməsi halında bu məhkəmənin tərkibində fəaliyyətdə olan bütün hakimlər ləğv edilmiş məhkəmənin əvəzinə yaradılan məhkəməyə yenidən təyin edilməli və ya ekvivalent statusa və səlahiyyət müddətinə malik olan başqa məhkəmə vəzifəsinə təyin edilməlidirlər. Ekvivalent statusa və səlahiyyət müddətinə malik belə məhkəmə vəzifəsi olmadıqda, hakim öz vəzifəsini itirməsinə görə tam həcmdə kompensasiya almalıdır.

**17. Məhkəmə orqanlarının büdcəsi**

17.1. Məhkəmə orqanlarının büdcəsi onlarla qarşılıqlı əlaqədə müəyyən edilməlidir, həm də onların büdcəsi formalaşarkən nə icra orqanları, nə də qanunverici orqanlar məhkəmə orqanlarına hər hansı təzyiq göstərmək imkanlarına malik olmalıdırlar.

17.2. Hər bir məhkəmənin səmərəli işləyə bilməsi və iş həcminin həddən artıq olmaması üçün dövlət məhkəmə hakimiyyəti sistemini kifayət qədər maliyyə vəsaitləri və resurslarla təmin etməlidir.

17.3. Dövlət məhkəmə hakimiyyəti sistemini hakimlərin peşə hazırlığının və yenidən hazırlanmasının təşkil edilməsi və praktiki həyata keçirilməsi üçün lazım olan maliyyə və başqa resurslarla təmin etməlidir.

17.4. Məhkəmə orqanları üçün ayrılmış büdcəni onların özləri və ya hakimiyyətin icra və qanunverici qollarından asılı olmayan və məhkəmə orqanları ilə məsləhətləşmələr əsasında fəaliyyət göstərən başqa orqan idarə etməlidir. Məhkəmə orqanları üçün ayrılmış maliyyə vəsaitləri özgəninkiləşdirilməkdən və lazım olmayan şəkildə istifadədən qorunmalıdır.

## ANLAYIŞLAR

Tətbiqetmə tədbirləri haqqında bu bəyanatda aşağıda göstərilmiş sözlər aşağıdakı mənalara malikdir:

**"İşə aidiyyəti olmayan əsaslar"** - termini irqi mənsubiyyət, dərinin rəngi, cins, din, milli mənşə, silk, əmək qabiliyyətsizliyi, yaş, ailə vəziyyəti, seksual orientasiya, ictimai-iqtisadi vəziyyət və digər oxşar səbəbləri bildirir.

**"Hakim"** - termini təyinat üsulundan asılı olmayaraq, məhkəmə səlahiyyətləri verilmiş istənilən şəxsi, həmçinin magistratı və müstəqil məhkəmənin üzvünü bildirir.

# “HAKİMLƏRİN DAVRANIŞI ÜZRƏ BANQALOR PRİNSİPLƏRİ”NİN KOMMENTARİYASI

Kitab pulsuz paylanılır.

Kağız formatı 21x29,7 A4, Ofset 70 qr/$m^2$,
Sifariş № 1233, Tiraj: 1000

“OSKAR” NPM-nin mətbəəsində ofset üsulu ilə çap olunmuşdur.
Bakı, Tbilisi prospekti 3001,
Tel: 430 23 10, 430 23 20